Məmməd Məmmədov

# Naxçıvan:
# dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı

(siyasi, analitik, elmi və publisistik yazılar)

Bakı – Şirvannəşr- 2011

**Bu kitab ikinci dəfə Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasında, onun qorunub möhkəmlənməsində böyük və əvəzsiz xidmətləri olan, görkəmli dövlət xadimi, xalqımızın ümümmilli lideri Heydər Əlirza oğlu Əliyevin əbədiyaşar xatirəsinə ithaf olunur.**


Elmi məsləhətçi: **İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın həqiqi üzvi,*
*Milli Məclisin deputatı*

Redaktor: **Xalid NİYAZOV,**
*Azərbaycanın Əməkdar jurnalisti,*
*Müstəqil Jurnalistlər Liqasının sədri*


Kitabda Naxçıvan MR Ali Məclisinin deputatı, Azərbaycanın Əməkdar jurnalisti, tarix üzrə fəlsəfə doktoru Məmməd Yarəli oğlu Məmmədovun son illər mətbuatda dərc olunan elmi-siyasi və publisist yazıları toplanıb.


**Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı**
(siyasi, analitik, elmi və publisistik yazılar)
Bakı: Şirvannəşr-2011, 302 səh. **(+24 səh. Ağ-qara və rəngli şəkil)**

**83.3 Аз (2)**
**M------------------**
**054**



©Şirvannəşr, 2011



## "Naxçıvan milli azadlıq, dövlət müstəqilliyi uğrunda gedən mübarizələrin həmişə dayağı olub"

*"Naxçıvan Azərbaycanın ayrılmaz bir tərkib hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuşdur... Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar ki, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə olunmasında öz xidmətlərini göstərdi".*

**Heydər ƏLİYEV,**
**Azərbaycanın ümummilli lideri**

*"Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intelektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".*

Vasif TALIBOV,
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

## Ön söz əvəzi,
### yaxud ömrümün yaddaqalan günləri

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" ölkə başçısı cənab İlham Əliyevin imzaladığı 21 yanvar 2011-ci il tarixli Sərəncamda dövlət müstəqilliyi ölkəmizin hər bir vətəndaşı üçün ən böyük sərvət hesab olunub. Həmin sənəddə dövlət müstəqilliyinin bərpasının iyirmiillik yubileyi ölkəmizin həyatında müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə kimi xarekterizə olunub. Bununla bərabər müstəqillik illərində keçilən zəngin inkişaf yolunda qazanılan parlaq nailiyyətlərin təbliğ olunması başlıca vəzifə kimi qarşıya qoyulub.

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş ulu öndər Heydər Əliyevin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı.

Xalq azadlıq, istiqlaliyyət uğrunda mübarizəsində dönməz idi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək bu dövrdə *"Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin demək olar ki, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi".*

* * *

Naxçıvanda bəlkə də elə bir adam (uşaq və gənclər istisna olmaqla) tapmaq olmaz ki, o dünya siyasət elminin korifeylərindən biri olan xalqımızın ümummilli lideri Heydər Əliyevi yaxından görməmiş olsun. Bir halda ki, ulu öndər Moskvadan Naxçıvana gələndə onu şəhərin baş meydanında keçirilən görüşdə 70-80 min nəfər alqışlayırdı, Muxtar Respublika Ali Məclisinin Sədri seçiləndə sessiyanın keçirildiyi binanın ətrafına on minlərlə adam toplaşmışdı, onda regionun digər şəhər və kəndlərində keçirilən görüşlərdə nə qədər adamın iştirak etdiyini təsəvvürə gətirmək elə də çətin deyil. Yaxşı yadımdadır ki, 1991-ci ilin

may ayının 7-də Şərur şəhərinin mərkəzindəki mitinqdə 20 mindən artıq adam ulu öndərlə görüşə can atmış, onun müdrik, proqram xarakterli çıxışını axıradək dinləmişdi. Təbii ki, bunlar müdrik rəhbərə xalq sevgisindən, el məhəbbətindən irəli gəlirdi. Heydər Əliyev ağır blokada şəraitinə baxmayaraq Muxtar Respublikada torpaqların müdafiəsini yüksək səviyyədə təşkil etməyə, təcavüzkarlardan qorumağa nail olurdu. Onun varlığı sakinlərə ruh verdiyi üçün regionda bircə kənd də düşmən əlinə keçməmişdi.

Elə o ağır və məşəqqətli günlərdə də müdrik şəxsiyyət dönə-dönə deyirdi: *"Doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm... Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir "*.

Muxtar Respublikada Ulu öndəri lap yaxından görən, onunla ünsiyyət saxlayan adamlar yüzlərlə, minlərlədir. Onlardan biri də bu sətirlərin müəllifi olub. Tale elə gətirib ki, ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarında, müşavirələrində, yığıncaqlarında iştirak edən dörd-beş nəfər mətbuat işçisindən biri də mən olmuşam. O zaman "Sovet kəndi" ("Həyat") qəzetinin bölgə müxbiri idim. Elə o çətin və məşəqqətli illərdə Naxçıvanda dövlət müstəqilliyimizin bərpası istiqamətində taleyüklü qərarların hansı şəraitdə və necə qəbul olunduğunu da yaxşı xatırlayıram.

* * *

Naxçıvanda ağır və gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi dövrdə - 17 noyabr 1990-cı ildə Muxtar Respublika Ali Məclisinin I sessiyası keçirildi. Sıravi xalq deputatı Heydər Əliyevin sədrliyi ilə keçən həmin sessiyanın bu gün tariximizdə mühüm əhəmiyyət kəsb etməsi bu qanunvericilik orqanında Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarların qəbul edilməsi ilə bağlıdır. Sessiyada ilk növbədə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet", "Sosialist" sözləri çıxarıldı, onun Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirildi.

Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verildi. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin sessiyasının müzakirəsinə təqdim etdi. Heydər Əliyevin böyük siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə qanlı yanvar hadisələrinə düzgün siyasi qiymət verilmiş, bu hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilmiş və onların adlarının bir-bir açıqlanaraq məsuliyyətə cəlb edilmələri tələb olunmuşdu.

Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev deyirdi ki, *"Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır... Müstəqillik yolu qədər çətin yol yoxdur".* Yeni ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür.

1991-ci ilin sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi milli miqyasda böyük hadisə oldu. Məsələ heç də keçmiş Sovetlər İttifaqının Siyasi Bürosuna mənsub nüfuzlu simalardan birinin - SSRİ Nazirlər Soveti Sədrinin birinci müavininin Azərbaycan ərazisinin bir hissəsində - Muxtar Respublikada Ali Məclisə Sədr vəzifəsinə seçilməsində deyildi. O, ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi. Milli lider bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi. Böyük dövlət xadiminin ilk gündən başlayaraq atdığı addımlar, həyata keçirdiyi tədbirlər Naxçıvanı düşmən əlinə keçmək təhlükəsindən xilas etdi.

İqtisadi blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında duruş gətirməklə bərabər, həm də iqtisadi problemlərin həllinə ciddi diqqət yetirib, yeni firavan həyat quruculuğuna başlamasında da Heydər Əliyev şəxsiyyətinin önəmli rolu oldu. Elə bu səbəbdən də Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində tədbirlər təkcə siyasi müstəvidə getmir, yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşan iqtisadi model formalaşırdı.

Ali Məclisin 16 dekabr 1991-ci il tarixli sessiyasında isə "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" qərar qəbul olunmuş, Ali Məclisin Sədri müzakirələrə yekun vurarkən geniş nitq söyləmiş, qəbul edilən məsələnin siyasi əhəmiyyətinə xüsusi önəm vermişdir: "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə deyirik ki, bu, Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".

Naxçıvanın o ağır dövrdə qurduğu beynəlxalq əlaqələr Muxtar Respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitəyə çevrildi. Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış «Sədərək-Dilucu» körpüsü mühüm mərhələ oldu. Körpünün açılış mərasimində çıxış edən Heydər Əliyev qeyd edir ki, "Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik".

Türkiyə Cümhuriyyətinin Baş Naziri Süleyman Dəmirəl də öz çıxışında borclu qalmadı–"bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu, bir birlik, milli coşğunluqdur..."

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədrlik etdiyi bir il doqquz ay ərzində muxtar respublikanın xarici əlaqələrinin sıx inkişaf etməyə başladığı ikinci dövlət–Azərbaycanın cənub qonşusu olan İran İslam Respublikası oldu. Bu əlaqələrin möhkəmlənməsində Ali Məclis Sədrinin 1992-ci il 22-25 avqustda qonşu dövlətə səfəri mühüm rol oynadı. Səfər zamanı İİR-in dini lideri S.Ə.Xamneyi, prezident Ə.Ə.Haşimi Rəfsəncani, parlamentin sədri Natiq Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti və digər rəsmi şəxslərlə görüşlər oldu, əməkdaşlıq protokolu imzalandı.

Ümumiyyətlə, 1990-1993-cü illərdə Azərbaycan xalqının dirçəlişi, müstəqilliyin bərpa olunması, milli birliyin və mənəvi bütövlüyün təmin olunması istiqamətində Naxçıvan parlamentində bir çox tarixi əhəmiyyətli qərarlar qəbul edildi.

* * *

Təməli xalqımızın ümummilli lideri qoyulan yeni həyat quruculuğu

xəttinin 1996-cı ilin dekabr ayının 16-dan dönmədən və ardıcıllıqla necə həyata keçirilməsinin də canlı şahidiyəm. Həmin gün qədim diyarın sakinləri üçün həm də onunla əlamətdar və yaddaqalan olub ki, onlar yenidən özlərinə rəhbər seçimi və bu şansdan doğru-düzgün istifadə etmək imkanı qazanıblar. Vasif Talıbovun Ali Məclisin sədri seçilməsi uğurlu inkişafın əsasını qoyub. "Ali Məclis təşkilatlanır, ümidlər çoxalır..." adlı yazımda deyirdim ki, "Onun Ali Məclisə sədr seçilməsi muxtar respublika sakinləri tərəfindən də rəğbətlə qarşılanıb. Əvvəla, bölgədə onun qədər dahi siyasətçi Heydər Əliyev məktəbini keçən müdavim olmayıb, özü də əla qiymətlərlə təhsil alsın, digər tərəfdən də adamlar 36 yaşlı bu gəncin bütün potensial imkanlarına bələddirlər. İnanırlar ki, indiki ağır şəraitdə o bu regionu idarə etməyə, irəli aparmağa qadir şəxs-rəhbər olacaqdır" ("Azərbaycan" qəzeti, 28 dekabr 1995-ci il)

Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində muxtar respublikanın inkişafına xüsusi qayğı göstərib. Bu amil torpaqlarımıza zaman-zaman göz dikən erməni millətçilərinin məkrli planlarının və niyyətlərinin puç olmasında önəmli rol oynayıb. Həmin illər ulu öndər demişdir: *"Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? Çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır. Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunmuşdur".*

Prezident İlham Əliyev də ümummilli liderin siyasi xəttini uğurla davam etdirir. Naxçıvana səfərləri çərçivəsində keçirdiyi görüşlərin birində dövlət başçısı demişdir: *"Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü".*

* * *

Yeni həyat quruculuğu xətti bu gün də uğurla davam edir. Ali Məclisin Sədri Vasif Talıbov Prezident İlham Əliyevin rəhbərliyi altında

ulu öndərin quruculuq və inkişaf xəttinin blokada şəraitində yaşayan regionda həyata keçirilməsi üçün var gücünü, əməyini əsirgəmir. Düzgün siyasət sayəsində muxtar respublika nəinki qısa vaxt ərzində iqtisadi və sosial böhrandan yaxa qurtarıb, onun dinamik inkişafı təmin olunub, inkişafdan intibaha doğru sürətli yol keçilib. Əgər 2000-ci ildə muxtar respublika üzrə cəmi 15 adda məhsul istehsal olunurdusa, indi 292 növdə məhsul istehsal olunur. Əhalinin 89 növdə ərzaq, 158 növdə qeyri-ərzaq olmaqla, 247 növdə məhsula olan tələbatı yerli istehsal hesabına ödənilir. Yeni fəaliyyətə başlayan müəssisələr əsasən yerli xammaldan istifadə yolu ilə məhsul istehsal edirlər ki, bu da hazır məhsulun istehlakçılara daha münasib qiymətlərlə çatdırılmasına imkan yaradır. 423 istehsal müəssisəsindən 336-sı yerli xammaldan istifadə əsasında fəaliyyət göstərir ki, bu da yerli istehsalı stimullaşmaqla bərabər daxili bazarı etibarlı şəkildə qoruyur.

Son 10 ildə muxtar respublikada 168 məktəb binası, 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi, 42 xəstəxana, 51 həkim ambulatoriyası, 56 feldşer-mama, 17 tibb məntəqəsi tikilib və ya yenidən qurulub. 44 min 647 yeni iş yeri açılmışdır ki, onun da 29 min 393-ü və yaxud 66 faizi daimi iş yerləri olub.

Səmərəli demoqrafik və sosial-iqtisadi siyasətin uğurlu nəticəsidir ki, son illər ərzində əhalinin orta ömür müddəti 4,2 il yüksələrək 74,4 ilə çatıb. İlk dəfə olaraq ötən il doğulan körpələrin on min nəfəri ötməsi də iqtisadi inkişafın, sosial vəziyyətin ürəkaçan olmasından irəli gəlib. Halbuki, sovet dönəmində, 1988-ci ildə bu rəqəm indikindən 34,3 faiz aşağı olub. Müqayisə olunan dövrdə əhalinin sayı isə 115,6 min nəfər artaraq 410 min nəfərə çatıb.

Prezident İlham Əliyev də muxtar respublikaya səfəri çərçivəsində görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını bildirib: *"Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir".*

Naxçıvan indi yalnız regional deyil, dövlətlərarası əməkdaşlıqda da yaxından iştirak edir. Azərbaycan-Türkiyə, Azərbaycan-İran əlaqələri konteksində o, aparıcı rol oynayır. Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm də cəlbedici regiona və etibarlı tərəfdaşa çevrilib. Avropa Şurası ilə geniş əməkdaşlıq edir, onun səlahiyyətli nümayəndələri bu qurumun Yerli və Regional Hakimiyyətlər Konqresinin Regionlar Palatasında layiqincə təmsil olunurlar.

Bununla bərabər muxtar respublika beynəlxalq əhəmiyyətli tədbirlərə də uğurla ev sahibliyi edir. 2009-cu il oktyabr ayının 2-də və 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də muxtar respublikanın tanıdılmasında önəmli rol oynayıb. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşığı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə təmin edən müsbət fəaliyyətlərini artırmaq kimi məsələlər Zirvə toplantısının əsas mahiyyətini təşkil edib.

Artıq Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modeli də formalaşıb. Bu məktəbdə tədris olunan dərslərin başlıca qayəsini milli dövlətçilik ənənələrinin qorunması, aşılanması və gələcək nəsillərə ötürülməsi təşkil edir. Öyrəniləsi, əxz ediləsi dərslər isə olduqca çoxdur.

* * *

Ölkə mətbuatında Muxtar Respublikanın müstəqillik illərindəki sosial-iqtisadi inkişafını "Naxçıvan möcüzəsi" adlandıranlar da az deyil. "Naxçıvan möcüzəsi" nin əldə edilməsini Ali Məclisin Sədri belə xarekterizə edir: *"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".*

## Redaktor sözü,
### yaxud dünyaya açılan "tənha ada"

Xatirələrimin ağ-qara filmlərin solğun kadrlarını xatırladan qırıq güzgüsündə Naxçıvanla bağlı ilk təəssüratım dəmiryol vağzalının perronundan başlayır. O vaxt nənəm mənə- madar nəvəsinə, dağ-daşda, kövşənlərdə dolaşmaqdan dağılıb tələf olmuş yay çəkmələrimin əvəzinə "selmaq"dan üstü şümal, qəşəng bir ayaqqabı da alıb universitet tələbəsi olan xalam oğluna qoşaraq qatarla evimizə-Bakıya yola salmışdı. Naxçıvan beləcə bu gen dünyada Bakıdan sonra tanıdığım şəhərlərin xəsis siyahısına daxil oldu.

Sonralar çərxin fələyi elə döndü ki, ayağımız kənddən bilmərrə kəsildi. Naxçıvan səfərlərimizdə də böyük fasilələr əmələ gəldi. Daha bu əziz diyarın ətrini, rayihəsini evimizə gələn sovqatların dadında-tamında tapırdım.

...Təyyarədə yerimi rahatladım. Sərnişinlərin gözündə, çöhrəsində Naxçıvana uçduqlarından yana bir sevinc, bəxtəvərlik araya-araya ətrafa boylandım. Heyhat, hamı öz işində idi. Əksəriyyəti gündə gəlib-gədən adamlardı, onların mənim içimdəki fırtına ilə nə işləri? Yol elə beləcə qısa idi, yoxsa pilot içimdəki tələskənliyi duyub "ayağını qazdan götürməmişdi" nəydi, bir azdan elan elədilər ki, enirik. Məsafəni ölçən vaxt, vaxtın fövqündə dayanansa istəkdir. İllüminatordan bir ümman kimi görünən torpağı gözlərimlə qucaqladım, yanağımı yanağına dayayıb qəlbinin döyüntüsünü dinlədim, bir quş olub bağlarında səkdim, küləyə dönüb hər sünbülünü, yulğununu, vətən daşını, vətəndaşını öpdüm, Böyük düzdə pörşələnib Batabatında sərinlədim, Arazına baş vurub Əlincəsinə dırmandım.

Bu da Naxçıvan torpağı. Qədim, ulu, müqəddəs. Tarixin qulaq daşı, zəmanənin yaddaşı, bəşər mədəniyyətinin yaşıdı.

Görə bilmədiyi genişlik üçün sızlayan gözlərim rahatladı. Axtardığı məhrəmliyə, munisliyə tamarzı könlüm toxtadı.

* * *

İndi əlimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycanın Əməkdar jurnalisti, tarixçi alim və nəhayət hər şeyin fövqündə dostum Məmməd Məmmədovun kitabını tutmuşam və içimin mübhəm dərinliklərindən kükrəyib gələn hissləri, sözləri salamlayıb, sahmanlayıb bir yerə yığmaq üçün yəqin ki, növbəti bir dəryaça tikməyə ehtiyac yaranıb.

"Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı". Kitaba belə bir ad seçib müəllif. Yadıma oğuz boyları düşür. Dədə Qorqud sinəsində qopuzu meydan açıb ərgən oğullara ortaya qoyduqları şücaət müqabilində ad verərdi. Ad əmələ tən gələr, ikincinin məsuluyyəti daim birincinin boynunda dağdan ağır məsuliyyətə çevrilərdi. Bu mənada kitabın da adı onun sanbalını, ideya-qayəvi məziyyətlərini, məqsəd və mahiyyətini çox dolğun və dəqiq şəkildə sıyırıb ortaya çəkir. Naxçıvanın keçmişini müstəsnalaşdıran bu diyarın müdrik tarixi, zəngin mədəniyyət və milli-mənəvi dəyərləri, hər biri bir millətin adına iftixar ola biləcək simalarıdırsa, ən yeni tarixini şəkilləyən də möhtəşəm istiqlal savaşıdır, tarixi taleyinin ən qarğaşalı,ləngərli məqamlarında meydana qoyduğu əzmdir, qətiyyət və rəşadətdir, son 15 ilin şərəfli olduğu qədər də hünərvər quruculuq epopeyasıdır. Bu özü bir tarixdir və bu tarixi yazan, yaradan, yaşadan konkret insanlar mövcuddur... Heydər Əliyev və öndərliyində bütün naxçıvanlılar.

1990-cı ilin 22 iyulundan başlayan mübarək tarix tək Naxçıvanın deyil, öz məndəricəsinə görə bütövlükdə Azərbaycanın yeni tarixi situasiya, kateqoriya və reallıqlar dönəmində yaşam və inkişafının yeganə mümkün və məqbul strateji istiqamətini cızdı. Fəlsəfənin – tarix şəxsiyyətləri yaradır, yoxsa şəxsiyyətlər tarixi? – mübahisəsində Heydər Əliyev 1969-cu ildən sonra növbəti dəfə və məhz Naxçıvandan başlayan siyasi fəaliyyəti ilə ikinci mühakimənin xeyrinə bir böyük nida işarəsi qoydu.

Məmməd Məmmədov kitabını məhz 20 illik zaman məsafəsinin o tayında qalmış həmin tarixi mərhələnin təfsilatı ilə başlayır. Tək bir insanın deyil, bütöv bir millətin, dövlətin, dövlətçiliyin, müstəqilliyin, nəhayət, azadlığın taleyinin son dərəcə çətin və məsuliyyətli bir məqamında ulu öndərin fəaliyyətinin hər anı, hər addımı səhifəbəsəhifə canlanaraq oxucunu həmin ərəfənin fakt və müşahidələrə əsaslanan səmimi və dürüst təhkiyəsinin mütaliəçisinə çevirir. Və məhz bu iki amilin- tarixçi dəqiqliyi ilə publisist düşüncəsinin uğurlu simbiozu, yaradıcılıq xəlitəsi kimi ortaya çıxan müəllif dəst-xətti kitabı daha da oxunaqlı edir, informasiya seli altında çabalayan dil faktı öz enerjisini

itirmir, ləngər vurmur, əksinə, pardaxlanaraq yazıların sanbal və ekspressivliyini artırır.

* * *

1990-cı il noyabrın 17-si. Naxçıvan MSSR Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən I sessiyasında respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı. Ali Sovet Ali Məclislə əvəzləndi.

Həmin ilin 14 dekabrı. İttifaq müqaviləsinə münasibətlə bağlı çıxış edən ulu öndər bu layihənin xalqın iradə və mənafelərinə zidd olduğunu bəyan etdi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan MR Ali Məclisinə sədr seçildi və bu məqamda keçən doqquz ay blokada şəraitində yaşayan diyarı ermənilərin qarşısında yenilməz qalaya, möhkəm sipərə, Azərbaycanın sabitlik adasına çevirdi. Qonşu Türkiyə və İranla münasibətlərin yeni keyfiyyət səviyyəsinə qaldırılması Naxçıvan əhalisini ağzını şir kimi açmış çox məhrumiyyətlərin pəncəsindən xilas etdi.

Kitabda həmin dövrün ictimai-siyasi hadisələri xronoloji dəqiqlik, dərin politoloji təhlil və analitik şərhlərlə təqdim olunur. "Milli istiqlal mücadiləsinin Naxçıvan mərhələsi", "Naxçıvandan başlanan milli dirçəliş prosesi", "Milli birlik və həmrəylik günü" kimi məqalələrdə Naxçıvanda baş verən hadisələrin kontekstində bütövlükdə ölkədə cərəyan edən hadisələr fikir süzgəcindən keçirilir, ulu öndər Heydər Əliyevin çoxcəhətli fəaliyyəti bütün spektrləri ilə canlandırılır.

Həmin illərdə digər respublikalarda olduğu kimi Azərbaycanda da milli şüur və ideologiyanın keyfiyyətcə yeni mərhələyə qədəm qoyması fonunda milli qüvvələrin təşəkkül tapıb formalaşması prosesi baş verirdi. Lakin təəssüflər olsun ki, bizdə bu proses bir qədər idbar formalarla müşayiət olundu. Və təsadüfi adamların bir illik naşı və səriştəsiz hakimiyyəti ölkəni ən müxtəlif problemlərin girdabına atdı; iqtisadiyyat tənəzzülə uğradı, maddi-intellektual resurslar dağıdıldı, ictimai-siyasi həyat xaos və özbaşınalığın oylağına çevrildi, mənəvi-əxlaqi dəyərlər aşındı.

Belə bir mürəkkəb və qeyri-müəyyən zamanda ölkə rəhbərliyinə qayıtmağa razılıq vermək vətənpərvər, qeyrətli və cəsur insanın işi idi. Bu dar macalda, mürəkkəb hərbi-siyasi situasiyada Azərbaycana Heydər Əliyev lazım idi.

Və heç kim təsəvvürünə belə gətirə bilməzdi ki, bir ildən sonra Azərbaycanın iqtisadi tərəqqi, təhlükəsizlik və geosiyasi varlığının qarantı olacaq əsrin neft müqaviləsi imzalanacaq. Daha conra

Azərbaycanın adı Qərbin ən nüfuzlu kürsülərindən səslənəcək. Ölkə bütövlükdə Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevriləcək. Bütün bunlar sonra olacaqdı və 1993-cü ilin o məşum, havası barıt qoxuyan, səmasından vətəndaş müharibəsinin kabusu asılmış iyun günlərində bu barədə düşünən yox idi.

Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya dönüşü tarixin sifaişi idi. Bu dönüş xalqın istəyi ilə hasil oldu. Naxçıvandan Bakıya gələn o yol xalqın, millətin və dövlətin nicat və qurtuluş yoluna çevrildi. Insanların qəlbinə bir inam və toxtaqlıq toxumu səpdi. Üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyən qüvvələrə tutan Heydər Əliyev deyirdi: *"Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".*

Tarix mahiyyəti etibarilə dinamikada olan ictimai özünüdərk prosesi olduğu üçün öyrəndiyi predmetə ehkam kimi yanaşmağı qəbul etmir. Ona yanaşmağın elmi-metodoloji, analogiyalar, eləcə də daha sadə və yaxın vasitə sayılan empirik üsulları mövcuddur. Bir var tarixi kitablardan öyrənəsən - burada sosial fəlsəfədə tarixilik kimi səciyyələndirilən anlayışlar işə düşür. Bir də var tarix sənin gözlərin önündə, anbaan, günbəgün yaranır, "ətə-qana" dolur. Sən ona toxuna bilirsən, bütün varlığınla onu duyursan. Bu qiyafəsində insan tarixin canlı qəlpəsi və səhih informasiya daşıyıcısıdır. Bu mənada Naxçıvanın ən yeni tarixi tarixçi alim və istedadlı publisist Məmməd Məmmədovun gözləri önündə yaranıb və onun qələmə aldığı mətləblərə etibarlı, zəngin və mötəbər mənbə kimi yanaşmamağa sadəcə haqqımız yoxdur.

* * *

Bəs müstəqillik amalına Heydər Əliyev sədaqəti nə deməkdir?

Milli iftixarımız Heydər Əliyev dövlətpərəst şəxsiyyət idi. Onun millət qarşısında ən böyük tarixi xidmətlərindən biri məhz güclü və nüfuzlu Azərbaycan dövlətini qurmasıdır. O bizə dövləti sevməyi öyrətdi.

Heydər Əliyev siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət modelini həyata keçirməyə başladı.

Heydər Əliyev sübut etdi ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz.

Müəllif məqalələrində müstəqillik amalına sədaqət ideyasının bünövrəsini, təməl prinsiplərini, gerçək iksirini təşkil edən məqamları ulu öndərin özünün fəaliyyəti prizmasından sərf-nəzər edir, onun dövlətçilik, azərbaycançılıq və vətəndaşlıq konsepsiyasının düsturlarını bitkin bir konsepsiya şəklində ortaya qoyur.

Kitabda Naxçıvanın bugünkü inkişafına, bu inkişafın konkret nəticələrinə, aparıcı tendensiya və istiqamətlərinə həsr olunmuş ayrıca bölmə vardır. Bəzi müəlliflərin intibah, başqalarınınsa möcüzə adlandırdığı həmin mərhələ öz başlanğıcını 90-cı illərin ortalarından götürür. Mahiyyəti etibarilə inkişafının yüksəliş və quruculuq pilləsinə qədəm qoymuş bu diyarda ulu öndərin başladığı işləri yeni miqyasda, yeni məzmun və keyfiyyətdə davam etdirə biləcək liderə ehtiyac vardı. Belə bir seçim etmək milli öndər üçün çətin olmadı. Qabiliyyətinə, işgüzar keyfiyyətlərinə, prinsipiallığına və vətənkeşliyinə özü qədər inandığı gənc və enerjili Vasif Talıbovu Muxtar Respublikanın rəhbərliyinə məsləhət gördü. Hələ 1999-cu ilin oktyabrında Naxçıvan Ali Məclisində çıxış edən Heydər Əliyev deyirdi: *"... Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o çox gənc idi. Daxilən bir az fikirləşirdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olacaq. Ancaq o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər"*. Bu gün-15 ilin zirvəsindən, Naxçıvanda həyata keçirilən müxtəlif layihələrin, quruculuq işlərinin coğrafiyasına, sanbalına və əhəmiyyətinə nəzər saldıqda, bir daha əmin olursan ki, ulu öndərin seçimi həmişəki kimi uğurlu-urvatlıdır.

Qeyd olunmalıdır ki, ölkə Prezidenti İlham Əliyev Naxçıvanda gedən quruculuq işlərindən qayğı və dəstəyini əsirgəmir, hər il muxtar respublikanı ziyarət edərək xarüqələr yaradan zəhmətkeş insanlarla görüşür, yeni-yeni ünvanlara xeyir-duasını verir. Dövlət başçısı Naxçıvanın 85 illiyinə həsr olunmuş təntənədəki çıxışında muxtar respublikanı qarış-qarış ağuşuna almış quruculuq işlərinin vüsətindən heyranlığını gizlətməyərək qazanılmış nailiyyətlərdə həm də şəxsiyyət, təşəbbüskarlıq, təşkilatçılıq kimi vacib ünsürlərin roluna toxunaraq deyirdi: *"... Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvan rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm"*.

Məmməd Məmmədovun qələmə aldığı məqalələr müasir Naxçıvanın sosial-iqtisadi və mədəni inkişafının xəritəsini çəkməklə kifayətlənmir, hər kənddə, rayonda istifadəyə verilən təhsil, səhiyyə, infrastruktur obyektlərinin əhəmiyyətindən söhbət açır, yaxın-uzaq bazarlara Naxçıvan brendi kimi daxil olan yeni məhsulların istehsal edildiyi sənaye müəssisələrinin perspektivini dəyərləndirir. Əlamətdardır ki, müəllif böyük qürur və iftixar hissilə qələmə aldığı quruculuq prosesinə adi seyrçi, sıradan statist kimi yanaşmır, bu titanik zəhmətin, fədakarlığın aparıcı qüvvəsi kimi ölkə Prezidentinin himayə və diqqətini önə çəkir, muxtar respublika rəhbərliyinin müstəsna əməyini təqdim, təqdir və təbliğ edir. Və bütün uğurların aparıcı formulu qismində Vasif Talıbovun sədaqətli, peşəkar və bacarıqlı silahdaş kimi Prezidentin bəyan etdiyi - Ən böyük siyasətin real, konkret işdir - tezisini əməli fəaliyyəti ilə doğrultması göstərilir. Oxucu əmin olur ki, muxtar respublikanın əldə etdiyi bütün nailiyyətlər sistemli və düzgün kordinə edilmiş fəaliyyətin məntiqi nəticəsidir. Cəsarətlə söyləmək olar ki, Məmmədin yazılarında Naxçıvanın gündəlik həyatının çevik ritmi, irəliləyiş əzmi, sadə insanların rəşadətli əməyi öz dolğun ifadəsini tapır.

"Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı" kitabının başqa bölmələrində bu torpağın memarlıq incilərindən, təbii sərvətlərindən, milli adət-ənənələrindən, zəngin elmi və mədəni irsindən söhbət açılır. Oxucu böyük Əcəminin daşlarda təcəllə tapmış məhəbbət poeziyasının şah əsəri - Möminə xatun türbəsi ilə tanış olur, qədim mədəni qatların izlərinin yaşadığı Qazma, Əshabi-kəhf, Kilid mağaralarında xəyala dalır, Qarabağlar türbəsinin hekayətinə qulaq kəsilir, Xanəgah kompleksində ustad Nəimini yad edir, Nuh peyğəmbərin məzarüstü türbəsinin qarşısında dünyanın gərdişi və faniliyi haqqında düşüncələrini çinləyir.

* * *

Yolumuz Naxçıvanadır.

Bu diyar mənəviyyat və əxlaq örnəyidir.

Bu torpağı dolaşdıqca, tarixin toz basmış səhifələrini vərəqlədikcə hələ nələr görəcək, nələr eşidəcəyik?!

Naxçıvanı üzük qaşı kimi haləyə almış dağlar zirehə bürünmüş igidlərə bənzəyir.

Qarşıdan ilğım kimim ucalan Ağrı özü boyda bir qubar, nisgil dağıdır.

Üzbəüzdə Əlincə qalasıdır. Babaların ruhu, nəvələrin vüqarı kimi ucalır.

Ondan solda ilan kimi səmaya dırmaşan İlanlı dağdır.

Burda dağlar min bir rəngə çalır... Yazda çiçəkləyən ağaclar kimi.

Dağların daş damarlarından fışqıran bulaqlar - Badamlı, Sirab, Darıdağ, Əshabi-kəhf ...Yerin məhvərindən qopub gələn səslərin şaqraq simfoniyasıdır... könlümüzün Naxçıvan təşnəsinə sığal çəkir.

Deyirlər, kosmosdan baxanda Yerin səthinin hər guşəsinin öz rəngi var. Naxçıvan mənə hər yaz xəfif bir mehdən çiçək fəvvarəsi çağlayan çəhrayı örpəkli şaftalı ağacını andırır.

Təbiət və insan. Naxçıvan bu iki xarüqənin nələrə qadir ola biləcəyini və bildiyini əyani şəkildə ortaya qoyan bir güzgüdür.

* * *

Məmməd Məmmədovun kitabı insanın fikir və düşüncələrini ümmanda qəfil rüzgara tuş gəlmiş qayıq təki beləcə çalxalayır. Publisistik fikrin, sözün sehri, odu, möcüzəsi budur.

Kitabda toplanmış müxtəlif illərin inkişaf və quruculuq epopeyasının obyektiv təhlilinə həsr olunmuş məqalələrin yüksək peşəkarlığını səciyyələndirən spesifik məziyyətlərdən biri də söz təsvirinin inandırıcılığı, təvəllüdü müxtəlif illərə təsadüf edən həmin yazıların bütövlükdə milli jurnalistikamızın inkişaf kontekstində, ümumi bədii fikrin ehtivası çərçivəsində qiymətləndirilməsidir.

Həmkarımın bəxti onda gətirib ki, Naxçıvanın yaxın və yeni tarıxinin salnaməçisinə çevrilmək qisməti yazılıb jurnalist taleyinə. Bəxti onda gətirib ki, bu diyarın yeni tarixini yaradan, onu inkişaf etdirərək möhkəmləndirən insanların birbaşa yaxınlığında olub. Bəxti onda gətirib ki, həmin insanlar fitrəti etibarilə yaradıcı, qurucu olublar. Bu səbəbdən də mətbu sözün dəyər və kəsərinə xüsusi qiymət veriblər.

Dostum Məmməd Məmmədovun kitabı mənə Naxçıvan haqqında uzun illərdən bəri deməyi özümə belə qısqandığım ürək sözlərimin kiçik bir qismini açıb könül süfrəmə düzdürdü.

Deyirlər sevdiyin haqqında ən səmimi, ülvi və odlu sözlər hələ söyləmədiklərindir.

* * *

\- Bəs niyə tənha ada? - deyə, soruşa bilərsiniz.

Ulu öndər Heydər Əliyev vaxtilə Naxçıvan haqqında "... taleyin ümidinə buraxılmış tənha ada" ifadəsini işlətmişdi.

Bu gün Naxçıvan daha tənha ada deyil, başı üzərində qüdrətli Azərbaycanın üçrəngli bayrağının şəstlə dalğalandığı müstəqillik, comərdlik və inkişaf qitəsidir.

**Xalid NİYAZOV,**
**Azərbaycanın Əməkdar jurnalisti**

# BİRİNCİ BÖLMƏ

## Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü

## Tarixi-siyasi xronika

**(Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOVUN müəllifi olduğu "Qayıdış (1990-1993)" kitabındakı materiallar əsasında hazırlanmışdır)**

**1989-cu il.**

**29 noyabr** -Heydər Əliyev "Teatralnaya jizn" jurnalı üçün A.Karaulova müsahibə vermişdir.

**14 dekabr** -Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutulmuşdur.

**31 dekabr** -Naxçıvan Muxtar Respublikasında on minlərlə adam Ordubaddan Sədərəyədək SSRİ Dövlət sərhəddi boyunca dirəklərin tikanlı məftillərini sökmüşlər.

**1990-cı il.**

**18-19 yanvar** -Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunmuşdur.

**19 yanvar** -"Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə "Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etmişdir.

**19 yanvar** -M.S.Qorbaçov yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını imzalamışdır.

**19-20 yanvar** -SSRİ Müdafiə Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya yeridilmiş, dinç əhaliyə amansız divan tutulmuşdur.

**20 yanvar** -Azərbaycanın Moskvadakı daimi nümayəndəsi S. İbrahimov "Barvixa" sanatoriyasında müalicə olunan Heydər Ə. Əliyevə zəng edərək yanvar faciəsi barədə məlumat vermişdir.

**21 yanvar** -Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək ictimaiyyət nümayəndələri qarşısında çıxış etmiş, yanvar faciəsinin günahkarlarını kəskin ittiham etmişdir.

**27 yanvar** -Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR-də içtimai-siyasi vəziyyət haqqında "Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarının Azərbaycan SSR Konstitusiyasına uyğun olmaması barəsində" fərman vermişdir.

**4 fevral** -"Pravda" qəzetində «Əliyevçilik, yaxud xoş əyyamların xiffəti» məqaləsi dərc olunmuş, Heydər Əliyevə qarşı siyayi təqib başlanmışdır.

**27 mart** -Şahbuzun Şada kəndində ermənilərin silahlı basqını zamanı 6 nəfər yaralanmışdır.

**28 mart** -Sədərəyin Ermənistan tərəfindən atəşə tutulması nəticəsində bir nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**29 mart** -Babək rayonunun Kərməçataq kəndində ermənilər bir soydaşımızı qətlə yetirmişlər.

**5 May** -"Kommunist" qəzetində "Bu da Tayfa oyunudur?" adlı məqalə (müəl. Ş.Yaqubov) verilmişdir.

**Iyun** -"Ulduz" jurnalının 6-cı nömrəsində jurnalist E.Əhmədovanın Moskvada Heydər Əliyevdən aldığı müsahibəsi dərc olunmuşdur.

**22 iyul** -Saat 10:35-də Heydər Əliyev təyyarə ilə Naxçıvana gəlmişdir.

**22 iyul** -Axşamçağı Naxçıvandakı Lenin meydanında Heydər Əliyevin onun gəlişi münasibətilə toplaşmış əhali ilə görüşü olmuşdur. Görüş mərasiminə 100 min nəfərə yaxın adam toplaşmışdı.

**1 avqust** -Naxçıvan alt trikotaj fabriki əmək kollektivinin seçkiqabağı yığıncağında, Heydər Əliyev 2 nömrəli M.F.Axundov seçki dairəsindən Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilmişdir.

**8 avqust** -Ordubad rayonunun Əylis kəndinin seçiciləri öz yığıncağında Heydər Əliyevi 349 nömrəli Vənənd seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd göstərmişlər.

**21 avqust** -Naxçıvan MSSR Ali Sovetinin Rəyasət heyəti Heydər Əlirza oğlu Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul etmişdir.

**25 avqust** -"Respublika" qəzeti A. Abdullanın Heydər Əliyev: "Mən adamlara inanmışam" adlı müsahibəsini vermişdir.

**25 avqust** -Heydər Əliyev Babək rayonunun 340 nömrəli seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına və 2 nömrəli M.F.Axundov seçki dairəsindən Naxçıvan MSSR xalq deputatlığına namizəd qeydə alınmışdır.

**26 sentyabr** -Heydər Əliyev Tbilisidə çıxan "Sovet Gürcüstanı" qəzetinin müxbirlərinə müsahibə vermişdir.

**30 sentyabr** -Azərbaycan SSR Xalq deputatlarının və yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri keçirilmişdir. Seçkilərin birinci turunda fərdi pensiyaçı Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatı, 2 nömrəli M.F.Axundov seçki dairəsnndən isə Naxçıvan MSSR xalq deputatı seçilmişdir.

**17 noyabr** -Heydər Əliyevin sədrliyi ilə on ikinci çağırış Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır.

**17 noyabr** -Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası Heydər Əliyevin sədrliyi ilə "Naxçıvan MSSR-in adının dəiyşdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında",

"Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul etmişdir.

**19 noyabr** -Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının stenoqramı.

**20 noyabr** -Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının stenoqramı.

**21 noyabr** -Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etmişdir.

**14 dekabr** -Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etmişdir.

**1991-ci il.**

**20 yanvar** -Naxçıvan şəhər şəhidlər xiyabanında keçirilən matəm mitinqində deputat Heydər Əliyev çıxış etmişdir.

**5 fevral** -On ikinci çağırış Azərbaycan SSR Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır.

**15-27 fevral** -"Aydınlıq" və "Vətən səsi" qəzetləri Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında Azərbaycan SSR xalq deputatı Heydər Əliyevin çıxışının tam mətnini vermişlər.

**7 mart** -Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında SSRİ-nin qorunub saxlanması barədə referendumda Azərbaycanın iştirakı məsələsinin müzakirəsində çıxış edən Heydər Əliyev bunun əleyhinə səs vermişdir (həmin çıxış "Səs" qəzetinin 15 mart 1991-ci il tarixli nömrəsində dərc olunmuşdur).

**14 mart** -Naxçıvan MR Ali Məclisinin sessiyası SSRİ-nin saxlanmasına dair Ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərar qəbul etmişdir.

**5 aprel** -A.Cəlilov Bakı şəhərində işə keçməsi ilə əlaqədar öz ərizəsi əsasında Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsindən azad olunmuşdur.

**10 aprel** -Ermənistanın Xaçik kəndindən Şərur payonunun Axura və Havuş kəndləri güclü atəşə tutulmuş, bu kəndləri mühasirəyə almağa cəhd göstərilmişdir. Axuradan Havuşa kedən "UAZ" avtomaşınındakı milis nəfərləri öldürülmüşdur.

**16 aprel** -Naxçıvan MR-in Nehrəm kəndində İranla sərhəddən sadələşmiş üsulla keçmək üçün körpünün açılışı olmuşdur.

**24-25 aprel** -Azərbaycan Respublikası Ali Sovetinin qarşısında keçirilmiş mitinq iştirakçıları Konstitusiyada Prezident seçkiləriilə əlaqədar yaş məhdudiyyətinin götürülməsini tələb etmiş, vətəndaş kimi Heydər Əliyevin hüquqlarını pozduğuna görə həmin maddəni ittiham etmişlər.

**28 aprel** -Bütün gün ərzində Sədərək kəndi ermənilər tərəfindən atəşə tutulmuş, 13 nəfər kənd sakini yaralanmışdır. Həmin gün Şərurun Cağazir, Günnüt və Havuş kəndləri də atəşə tutulmuşdur.

**20 may** -Sədərək rayonu Ermənistan tərəfdən fasiləsiz atəşə tutulmuşdur.

**26 iyun** -Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyası "Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında" qanun qəbul etmiş, prezident seçkilərini 1991-ci il sentyabrın 8-nə, bazar gününə təyin etmişdir. Xalq deputatı Heydər Əliyev sessiyanın işində iştirak etməmişdir.

**19 iyul** -Fərdi pensiyaçı, Sov.İKP üzvü Heydər Əliyev partiya sıralarından çıxması barədə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına bəyanat vermişdir.

**19-21 avqust** -Moskvada üzdəniraq "avqust qiyamı" baş vermişdir.

**21 avqust** -A.Mütəllibov televiziya və radio ilə bəyanat verərək xalqın qiyamçılara, Dövlət Fövqəladə Vəziyyət Komitəsinə böyük ümidlər bəslədiyini bildirmişdir.

**24 avqust** -Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası DFVK-nə mənfi münasibət bildirmiş, onu dəstəkləyən yerli partiya və komsomol orqanları ləğv olunmuş, onların əmlakı milliləşdirilmişdir.

**27-28 avqust** -Naxçıvan şəhərində, Şərur, Şahbuz, Culfa rayonlarında keçirilən mitinq iştirakçılarının tələbi ilə V.İ.Leninin abidələri sökülmüşdür.

**29 avqust** -Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası olmuşdur. "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqibə məruz qalan Heydər Əliyev bundan sonra 1993-cü il iyun ayının 13-dək Ali Sovetin sessiyalarında, Milli Şuranın və Milli Məclisin iclaslarında iştirak etməmişdir.

**30 avqust** -Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "AZƏRBAYCANIN MÜSTƏQİLLİK BƏYANNAMƏSİ" İLƏ BAĞLI Heydər Əliyev çıxış etmişdir.

**3 sentyabr** -Naxçıvan MR Ali Məclisinin sessiyası Ali Məclisin sədri haqqında məsələ müzakirə etmişdir. Ali Məclisdə- keçirilən çoxminli mitinqin və deputatların böyük əksəriyyətinin tələbi ilə Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi məsələsi gündəliyə çıxarılmışdır. Heydər Əliyev dəfələrlə tribunaya qalxıb razı olmadığını bildirsə də, sessiya əksər səslə (bir nəfər əleyhinə, 4 nəfər bitərəf) onu Naxçıvan MR Ali Məclisinin sədri seçmişdir.

**4 sentyabr** -Naxçıvan MR Ali Məclisi "Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında" qərarı ilə muxtar respublika ərazisində bu seçkilərin keçirilməsini dayandırmış, prezident seçkilərinin sonrakı müddətdə keçirilməsini Azərbaycan Respublikası Ali Sovetindən xahiş etmişdir.

**6 sentyabr** -Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti «Naxçıvan MR Ali Məclisinin muxtar respublika ərazisində Azərbaycan Respublikası prezidenti seçkilərini keçirməmək haqqında Konstitusiyaya zidd qərarı barədə» bəyanat vermişdir.

**7 sentyabr** -Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev bəyanat verərək Azərbaycanın kommunist rəhbərliyini Naxçıvan MR Ali qanunverici orqanının fəaliyyətinə və səlahiyyətinə təsir göstərməkdə, demokratik prinsipləri boğmaqda təqsirləndirmiş, beynəlxalq təşkilatlardan xahiş etmişdir ki, Azarbaycan prezidentinin seçkiləri günü vəziyyəti obyektiv müəyyənləşdirmək üçün Naxçıvan MR-ə öz nümayəndələrini göndərsinlər.

**7 sentyabr** -Naxçıvan MR Ali Məclisinin qərarı ilə Naxçıvan MR Dövlət Müdafiə Komitəsi təşkil olunmuşdur.

**9 sentyabr** -Heydər Əliyev Rusiya Prezidenti Boris Yeltsinə məktub göndərmiş, Naxçıvanda başlanan demokratik prosesləri dəstəkləməsini ondan xahiş etmişdir.

**12 sentyabr** -Heydər Əliyevlə Ermənistan Ali Sovetinin Sədri Levon Ter-Petrosyan arasında telefon danışığı olmuşdur. Heydər Əliyev qatarlara edilən basqınların, adamların tutulub girov saxlanmasının, həmsərhəd kəndlərə hücumların kökünü kəsmək üçün tədbirlər görülməsini tələb etmişdir.

**14 sentyabr** -Azərbaycan KP fövqəladə XXXIII qurultayı dörd saatlıq müzakirədən sonra respublika partiya təşkilatının özünü buraxması haqqında qərar qəbul etmişdir.

**18 oktyabr** -Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası "Azərbaycan Respublikasının dövlət Müstəqilliyi haqqında"Konstitusiya aktını qəbul etmişdir.

**19 oktyabr** -Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına teleqramında Heydər Əliyev dövlət müstəqilliyini böyük milli sərvət kimi dəyərləndirmiş, bütün Azərbaycan xalqını təbrik etmişdir.

**29 oktyabr** -Naxçıvanla Türkiyə arasında müvəqqəti körpünün açılışı münasibəti ilə keçirilən mitinqdə Heydər Əliyev iştirak və çıxış etmişdir.

**5 noyabr** -Heydər Əliyevlə Ermənistan Prezidenti Levon Ter-Petrosyan arasında telefon danışığı olmuşdur. Sərhəddə yaranmış vəziyyət müzakirə olunmuşdur.

**13 noyabr** -Türkiyənin nüfuzlu "Milliyyət" və "Hürriyyət", Amerikanın "Vaşinqton post" qəzetinin müxbirləri Naxçıvanda olmuşlar. Heydər Əliyev xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

**18 noyabr** -Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk maşın karvanı Naxçıvana gəlmişdir. Heydər Əliyev Konya şəhər ziyalılarının nümayəndələrini qəbul etmişdir.

**21 noyabr** -Bakıdan Naxçıvana və əks istiqamətdə gedən qatarların hərəkəti müvəqqəti olaraq dayandırılmışdır.

**8 dekabr** -Ermənistan ərazisi ilə Naxçıvana məişət qazı verilməsi dayandırılmışdır.

**11 dekabr** -Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası "Naxçıvan MR"ə sərnişinlərin daşınmasının təşkili haqqında" qərar qəbul etmişdir.

**13 dekabr** -Naxçıvan şəhər XDM İK şəhərdəki Lenin prospektini Azadlıq prospekti, Lenin meydanını Azadlıq meydanı adlandırmışdır.

**16 dekabr** -Naxçıvan MR Ali Məclisi hər il dekabr ayının 31-nin Dunya Azəri türklərinin həmrəylik və birlik günü kimi bayram olunması barədə qərar qəbul etmişdir.

**1992-ci il.**

**13 yanvar** -1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət heyətinin bəyanatında 19-20 yanvar hadisələrinə siyasi qiymət verilməsi tələb olunur.

**18 yanvar** -Ali Sovetin Milli Şurası "Şəhidlər günü elan olunması haqqında" qanun qəbul etmişdir (Bundan xeyli əvvəl - 1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisinin sessiyası hər il yanvar ayının 20-ni milli matəm günü elan etmişdi).

**19 yanvar** -Heydər Əliyev Süleyman Dəmirəlin tapşırığı ilə gəlmiş nümayəndə heyətini qəbul etmişdir. Qəbulda Naxçıvan-Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələləri müzakirə olunmuşdur.

**14 fevral** -Naxçıvanın Azadlıq meydanında çoxminli mitinq olmuşdur. Çıxış edənlər Xalq Cəbhəsinin hökumətdə rəhbər vəzifə tutan nümayəndələrinin istefa verməlәrini tələb etmişlər.

**24 fevral** -İranın Xarici İşlər naziri Ə.Vilayəti Bakıya gəlmişdir. O öz səfərini "Qarabağ probleminin həlli yolunda ilk addım" adlandırmışdır.

**25-26 fevral** -Erməni silahlı birləşmələri Rusiyanın Xankəndindəki 366-cı motoatıcı polkunun köməyi ilə Xocalı şəhərini işğal etmiş, dinc sakinləri xüsusi amansızlıqla qırmışlar.

**1 mart** -Naxçıvanda ağır yüklü təyyarələri qəbul etməyə imkan verən yeni aeroport işə düşmüşdur. Bu münasibətlə keçirilən mitinqdə Heydər Əliyev çıxış etmiş, Xocalı soyqırımını hiddətlə qarşılamış, millətə başsağlığı vermişdir.

**6 mart** -2 gündən çox davam edən mitinq iştirakçılarının tələbi ilə A.Mütəllibov Ali Sovetin fövqəladə sessiyasında prezident vəzifəsindən istefa vermişdir.

**9 mart** -Azərbaycan Respublikası Ali Sovetinin Sədri Yaqub Məmmədovla Heydər Əliyev arasında telefon danışığı olmuşdur. İctimai-siyasi vəziyyət barədə fikir mübadiləsi aparılmışdır.

**10 mart**-Sədərək yaxınlığındakı sərhəd zastavasında Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevlə Ermənistan Ali Sovetinin Sədri B.Araksyan arasında görüş olmuşdur. Söhbət zamanı atəşin kəsilməsi, Dağlıq Qarabağla bağlı məsələlər müzakirə olunmuşdur.

**22-25 mart** -Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvətilə Türkiyədə rəsmi səfərdə olmuşdur.

**24 mart** -Ankarada "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Protokolun imzalanma mərasimində Süleyman Dəmirəl və Heydər Əliyev çıxış etmişlər.

**25 mart** -Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikası prezidenti seçkilərinin keçirilməsi haqqında" qərar qəbul etmişdir. Seçkilər 1992-ci il iyunun 7-nə təyin olunmuşdur.

**1 aprel** -Heydər Əliyev ATƏM-in Naxçıvana gələn nümayəndə heyətini qəbul etmişdir. Heydər Əliyev Naxçıvanın tam blokadaya salınması və Kərki kəndinin işğal olunması barədə məlumat vermişdir.

**6 aprel** -Naxçıvan MR Ali Məclisi "Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qərar qəbul etmişdir.

**15 aprel**-Sədərək rayonunun milis postları Ermənistanın Ararat rayonu tərəfindən atəşə tutulmuşdur.

**24 aprel**-Bakıdan Naxçıvana və əks istiqamətdə gedən qatarların hərəkəti tamamilə dayandırılmışdır.

**28 aprel**-Bakıda, Ali Sovetin qarşısında keçirilən mitinqin iştirakçıları Ali Sovetin çağrılmasını, Konstitusiyanın Azərbaycan prezidenti üçün yaş həddini nəzərdə tutan bəndinə düzəliş edilməsini tələb etmiş, Heydər Əliyevin Azərbaycan prezidentliyinə namizəd göstərilməsinə tərəfdar çıxmışlar.

**28 aprel**-ABŞ-ın Azərbaycandakı səlahiyyətli nümayəndəsi R.Finn Naxçıvana gələrək Heydər Əliyevlə görüşmüşdür. Görüşdə mövcud ictimai-siyasi vəziyyət, Qarabağ probleminin həlli yolları və s. məsələlər müzakirə olunmuşdur.

**1 may** -Heydər Əliyev İranın Azərbaycandakı səfirini qəbul etmişdir. Səfir Naxçıvanda İİR-nın konsulluğunun açılması barədə XİN-in məktubunu Heydər Əliyevə vermişdir. Heydər Əliyev Təbriz şəhərində Naxçıvan MR-in konsulluğunun yaradılmasına da ciddi ehtiyac olduğunu bildirmişdir.

**3 may** -Heydər Əliyevlə Türkiyənin Baş naziri Süleyman Dəmirəl arasında telefon danışığı olmuşdur. Süleyman Dəmirəl Heydər Əliyevin dəvətinə əsasən Naxçıvana gələcəyini bildirmişdir.

**5 may** -Erməni qüvvələri sərhəddi keçərək sərhədyanı yaşayış məntəqələrinə, o cümlədən Sədərəyə basqın etmişlər.

**5 may** -Muxtar respublikanın müdafiəsi ilə bağlı Naxçıvanın mərkəzi meydanında mitinq keçirilmişdir. Heydər Əliyev mitinqdə çıxış etmişdir.

**6 may** -Sədərək, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdur.

**7 may** -Sədərək və Havuş kəndləri Ermənistan tərəfindən müxtəlif toplardan atəşə tutulmuşdur. 20 nəfər yaralanmışdır.

**7 may** -Şərurda keçirilən mitinqdə çıxış edən Heydər Əliyev sakinləri sərhəddə vəziyyətlə əlaqədar mütəşəkkilliyə çağırmışdır.

**7 may** -Tehranda Azərbaycan, Ermənistan və İranın dövlət başçılarının iştirakı ilə Qarabağ problemi müzakirə olunmuş, birgə bayanat imzalanmışdır.

**8 may** -Erməni silahlı qüvvələri Şuşanı işğal etmişdir.

**14 may** -Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası olmuşdur. A.Mütəllibov qanunsuz olaraq yenidən prezident kürsüsündə əyləşdirilmişdir. Milli Şura buraxılmış, Bakıda fövqəladə vəziyyət elan olunmuşdur.

**15 may** -Heydər Əliyev Naxçıvan televizyası ilə əhaliyə müraciət etmiş, Ali Sovetin fövqəladə sessiyasının qəbul etdiyi qərarı "antidemokratik tədbir" adlandırmış, xalqa qarşı cinayətə yol verildiyini bildirmişdir.

**15 may** -Axşam saat 18-00 radələrində AXC hakimiyyəti ələ keçirmişdir. A.Mütəllibov Azərbaycandan qaçmışdır.

**16 may** -Ali Sovetin Milli Şurasının iclasında yeni hakimiyyət orqanının yaradılması təklif olunmuş, bir qrup deputat buna yalnız Heydər Əliyevin başçılıq edə biləcəyini göstərmişdir.

**18 may** -Y.Məmmədov Ali Sovetin Sədri, Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən vəzifəsindən azad edilmişdir.

AS sədrinin müavini İ.Qəmbərov və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Ali Sovetin sədrliyinə namizəd göstərilmişdir. "Heydər Əliyevə zəng vurmağın mümkün olmaması" kimi yersiz bəyanatla səsvermə bülleteninə yalnız İ.Qəmbərovun adı daxil edilmişdir.

**18 may** -Erməni qüvvələri güclü atəş hazırlığından sonra Sədərəyə hücuma keçmişlər. Düşmən Milli Ordunun bəzi mövqelərini tutmuşdur.

**18 may** -Yaranmış vəziyyətlə əlaqədar Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəllə Xariçi İşlər naziri Hikmət Çətinlə danışmışdır.

**18 may** -Heydər Əliyev Ermənistan prezidenti Levon Ter-Petrosyanla telefon danışığında ondan hücumu və atəşi dayandırmağı tələb etmişdir.

**18 may** -Naxçıvanın sərhəd kəndlərinin güclü atəşə tutulması davam etdirilmişdir. Naxçıvanın müdafiəçilərindən 15 nəfəri həlak olmuş, 80 nəfəri ağır yaralanmışdır.

**18 may** -Erməni silahlı birləşmələri Laçın rayonunu işğal etmişdir.

**18-19 may** -Milli Ordu qüvvələri Sədərək yaxınlığında əldən verdiyi mövqeləri geri qaytarmışdır.

**19 may** -Türkiyə Prezidenti Turqut Özal Naxçıvana təcavüzlə əlaqədar bölgəyə türk qoşunu göndərilməsini təklif etmişdir.

**20 may** -Türkiyə Nazirlər Kabineti Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat vermiş, İşğalçılıq siyasətinin yeni Ermənistan dövlətinin özü üçün fəlakət gətirəcəyini bildirmişdir.

**21 may** -Şərur rayonu Ermənistan tərəfindən kimyəvi mərmilərlə top atəşinə tutulmuşdur.

**21 may** -Süleyman Dəmirəlin tapşırığı ilə Türkiyə Xarici İşlər nazirliyinin nümayəndə heyəti Naxçıvana göndərilmişdir. Döyüş əməliyyatı rayonynda vəziyyətlə tanış olan nümayəndə heyəti Heydər Əliyevlə görüşmüşdür.

**21 may** -Azərbaycan Xarici İşlər Nazirliyi Naxçıvanda yaranmış vəziyyətlə əlaqədar nota vermişdir.

**22 may** -Heydər Əliyevin dəvəti ilə beynəlxalq Qırmızı Xaç komitəsinin nümayəndələri Naxçıvana gəlmişlər.

**22 may** -Naxçıvan qadınları Rusiya qoşunlarının Naxçıvanda yerləşən hissələrinə etiraz yürüşu etmişlər.

**22 may** -Heydər Əliyev televiziya ilə muxtar respublika əhalisinə müraciət etmişdir. Görülən diplomatik səylərin müqabilində 57 dövlətin rəsmi şəkildə Ermənistanın Naxçıvana təcavüzünü pislədiyini bildirən Heydər Əliyev demişdir: "Təəssüf ki, bizim qonşumuz İran öz mövqeyini bildirməmişdir".

**24 may** -İranın Xarici İşlər naziri H.Vilayəti Heydər Əliyevə zəng vuraraq bildirmişdir ki, onun ölkəsi müharibənin davam etməsini istəmir və Qarabağ probleminin dinc yolla nizamlanmasına tərəfdardır.

**25 may** -Naxçıvan MR Ali Məclisinin qərarı ilə Naxçıvanın inkişafı və müdafiə fondu yaradılmışdır.

**25 may** -Sədərək və Ordubad rayonları 4 saat davam edən atəşə tutulmuşdur. Naxçıvan MR-in müdafiəçilərindən bir nəfəri həlak olmuşdur.

**27 may** -BMT-nin Naxçıvana gələn xüsusi nümayəndə heyəti ilə görüş zamanı Heydər Əliyev erməni təcavüzünün nəticələri barədə məlumat vermişdir.

**28 may** -Türkiyənin Baş naziri Süleyman Dəmirəl Naxçıvana gəlmişdir.

**28 may** -Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılış mərasimi olmuşdur. Açılış mərasimində Süleyman Dəmirəl, Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən İ.Qəmbərov və Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev çıxış etmişlər.

**1-5 iyun**-Baş nazir Süleyman Dəmirəlin dəvətilə Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olmuşdur. Heydər Əliyev İzmirdə keçirilən Milli İqtisadi Konqresdə iştirak etmişdir.

**3 iyun** -Gecə saat 22.00-da Sədərək qəsəbəsi Ermənistan tərəfdən ağır toplardan atəşə tutulmuşdur. Müdafiəçilərdən 4 nəfəri ağır yaralanmış, böyük dağıntılar olmuşdur.

**7 iyun** -Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir. Mərkəzi Seçki Komissiyası Əbülfəz (Elçibəy) Qədirqulu oğlu Əliyevi Azərbaycan Prezidenti seçilmiş hesab etməyi qərara almışdır.

**7 iyun** -Naxçıvanda "Real" müstəqil informasiya agentliyi fəaliyyətə başlamışdır.

**14 iyun** -Babək rayonunun Buzqov və Gərməçataq kəndləri Ermənistandan atəşə tutulmuşdur. Bir nəfər yaralanmışıdr.

**15 iyun** -Ermənilər Babək rayonunun Aşağı Buzqov, Yuxarı Buzqov, Gərməçataq kəndlərini, Sədərək qəsəbəsini atəşə tutmuşlar. Sədərəkdə 4 nəfər, Aşağı Buzqovda 5 nəfər ağır yaralanmış, 1 nəfər həlak olmuşdur.

**17 iyun** -ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili R.Mayls Naxçıvana gələrək Heydər Əliyevlə görüşmüşdür. Heydər Əliyev ABŞ-ın Qarabağda və Naxçıvanda sülhün, əmin-amanlığın bərqərar olması üçün səyini əsirgəməyəcəyinə əmin olduğunu bildirmişdir.

**17 iyun** -Naxçıvan MR Ali Məclisi Rəyasət heyətinin iclasında çıxış edən Heydər Əliyev Bakının rəsmi dairələrində Naxçıvan MR statusunun dəyişdirilməsi ilə bağlı təklifləri ermənilərin işğalçı siyasəti ilə eyniləşdirərək demişdir: "Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır".

**20 iyun** -Gəncə şəhərində yaradılan "Naxçıvan" xeyriyyə cəmiyyəti xalqa müraciət edərək Naxçıvanın real vəziyyəti haqqında məlumat vermiş, Heydər Əliyevin siyasətini dəstəklədiyini bildirmişdir.

**2 iyul** -Heydər Əliyev 14 min sədərəkli qaçqının məişət şəraiti ilə tanış olmaq üçün onların yanına getmişdir.

**2 iyul** -"Azərbaycan" nəşriyyatında "Real" informasiya agentliyinin hazırladığı "Naxçıvan yaşayır, döyüşür" fotoalbomu çapdan çıxmışdır.

**13 iyul** -Ermənistan ərazisi ilə Ağstafadan Naxçıvana elektrik enerjisi verilməsi dayandırılmışdır.

**5 iyul** -Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət barədə" qərar qəbul etmişdir.

**17 iyul** -Naxçıvan MR-in sərhəd rayonları Ermənistan tərəfindən fasilələrlə atəşə tutulmuşdur. Ölən və yaralananlar vardır.

**23 iyul** -Heydər Əliyev Rusiya prezidentinin xüsusi tapşırıqlar üzrə səfiri, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üzrə Rusiya vasitəçi nümayəndəliyinin rəhbəri V.Kazimirovu qəbul etmişdir.

**25 iyul** -Naxçıvan MR Ali Məclisi "Naxçıvan MR-in müdafiəsinin təşkili haqqında" qərar qəbul etmişdir.

**30 iyul** -Sədərək qəsəbəsi Ermənistan tərəfdən top atəşinə tutulmuşdur.

**3 avqust** -İranın Urmiya vilayətindən Naxçıvana ərzaq və yanacaq gətirilmişdir.

**10-14 avqust** -Süleyman Dəmirəlin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyəyə getmişdir. O, İqdır vilayətinin yaradılması münasibətilə keçirilən təntənəli mitinqdə S.Dəmirəllə bərabər çıxış etmiş, sonra Ankaraya yola düşmüşdür.

**11 avqust** -Saat 15.00-dan sonra Şərur rayonunun Havuş kəndi və Sədərək qəsəbəsi Ermənistan tərəfindən atəşə tutulmuşdur.

**13-14 avqust** -Şərurun Havuş, Şahbuzun Şada kəndləri uğrunda ağır döyüşlər getmişdir.

**16 avqust** -Ordubad rayonu ermənilər tərəfindən güclü atəşə tutulmuşdur. Təkcə Ordubad şəhərinə 50-dən çox mərmi düşmüşdür.

**18 avqust** -Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın axırıncı rus əskəri vətənə yola salınmışdır. Hərbi əmlakın tamamilə Milli Ordunun briqadasına verilməsi haqqında aktın imzalanması mərasimində Heydər Əliyev iştirak etmişdir.

**19 avqust** -Naxçıvan MR Ali Məclisi qarşısında izdihamlı mitinq olmuşdur. Mitinqdə çıxış edən Heydər Əliyev demişdir ki, Xalq Cəbhəsi ona qarşı sui-qəsd hazırlayır.

**22-26 avqust** -İran Xarici İşlər Nazirliyinin dəvəti ilə Heydər Əliyev prezident Rəfsəncaninin şəxsi "Boinq-727" təyyarəsində Tehrana gəlmişdir. İranın ali vəzifəli şəxsləri ilə söhbət və danışıqlardan sonra "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında" protokol imzalanmışdır.

**26 avqust** -Sədərək qəsəbəsi minaatanlardan atəşə tutulmuşdur.

**26-27 avqust** -Naxçıvan MR Daxili İşlər Nazirliyi qarşısında silahlı milislərin piketi keçirilmişdir. Çıxış edənlər Naxçıvanda vəziyyətin gərginləşməsində Azərbaycanda hakimiyyətdə olan qüvvələri, o cümlədən İ.Həmidovu günahlandırmışlar.

**13 sentyabr** -Heydər Əliyev Naxçıvan televiziyası ilə çıxış edərək özünün istefası barədə, habelə Naxçıvanın separat siyasəti barədə şaiyələri təkzib etmişdir.

**13 sentyabr** - Gecə Şahbuzun Batabat və Şada məntəqələri müxtəlif silahlardan atəşə tutulmuşdur. Milli ordu qüvvələrindən bir nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

**29 sentyabr** -Sonuncu rus sərhədçiləri Naxçıvan MR ərazisini tərk etmişlər. Ruslara məxsus bütün hərbi və təsərrüfat əmlakının Azərbaycanın Naxçıvandakı sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalanmışdır.

**10 oktyabr** -Bakıda "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin ilk nömrəsi çapdan çıxmışdır. Heydər Əliyev qəzetə təbrik məktubu göndərmişdir.

**16 oktyabr** -Azərbaycan ziyalılarının böyük bir qrupu Heydər Əliyevə müraciət edərək ondan yaradılmaqda olan YAP-a rəhbərlik etməyə razılıq verməsini xahiş etmişlər.

**18 oktyabr** -Naxçıvan sərhəd zastavasında ilk dəfə olaraq Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılmışdır. Heydər Əliyev təntənəli mərasimdə iştirak etmişdir.

**23 oktyabr** -Huseyn Cavidin anadan olmasının 110 illiyi Heydər Əliyevin təşəbbüsü ilə geniş qeyd olundu.

**24 oktyabr** -Mətbuatda Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavab olan "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olunmuşdur.

**24 oktyabr** -AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərilmişdir.

**24 oktyabr** -Naxçıvan MR Ali Məclisinin qarşısında keçirilən izdihamlı mitinqin iştirakçıları Heydər Əliyevlə həmrəylik ifadə etmiş, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Teleradio Verilişləri Komitəsinin binasını boşaltmağı tələb etmişlər.

**24 oktyabr** -Heydər Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb etmişdir.

**25 oktyabr** -Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət etmişdir.

**25 oktyabr** -Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilmiş, AXC silahlı dəstələrinin tərksilah edilməsi ilə əlaqədar deputat komissiyası yaradılmışdır.

**27 oktyabr** -Naxçıvandakı Azadlıq meydanında keçirilən Ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan Prezidentindən

Heydər Əliyevə və Naxçıvana qarşı göstərilən zorakılıq hərəkətlərini aradan qaldırmağı tələb etmişlər.

**27 oktyabr** -Heydər Əliyev yerli və xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmişdir.

**28 oktyabr** -Naxçıvanda nisbi sakitlik yaranmışdır. Ali Məclisdə 24 oktyabr hadisələri ilə əlaqədar müşavirə keçirilmişdir.

**5 noyabr** -YAP təşkilat komitəsinin yığıncağı keçirilmişdir. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçilmişdir.

**21 noyabr** -Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirilmişdir. Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçilmişdir.

**3 dekabr** -İrandan Naxçıvana 40 meqavatt gücündə elektrik enerjisinin verilməsi münasibətilə Arazkənarı stansiyada təntənəli mitinq olmuşdur. Heydər Əliyev mitinqdə çıxış etmişdir.

**3 dekabr** -İranla Naxçıvanı birləşdirən Şahtaxtı-Poldəşt keçid məntəqəsinin açılışı olmuşdur. Heydər Əliyev və İranın Kooperasiya naziri Q.Şafeyi açılış mərasimində iştirak etmişlər.

**29 dekabr** -"Naxçıvan" qəzeti Heydər Əliyevin "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini vermişdir.

**29 dekabr** -Heydər Əliyev Naxçıvan televiziyası ilə çıxış edərək əhalini şaiyələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırmışdır.

**1993-cü il.**

**20 yanvar** -Naxçıvan MR-də yanvar faciəsinin 3-cü ildönümü ilə əlaqədar hüzn mərasimi keçirilmişdir. Şəhidlər xiyabanındakı izdihamlı mitinqdə Heydər Əliyev çıxış etmişdir.

**20 yanvar** -Heydər Əliyev Bill Klintona ABŞ prezidenti seçilməsi münasibətilə təbrik teleqramı və xüsusi məktub göndərmişdir.

**4 fevral** -ABŞ-ın Bakıdakı səfiri R.Mayls Naxçıvana iki günlük səfərdə olmuşdur. Heydər Əliyevin Bill Klintona məktubu ilə əlaqədar Naxçıvan MR-in ehtiyacları öyrənilmiş, humanitar yardımın çatdırılması mexanizmi müzakirə edilmişdir.

**5 fevral** -Naxçıvanda Türkiyə Respublikasının konsulluğu fəaliyyətə başlamışdır.

**12 fevral** -Heydər Əliyev Bakıda Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə görüşmüşdür. Görüşdə blokada ilə bağlı Naxçıvan MR-in düşdüyü vəziyyət müzakirə edilmiş, Azərbaycanın daxili və xarici siyasətinin bəzi aspektləri barədə fikir mübadiləsi olmuşdur.

**13 fevral** -YAP-ın Bakıdakı iqamətgahında Heydər Əliyevin buradakı partiya təəssübkeşləri ilə ilk görüşü keçirilmişdir.

**17 fevral** -Naxçıvan Texniki-İstehsalat Rabitə İdarəsinin sifarişi ilə Fransanın milli "DSR Holdinqs" mətbəəsi, üzərində Heydər Əliyevin şəkli və Naxçıvan MR-in xəritəsi olan ilk poçt markasını buraxmışdır.

**3 mart** -Heydər Əliyev Bakıda Türkiyənin və ABŞ-ın fövqəladə və səlahiyyətli səfirləri ilə görüşmüşdür.

**5 mart** -Heydər Əliyev İngiltərənin Azərbaycandakı daimi nümayəndəsi Harold Fomstok və Fransa səfiri Jan Perre ilə görüşmüşdür.

**8 mart** -Naxçıvanda İran İslam Respublikasının Konsulluğu açılmışdır.

**10 mart** -Heydər Əliyevin ABŞ Prezidenti Bill Klintona məktubundan sonra Ağ evin Naxçıvana təcili humanitar yardımı başlanmışdır. Saat 16:30-da birbaşa ABŞ-dan uçan "Boinq" təyyarəsi Naxçıvan aeroportuna enmiş, bir milyon ABŞ dolları dəyərində humanitar yardım gətirmişdir.

**16-19 mart** -Heydər Əliyev İranın Xarici İşlər naziri H. Vilayətinin dəvəti ilə Tehrana rəsmi səfərə getmişdir.

**18 mart** -Təbrizdə Heydər Əliyev və İranın Şərqi Azərbaycan ostandarı Ə.Əbdüləlizadə əməkdaşlıq haqqında protokol imzalamışlar.

**21 mart** -Fransadan Naxçıvan MR-ə təyyarə ilə 37 ton humanitar yardım göndərilmişdir.

**2 aprel** -Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunmuşdur.

**2 aprel** -Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış edən Heydər Əliyev erməni ordusunun Kəlbəcəri işğal etməsini "ərazi bütövlüyümüzə qarşı qəsd" adlandırmışdır.

**10 aprel**-Yeni Azərbaycan Partiyasının mətbu orqanı olan "Yeni Azərbaycan" qəzeti nəşrə başlamışdır. Heydər Əliyev qəzetə təbrik teleqramı göndərmişdir.

**16 aprel**-Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir. İqdırda Türkiyənin dövlət naziri O.Gilərçioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur.

**19-25 aprel** -Heydər Əliyev Türkiyə prezidenti Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün Türkiyəyə getmişdir.

**10 may** -Heydər Əliyevin 70 yaşı tamam olmuşdur. Bu münasibətlə Azərbaycanın hər yerindən, əmək kollektivlərindən, ayrı-ayrı şəxslərdən, xarici nümayəndəliklərdən muxtar respublika Ali Məclisinə saysız-hesabsız teleqramlar göndərilmişdir.

**10 may** -Azərbaycanın tanınmış ziyalılarının böyük bir qrupu Heydər Əliyevi 70 yaşı münasibəti ilə təbrik etmək üçün Naxçıvana gəlmişdir.

**10-11 may** -Şərur qəsəbəsi, rayonun Sərxanlı, Aşağı Aralıq, Yuxarı Yaycı, Dizə, Qarxun, Oğlanqala, Düdəngə kəndləri Ermənistanın Xaçik hərbi bazasından "Qrad" qurğularından, tanklardan və toplardan güclü atəşə tutulmuşdur.

**13 may** -Naxçıvan şəhərində Heydər Əliyev və İranın Qərbi Azərbaycan ostandarı Q. Səadət mədəni-iqtisadi əməkdaşlıq barədə müqavilə imzalamışlar.

**14 may** -Sədərəklə Ararat rayonu arasındakı sərhəd zastavasında Naxçıvanın və Ermənistanın nümayəndə heyətləri görüşmüşlər. Heydər Əliyev və Ermənistan Ali Soveti sədrinin müavini A.Saakyan sərhədboyu məntəqələrdə təhlükəsizliyin təmin olunması ilə əlaqədar bəyannamə imzalamışlar.

**15 may** -Sədərəkdə keçirilən görüşlə bağlı AzərTAC-ın qərəzli məlumatından sonra Azərbaycan Milli Məclisində qeyri-sağlam müzakirələr aparılmışdır. Ali Məclisin Mətbuat Xidməti rəsmi təkzib vermiş, bəyannamənin mətnini mətbuatda yaymışdır.

**16 may** -Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti seçilməsi münasibətilə Süleyman Dəmirələ təbrik məktubu göndərmişdir.

**21 may** -Sədərəkdə atışmalar davam etmişdir. Milli Ordunun 5 nəfər əskəri yaralanmışdır.

**7 iyun** -Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar müraciət qəbul etmişdir.

**9 iyun** -Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev saat 15:00-da Bakıya gəlmişdir.

**13 iyun** -Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar iclası olmuşdur. Deputatlar Ali Sovetin Sədri İsa Qəmbərin istefasını qəbul etmişlər.

**13-14 iyun** -Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Gəncə şəhərində olmuş, kəskin siyasi böhranın aradan qaldırılması yolları müzakirə edilmişdir.

**15 iyun** -Milli Məclisin iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmişdir.

**17-18 iyun** -Azərbaycan Prezidenti Əbülfəz Elçibəy Bakı şəhərini tərk edərək Naxçıvan MR-in Kələki kəndinə getmişdir.

**18 iyun** -Saat 12:00-da Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev milli televiziya ilə xalqa birbaşa müraciət edərək

yaranmış vəziyyətdə Prezidentin bütün səlahiyyətlərinin və məsuliyyətini öz üzərinə götürmək məcburiyyətində qaldığını bildirmişdir.

**23 iyun** -Azərbaycan Respublikası Milli Məclisi "Azərbaycan Respublikası Prezidenti Ə.Q.Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası prezidenti vəzifəsini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" qərar qəbul etmişdir.

**29 avqust** -Azərbaycanda Əbülfəz Elçibəyə etimad göstərilməsi ilə əlaqədar referendum keçirilmişdir. Referendumda iştirak edənlərin 97,5 faizi Ə.Elçibəyə etimad göstərmədiyini bildirmişdir.

**3 oktyabr** -Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir. Mərkəzi Seçki Komissiyasının məlumatına görə Heydər Əlirza oğlu Əliyevin lehinə 98.8 faiz, əleyhinə 1 faiz səs verilmişdir. Mərkəzi Seçki Komissiyası Heydər Əliyevi Azərbaycan Respublikası Prezidenti seçilmiş hesab etməyi qərara almışdır.

**10 oktyabr** -Respublika sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.

# İKİNCİ BÖLMƏ

## Dövlət müstəqilliyinin bərpası istiqamətində Naxçıvanda qəbul olunan tarixi qərarlar

## Azadlıq və istiqlaliyyət uğrunda mübarizənin başlanğıcı

**"Mən Moskvada olarkən Azərbaycana qarşı edilən bu cinayətə qarşı etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim... Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər:.. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".**

**Heydər ƏLİYEV**

Ən yeni tariximizdən bu da hər birimizə məlumdur ki, 1989-cu ilin sonu - 1990-cı ilin əvvəllərində Azərbaycanda xalq hərəkatı özünün ən yüksək inkişaf mərhələsinə çatdı. Xalq azadlıq, istiqlaliyyət uğrunda mübarizə əzmini, bu yoldan dönməz olduğunu bütün dünyaya nümayiş etdirməyə çalışdı. Bakıda və respublikanın təlatümlü dəniz kimi dalğalanan digər bölgələrində baş verən hadisələr hakimiyyət böhranını daha da dərinləşdirmiş, mərkəzin respublikadakı hadisələrə nəzarətini tam itirməsinə gətirib çıxarmışdı.

Əslində Naxçıvandakı xalq hərəkatı erməni təcavüzünə qarşı müqavimət hərəkatı olmaqla yanaşı, imperiya buxovlarından xilas olmaq və milli müstəqilliyə nail olmaq üçün geniş vüsət alan Azərbaycan xalqının milli-azadlıq hərəkatının tərkib hissəsi idi. Bu hərəkatın ilkin dövründə əsas etiraz vasitə və formaları mitinqlər, nümayişlər, tətillər idi. Naxçıvandakı hərəkat həm də mərkəz və respublika hökuməti qarşısında mütilik göstərən, əhalinin haqlı tələblərini qulaqardına vuran, ermənilərin hücum təhlükəsinə qarşı təsirli tədbirlər görməkdən imtina edən, hətta əhalinin əlindəki ov silahlarını almağa çalışan və nəticədə muxtar respublikada ictimai-siyasi vəziyyəti daha da gərginləşdirən yerli partiya və sovet rəhbərlərinə qarşı yönəlmişdi

Ermənilərin Dağlıq Qarabağda separatçılıq hərəkətləri, azərbaycanlı əhaliyə qarşı cinayətləri nəinki səngimir, əksinə daha da intensivləşirdi. Naxçıvanın Ermənistanla sərhəd kəndləri erməni quldur

dəstələrinin hücum obyektinə çevrilirdi. 1989-cu ilin aprelində ermənilərin Sədərək kəndinin «Həsənqulu bağı» adlanan ərazisini zəbt etmək cəhdləri Naxçıvanda gərginlik yaratmışdı. Məlum olduğu kimi həmin ərazinin 1969-cu ildə Ermənistana verilməsi haqqında Azərbaycan SSR Ali Sovetinin qərarı qəbul edilmiş, lakin Heydər Əliyev Azərbaycana rəhbər təyin olunduqdan sonra, bu fərmanın icrası dayandırılmış, yalnız 1985-ci ildə bu qanunsuz iş həyata keçirilmişdi. Nəticədə, Naxçıvan MSSR-in ərazisindən ayrı düşmüş Kərki kəndinin işğalı üçün əlverişli şərait yaranmışdı

1989-cu ilin əvvəllərindən başlayaraq Azərbaycan dəmiryolunun Qarçevan-Mehri hissəsindən keçən sərnişin və yük qatarlarına erməni quldurlarının hücumları daha da intensiv hal almış, avtomobillərin Ermənistan ərazisindən muxtar respublikaya hərəkəti dayandırılmışdı. Yüzlərlə naxçıvanlı sərnişinə xəsarət yetirilmiş, qatarların hərəkət qrafiki pozulmuşdu. Təhlükəsizlikləri təmin edilmədiyinə görə azərbaycanlı maşinistlər yola çıxmaqdan imtina edirdilər.

Həmin il iyulun əvvəllərində Naxçıvan əhalisinin keçirdiyi mitinqlərdə Azərbaycan hökumətindən Naxçıvanın müdafiəsi üçün konkret tədbirlər görülməsi tələb olundu. İyul ayının 12-də Vilayət Partiya Komitəsinin I katibi H.İsayevin Ermənistanın bir sıra rəhbər işçiləri ilə Sədərək postunda Kərki kəndinin problemləri, avtomobil və dəmiryolu nəqliyyatının işi ilə bağlı müzakirələri heç bir nəticə vermədi. Əksinə, erməni xislətinin yeni bir həyasız forması üzə çıxdı. İndiyə qədər yol kəsməklə, azərbaycanlıları qətlə yetirməklə, qarət etməklə məşğul olan ermənilər, indi də Naxçıvanın dağ kəndlərinə hücum edərək mal-qaranı oğurlamağa başlamışdılar. Məsələn, iyulun 15-də ermənilər Şərur rayonunun Günnüt kəndinə məxsus 219, həmin rayonun Lenin adına sovxozunun isə 1286 baş mal-qarasını oğurlamışdılar. İyulun 17-də Naxçıvan MSSR Nazirlər Sovetinin sədri A.Cəlilovla Ermənistan SSR daxili işlər naziri İ.Arutunyan arasında maneəsiz hərəkətin təmin olunması haqqında razılığa gəlinsə də, Ermənistan tərəfi bu razılığa əməl etmədi

Dəmiryolunda yaranmış vəziyyət, ermənilərin sərhəd kəndlərinə aramsız hücumları naxçıvanlıların hiddətinə səbəb olur, rəsmi hakimiyyət orqanlarına etimadsızlıq artırdı. Nəqliyyatın hərəkətinin dayanması muxtar respublikanın sənaye müəssisələrinin, xidmət bölmələrinin işinə ciddi təsir göstərirdi. Xammal və materialların gətirilməməsi bir çox müəssisələrin dayanmasına səbəb olmuşdu.

* * *

Respublikada sosial-iqtisadi vəziyyətin gərgin olmasına baxmayaraq demokratik hərəkat da getdikcə genişlənirdi. 1989-cu ilin I yarısında Azərbaycan Xalq Cəbhəsinin müxtəlif yerlərdə dayaq dəstələri yaradılmış, həmin ilin iyulunda isə AXC-nin Naxçıvan şöbəsi təşkil edilmişdi. Həmin dövrdən başlayaraq Naxçıvanda Xalq hərəkatına AXC-nin Naxçıvan şöbəsi rəhbərlik etməyə başladı. Radikal tədbirlərə üstünlük verən bu təşkilat artıq muxtar respublikada qeyri-rəsmi hakimiyyətə malik idi.

Demokratik hərəkatda AXC-nin aparıcı təşkilata çevrilməsinə baxmayaraq, xalq arasında Heydər Əliyevin nüfuzu daha böyük idi. Mitinqlərdə Heydər Əliyevin şəkilləri qaldırılır, onun respublikaya dəvət edilərək xalq hərəkatına rəhbərlik etməsi barədə çağırışlar edilirdi. Azərbaycan SSR DTK sədrinin Moskvaya göndərdiyi 3 yanvar 1990-cı il tarixli məlumatında yazılırdı: "Əvvəlki kimi... Heydər Əliyevin mövqeləri güclüdür. Əhali indiyədək Heydər Əliyevin adını ehtiramla çəkir. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinə Ordubad rayonundan deputatlığa namizədliyini irəli sürməyi, əlverişli şərait yarandığı halda isə Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsinə seçməyi planlaşdırır".

Azərbaycan milli-azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən «sərhəd hərəkatı» da məhz Naxçıvanda başlamışdır. «Cənub həsrəti» Azərbaycanın digər bölgələrinə nisbətən Naxçıvanda daha çox hiss olunurdu. İranla sərhədboyu ərazilərdə çəkilmiş tikanlı məftillər bir millətin iki hissəyə parçalanmasının «simvoluna» çevrilmişdi.

Naxçıvanda başlanan sərhəd hərəkatına SSRİ və Azərbaycanın kommunist rəhbərliyi, həmçinin hərbi dairələr qara yaxaraq onu bir qrup ekstremist və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar. O zaman mərkəzi kütləvi informasiya vasitələri sərhədlərin sökülməsini vandalizm hərəkəti kimi qiymətləndirmiş, bu hərəkəti Azərbaycanda islam fundamentalizminin baş qaldırması kimi göstərməyə çalışmışdı.

Moskvanın təzyiqi altında Azərbaycan KP MK-sı 1990-cı il yanvarın 2-də «Naxçıvan MSSR-də dövlət sərhədində kütləvi nizamsızlıq haqqında» qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənmiş, bu hərəkət «SSRİ-nin dövlət sərhədi haqqında» «SSR İttifaqı qanununun və beynəlxalq normaların kobud surətdə pozulması» kimi qiymətləndirilmiş, «Respublikada yenidənqurma prosesinə ciddi zərbə endirildiyi» iddia edilmişdi .

Hadisələrin günü-gündən dərinləşdiyini və kulminasiya nöqtəsinə doğru irəlilədiyini duyan mərkəz, muxtar respublikada vəziyyəti nəzarət altına almaq üçün ilk növbədə yerli rəhbərlikdə dəyişiklik etmək qərarına gəldi. Vilayət Partiya Komitəsinin növbədənkənar plenumunda Heydər İsayev birinci katib vəzifəsindən azad edildi, onun yerinə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Afiyəddin Cəlilov seçildi. Lakin təyin olunan yeni rəhbərlik də mərkəzin ümidlərini doğrultmadı. Ümummilli məsələlərdə imperiyanın deyil, xalqın tərəfini tutmağa üstünlük verən yeni rəhbərlik də bununla əhalinin yerli hakimiyyətə etimadını qismən bərpa etməyə nail oldu.

Yanvarın 5-də isə Sovet-İran sərhədinin Naxçıvan ərazisində baş vermiş hadisələrlə əlaqədar SSRİ rəhbərliyinin yüksək rütbəli nümayəndələri – Sov. İKP MK-nın katibi A.N.Girenko, SSRİ Ali Sovetinin Millətlər Sovetinin sədri R.N.Nişanov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini Batkov, generallar Varennikov, Şatalin, Şironkin Naxçıvana gəldilər. Lakin onların Naxçıvana gəlişi genişlənən milli-azadlıq hərəkatının qabağını ala bilmədi. Əksinə, Naxçıvandakı görüşlərində onlar əhalinin tələblərinin haqlı olduğunu etiraf etməli oldular.

1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti «SSRİ-nin Dövlət Sərhədi haqqında qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması haqqında» qərar qəbul etdi. Qərarda sərhəd rejiminin pozulması faktı pislənilsə də, bu hadisənin baş verməsinin obyektiv səbəbləri üstüörtülü də olsa etiraf olunurdu. Belə ki, qərarın ikinci bəndində SSRİ Nazirlər Sovetinə «sərhədyanı rayonlarda əhalinin qaldırdığı konkret məsələlərin həlli üçün Azərbaycan SSR-nin respublika və yerli dövlət orqanlarının iştirakı ilə tədbirlər görülməsi» tapşırılırdı.

Lakin Moskva Azərbaycandakı hadisələrə nəzarəti tam itirmək təhlükəsi ilə barışa bilmir, yanvarın əvvəllərindən Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirirdi. Mərkəz Azərbaycanda demokratik hərəkatı boğmaq üçün əlverişli məqam axtarırdı. Yanvarın 13-14-də Bakıda SSRİ DTK-sının ssenarisi əsasında milli zəmində talanlar baş verdi. Talançı dəstələrə qarşı nə yerli hüquq-mühafizə orqanları, nə də şəhərdə yerləşmiş 12 minlik SSRİ DİN qoşunları heç bir tədbir görmədilər.

Demokratik hərəkatı yatırmaq, xalqa divan tutmaq üçün hüquqi zəmin lazım idi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsaslanan SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında fərman verdi Fərmanda DQMV, Azərbaycanın ona bitişik

rayonları Ermənistan SSR-in Gorus rayonu ilə yanaşı Azərbaycan ərazisindəki SSRİ-nin dövlət sərhədi boyunca sərhədyanı zonada da fövqəladə vəziyyət tətbiq edilirdi.

Bu fərmana əsaslanan Zaqafqaziya Sərhəd Dairəsinin Komandanlığı Naxçıvan MSSR rəhbərliyinə məktub göndərərək muxtar respublikanın sərhəd rayonlarında da fövqəladə vəziyyətin tətbiq edilməsini təklif etsə də Naxçıvan rəhbərliyi buna imkan vermədi.

Ermənilərin təcavüzkar hərəkətlərinin qarşısını almaq, muxtar respublika əhalisinin təhlükəsizliyini qorumaq üçün heç bir real addım atılmadığını görən xalq isə təşkilatlanır, ümidini özünümüdafiə və könüllü dəstələr yaratmaqda tapırdı. Bu dövrdə Naxçıvanın Ermənistanla sərhəddə yerləşən bütün kəndlərində postlar yaradılmış, müdafiə işini düzgün təşkil etmək, postlarla rabitə yaratmaq üçün rayonlarda müdafiə komitələri və qərargahlar fəaliyyətə başlamışdı.

Həmin dövrdə Naxçıvanda ən gərgin vəziyyət Şərur rayonunun Kərki kəndində yaranmışdı. Yanvarın 15-də, hadisələrin qızğın tüğyan etdiyi bir dövrdə erməni yaraqlıları kəndi ələ keçirmək üçün ilk hücuma keçdilər. Bu zaman Kərkini cəmi 19 nəfər kənd sakini, 6 nəfər hərbçi və 3 milis işçisi qoruyurdu. Kəndə hücum xəbəri yayıldıqdan sonra Naxçıvanda olan daxili qoşun bölmələri, əlavə milis qüvvəsi və könüllülər də ora köməyə getdilər. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq ilk hücumun qarşısı uğurla alınır. Lakin iki gün sonra, yanvarın 17-də ermənilər 3 min nəfərlik qoşunla yenidən hücum edirlər, bu dəfə kəndə ciddi ziyan vururlar.

Elə həmin gün erməni yaraqlıları Naxçıvan əhalisinə qarşı daha bir təcavüzkarlıq hərəkəti törədirlər. Onlar Gorus rayonunda yerləşən Üçtəpə radioteleötürücü stansiyasına gələn xətləri kəsməklə muxtar respublikaya ötürülən televiziya və radio verilişlərini dayandırdılar. Bununla da muxtar respublika əhalisi tam informasiya blokadasına alınır. Muxtar respublika iqtisadi blokadanın daha bir acısını dadmalı olur.

* * *

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə isə Sovet imperiyası Bakı şəhərinə təpədən-dırnağadək silahlanan böyük hərbi qüvvə yeridir, günahsız insanları qanına qəltan edir, misli görünməmiş vəhşiliklər törədirlər. Rəsmi məlumata görə həmin gün təkcə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirilmiş, 800 nəfərdən çox adam yaralanmışdı. 20 Yanvar faciəsindən bir gün əvvəl isə erməni-rus hərbi birləşmələri Naxçıvanın Sədərək kəndinə təcavüz edirlər. 4-5 min

nəfərlik təcavüzkar qoşun hissəsinin əsas məqsədi muxtar respublikanın bu sərhəd qalasını ələ keçirməkdən ibarət olur. Lakin bütün naxçıvanlıların öz doğma torpaqlarının müdafiəsinə qalxmaları onların bu azğın planını alt-üst edir.bununla belə, həmin gün Naxçıvan torpağı ilk şəhid oğullarını qurban verir, 9 nəfər şəhidlik zirvəsinə ucalır, 30 nəfər düşmən gülləsindən xəsarət alır.

Belə bir ağır və gərgin vəziyyətdə Azərbaycanın, eləcə də onun ayrılmaz bir parçası olan Naxçıvanın ərazi bütövlüyünün pozulması, bütün sərhədboyu ermənilərin hücuma keçmələri, muxtar respublika əhalisinin dinc yaşayışı üçün real təhlükənin artması, nəqliyyat və kommunikasiya blokadası və bütün bunların müqabilində ittifaq və respublika hakimiyyət dairələrinin cinayətkar fəaliyyətsizliyi muxtar respublika əhalisini və rəhbərliyini ən radikal addımlar atmağa sövq etdi. Həmin gecə Naxçıvan şəhərində Ali Sovetin binası qarşısında toplanmış 20 mindən çox əhali Muxtar Respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını təkidlə tələb edir. Xalqın tələbi və təzyiqi altında yanvarın 19-da gecədən xeyli keçmiş çağırılan sessiya Sovet imperiyasının yaşadığı, qılıncının arxasının da kəsdiyi bir dövrdə görünməyən bir məsələni müzakirəyə çıxardı. Bu, Naxçıvan MR-in SSRİ-nin tərkibindən çıxması haqqında məsələ idi. Qəbul olunan qərarda Azərbaycan SSR və onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyünün müdafiə edilmədiyi, Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə etdikləri müraciətlərin nəticəsiz qaldığı, Türkiyə, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında RSFSR-in iştirakı ilə bağlanan Qars müqaviləsinin şərtlərinin kobud surətdə pozulduğu qeyd edilirdi. 6 bənddən ibarət olan bu tarixi qərarda deyilirdi:

1. Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir;

2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin;

3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün ölkələrinə kömək məqsədilə müraciət olunsun;

4. Naxçıvan Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın;

5. SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Respublikasına edilən təcavüzə son qoyulsun;

6. Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın.

Həmin sessiyada Azərbaycan xalqının təcavüzə məruz qalması, ermənilərin Naxçıvana hücumları və törətdikləri vəhşiliklər barədə dünya birliyinə müraciət də qəbul edildi. Müraciət bu sözlərlə bitirdi: "... Dünya dövlətləri, planetin bütün vicdanlı insanları, bizə kömək əlinizi uzadın! Azərbaycan türklərinin qanının axmasına yol verməyin!".

Onu da qeyd edək ki, sessiyanın keçirildiyi günlərdə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Ali Sovetin binası üzərinə sancıldı və bu bayraq bir həftəyədək qeyri-rəsmi olsa da, orada qaldı. Təbii ki, Naxçıvan parlamentinin qəbul etdiyi bu qərarın hüquqi əsası yox idi. Bu səbəbdən onun cox yaşaması da mümkün deyildi. Yanvarın 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin həmin qərarını ləğv etdi. Amma buna baxmayaraq sonralar həmin qərarın Naxçıvanın taleyi üçün böyük əhəmiyyəti oldu. SSRİ tarixində ilk dəfə olaraq muxtar qurumun özünü müstəqil elan etməsi faktı dünya ictimaiyyətinin diqqətini Sovet imperiyasının və onun əlaltısı olan Ermənistanın Azərbaycana, onun tərkib hissəsi olan Naxçıvana qarşı təcavüzkarlıq hərəkətlərinə yönəltməyə məcbur etdi. Bu aksiyadan sonra Kreml Bakıda törətdiyi ağır cinayətləri Naxçıvanda da təkrar edə bilmədi. Ermənilərin muxtar respublikaya hücumları müvəqqəti də olsa dayandı.

* * *

Xalqımızın ümummilli lideri Heydər Əliyev də sonralar Naxçıvan MSSR Ali Sovetinin həmin tarixi qərarını yüksək qiymətləndirərək deyəcəkdi: "Mən Moskvada olarkən Azərbaycana qarşı edilən bu cinayətə qarşı etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim... Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər: Azərbaycana qarşı edilən cinayətə, təcavüzə görə Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqının tərkibindən çıxmaq haqqında qərar qəbul ediblər... Naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovetlər İttifaqında yeganə bir addım idi... Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".

Xalq isə öz azadlıq, istiqlaliyyət uğrunda mübarizəsində dönməz idi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək bu dövrdə "Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan

əhalisinin demək olar ki, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi".

Sovet ordusunun Bakı şəhərində törətdiyi kütləvi qırğınlar, ermənilərin Naxçıvana aramsız hücumları muxtar respublika əhalisinin Kommunist Partiyasına və Sovet dövlətinə onsuz da azalmış inamının tamamilə itməsinə gətirib çıxardı. İnsanlar kütləvi surətdə partiya və komsomol biletlərindən imtina edir, Sovet hakimiyyəti ilə bağlı bütün simvol və atributları dağıdırdılar. Bir müddət keçdikdən sonra bəzi kommunistlər öz partiya biletlərini geri alsalar da, bu, muxtar respublikada Kommunist Partiyasının yerli strukturlarının əvvəlki fəaliyyətini bərpa etməyə kömək etmədi. Sovet hakimiyyəti süquta uğramaqda idi.

Ermənistanın Naxçıvanı tam iqtisadi, nəqliyyat və informasiya blokadasına alması muxtar respublikanın iqtisadiyyatını iflic vəziyyətinə salmışdı. Xammal və materialların gətirilməməsi sənaye müəssisələri, tikinti təşkilatları işini dayandırmış, əhalinin gündəlik tələbat məhsulları ilə təminatı çətinləşmişdi. Dəmiryolunun fəaliyyətinin dayanması nəticəsində muxtar respublikaya 643 min ton yük daşınmamış, 4704 vaqon yüklənməmiş, 235 min ton yük göndərilməmiş, 11757 vaqon boşaldılmamışdı. Dəmiryol şəbəkəsinə 2,5 mln. manat ziyan dəymişdi. Xalq isə bunun ağrı-əzabını çəkməkdə idi.

Bir sözlə, 1990-cı ilin əvvəllərində artıq Naxçıvanın səmasında "qara buludlar" görünməkdə idi. Respublika rəhbərliyinin nadanlığı nəticəsində qədim torpaq sanki günü-gündən "ölüm və ya olum" dilemması qarşısında dayanmaqda idi. Onun böyük bir xilaskara, mudrik bir rəhbərə, uzaqgörən siyasətçiyə hava və su qədər ehtiyacı var idi. Belə bir şəxsiyyət isə xalqımızın ümummilli lideri Heydər Əliyev oldu...

**"Azərbaycan",**
**14 yanvar 2008-ci il**

## Milli istiqlal mücadiləsinin Naxçıvan mərhələsi

**"Doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm... Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir".**

**Heydər ƏLİYEV**

Hər bir xalq öz müstəqillik arzusunu, istiqlal duyğusunu həmişə ürəyində yaşadıb, haçansa onun gerçəkləşməsi, reallaşması üçün əlverişli məqam gözləyib. Azərbaycanda belə məqam ötən əsrin 80-ci illərinin ortalarından başlayaraq keçmiş SSRI-də və bütün dünyada gedən ictimai-siyasi proseslərin labüd nəticəsində yaranıb. 1988-ci ilin 17 noyabrında azadlıq və istiqlaliyyət arzusunda olan xalq öz qəti sözünü deməkdən, gücünü, birliyini, əzmini göstərməkdən ötrü meydanlara axışıb.

Təbii ki, azadlıq istəyi xalq hərəkatından başlansa da, həmin günlərdə meydanda xalqın həqiqi mənada milli lideri olmadığından dövlətçiliyimizin dirçəliş ideyasının həyata keçirilməsində siyasi və tarixi baxımdan mühüm və vacib addımlar atılmadı. Meydan hərəkatına rəhbərliyi öz inhisarına keçirmiş bir qrup səbatsız və ambisiyalı şəxsin səriştəsiz siyasəti nəticəsində respublikanın milli fəlakətə sürükləndiyi bir vaxtda xalq getdikcə daha yaxından əmin olurdu ki, onun milli liderə böyük ehtiyacı var. Belə bir tarixi şəxsiyyət isə yalnız Heydər Əliyev idi. Əslində bunu o vaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edirdi. Odur ki, görkəmli dövlət xadimi və uzaqgörən siyasətçini siyasi təqiblərə, əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul

olmasına əngəllər törədirdilər. Azərbaycan xalqının böyük əksəriyyəti isə rastlaşdığı problemlərin yalnız Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanaraq, onun respublika rəhbərliyinə qaytarılmasını təkidlə tələb edirdi. Bu hərəkatın ən fəal iştirakçısı isə o dövrdə heç şübhəsiz ki, Naxçıvan əhalisi idi. 1988-ci ildən muxtar respublikada geniş vüsət alan mitinq və yürüşlərə xalq Heydər Əliyevin portretləri ilə çıxır, öz milli liderinə qarşı aparılan haqsız təqib kampaniyalarına son qoyulmasını tələb edirdi.

* * *

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-cı ilin iyulun 22-də Naxçıvana və böyük siyasətə qayıdışı imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Onda Dağlıq Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan və sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan Muxtar Respublikası sonralar Heydər Əliyevin təbirincə, "taleyin ümidinə buraxılmış bir ada"nı xatırladırdı. Muxtar respublikanın nəqliyyat-kommunikasiya xətləri bədxah və yaramaz qonşularımız ermənilər tərəfindən kəsiləndən, tam iqtisadi blokadaya alınandan sonra burada iqtisadi və siyasi böhran daha da dərinləşmişdi. Naxçıvana gəlişi barədə dahi şəxsiyyət sonralar belə deyəcəkdi: "Moskvada məni təqib edirdilər... Hətta Yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş". Gəlişi haqqında heç kimə xəbər verməsə də, bu xəbər tez bir zamanda bütün muxtar respublika əhalisinə məlum oldu. Elə həmin axşam Naxçıvan şəhərindəki mərkəzi meydanda toplaşmış 80 min insan Heydər Əliyevə özünün nicatı və son ümidi kimi baxırdı.

Ən acınacaqlı hal isə məhz belə bir şəraitdə respublikaya rəhbərlik edən Ə. Vəzirov və A.Mütəllibov kimi imperiyaya sadiq nökərlərin bu regiona ögey və laqeyd münasibət bəsləmələri idi. Naxçıvana qayıdışı ilə

Heydər Əliyev bu bölgəni və bütün Azərbaycanı gözləyən real təhlükədən xilas etdi. Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası ilə bir vaxta düşdü. Babək rayonunun Nehrəm kəndində "Kommunizm" sovxozunun əməkçiləri ilə görüşdə Heydər Əlirza oğlu Əliyevin 340 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürüldü. 1990-cı il iyulun 25-də Heydər Əliyev seçki komissiyasının sədrinə və "Kommunizm" sovxozunun əmək kollektivinə göndərdiyi məktubda həmin dairədən deputatlığa namizədliyinə razılıq vermiş və seçicilərini əmin etmişdi ki, o, bütün səyini, bacarığını, təcrübəsini respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişinin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadı doğrultmağa sərf edəcək. Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə Heydər Əliyev öz platforması haqqında məlumat verərək demişdir: "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır. Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır". Böyük siyasətçi həmçinin 2 nömrəli Naxçıvan şəhər M.F.Axundov adına seçki dairəsi üzrə Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilmişdi.

* * *

Naxçıvanda ağır və gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi dövrdə - 17 noyabr 1990-cı ildə muxtar respublika Ali Məclisinin I sessiyası keçirildi. Xalqımız öz tarixi taleyində oynadığı rola, ilk Azərbaycan Xalq Cümhuriyyətinin başladığı işi çətin və gərgin bir şəraitdə həmin sessiyada davam etdirdiyinə görə ümummilli liderimiz Heydər Əliyevə daim minnətdar olacaqdır.

Ali Məclisə yeni seçkilər 30 sentyabr 1990-cı ildə baş tutsa da (110 deputat mandatından 36-sını demokratik qüvvələr qazanmışdı), onun ilk sessiyasının keçirilməsinin gecikdirilməsi bir sıra obyektiv və subyektiv səbəblərlə bağlı oldu. Ilk əvvəl isə respublikamızda kommunist rejiminin hələ də yaşaması xalq hərəkatının inkişafına əngəllər törədirdi. Digər tərəfdən də həmin tarixdə Azərbaycan SSR Ali Sovetinə də seçkilər

keçirildiyindən və ötən müddətdə həmin qanunverici orqanın sessiyası çağırılmadığından Naxçıvan parlamentinə seçilən bəzi qüvvələr də onun çağırılması barədə gözləmə mövqeyində dayanmağı üstün tutdular. Lakin Naxçıvanda demokratik əhval-ruhiyyənin, milli azadlıq və istiqlaliyyət hissinin yüksək olması bu sessiyanın keçirilməsini də sürətləndirdi. Sessiyanın çağırılması barədə deputatların fikirləri də müxtəlif idi. Hətta noyabrın 9-da bununla bağlı keçirilən deputat nümayəndələrinin müşavirəsində də bir tərəfdən çılğınlıqla çıxış edən deputatlar, onun üç gün ərzində keçirilməsini istəyirdilərsə, kommunist rejimi mövqeyində dayanan xalq deputatları isə onun Azərbaycan Ali Sovetinin sessiyasından sonra çağırılmasını məqsədəuyğun bilirdilər.

Həmin müşavirədə sıravi xalq deputatı Heydər Əliyev sessiyanın çağırılması, onun gündəliyi ilə bağlı bütün çıxış və təklifləri diqqətlə dinləyəndən sonra söz alaraq ilk növbədə yeni seçilmiş deputatları təmkinli olmağa, fikir ayrılıqlarına dözümlülük göstərməyə, xalqın taleyüklü məsələlərinə məsuliyyətlə yanaşmağa çağırdı. O, böyük təcrübə və nüfuzundan istifadə edərək deputatlar adından fikir ayrılıqlarını bir araya gətirdi. Ən acınacaqlı hal isə ondan ibarət oldu ki, sessiya çağırılarkən həmin vaxtlarda "Doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm" - sözlərini dönə-dönə təkrarlayan sıravi xalq deputatı Heydər Əliyevin noyabrın 9-da deputatların müşavirəsində milli dövlətçiliyimizin dirçəlişi ilə bağlı irəli sürdüyü təkliflər gündəliyə salınmamışdı. "Təəssüf ki, mənim bu təkliflərimi gündəliyi hazırlayan aparat işçiləri qəbul etməmiş və gündəliyə salmamışlar" - söyləyən Heydər Əliyev I sessiyaya sədrlik edərkən yenidən həmin məsələlərlə bağlı təkliflərini verdi.

Təbii ki, Heydər Əliyevin sədrliyi ilə keçən həmin sessiyanın bu gün tariximizdə mühüm əhəmiyyət kəsb etməsi bu qanunvericilik orqanında Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarların qəbul edilməsi ilə bağlıdır. Sessiyada ilk növbədə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet", "Sosialist" sözləri çıxarıldı, onun Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan MSSR Ali Sovetinin də adı dəyişdirildi. Bundan sonra onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

adlandırılması haqqında qərar qəbul edildi. Sovetlər Birliyinin yaşadığı bir dövrdə muxtar respublikanın adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması həqiqətən də böyük cəsarət, uzaqgörənlik tələb edirdi. Bu addımı atmaq o dövrdə ilk növbədə hələ də hakimiyyətdə olan kommunist rejiminin qəzəbinə düçar olmaq demək idi.

Sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə olundu. Azərbaycan Demokratik Respublikasının rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi heç də adi məsələ deyildi. Bu, ilk növbədə müstəqil dövlətçiliyimizin bərpasına çalışmaq idi. Azərbaycan Xalq Cümhuriyyətinin davam etdirə bilmədiyi müstəqillik amalına böyük öndərin sədaqəti idi. Sessiyada xalq deputatlarının ciddi müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar bir neçə təklif irəli sürüldü. Birincisi o oldu ki, Azərbaycanın milli bayrağı Naxçıvan parlamentində qaldırılsın və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında bu bayrağı qəbul etmək məsələsi qoyulsun. Ikinci təklif isə ondan ibarət idi ki, Ali Məclis bununla bağlı qərar qəbul edir və respublika parlamenti qarşısında məsələ qaldırır ki, onlar Azərbaycanın dövlət rəmzinə baxsınlar. Möhtərəm Heydər Əliyevin irəli sürdüyü və müdafiə etdiyi təklif isə belə idi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Demokratik Respublikasının üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin". Uzun müzakirələrdən sonra belə razılığa gəlindi ki, dünya şöhrətli siyasətçinin irəli sürdüyü təklifin üzərində dayanılsın. Təklif böyük səs çoxluğu ilə qəbul olundu. Ali Məclisin sessiyası geniş müzakirələrdən sonra milli bayraq ilə əlaqədar iki bəndlik qərar qəbul etdi. Birinci bənddə Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağının Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi əksini tapırdısa, digər bənddə Azərbaycan Respublikasının ali qanunverici orqanından xahiş edilirdi: "Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında məsələyə baxsın və Azərbaycan Respublikasının milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzləri - bayrağı, gerbi, himni qəbul olunsun". Təbii ki, qəbul olunan bu tarixi-siyasi əhəmiyyətli qərarlar ölkəmizdə milli dövlət dirçəlişi ideyasının həyata keçirilməsi sahəsində atılan ilk addımlar idi.

* * *

Azərbaycan dövlətçiliyinin ən mühüm atributlarından biri olan dövlət bayrağı məsələsində ilk qanunvericilik təşəbbüsü məhz Naxçıvan Ali Məclisinə, onun fəaliyyətinə rəhbərlik etmiş dünya şöhrətli siyasətçi Heydər Əliyevə məxsusdur. Digər taleyüklü məsələlərin həllində də Naxçıvan parlamenti qanunvericilik təşəbbüsü ilə çıxış edirdi.

Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verildi. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin sessiyasının müzakirəsinə təqdim etdi. Nəmin gün Ali Məclisin binası önünə toplanmış xalq kütlələrinin ciddi tələbi, muxtar respublika deputatlarının fəallığı və Heydər Əliyevin böyük siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə qanlı yanvar hadisələrinə düzgün siyasi qiymət verilmiş, bu hadisədə SSRI rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilmiş və onların adları açıq göstərilərək məsuliyyətə cəlb edilmələri tələb olunmuşdu. Qəbul edilmiş qərarda Yanvar hadisələri Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilmiş, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocalara, qadınlara, uşaqlara olunmuş təcavüz kimi ittiham edilmişdi. Sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan MR-də milli matəm günü kimi qeyd edilməsi qərara alınmış və bu günün hər il Azərbaycan SSR-də də milli matəm günü kimi qeyd edilməsi respublika Ali Sovetindən xahiş edilmişdi. Ali Məclis Bakı şəhərində fövqəladə vəziyyətə də öz münasibətini bildirmiş və qeyd etmişdi ki, hüquqi əsas olmadan 1990-cı ilin yanvar ayında Bakı şəhərində fövqəladə vəziyyət elan olunması qeyri-qanuni hesab edilsin və pislənilsin.

Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilmiş sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi də müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev bildirdi ki, yeni ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür. "Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir. Son 3 ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız

yoxdur". Sessiya iştirakçıları yekdilliklə yeni ittifaq layihəsinin xalqımızın iradə və mənafeyinə zidd sənəd olduğunu göstərdilər.

Muxtar respublikada demokratikləşmə istiqamətində atılan addımlar Azərbaycanın demokratik ictimaiyyəti tərəfindən dəstəklənirdi. Məhz demokratik qüvvələrin təsiri nəticəsində az sonralar Azərbaycan SSR rəhbərliyi bəzi addımlar atmağa məcbur oldu: dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq edildi. 1991-ci ilin avqustun 29-da xalqın təkidli tələbi ilə Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası çağırıldı. Heydər Əliyev sessiyada çıxış edərək, Azərbaycan Kommunist Partiyası rəhbərliyinin mürtəce siyasətini və buraxdığı kobud səhvləri ifşa etdi. Öz çıxışında o, Ali Sovetin Rəyasət Heyətinə göndərdiyi məktubdakı təkliflərini bir daha deputatların nəzərinə çatdıraraq Kommunist Partiyasının hakimiyyətdən getməsini, respublika rəhbərliyinin qiyam zamanı tutduğu mövqeyinin müzakirə edilməsini, 20 Yanvar hadisələrinə respublika səviyyəsində siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını, parlamentin buraxılmasını və yeni seçkilərin keçirilməsini tələb etdi. Sessiya avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat verdi. Lakin Heydər Əliyev çıxış edərək bu bəyanatın konyuktur xarakter daşıdığını və formal olaraq mart ayında keçirilmiş referendumun nəticəsinə zidd olduğunu diqqətə çatdırmış və 17 mart referendumunun nəticəsinin ləğv edilməsi təklifini irəli sürdü. Eyni zamanda Heydər Əliyev bəyanatın mətninə 1920-ci ilin aprelin 28-i "Azərbaycanın işğalı günü" kimi əlavə edilməsini də təklif etdi.

* * *

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan MR-in ictimai-siyasi həyatında onun müqəddəratını həll edəcək mühüm hadisələr baş verdi. Naxçıvan əhalisinin müdrikliyi və uzaqgörənliyi həm də onda oldu ki, ümumi Azərbaycan evimizin divarından hər gün onlarla kərpicin düşdüyü bir dövrdə böyük uzaqgörənlik nümunəsi göstərərək düzgün rəhbər seçimi edə bildilər. Sentyabrın ilk günündə muxtar respublikanın bütün sakinləri ayağa qalxıb qüdrətli siyasətçi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsini öz üzərinə götürməsini təkidlə tələb etdilər. Şəhərin Azadlıq meydanında bir neçə gün ara vermədən davam edən və 60-70 min nəfərin iştirak etdiyi mitinqlərdə xalq öz qəti

tələbindən dönmürdü. Nəhayət, onların bu haqlı və təkidli tələbi sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında yerinə yetirildi. Heydər Əliyev isə sessiyada çıxış edərək hakimiyyət arzusunda olmadığını bir daha bəyan etdi: "Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya sədrlik etməkdən imtina etdim. Iclası axıra qədər sədrin müavini aparırdı...".

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi milli miqyasda böyük hadisə oldu. Məsələ heç də keçmiş Sovetlər Ittifaqının Siyasi Bürosuna mənsub nüfuzlu simalardan birinin - SSRI Nazirlər Soveti Sədrinin birinci müavininin Azərbaycanın ərazisinin bir hissəsində - muxtar respublikada Ali Məclisə Sədr vəzifəsinə seçilməsində deyildi. Heydər Əliyev ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi.

Iqtisadi blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında duruş gətirməklə bərabər, həm də iqtisadi problemlərin həllinə ciddi diqqət yetirib, yeni firavan həyat quruculuğuna başlamasında da Heydər Əliyev şəxsiyyətinin önəmli rolu oldu. Elə bu səbəbdən də Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində tədbirlər təkcə siyasi müstəvidə getmir, yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşan iqtisadi model formalaşırdı. Ali Məclisə sədr seçildiyi gündən başlayaraq Heydər Əliyev muxtar respublikanı ağır iqtisadi böhrandan çıxartmaq, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bir sıra mütərəqqi tədbirlər həyata keçirməyə başladı.

Ali Məclisin Rəyasət Heyətinin 5 fevral 1992-ci il tarixli iclasında blokada şəraitində yaşayan Naxçıvanın iqtisadi problemlərinin həllində mühüm rol oynaya biləcək, muxtar respublika ilə qonşu ölkələr arasında iqtisadi ticarət və mədəni əlaqələrin genişlənməsinə təkan verəcək Naxçıvan aeroportunda tikinti işlərinin gedişi müzakirə edilmiş, hava limanında yeni uçuş xəttinin qısa müddətdə istifadəyə verilməsi üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirilmişdi. Ağıryüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni aeroportun ilk növbəsi qısa müddətə, 1991-ci ilin martın əvvəllərində işə salındı.

Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin 6 aprel 1992-ci il tarixdə keçirilmiş növbəti sessiyasında iqtisadi islahatlarla bağlı məsələ müzakirə edildi. Qızğın müzakirələrdən sonra muxtar respublikanın

iqtisadi vəziyyətinin müsbət yönümdə inkişafına təkan verəcək iki mühüm qərar qəbul edildi. "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında". Birinci məsələ ilə əlaqədar qərara alındı ki, zərərlə işləyən təsərrüfatlar özəlləşdirilsin və onlara məxsus torpaqlar, ictimai əmlak və mal-qara əhaliyə paylanılsın. Ilk növbədə də Culfa rayonunun Şurud və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatına başlanıldı. Torpaqlar pay norması əsasında həmin kənddə yaşayan əhaliyə paylandı. Sosial ədalət və bərabərlik prinsipi bu prosesin ana xəttini təşkil edirdi. Yeni yaradılan şəxsi təsərrüfatlara əməli kömək məqsədi ilə onlara toxum, gübrə, maşın-mexanizmlərin və sair zəruri maddi-texniki avadanlığın ayrılması nəzərdə tutulurdu. Muxtar respublika rəhbərliyi blokada çətinlikləri nəticəsində ictimai təsərrüfatlarda mal-qaranın tələf olmasının qarşısını almaq üçün daha bir radikal addım ataraq, hətta rentabelli kolxoz və sovxozlarda ictimai mal-qaranın təsərrüfat üzvlərinə və kənd sakinlərinə satılmasını məqsədəuyğun hesab etdi. Əslində bu vəziyyətdən doğan məcburi addım idi.

* * *

Bütün səylərə baxmayaraq muxtar respublikada iqtisadi vəziyyət gərgin olaraq qalırdı. Dəmir yolunun işləməməsi, 1992-ci il aprelin 24-dən isə tamamilə dayanması, 1991-ci ilin dekabrından muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin isə 1992-ci il iyulun 13-dən tamamilə kəsilməsi mövcud böhranı daha da dərinləşdirmişdi. Blokada şəraitinin ən ağır təsiri əhalinin zəruri ərzaq məhsulları, birinci növbədə çörəklə təminatının pisləşməsinə səbəb olmuşdu. Tələbat minimum səviyyədə ödənilirdi. Bütün bunlar bölgədə sosial-iqtisadi gərginlik yaratmış, əhalinin yaşayış tərzi dözülməz vəziyyətə düşmüşdü. Ali Məclisin Rəyasət Heyətinin 9 və 25 iyul 1992-ci il tarixli iclaslarında bu məsələlər ətraflı müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdu. Lakin Naxçıvanın daxili imkanlarının məhdudluğu vəziyyəti yaxşılaşdırmağa imkan vermirdi.

Nə A.Mütəllibov iqtidarı, nə də onun yerinə gəlmiş AXC-Müsavat cütlüyü muxtar respublikanın mövcud ağır vəziyyətini qismən də olsa yaxşılaşdırmaq üçün heç bir əməli tədbir görməyə qadir deyildilər. Düzdür, Azərbaycan Respublikasının Nazirlər Kabineti 11 fevral 1992-ci

ildə "Naxçıvan MR-in etibarlı kommunikasiya əlaqələrinin inkişaf etdirilməsi tədbirləri haqqında" qərar qəbul etsə də, bu qərar Azərbaycanın müvafiq nazirlik və baş idarələri tərəfindən yerinə yetirilməmişdi. Naxçıvanda fəaliyyət göstərən Xalq Cəbhəsinin fəalları, deputat nümayəndələri Naxçıvanda vəziyyəti pisləşdirmək, muxtar respublika rəhbərliyinin fəaliyyətini iflic etmək üçün bütün tədbirlərə əl atırdılar.

1992-ci ilin 8 avqustunda Naxçıvan MR-in rəhbərliyi bölgənin sosial-iqtisadi vəziyyətini müzakirə etmək üçün Ali Məclisin sessiyasını çağırmaq qərarına gəldi. Sessiyanın çağırılması Azərbaycan rəhbərliyi ilə razılaşdırılmış, onun işində iştirak etmək üçün respublikanın bir çox rəhbər işçiləri Naxçıvana gəlmişdilər. Lakin Xalq Cəbhəsindən olan deputatların sessiyada iştirakdan imtina etmələri nəticəsində yetərsay olmadığına görə Ali Məclisin sessiyası baş tutmamışdı. Azərbaycanın siyasi hakimiyyət nümayəndələrinin Naxçıvanın taleyi ilə hesablaşmadığı bir şəraitdə muxtar respublika Ali Məclisinin Sədri bölgənin məhdud daxili imkanlarından maksimum istifadə etməyə çalışır, qonşu dövlətlərlə - Türkiyə və Iranla iqtisadi əlaqələrin inkişafı üçün zəruri tədbirlər həyata keçirirdilər.

1992-ci il martın 24-də Ankarada Türkiyə Respublikası hökuməti ilə Azərbaycanın Naxçıvan MR arasında bağlanmış iş birliyi protokolu, Iran ilə Naxçıvan MR arasında 24 avqust 1992-ci il tarixli protokol bölgənin ağır böhrandan çıxmasında mühüm rol oynadı. Qonşu dövlətlərlə əlaqələrin yaradılması, eləcə də daxili imkanlardan istifadə edilməklə müvafiq təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi nəticəsində muxtar respublikada iqtisadi fəlakətin qarşısı alındı.

Heydər Əliyev Naxçıvan MR-in rəhbəri olduğu dövrdə muxtar respublikada elmin, təhsilin, mədəniyyətin, siyasi maarifçiliyin ictimai faktora çevrilməsi, inkişaf etdirilməsi məsələlərinə xüsusi əhəmiyyət verilmiş, bu sahələrdə ciddi, yaddaqalan tədbirlər həyata keçirilmişdi.

Bir sözlə, 1990-1993-cü illərdə Azərbaycan xalqının dirçəlişi, dövlətçiliyin bərpa olunması, milli birliyin və mənəvi bütövlüyün təmin olunması istiqamətində Naxçıvan parlamentində bir çox tarixi əhəmiyyətli qərarlar qəbul edildi. Bütün bunlar bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

**"Azərbaycan",**

**12 iyun 2007-ci il**

## Böyük siyasətə qayıdışın başlanğıcı

**"Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya sədrlik etməkdən imtina etdim. Iclası axıra qədər sədrin müavini aparırdı...".**

**Heydər ƏLİYEV**

Ötən əsrin 80-ci illərinin axırları və 90-cı ilinin əvvəllərində Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü genişlənmiş, respublikaya rəhbərlik edən başçıların antimilli siyasəti sayəsində anarxiya və hərc-mərclik halları artmışdı. Bir qrup səbatsız və ambisiyalı şəxslərin səriştəsiz siyasəti nəticəsində respublikanın milli fəlakətə sürükləndiyi bir vaxtda xalq getdikcə daha dərindən başa düşürdü ki, onun əsl mənada ümummilli liderə böyük ehtiyacı vardır. Belə bir tarixi şəxsiyyət isə yalnız Heydər Əliyev idi. Əslində bunu o vaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edir və buna görə də bu böyük şəxsiyyəti, uzaqgörən siyasətçini əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər. Azərbaycan xalqının böyük əksəriyyəti isə rastlaşdığı mövcud problemlərin yalnız Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanaraq, onun respublika rəhbərliyinə qaytarılmasını təkidlə tələb edirdi. Bu hərəkatın ən fəal iştirakçılarından biri isə Naxçıvan əhalisi idi. Bu səbəbdən idi ki, 1988-ci ildən muxtar respublikada geniş vüsət alan mitinq və yürüşlərə xalq Heydər Əliyevin portretləri ilə çıxır, ümummilli liderinə qarşı aparılan haqsız təqib kampaniyalarına son qoyulmasını tələb edirdi. Hətta iş o yerə çatmışdı ki, bütün qadağa və təzyiqlərə baxmayaraq Heydər Əliyev 1990-cı ilin martın 17-də keçirilən Naxçıvan Şəhər Partiya Komitəsinin növbəti konfransında Azərbaycan KP XXXII qurultayına nümayəndə seçildi. Heydər Əliyevin 1990-cı il iyul ayının 22-də doğma vətəni olan Naxçıvana gəlişi burada yaşayan əhaliyə böyük ümid və sevinc bəxş etdi. Milli zəmində münaqişələr başlayandan sabahkı həyatlarına naümid baxan, "ölüm, ya olum" sualı qarşısında qalan

insanlara sanki yeni nəfəs, yeni ruh gəldi. Həqiqi mənada əzablı və məşəqqətli günlərini yaşayan, "taleyin ümidinə buraxılmış bir ada"nı xatırladan diyarı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü elə bil yerigöyü yaradan ilahi qüvvə dahi və müdrik bir insanı öz doğma yurduna xilaskar göndərmişdi. Ulu öndər sonralar bu barədə belə deyəcəkdi: "1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim.

Moskvada məni təqib edirdilər... Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş".

## Naxçıvandan başlanan milli dirçəliş prosesi

Ulu öndər Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ən acınacaqlısı isə məhz belə bir şəraitdə Azərbaycana rəhbərlik edən Ə.Vəzirov, A.Mütəllibov kimi imperiyanın əlində qalanların bu regiona ögey və laqeyd münasibət bəsləmələri idi. Bu dövrdə Naxçıvanın müxtəlif şəhər və kəndlərindən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edir, onu ayrı-ayrı dairələrdən xalq deputatlığına namizəd irəli sürürdülər. Babək rayonunun Nehrəm kəndində "Kommunizm" sovxozunun əməkçiləri ilə görüşdə Heydər Əlirza oğlu Əliyevin 340 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürüldü. 1990-cı il iyulun 25-də Heydər Əliyev seçki komissiyasının sədrinə və "Kommunizm" sovxozunun əmək kollektivinə göndərdiyi məktubda həmin dairədən deputatlığa namizədliyinə razılıq vermiş və seçicilərini əmin etmişdi ki, o, bütün səyini, bacarığını, təcrübəsini respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadı doğrultmağa sərf edəcəkdir. Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə isə ulu öndər öz platforması haqqında məlumat verərək qeyd etmişdi: "Mənim əsas

məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır. Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır".

## Milli dövlətçiliyimizin bərpası istiqamətində atılan ilk addımlar

Naxçıvanda bu cür ictimai-siyasi proseslərin cərəyan etdiyi bir dövrdə -17 noyabr 1990-cı il tarixdə yeni tərkibdə seçilmiş muxtar respublika Ali Məclisinin birinci sessiyası öz işinə başladı. Xalq deputatı Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin sessiyanın qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar bu gün də müstəqillik tariximizdə özünəməxsus yer tutur. Həmin sessiyada ilk növbədə Naxçıvan MSSR adından "sovet", "sosialist" sözləri çıxarıldı, onun "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan MSSR Ali Sovetinin də adı dəyişdirildi, bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul edildi. Əlbəttə, Sovetlər Birliyinin yaşadığı, onun iti qılıncının kəsdiyi bir dövrdə muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması həqiqətən də böyük uzaqgörənlik tələb edirdi. Bu addımı atmaq ilk növbədə ölkədə hökmranlıq edən kommunist rejiminin qatı və kəskin qəzəbinə düçar olmaq demək idi. Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin həmin sessiyasında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş müzakirə olundu. Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi. Bununla bərabər, Naxçıvan parlamenti qanunvericilik təşəbbüsü ilə Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldıraraq Azərbaycan Respublikasının dövlət rəmzlərinə yenidən baxılmasını təklif etdi. Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoyan 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət də bu sessiya tərəfindən verildi. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi. Ümummilli lider Heydər Əliyevin nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə yanvar hadisələrinə düzgün siyasi qiymət verildi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilir və onların adları açıq göstərilərək məsuliyyətə cəlb edilmələri tələb olunurdu. Qəbul

edilmiş qərarda yanvar hadisələri Azərbaycan SSR-nin suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirildi, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocalara, qadınlara, uşaqlara təcavüz kimi ittiham edildi.

## Xalqın haqlı və təkidli tələbi

1991-ci il sentyabr ayının əvvəllərində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında onun müqəddəratını həll edəcək mühüm hadisələr baş verdi. Naxçıvan əhalisinin müdrikliyi və uzaqgörənliyi həm də onda oldu ki, ümumi Azərbaycan evimizin divarının söküldüyü bir dövrdə böyük uzaqgörənlik nümunəsi göstərərək düzgün rəhbər seçimi edə bildilər. Sentyabrın ilk günündə muxtar respublikanın bütün sakinləri ayağa qalxıb qüdrətli siyasətçi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsini öz üzərinə götürməsini təkidlə tələb etdilər. Onların bu haqlı və təkidli tələbi sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında yerinə yetirildi. Lakin hadisələrin gedişi göstərdi ki, ulu öndər Heydər Əliyev heç də vəzifə arzusunda deyildi. Ali Məclisin sədri seçilən müdrik insan sonralar bununla bağlı belə deyəcəkdi: "Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs, siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən Azərbaycan xalqının hər bir tapşırığını yerinə yetirməyə hazıram.

Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini aparırdı... Çox böyük əziyyət, mənəvi əziyyət içərisindəydim ki, mənim razılığım olmadan məni sədr seçdilər".

Həmin sessiyada 4 dəfə söz alıb çıxış edən Heydər Əliyev deputatlardan mümkünsə onun yerinə başqa adamın namizədliyinə baxmağı, müzakirə etməyi xahiş etdi. Hətta sessiyanın növbəti iclasında isə o, deputatları demokratik blok tərəfindən sədrliyə namizədliyi irəli sürülən şəxsə səs verməyə çağırdı.

"Mən bu zamanın, bu dəqiqələrin hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsipimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə

çətin vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqıma tapşırmışam. Və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm", - bu sözləri isə ulu öndər sentyabrın 5-də keçirilən sessiyanın növbəti iclasında söyləyirdi.

Həmin sessiyanın tariximizdə oynadığı rol bunlarla bitmədi. "Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında" Ali Məclisin qəbul etdiyi qərar da o zaman Azərbaycanda hakimiyyətdə olan səlahiyyət sahiblərinin, ilk növbədə isə Azərbaycan KP MK-nın birinci katibi olan Ayaz Mütəllibovun qəzəbinə tuş gəldi. Bununla bağlı muxtar respublika Ali Məclisinin sədri Heydər Əliyev ürək ağrısı ilə deyirdi: "İndi bizə həmişəkindən daha çox birlik və yekdillik lazımdır. Lakin xalqın birliyini pozmaq, etimadsızlıq yaratmaq, onu cəbhələşmə girdabına salmaq istəyən qüvvələr vardır. Həmin qüvvələr bizi əslində özünütəcrid vəziyyətinə çağırırlar. Güya Ali Məclis Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibindən çıxması barədə qərar qəbul etmişdir. Həmin qüvvələr, çox təəssüf ki, respublikanın mərkəzində rəhbərlik tərəfindən idarə olunur". Ali Məclisin bu məsələ ilə bağlı qəbul etdiyi qərarın birinci bəndində isə cəsarətlə deyilirdi: "Azərbaycan Respublikası prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan Muxtar Respublikası ərazisində keçirilməsi dayandırılsın". Heydər Əliyev bu məsələ ilə bağlı öz fikrini isə belə açıqlayırdı: "Bu seçkilər kiminsə hakimiyyət hərisliyindən doğan arzusunun təmin olunmasına yönələ bilməz. Əksinə, ədalətin, xalq istəyinin yerinə yetirilməsinə xidmət etməlidir".

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçilməsi milli miqyasda böyük hadisə oldu. Məsələ heç də keçmiş Sovetlər İttifaqının Siyasi Bürosuna mənsub nüfuzlu simalardan birinin SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin Azərbaycanın ərazisinin bir hissəsində muxtar respublikada Ali Məclisə sədr vəzifəsinə seçilməsində deyildir. Heydər Əliyev ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi.

## Çıraq işığında qəbul olunan qərarlar

Ümummilli lider Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi qısa zaman kəsiyində Azərbaycanın imperiya asılılığından xilas olması, müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi.

Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı.

Heydər Əliyevin rəhbərliyi altında milli şüurun dirçəldilməsi istiqamətində görülən sonrakı tədbirlər də öz bəhrəsini verdi; Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus olan silah-sursatın, texnikanın və əmlakın Azərbaycanın digər yerlərindən fərqli olaraq bütünlüklə Naxçıvanda saxlanması şərti ilə bu torpağı tərk etdilər. Məhz o dövrdə indiyədək Azərbaycanın həm yaxın, həm də uzaq olan qonşuları Türkiyə və İranla xarici iqtisadi əlaqələr yaradıldı. Araz çayı üzərində 130 metr uzunluğunda eni olan 11 aşırımlı "Ümid" körpüsü, Sədərək, Culfa və Naxçıvan keçid məntəqələri istifadəyə verildi.

Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmaq missiyasına Naxçıvandan başladı. Ulu öndər eyni bir dövrdə nəinki daxili, həm də xarici siyasətdə yaranan problemlərin həllinə səy göstərdi. Bu dövrdə də Heydər Əliyev şəxsiyyətinin, nüfuzunun dünyada böyüklüyü naxçıvanlıların köməyinə çatdı. Türkiyənin o vaxtkı Baş Naziri Süleyman Dəmirəl, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani şəxsi təyyarələrini Naxçıvana göndərdilər. Onlar Heydər Əliyevi dövlət başçısı səviyyəsində öz torpaqlarında qəbul etdilər. Naxçıvana xarici ölkələr tərəfindən böyük həcmdə yardımlar ayrıldı, kreditlər verildi. 1991-ci il dekabrın 16-da isə "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik günü haqqında" tarixi qərar qəbul edildi. İlk dəfə qanunvericilik orqanı səviyyəsində bu qərarın həyata keçirildiyi məkan Naxçıvan, bu cəsarətli qərara imza atan isə yenə də ümummilli lider Heydər Əliyev oldu. Məhz həmin tarixi gündən başlayaraq hər ilin son günü - 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunmağa başladı.

Heydər Əliyev kimi dahi siyasətçinin neft lampası işığında imzaladığı qərarlar nəticəsində Naxçıvan və bütövlükdə Azərbaycan imperiyanın caynaqlarından xilas olmağa başladı və dövlət müstəqilliyinin gerçəkləşməsi yolunda ilk addımlar atıldı. İqtisadi blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında duruş gətirməklə bərabər, həm də iqtisadi problemlərin həllinə ciddi diqqət yetirib, yeni həyat quruculuğuna başlamasında da Heydər Əliyev şəxsiyyətinin önəmli rolu oldu.

**"Azərbaycan",**
**2 sentyabr 2007-ci il**

# Naxçıvandan başlanan milli dirçəliş prosesi

**"Biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik".**

**Heydər ƏLİYEV**

## Milli azadlıq arzusu və istiqlal duyğusu

Əsrlər boyu xalqımız əzəli arzusu olan istiqlalına can atıb. Azad, suveren, müstəqil dövlətdə yaşamaq arzusuna, istəyinə ötən əsrin əvvəllərində - 1918-ci ildə qismən nail olsa da, zəngin təbii sərvətləri olan, dünyanın 12 iqlimindən 9-nun bəxş olunduğu və mühüm geosiyasi mövqedə yerləşən məmləkətimiz öz müstəqilliyini qoruyub saxlaya bilməyib. Bunun başlıca səbəbi də Azərbaycanı dünyanın bir sıra iri və güclü dövlətlərinin öz təsir dairələrində saxlamaları olub. Bu halda onun müstəqil dövlət kimi mövcudluğuna da yol verilməyib. Bu səbəbdən də ilk milli cümhuriyyətimiz olan ADR cəmi 23 ay yaşaya bilib.

Sonralar da xalqımız öz müstəqillik arzusunu, istiqlal duyğusunu həmişə ürəyində, içində yaşadıb. Haçansa onun gerçəkləşməsi, reallaşması üçün əlverişli məqam yaranacağını gözləyib, o şansdan da doğru-düzgün istifadə etməyə çalışıb. Bizlər üçün belə bir məqam isə ötən əsrin səksəninci illərinin ortalarından başlayaraq keçmiş SSRİ-də və eləcə də dünyada gedən ictimai-siyasi proseslərin labüd nəticəsində yaranıb. 1988-ci il noyabrın 17-də isə azadlıq və istiqlaliyyət arzusunda olan xalq öz qəti sözünü deməkdən, gücünü, birliyini, əzmini göstərməkdən ötəri meydanlara axışıb. Xalq hərəkatının vüsəti təkcə məmləkətimizin paytaxt şəhəri olan Bakının baş meydanını bürüməyib, ölkəmizin digər bölgələrində, eləcə də Naxçıvanda, Gəncədə, Lənkəranda təlatümlü dənizi xatırladan xalq istiqlaliyyətə, azadlığa, müstəqilliyə can atıb.

Həmin dövrdən də tariximizdə milli azadlıq uğrunda mübarizənin yeni mərhələsi başlanıb.

Həmin günlərdə meydanda xalqın həqiqi mənada milli lideri olmadığından dövlətçiliyimizim dirçəliş ideyasının həyata keçirilməsində siyasi və tarixi baxımdan mühüm və vacib addımlar atılmadı, dövlət müstəqilliyinin rəsmən elan olunması prosesi bir qədər ləngidi. Buna başlıca səbəb də, heç şübhəsiz ki, xalqla ölkəyə başçılıq edən səriştəsiz rəhbərlər arasında dərin fikir ayrılığının, ziddiyyətlərin və uçurumun mövcud olması idi. Az sonralar bu ziddiyyətlər daha da dərinləşərək taleyimizə ağır faciələr yazdı. Vəzifə hərisi olan başçılar xalqa xəyanət yolu tutaraq ittifaq rəhbərliyindən kömək gözləsələr də, xalq hərəkatına rəhbərliyi öz inhisarına keçirmiş bir qrup səbatsız və ambisiyalı şəxsin səriştəsiz siyasəti də müsbət nəticə vermədi. Respublikanın günü-gündən milli fəlakətə sürükləndiyi bir vaxtda xalq getdikcə daha yaxından duyurdu ki, onun hadisələrin indiki mürəkkəb gedişatından baş çıxara və düzgün istiqamətləndirə biləcək milli liderə, uzaqgörən siyasətçiyə böyük ehtiyacı vardır. Çətin və məsuliyyətli bir məqamda ölkədə xalqı səfərbərliyə ala biləcək bu qüvvənin olmaması öz acı nəticələrini göstərirdi. AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlişi də vəziyyəti sabitləşdirə bilmədi. Sərhəd bölgələrində təxribatlar törədildi, torpaqlarımız işğal olundu, xalqın sabaha və müstəqil dövlətçiliyə inam hissi getdikcə azalmağa başladı. Ölkədə baş verən hərc-mərcliklər, özbaşınalıqlar xalqın müstəqillik arzusuna, demokratik istəyinə və düşüncə tərzinə ağır zərbələr vurdu.

## Milli dirçəliş ideyası və milli lider

Bu dövrdə Azərbaycan xalqının böyük əksəriyyəti isə rastlaşdığı mövcud problemlərin yalnız Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanaraq onun respublika rəhbərliyinə qayıtmasını təkidlə tələb edirdi. Bunu o vaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edir və buna görə də bu uzaqgörən siyasətçini siyasi təqiblərə və əsassız böhtanlara məruz qoymaqla onu mənən və fiziki cəhətdən məhv etməyə çalışırdılar. Çünki onlar yaxşı bilirdilər ki, nə vaxtsa xalq öz liderinin ətrafında sıx birləşəcək,öz konstitusion hüquqları uğrunda fəal mübarizə aparacaqdır. Ona görə də hər vəchlə müdrik insanın öz doğma vətəninə qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər. Bütün bu təqib və çətinliklərə baxmayaraq, ulu öndər öz doğma xalqını məruz qaldığı milli-siyasi fəlakət burulğanından xilas etmək üçün doğma vətəninə qayıda bildi.

Bir qədər də bu dövrdə məmləkətimizin ayrılmaz bir parçası olan Naxçıvanda gedən mürəkkəb ictimai-siyasi proseslər haqqında danışmaq istəyirəm. Həmin dövrdə qədim diyar, həqiqətən də, özünün ağır günlərini yaşayırdı. Heydər Əliyevin sözləri ilə desək, "taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladırdı. Muxtar respublikanın nəqliyyat-kommunikasiya xətləri bədxah və yaramaz qonşularımız tərəfindən kəsiləndən sonra region tam blokada şəraitində yaşamağa məcbur oldu, bu da iqtisadi və siyasi böhranı daha da dərinləşdirdi. Heydər Əliyev bu çətinliklər barədə sonralar belə deyəcəkdi: "1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm..."

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlişi ilə milli zəmində münaqişələr başlayandan sabahkı həyatlarına naümid baxan, "olum və ya ölüm" dilemması qarşısında qalan insanlara sanki yeni nəfəs, yeni ruh verildi. Bu tarixi qayıdışı ilə ulu öndər təkcə bu bölgəni yox, eyni zamanda bütün Azərbaycanı gözləyən real bəlalardan, təhlükələrdən xilas etdi, istiqlal uğrunda mübarizənin təməli qoyuldu.

Ulu öndərin böyük siyasətə qayıdışı isə imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ən acınacaqlısı isə məhz belə bir şəraitdə respublikaya rəhbərlik edən Ə. Vəzirov və A.Mütəllibov kimi imperiyaya sadiq nökərlərini qısqanclıq ucbatından bu regiona ögey və laqeyd münasibət bəsləmələri, onun kor bağırsaq kimi kəsilib atılmasına rəvac vermələri idi.

Ulu öndərin Vətənə qayıdışı həm də Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilərlə bir vaxta düşdü. Böyük el sevgisi və xalq məhəbbəti nəticəsində müdrik siyasətçi hər iki parlamentə, qanunverici hakimiyyət orqanına deputat seçilir. Öz seçiciləri ilə ilk görüşündə də ümummilli lider onların itməkdə olan inam hisslərini özlərinə qaytara bilir: "Bir namizəd kimi platformam, məqsədim budur ki, respublikanın bu ağır iqtisadi və siyasi böhrandan çıxması üçün var qüvvəmi sərf edəcəyəm. Xalqımız çox ağır, çətin dövr keçirir. Qarabağ problemi deyilən uydurma bir problem respublikaya çaxnaşma salmışdır. Bu problemi aradan qaldırmayınca bizim rahatlığımız təmin olunmayacaq. Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir..."

Ondan bir qədər əvvəl isə dairə seçki komissiyasının sədrinə və "Kommunizm" sovxozunun əmək kollektivinə ünvanladığı məktubda həmin dairədən deputatlığa namizədliyinin irəli sürülməsinə razılıq verməklə yanaşı, seçicilərini əmin etmişdir ki, o, bütün səyini, bacarığını, təcrübəsini respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişinin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadı doğrultmağa sərf edəcəkdir.

## Müstəqilliyimizin bərpası istiqamətində ilk addımlar

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan parlamentində təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən tarixi qərarların qəbul olunmasına nail olur. Bu o dövr idi ki, Naxçıvan artıq bütün Azərbaycanda siyasi mərkəzə çevrilmişdi. Bu səbəbdən də mərkəzdə hakimiyyətdə oturanlar ölkənin müstəqilliyi ilə bağlı siyasi əhəmiyyətli qərarlar qəbul etməyə tərəddüd etdikləri bir vaxtda Naxçıvan Ali Məclisi milli dövlətçilik ənənələrinin təşəkkül tapmasına istiqamətlənən mühüm qərarlar qəbul edirdi. Bu baxımdan 17 noyabr 1990-cı ildə yeni çağırışda keçirilən muxtar respublika Ali Məclisinin birinci sessiyası milli dövlətçilik tariximizdə özünəməxsus yer tutur. Çünki bu sessiyada sonralar tariximizə qızıl hərflərlə yazıla biləcək üç mühüm taleyüklü qərar qəbul olunub. Ümummilli liderimizin rəhbərliyi və müəllifliyi altında qəbul olunan bu qərarlar milli dövlətçilik ənənələrimizin bərpasında mühüm rol oynadı. Bu səbəbdən də xalqımız öz tarixi taleyində oynadığı rola, ilk Azərbaycan Cümhuriyyətinin başladığı işi çətin və gərgin bir şəraitdə həmin sessiyada davam etdirdiyinə görə ümummilli liderimiz Heydər Əliyevə daim minnətdar olacaqdır. Ali Məclisə yeni seçkilər 30 sentyabr 1990-cı ildə baş tutsa da, onun ilk sessiyasının çağırılması bir sıra obyektiv və subyektiv səbəblər ucbatından bir qədər gecikdi. Ilk növbədə respublikamızda kommunist rejiminin hələ də yaşaması xalq hərəkatının inkişafına əngəllər törədirdi. Digər tərəfdən də həmin tarixdə Azərbaycan SSR Ali Sovetinə də seçkilər keçirildiyindən və ötən müddətdə həmin qanunverici orqanın sessiyası çağırılmadığından Naxçıvan parlamentinə seçilən bəzi qüvvələr də gözləmə mövqeyində dayanmağı üstün tuturdular. Lakin Naxçıvanda demokratik əhval-ruhiyyənin, milli azadlıq və istiqlaliyyət hissinin yüksək olması bu sessiyanın tezliklə çağırılmasını tələb edirdi. Bu barədə xalq deputatlarının fikirləri də müxtəlif idi. Hətta noyabrın 9-da bununla

bağlı müşavirə də keçirilmişdi. Həmin müşavirədə deputatların bir qismi onun üç gün ərzində keçirilməsini tələb edirdilərsə, kommunist partiyası sıralarında dayanan millət vəkilləri Azərbaycan Ali Sovetinin sessiyasından sonra onun çağırılmasını məqsədəuyğun bilirdilər.

Həmin müşavirədə iştirak edən Heydər Əliyev isə sessiyanın çağırılması, onun gündəliyi ilə bağlı bütün çıxış və təklifləri diqqətlə dinləyəndən sonra söz alaraq ilk növbədə yeni seçilmiş deputatları təmkinli olmağa, fikir aydınlıqlarına dözümlülük göstərməyə, xalqın taleyüklü məsələlərinə məsuliyyətlə yanaşmağa çağırdı. O, böyük təcrübə və nüfuzundan istifadə edərək deputatlar arasında yaranan fikir ayrılıqlarını bir araya gətirə bildi. Amma bununla da vəziyyət heç də axarına düşmədi. Ən acınacaqlı hal isə ondan ibarət oldu ki, sessiya çağırılarkən həmin vaxtlarda "Doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm" - sözlərini dönə-dönə təkrarlayan xalq deputatı, müdrik el ağsaqqalı Heydər Əliyevin noyabrın 9-da deputatların müşavirəsində milli dövlətçiliyimizin dirçəlişi ilə bağlı irəli sürdüyü təkliflər gündəliyə salınmamışdır. "Təəssüf ki, mənim bu təkliflərimi gündəliyi hazırlayan aparat işçiləri qəbul etməmiş və gündəliyə salmamışlar", - söyləyən Heydər Əliyev bu sessiyaya sədrlik edərkən yenidən həmin məsələlərlə bağlı təkliflərini müzakirəyə çıxardı, onlar xalq deputatları tərəfindən qəbul olundu.

Sessiyada ilk növbədə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet", "sosialist" sözləri çıxarıldı, onun Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan MSSR Ali Sovetinin də adı dəyişdirildi. Bundan sonra qanunverici hakimiyyət orqanının Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul edildi. Təbii ki, Sovetlər Birliyinin yaşadığı və qılıncının eninə-uzununa kəsdiyi bir dövrdə muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, həqiqətən də, böyük cəsarət, uzaqgörənlik tələb edirdi. Bu addımı atmaq hələ də hakimiyyətdə olan kommunist rejiminin qəzəbinə düçar olmaq demək idi. Ulu öndərimiz isə məhz bu cəsarətə, iradəyə malik olduğunu birmənalı şəkildə nümayiş etdirirdi. Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin həmin sessiyasında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə olundu. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi heç də adi

məsələ olmadı. Bu, ilk növbədə müstəqil dövlətçiliyimizin bərpasına çalışmaq idi. Azərbaycan Xalq Cümhuriyyətinin baş verən hadisələr ucbatından davam etdirə bilmədiyi müstəqillik amalına ulu öndərin sədaqəti idi.

Həmin sessiyada xalq deputatlarının ciddi müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar bir neçə təklif irəli sürüldü. Birinci təklif ondan ibarət idi ki, Azərbaycanın milli bayrağı Naxçıvan parlamentində qaldırılsın və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında bu bayrağı qəbul etmək məsələsi qoyulsun. Ikincisi isə belə oldu ki, Ali Məclis bununla bağlı qərar qəbul edir və respublika parlamenti qarşısında məsələ qaldırır ki, onlar Azərbaycanın dövlət rəmzlərinə baxsınlar. Heydər Əliyevin irəli sürdüyü təklif isə belə idi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Demokratik Respublikasının üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin". Uzun müzakirələrdən sonra belə razılığa gəlindi ki, dünya şöhrətli siyasətçinin irəli sürdüyü təklifin üzərində dayanılsın və həmin təklif səsə qoyularaq böyük səs çoxluğu ilə qəbul olundu. Ali Məclis milli bayraq ilə əlaqədar iki bəndlik qərar qəbul etdi. Qərarın birinci bəndində Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi əksini tapırdısa, digər bənddə Azərbaycan Respublikasının ali qanunverici orqanından belə bir xahiş edilirdi: "Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında məsələyə baxsın və Azərbaycan Respublikasının milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzləri - bayrağı, gerbi, himni qəbul olunsun".

Təbii ki, qəbul olunan bu tarixi-siyasi əhəmiyyətli qərarlar ölkəmizdə milli dövlət dirçəlişi ideyasının həyata keçirilməsi sahəsində atılan ilk addımlar idi. Heydər Əliyev isə bunlarla bağlı belə deyəcəkdi: "Biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik"

## 20 Yanvar faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət verildi

Noyabrın 21-də isə Naxçıvanda keçirilən sessiyanın növbəti iclasında Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə olaraq siyasi qiymət verildi. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi. Həmin sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Heydər Əliyev böyük ürək ağrısı ilə deyirdi: "Faciənin nə qədər böyük miqyasda olmağını onunla ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRI müdafiə naziri Yazov, SSRI daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedərdi, ancaq görün bu əməliyyatlara bunlar nə qədər böyük fikir veriblər. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir. Azərbaycan xalqının qarşısında cinayətdir." Heydər Əliyevin siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə yanvar hadisələrinə düzgün siyasi qiymət verilmiş, o, Azərbaycan xalqının demokratiya və milli-azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bir işğalçı hərəkat kimi qiymətləndirilmiş və bu qanlı hadisədə SSRI rəhbərliyi (başda SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M. Qorbaçov olmaqla) ilə yanaşı, respublika rəhbərliyinin (Ə.Vəzirov, A. Mütəllibov, E.Qafarova) də böyük günahı olduğuna görə onların da adları açıq göstərilərək məsuliyyətə cəlb edilmələri tələb olunurdu. Belə bir fakt da qeyd olunurdu ki, respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Qəbul edilmiş qərarda yanvar hadisələri Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilmiş, dinc əhaliyə - silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocalara, qadınlara, uşaqlara olunmuş təcavüz kimi ittiham edilmişdi. Sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilməsi qərara alındı və bu günün hər il Azərbaycan SSR-də də Milli matəm günü kimi qeyd edilməsi Respublika Ali Sovetindən xahiş edildi.

Amma təəssüflər olsun ki, Heydər Əliyevin Naxçıvanda yaşayıb siyasi fəaliyyətlə məşğul olduğu dövrdə onun təşəbbüs və rəhbərliyi ilə Naxçıvan parlamentində milli dövlətçiliyimizin bərpası, müstəqilliyimizlə, eləcə də digər taleyüklü məsələlərlə bağlı uzaqgörənliklə qəbul olunan tarixi və siyasi əhəmiyyətli qərarlara o zamankı respublika rəhbərləri qısqanclıqla yanaşdığından muxtar respublika Ali Məclisinin Azərbaycan Ali Soveti qarşısında qanunvericilik təşəbbüsü ilə qaldırdığı məsələlərə əhəmiyyət verilmirdi. Düzdür, bu dövrdə muxtar respublikada demokratikləşmə istiqamətində atılan addımlar Azərbaycanın demokratik ictimaiyyəti tərəfindən dəstəklənirdi. Məhz demokratik qüvvələrin təsiri nəticəsində az sonralar Azərbaycan SSR rəhbərliyi bəzi addımlar atmağa məcbur oldu: ölkəmizin adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq edildi. Amma bununla bərabər iki il ərzində 20 Yanvar faciəsinə respublika miqyasında hüquqi-siyasi qiymət verilmədi.Yalnız böyük siyasətçinin ölkədə hakimiyyətə yenidən qayıdışından sonra, 1994-cü ildə bu məsələ yenidən gündəmə gəldi, öz həllini tapdı.

## İstiqlal uğrunda mübarizə öz sərhədlərini aşır...

Muxtar respublika Ali Məclisinin 1990-cı il dekabrın 14-də keçirilən iclasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunmuş, bununla bağlı sessiyada çıxış edən Heydər Əliyev bildirmişdi ki, yeni ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür. Ulu öndər belə bir amili də xüsusi olaraq vurğulamışdır ki, heç vaxt sovet ölkəsində yaşayan xalqlar indiki kimi ağır iqtisadi və mənəvi əzaba düçar olmamışlar. Əgər belə bir dövlət, dünənə qədər dünyada iki böyük dövlətdən biri olan bu dövlət dilənçi vəziyyətinə düşübsə, görün onda biz nə vəziyyətdəyik.

"Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir. Son 3 ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız yoxdur" - deyən Heydər Əliyev onu da xatırladırdı ki, əgər bizim respublikamız, həqiqətən, milli dirçəliş yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq birliyindən söhbət gedə bilər. Sessiya iştirakçıları yekdilliklə yeni ittifaq layihəsinin xalqımızın iradə və mənafeyinə zidd sənəd olduğunu qeyd etmişlər. Ümummilli liderimizin Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində fəaliyyəti

təkcə Naxçıvandakı səmərəli fəaliyyəti ilə məhdudlaşmırdı. O, həm də xalq deputatı kimi ölkə parlamentinin iclaslarında da fəal iştirak edirdi. Ali Sovetin 1991-ci ilin mart ayında keçirilən iclasında ulu öndər yenə də cəsarətlə deyirdi: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır Mən bu yoldan dönməyəcəyəm. Bununla bərabər Azərbaycanın mühafizəkar, kommunist rəhbərliyi Naxçıvan Muxtar Respublikasında gedən prosesləri qısqanclıq ucbatından separatçılıq kimi qiymətləndirir, rəsmi mətbuatda, televiziyada antinaxçıvan təbliğatını genişləndirir və Naxçıvana təzyiqləri artırırdı. Amma etiraf edək ki, xalqımız özünün milli inkişafında ümummilli liderin nə demək olduğunu və onun ətrafında birləşməyin tarixi zəruriliyini də məhz o illərdə dərk etməyə başladı.

Prezident İlham Əliyev bu ilin oktyabr ayının ortalarında Naxçıvana səfəri çərçivəsində keçirdiyi görüşlərin birində o dövrün ağır ictimai-siyasi proseslərini yada salaraq demişdir: "...O vaxt, 1990-cı illərin əvvəllərində Bakıda rəhbərlikdə olan qüvvələrin antinaxçıvan siyasətini biz yaxşı xatırlayırıq. Onlar nəinki Naxçıvana kömək etmir, hətta Naxçıvanı da işğala məruz qoymağa hazır idilər. Nəyə görə?! Çünki Naxçıvana o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi.... Bir tərəfdən, ermənilər, erməni qəsbkarları Naxçıvana hücum edirdilər. Digər tərəfdən, Azərbaycan rəhbərliyində oturan xainlər, milli satqınlar istəyirdilər ki, Naxçıvanı Azərbaycandan tamamilə ayırsınlar. Amma naxçıvanlılar öz liderləri ətrafında, Heydər Əliyevin ətrafında birləşmişdilər. Naxçıvanlılar ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, öz torpaqlarını müdafiə etdilər." Bu hadisələr isə ən yeni tariximizin maraqlı səhifələrini təşkil edir.

**"Azərbaycan",**
**17 noyabr 2007-ci il**

## Müstəqillik amalına Heydər Əliyev sədaqəti

**"Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır... Müstəqillik yolu qədər çətin yol yoxdur".**

**Heydər ƏLİYEV**

Düz 17 il bundan əvvəl, 1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyasında SSRI-nin saxlanmasına dair Ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə qərar qəbul edildi. Bu, elə bir dövr idi ki, artıq bir çox müttəfiq respublikalar, xüsusən də Baltikyanı ölkələr Ittifaqın dağılmaqda olduğunu görür, bu birlikdən mümkün qədər tez və ağrısız çıxmağa çalışaraq özlərinin azad və müstəqil dövlətlərini yaratmaq istiqamətində qətiyyətli addımlar atırdılar.

Tarixə "suverenliklər paradı" adı ilə düşən bu prosesin bünövrəsi isə SSRI-nin dağılmasından bir neçə il əvvəl - 1988-ci ilin noyabr ayında Estoniya Ali Soveti tərəfindən qoyulmuş, həmin vaxt qəbul olunan "Suverenlik haqqında" bəyannamə respublika ərazisində Estoniya qanunlarının Ittifaq qanunları üzərində aliliyini elan etmişdi. 1990-cı ildə isə Litva, Rusiya, Moldova, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan ali sovetləri də öz dövlət suverenlikləri haqqında bəyannamə ilə çıxış etdilər. Həmin vaxt 20 Yanvar faciəsi ilə üzləşən və özünün ağır itkilərini yaşayan məmləkətimiz isə hələ də fövqəladə vəziyyət şəraitində idi. Bakının küçələrində əli silahlı sovet əsgərləri meydan sulamaqda davam edirdilər.

Təbii ki, Azərbaycana rəhbərlik edən imperiyanın sadiq nökərləri isə azadlıq və istiqlal duyğularından uzaq olduqlarından onlar hələ də köhnə əhval-ruhiyyədə yaşayır, ölkə həyatının bütün sahələrində, kommunist rejiminin qorunmasına və mərkəzi idarəçiliyin saxlanmasına çalışırdılar. SSRI-nin dağılmasının qarşısında öz acizliyini dərk edən

sovet hakimiyyəti isə 1991-ci il martın 17-də Ümumittifaq referendumu keçirməklə mövcud quruluşu qoruyub saxlamağa cəhd göstərdi. Azərbaycan parlamenti demokratik qüvvələrin etirazına baxmayaraq, 1991-ci il fevralın 9-da Ittifaq referendumunda iştirak etmək haqqında qərar qəbul etdi. Ali Sovetin bu qərarı bütün ölkədə çox ciddi etirazla qarşılandı. Həmin vaxt yalnız Naxçıvanda müstəqil dövlətçiliyimizin yaradılması üçün cəsarətli addımlar atıldı və bu, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin böyük iradəsi, qətiyyəti və mübarizliyi hesabına başa gəldi.

* * *

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı. Azərbaycanın üçrəngli bayrağı ilk dəfə olaraq 1991-ci il noyabr ayının 17-də, Heydər Əliyevin sədrliyi ilə keçən Naxçıvan parlamentinin iclas salonunda qaldırıldı. Keçmiş sovetlər birliyinin hələ mövcud olduğu bir şəraitdə cəsarətli addım atılaraq Naxçıvan MR-in adından "Sovet Sosialist" sözləri götürüldü. Naxçıvan parlamentinin həmin sessiyasında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə olundu. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmasını təsbit etdi, Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. Bu vəsatət isə demokratik qüvvələrin təzyiqi altında yalnız 1991-ci ilin fevralında həyata keçirildi.

Milli şüurun dirçəlməsi istiqamətində ən zəruri tədbirlər görüldü. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursatın, texnikanın və əmlakın bütünlüklə Naxçıvanda saxlanması şərti ilə bu torpağı tərk etdilər. Onların bazasında ilk sərhəd dəstəsi və Milli Ordu hissələri yaradıldı.

Muxtar respublikada demokratikləşmə istiqamətində atılan addımlar Azərbaycan ictimaiyyəti tərəfindən dəstəklənirdi. Məhz demokratik qüvvələrin təsiri nəticəsində az sonralar Azərbaycan SSR rəhbərliyi bəzi addımlar atmağa məcbur oldu: dövlətin adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı, Azərbaycan Xalq

Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq edildi. Muxtar respublika Ali Məclisi 1990-cı il dekabrın 14-də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, keçmiş Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə də öz münasibətini bildirmiş, SSRI və Azərbaycan SSR rəhbərliklərinin bu sahədə yol verdikləri səhvlər konkret göstərilmiş və qeyd edilmişdi ki, məhz bu səhv addımların nəticəsində DQMV hüquqi cəhətdən Azərbaycanın tərkibində olmasına baxmayaraq, faktiki olaraq onun dövlət idarəçiliyinə tabe olmur və Ermənistanla geniş siyasi-iqtisadi və mədəni əlaqələr həyata keçirir.

* * *

Ali Məclisin 1991-ci il yanvarın 14-də keçirilmiş sessiyasında müzakirə olunan məsələlər də öz aktuallığı ilə dərin məna və əhəmiyyət kəsb etdi. Sessiyanın müzakirəsinə çıxarılan məsələlər arasında yeni İttifaq müqaviləsi layihəsinə münasibət də var idi. Layihə mətbuatda dərc olunduğundan bütün respublikalarda müzakirəyə verilmişdi. Bu məsələ ilə bağlı sessiyada çıxış edən xalq deputatı Heydər Əliyev öz fikrini birmənalı olaraq belə ifadə etdi: "Yeni İttifaq müqaviləsinin layihəsi Ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür".

Acınacaqlı hal isə ondan ibarət idi ki, həmin layihənin hazırlanmasında Azərbaycanın rəsmi nümayəndəsi də yaxından iştirak etmişdi. Hətta o ərəfədə keçirilən SSRİ Ali Sovetinin sessiyasında Azərbaycan Ali Sovetinin sədri çıxış edərək bu sənədin respublikamızda bəyənildiyini bildirmişdi. Elə bu faktın özü də sübut edirdi ki, Azərbaycan rəhbərliyi milli dövlət dirçəlişini təmin etmək fikrində deyildi.

Həmin layihənin ölkə miqyasında müzakirəyə çıxarılmasına razılıq verilməsi də səhv bir addım idi. Müdrik rəhbərimiz həmin sessiyadakı çıxışında deyirdi: "Əgər doğrudan da bu layihə suveren respublikaların ittifaqını təmin etmək istəyirsə, gərək respublikalar əvvəl suveren olsun, müstəqil dövlət olsun, ondan sonra bu Ittifaqa girməyə öz rəylərini göstərsinlər". Ümummilli lider hətta 1922-ci ildə bağlanmış İttifaq müqaviləsini də indiki sənəddən daha demokratik, daha mütərəqqi hesab edirdi: "1922-ci ildə respublikalar müstəqil idi. O respublikaların rəhbərləri, deyək ki, xalqın rəyini ifadə edərək 1922-ci ilin dekabrında səlahiyyət alıb bu müqaviləyə qol çəkmişdilər. O vaxt müstəqil respublikalar birləşdilər. Ancaq indi müttəfiq respublikaların heç biri

müstəqil deyil. Əgər biz müstəqil deyiliksə, necə olar ki, suveren respublikalar ittifaqına çevrilə bilək?" Layihənin müzakirəsində bəziləri keçmiş İttifaqın konfederasiya şəklində olmasını qəbul edirdi və belə düşünürdülər ki, tam müstəqil dövlət kimi öz mənafelərinə nail olmaq üçün, öz hüquqlarını daha müvəffəqiyyətlə həyata keçirmək və öz dövlətini daha sürətlə inkişaf etdirmək üçün başqa dövlətlərlə konfederasiya əlaqələrinə girmək olar. Heydər Əliyev isə əsaslı dəlillərlə sübut edirdi ki, bu barədə də söhbət ola bilməz: "Konfederasiya yalnız o vaxt ola bilər ki, hər bir müttəfiq respublika tam müstəqil ola bilsin və tam müstəqil dövlət kimi öz mənafelərinə nail olmaq üçün, öz hüquqlarını daha da müvəffəqiyyətlə həyata keçirmək üçün, öz dövlətini daha da sürətlə inkişaf etdirmək üçün başqa dövlətlə konfederasiya əlaqələrinə girə bilsin". 1991-ci il martın 7-də - referendum gününə cəmi 10 gün qalanda Azərbaycan Respublikası Ali Sovetinin sessiyası bu məsələni müzakirə edərkən demokratik fikirli deputatlar SSRİ-nin qorunub saxlanması haqqında Ümumittifaq referendumunda Azərbaycan Respublikasının iştirak etməsinin əleyhinə çıxdılar, Azərbaycanın dövlət müstəqilliyinə nail olmasını tələb etdilər. Təəssüf ki, Azərbaycan parlamentində çoxluq təşkil edən və Kommunist Partiyasına mənsub olan deputatlar respublikanın kommunist rəhbərliyinin göstərişinə uyğun Azərbaycanın suverenliyi haqqında qanunun ziddinə gedərək referendum keçirilməsinin zəruri olduğunda təkid etdilər və səsvermə nəticəsində buna nail oldular.

Sonralar Heydər Əliyev Azərbaycan Ali Sovetinin tribunasından çıxış edərkən bu məsələyə belə aydınlıq gətirdi: "Çox qəribədir. Martın 7-dən 10-na qədər keçirilən Ali Sovetin sessiyasında bir çox deputatlar, o cümlədən mən də Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı və Ayaz Mütəllibovun o qədər də dərin mənalı olmayan, əsassız çıxışından sonra hamı hay-küylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referenduma getməliyik, yeni ittifaq müqaviləsini imzalamalıyıq".

* * *

Azərbaycanın antimilli rəhbərliyinin özünü Ittifaqdan ayrı təsəvvür edə bilmədiyi və taleyüklü məsələlərə Ittifaq mövqeyindən yanaşmağa cəhd etdiyi bir dövrdə isə Naxçıvan parlamenti Ittifaq müqaviləsini ciddi tənqid etdi, ona heç bir ehtiyac olmadığını bildirdi. Əvəzində 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi yolla devrilməsini Şimali Azərbaycanın işğalı kimi qiymətləndirdi və yenidən Ittifaqa daxil olmağı

qeyri-məqbul hesab etdi. 1991-ci il martın 14-də isə Ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə qərar qəbul olundu. Buna baxmayaraq, yerli partiya orqanlarının - vilayət partiya və rayon partiya komitələrinin təzyiqi ilə SSRI-nin saxlanması üzrə keçirilən referendumda Naxçıvan Muxtar Respublikası seçicilərinin 20 faizi iştirak etdi, onların da əksəriyyəti muxtar respublikanın ərazisində xidmət edən hərbi qulluqçular və onların ailə üzvləri idi. Bu nəticələr isə muxtar respublika rəhbərliyinə ağır başa gəldi. Ali Məclisin Sədri Afiyəddin Cəlilov respublika rəhbərliyinin təzyiqi ilə vəzifəsindən kənarlaşdırıldı, onun yerinə isə Vilayət Partiya Komitəsinin yenicə seçilmiş katibi qeyri-qanuni şəkildə təyin olundu.

Xalqın iradəsinə zidd olaraq keçirilən bu referendum muxtar respublika əhalisi tərəfindən boykot edildi. Başlıca niyyət də azadlıq və istiqlaliyyət uğrunda mübarizəni qalibiyyətlə başa çatdırmaqdan ibarət idi və bu istiqamətdə qarşıya çıxan maneələr, sədlər müdrik rəhbərimizin cəsarəti altında dəf edilirdi. Bunların qarşısında isə Azərbaycan Respublikasının o zamankı rəhbərliyi heç də gözləmə mövqeyində dayanmırdı. Eyni zamanda, Azərbaycanın mühafizəkar kommunist rəhbərliyi Naxçıvan Muxtar Respublikasında gedən prosesləri separatçılıq kimi qiymətləndirir, rəsmi mətbuatda, televiziyada antinaxçıvan təbliğatını genişləndirir və Naxçıvana təzyiqləri artırırdı. Naxçıvan əhalisinin SSRI-nin qorunub saxlanılması əleyhinə səs verməsini regionun Azərbaycandan ayrılması kimi qələmə verirdilər.

Ümummilli liderimiz məhz həmin ağır və məşəqqətli günlərdə dönə-dönə deyirdi: "Mən həyatımdan keçərəm, lakin Naxçıvanı Azərbaycandan ayırmaram".

1991-ci ilin aprelində 9 müttəfiq respublikanın, o cümlədən Azərbaycan rəhbərliyinin bağladığı Novo-Oqaryovo müqaviləsi sovet imperiyasını qoruyub saxlamaq üçün atılmış son uğursuz cəhdlərdən biri oldu. Artıq respublikaların müstəqilləşməsi prosesi dönməz xarakter almışdı. Imperiyanın mühafizəkar qüvvələri bu prosesi dayandırmaq üçün 1991-ci il avqustun 19-20-də son vasitəyə - dövlət çevrilişi cəhdinə əl ataraq M.S.Qorbaçovu hakimiyyətdən saldıqlarını və DFVK yaradıldığını elan etdilər. Azərbaycan rəhbəri A.Mütəllibov da qiyamçıları dəstəklədi. Lakin avqustun 21-də qiyam yatırıldı. A.Mütəllibovun bu hərəkəti respublikada geniş etirazlara səbəb oldu. Demokratik hərəkat yeni vüsət aldı. Xalq irtica tərəfdarlarına qarşı ayağa qalxdı. Mitinqlər və tətillərin yeni dalğası başlandı.

Bu dövrdə müdrik siyasətçi Heydər Əliyev Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə məktub göndərərək fövqəladə sessiyanın

çağırılmasını və orada Azərbaycan rəhbərliyinin dövlət çevrilişi ilə bağlı mövqeyinə obyektiv qiymət verilməsini, Azərbaycan KP-nin respublikada təkhakimiyyətlikdən kənarlaşdırılması məsələsini, onun xunta ilə əməkdaşlığının məsuliyyət dərəcəsinin müəyyən edilməsini, partiya mətbu orqanlarının fəaliyyətinin dayandırılması barədə qərar verilməsini və sair məsələləri müzakirə etməyi təklif etdi.

1991-ci il avqustun 29-da xalqın təkidli tələbi ilə Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası çağırıldı. Heydər Əliyev sessiyada çıxış edərək Azərbaycan Kommunist rəhbərliyinin mürtəce siyasətini və buraxdığı kobud səhvləri ifşa etdi. Öz çıxışında o, Ali Sovetin Rəyasət Heyətinə göndərdiyi məktubdakı təkliflərini bir daha deputatların nəzərinə çatdıraraq Kommunist Partiyasının hakimiyyətdən getməsini, respublika rəhbərliyinin qiyam zamanı tutduğu mövqeyin müzakirə edilməsini, 20 Yanvar hadisələrinə respublika səviyyəsində siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını, parlamentin buraxılmasını və yeni seçkilərin keçirilməsini tələb etdi.

Sessiya avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat verdi. Əslində bu bəyanatın qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyətin ləğv olunması sentyabrın 8-də Azərbaycanda keçiriləcək prezident seçkilərini təmin etməyə yönəldilmişdi. Bu sessiyada da bəzi deputatların təkidli tələbinə baxmayaraq, o zamankı rəhbərlik yenə də referendum yolu ilə müstəqillik haqqında xalqın rəyini öyrənməyi lazım bilmədi. Heydər Əliyev həmin sessiyada çıxış edərək bu bəyanatın konyunktur xarakter daşıdığını və formal olaraq mart ayında keçirilmiş referendumun nəticəsinə zidd olduğunu diqqətə çatdırmış və 17 mart referendumunun nəticəsinin ləğv edilməsi təklifini irəli sürmüşdü.

Müstəqillik haqqında Bəyannamə iki həftə ərzində "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsini nəzərdə tutsa da, bəzi səbəblər ucbatından bu iş düz 48 gün, yəni oktyabrın 18-nə qədər yubadıldı. Həmin gün isə tariximizə dövlət müstəqilliyi günü kimi daxil oldu.

**“Azərbaycan”,**
**14 mart 2008-ci il**

## 20 Yanvar faciəsinə ilk dəfə Naxçıvan Ali Məclisində siyasi və hüquqi qiymət verilib

**"... Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində, - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qırğın törədilməyib... Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedərdi, ancaq görün bu hərbi əməliyyatlara bunlar nə qədər böyük fikir veriblər. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir. Azərbaycan xalqının qarşısında cinayətdir..."**

**Heydər ƏLİYEV**

Qədim bir türk məsəlində deyilir: "Azadlıq ağacı vətənpərvərlərin qanı ilə suvarılır". 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə torpaqlarımız şəhid qanına boləndi. O gün yeni tariximizin kədərli, eyni zamanda qəhrəmanlıq səhifəsini təşkil etməklə bərabər milli azadlıq mübarizəmizdə dönüş nöqtəsinə çevrildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək, bu faciə "ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş qanlı cinayət idi".

* * *

Qanlı faciə ərəfəsində respublikamızın ictimai-siyasi həyatında cərəyan edən hadisələrin xronologiyasına nəzər salsaq, 1988-ci ilin ortalarından başlayan milli azadlıq hərəkatının özünün kulminasiya nöqtəsinə çatdığını görərik. Xalq azadlıq, istiqlaliyyət uğrunda mübarizə əzmini, bu yoldan dönməz olduğunu dünyaya nümayiş etdirirdi. Dövr elə idi ki, bir çox müttəfiq respublikalar, xüsusən də Estoniya və Baltikyanı ölkələr ittifaqın dağılmaqda olduğunu görərək, bu birlikdən mümkün qədər tez və ağrısız çıxmağa çalışaraq özlərinin azad və müstəqil dövlətlərini yaratmaq istiqamətində qətiyyətli addımlar atırdılar.

İmperiya tərəfindən dinc əhaliyə qanlı divan tutulması isə ilk dəfə 1989-cu ildə Tbilisidə baş verdi. Sonra sovet dövlətini hər vəchlə qoruyub saxlamağa çalışan Kreml mənfur niyyətlərini Azərbaycanda həyata keçirməyə çalışdı. Bir il sonra 1991-ci ildə Vilnüsdə də bu vəhşiliyi törətdi.

Milli azadlıq hərəkatını yerində boğmaq üçün bəhanə axtaran mərkəzi hakimiyyət Azərbaycandakı hadisələrə nəzarəti itirmək təhlükəsi ilə heç cür barışmaq istəmirdi. Xalq hərəkatını boğmaq məqsədi ilə 1990-cı ilin yanvar ayının əvvəllərində ölkəmizdə müxtəif qoşun hissələri, cəza dəstələri yerləşdirirdi. Yanvarın 13-14-də isə SSRİ DTK-sının ssenarisi əsasında milli zəmində ilk talanlar baş verdi. Yerli hüquq-mühafizə orqanları ilə yanaşı, paytaxtda yerləşdirilmiş 12 min nəfərlik SSRİ DİN-nin qoşunları tərəfindən talançı dəstələrə qarşı hec bir tədbir görülmədi. Yanvarın 15-də isə "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman elan olundu. SSRİ Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi bu fərmanda respublikamızın hakimiyyət orqanlarından həm də o tələb edilirdi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də dövlət sərhədi boyunca yerləşən digər iri yaşayış məntəqələrində qadağan saatları tətbiq edilsin, digər tədbirlər görülsün.

Təbii ki, demokratik hərəkatı boğmaq, xalqa divan tutmaq üçün mərkəzi hakimiyyətə hüquqi zəmin lazım idi. Həyata keçirilən çirkin tədbirlər nəticəsində "zəmin" də yaradıldı. Moskva 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə böyük hərbi qüvvə yeridib, günahsız insanları qanına qəltan etdi...

Bu isə, xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək, "ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilmiş qanlı cinayət idi".

* * *

Mərkəz Bakıda olduğu kimi, Naxçıvanda da milli azadlıq hərəkatının qarşısını almaq üçün fövqəladə vəziyyət elan olunmasına, muxtar respublikada cəza dəstələri yerləşdirməsinə çalışırdı. Azərbaycanda daxili vəziyyətin gərginləşməsi fonunda erməni yaraqlılarının sərhəd bölgələrinə təcavüzkar hərəkətləri, silahlı basqınları getdikcə artır, sakinlər vahiməli həyat yaşayırdılar.

Naxçıvanda başlanan sərhəd hərəkatına SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu bir qrup ekstremist və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin

gözündən salmağa çalışırdılar. Mərkəzi kütləvi informasiya vasitələri isə sərhədlərin sökülməsini vandalizm kimi qiymətləndirmiş, bu hərəkəti Azərbaycanda islam fundamentalizminin baş qaldırması kimi göstərməyə çalışmışdı.

Yanvarın 5-də isə Sovet-İran sərhədinin Naxçıvan ərazisində baş verən hadisələrlə əlaqədar SSRİ rəhbərliyinin yüksək rütbəli nümayəndələri - Sov. İKP MK-nın katibi

A.N. Girenko, SSRİ Ali Sovetin Millətlər Sovetinin sədri R.N. Nişanov, Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov, SSRİ DTK sədrinin birinci müavini Batkov, generallar Varennikov, Şatalin, Şirokin Naxçıvana gəlsələr də milli-azadlıq hərəkatının qarşısını ala bilmədilər.

20 Yanvar əvvəli erməni-rus hərbi birləşməsi vəziyyəti daha da gərginləşdirmək məqsədilə Naxçıvanın sərhəd bölgəsi olan Sədərək kəndinə hücum etmiş, ağır top və mərmi atəşləri ilə sərhəd xəttində yerləşən şərab zavodunu partlatmışdı. Mebel müəssisəsinə, indiki Heydərabad qəsəbəsinə də ciddi ziyanlar vurulmuşdu. Vəziyyətin ağırlığı ucbatından 12 min nəfərlik əhalisi olan yaşayış məskənində qocalar, uşaqlar və qadınlar az vaxt ərzində mütəşəkkilliklə kənddən çıxarılmışdı. Öz havadarlarına arxalanan düşmənlərimizin başlıca məqsədi muxtar respublikanın əsas müdafiə istehkamlarından biri olan Sədərək kəndini ələ kecirib, Şahbuz və Ordubad rayonları da daxil olmaqla üç tərəfdən hücum edib Naxçıvanı işğal etmək idi.

Yanvarın 18-də cəmi 350 nəfərə yaxın sakini olan Kərki kəndi işğal olunmuşdur. O ərazi ki 1969-cu ilin may ayında Azərbaycanın o zamankı rəhbərliyinin "səxavəti" üzündən kəndə məxsus torpaqların xeyli hissəsinin Ermənistana "bağışlanılması" həmin ərazinin tamam tədric olunmasına, milli zəmində münaqişələr başlanandan isə erməni qəsbkarları tərəfindən asanlıqla işğal etməsinə imkan yaratmışdı.

Yanvarın 19-da Naxçıvan torpağı ilk şəhid oğullarını torpağa tapşırdı. Etibar Əhmədov, Mirhəşim Seyidov, Məhəmməd Məmmədov, İdris Məmmədov, Abbasəli Həsənov şəhidlik zirvəsinə ucaldı. Sonralar Azərbaycanın Milli Qəhrəmanı adına layiq gürülən polis kapitanı Məhərrəm Seyidov da şəhid oldu. Düşmən tərəfindən atılan mərmilər Nəsirovlar ailəsinə daha böyük ağır zərbə vurdu. Malik və Elvin adında körpələr düşmən gülləsinə tuş gəldilər.

Azərbaycanın, eləcə də onun ayrılmaz parçası olan Naxçıvanın ərazi bütövlüyünün pozulması, sərhədboyu yaşayış məskənlərində ermənilərin hücuma keçmələri, muxtar respublika əhalisinin dinc yaşayışı üçün real təhlükənin artması, nəqliyyat və kommunikasiya blokadası və bunların müqabilində İttifaq və respublika hakimiyyət

dairələrinin fəaliyyətsizliyi muxtar respublika əhalisini və rəhbərliyini radikal addımlar atmağa vadar etdi. Yanvarın 19-da gecə Naxçıvan şəhərində Ali Sovetin binası qarşısında toplaşan 20 mindən çox adam müsibətlərə etiraz əlaməti olaraq muxtar respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını təkidlə tələb edir. Sessiya keçirilir və sovet imperiyasının yaşadığı bir dövrdə görünməyən bir məsələni müzakirəyə çıxarır. Bu, Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxarılması haqqında məsələ idi.

Qəbul olunan qərarda Azərbaycan SSR və onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyünün müdafiə edilmədiyi, Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarının İttifaq orqanlarına dəfələrlə etdikləri müraciətlərin nəticəsiz qaldığı, Türkiyə, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında RSFSR-in iştirakı ilə bağlanan Qars müqaviləsinin şərtlərinin kobud surətdə pozulduğu qeyd edilirdi. 6 bənddən ibarət olan bu tarixi qərarda deyilirdi:

1. Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir;
2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin;
3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün ölkələrinə kömək məqsədilə müraciət olunsun;
4. Naxçıvan Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın;
5. SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Respublikasına edilən təcavüzə son qoyulsun;
6. Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın.

Həmin sessiyada Azərbaycan xalqının təcavüzə məruz qalması, ermənilərin Naxçıvana hücumları və törətdikləri vəhşiliklər barədə dünya birliyinə müraciət də qəbul edildi. Müraciət bu sözlərlə bitirdi: "...Dünya dövlətləri, planetin bütün vicdanlı insanları, bizə kömək əlinizi uzadın! Azərbaycan türklərinin qanının axmasına yol verməyin!".

Sessiyanın keçirildiyi günlərdə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Ali Sovetin binası üzərinə sancılmış və bu bayraq bir həftəyədək qeyri-rəsmi olsa da, orada qalmışdı.

Təbii ki, Naxçıvan parlamentinin qəbul etdiyi bu qərarın hüquqi əsası yox idi. Bu səbəbdən onun çox yaşaması mümkün deyildi.

Yanvarın 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin həmin qərarını ləğv etdi. Amma buna baxmayaraq sonralar həmin qərarın Naxçıvanın taleyi üçün böyük əhəmiyyəti oldu.

Xalqımızın ümummilli lideri Heydər Əliyev sonralar Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi həmin tarixi qərarı yüksək qiymətləndirərək dedi: "Mən Moskvada olarkən Azərbaycana edilən bu cinayətə qarşı etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim... Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər... Naxçıvanlıların bu cəsarətli addımı o vaxt yeganə bir addım idi...".

* * *

Ertəsi gün də Naxçıvan torpağında vəziyyət gərgin olaraq qalırdı. Həmin gün özünü "müstəqil respublika" hesab edən diyarın "Birlik və demokratiya" devizi altında mətbu orqanı "Şərq qapısı" qəzetinin ilk nömrəsi çapdan çıxdı. Qəzetin ilk səhifəsində Azərbaycan və rus dillərində Naxçıvan Ali Soveti Pəyasət Heyətinin qərarı çap olundu. Burada dərc olunan digər yazılardan da aydın olur ki, regionun sərhəd xətlərində vəziyyət gərgin olaraq qalır. Naxçıvan sərhəd dəstəsinin komandanlığı isə "mərkəzdən əmr yoxdur" deyə sərhəd kəndlərimizə hücum edən erməni yaraqlılarına qarşı heç bir tədbir görmür. Artıq Babək rayonunun Buzqov, Kərməçataq, Şahbuz rayonunun Şada kəndləri də ermənilər tərəfindən top və minamyotlarla atəşə tutulur.

Yanvarın 21-də işıq üzü görən "Şərq qapısı" qəzetinin ikinci nömrəsi isə "Dünya xalqlarına müraciət"lə açılır. Həmin müraciətdə deyilir: "Azəri türkləri misli görünməmiş təcavüzə məruz qalıblar. Naxçıvan respublikasında hər an kütləvi qırğın baş verə bilər. Sədərək ətrafındakı sərhəddə ucuz imperiya siyasətinə uymuş erməni millətçilərinin böyük qüvvəsi cəmləşdirilmişdir... Moskvanın bədnam siyasəti Azərbaycanda gedən demokratik hərəkatı boğmaq məqsədi güdür, ona antixristian, millətçi donu geyindirir".

Yerli mətbu orqanının yazdığına görə, həmin gün SSRİ Daxili İşlər Nazirliyinin səlahiyyətli nümayəndələri, generallar Dubin və Fedosoevin iştirakı ilə tərəflər arasında danışıqlar aparılmış, nəticədə atəş səsləri kəsilmişdir.

24 yanvar 1990-cı il tarixli "Şərq qapısı" qəzetinin dördüncü nömrəsində dərc olunan "Nahaq qan yerdə qalmaz" adlı məqalənin bir yerində isə o ağır günlər belə təsvir edilir: "Bakı və Naxçıvan teatr binasına dönmüşdür. Bu teatrın səhnəsində üzdəniraq aşkarlıq və

demokratiya şüarı yazılmış qara pərdə asılmışdır. Bu pərdənin arxasında "türk xalqının taleyi" adlı tamaşa oynanılır. Tamaşanın baş rejissoru M.S. Qorbaçov, aktyorları sərxoş rus əsgərləri, tamaşaçıları isə daşnak ermənilərdir...".

* * *

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən dəhşətli faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti olsa da, bu cinayətin üstünü ört-basdır etmək mümkün olmadı.

Ulu öndər Heydər Əliyev min bir təqib və təhlükəyə baxmayaraq, hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlib mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, onun təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi. Həmin vaxt İttifaq rəhbərlərinin kəskin təzyiq və təqiblərinə məruz qalacağını gözləri önünə gətirsə də, Heydər Əliyev özünəməxsus qətiyyət və cəsarətlə deyirdi: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.S.Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətin nəticəsidir".

Mətbuat konfransında kəskin bəyanatı ilə kifayətlənməyən ümummilli lider elə həmin gün Azərbaycan KP Mərkəzi Komitəsinə, Ali Sovetə, Nazirlər Kabinetinə, Azərbaycan xalqına ünvanladığı teleqramda: "Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm" deməklə bu ağır gündə xalqın dərdinə şərik olduğunu bildirməklə yanaşı, millətimizi təmkinli olmağa, həmrəyliyə və birliyə çağırdı.

Ulu öndər Heydər Əliyev 1990-cı ilin yayında Naxçıvana gəldikdən və həmin ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentlərinə deputat seçildikdən sonra da xalqımızın başına açılan müsibətlərə haqq qazandırmadı. Əksinə, bu faciəyə hüquqi-siyasi qiymət verilməməsi onu ciddi narahat edirdi.

1990-cı ilin noyabr ayında dahi şəxsiyyətin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial hüquqi-siyasi qiymət verilməsi məsələsi yenidən gündəmə gəldi. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həmin ilin noyabrın 21-də keçirilən birinci sessiyası tarixə döndü. Həmin sessiyada Heydər Əliyev xalq deputatı

kimi "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi.

Sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan ulu öndər ürək yanğısı ilə yanaşı, həm də qətiyyətlə deyirdi: "...Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində, - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qırğın olmamışdı. Bunu da edib sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedərdi, ancaq görün bu hərbi əməliyyatlara bunlar nə qədər böyük fikir veriblər. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir. Azərbaycan xalqının qarşısında cinayətdir...".

Sessiyadakı çıxışında ulu öndər böyük narahatçılıqla belə demişdi: "Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın".

Təbii ki, xalq deputatı kimi Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ deputatlar tərəfindən də müdafiə olunurdu.

Yeni tərkibdə seçilmiş Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" yekdilliklə qəbul edilən qərarda deyilirdi: "...Azərbaycan xalqının demokratiya və milli-azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, həmin müddətdə Bakıda olan Sov.İKP MK katibi A.Girenko, SSRİ Ali Soveti İttifaq Sovetinin keçmiş sədri Y.Primakov, SSRİ müdafiə naziri D.Yazov, SSRİ daxili işlər naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi A.Mixailov, eləcə də respublika rəhbərliyi - Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə.Vəzirov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.Qafarova, Azərbaycan SSR Nazirlər Sovetinin o

zamankı sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvlərindən V.Polyaniçko, M.Məmmədov, V.Hüseynov xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar".

Sonra qərarda Azərbaycanın o vaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq göstərilirdi ki, qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət, dəqiq düşünülmüş hərbi təcavüz, İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması kimi qiymətləndirmişdir. Beş bənddən ibarət olan qərarın ilk iki bəndində deyilirdi: "1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına açıq təcavüz kimi ittiham edilsin".

Qeyd etmək lazımdır ki, həmin sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilməsi də qərara alınmışdır. Bununla yanaşı, muxtar respublikanın Ali Məclisi Azərbaycanın ali qanunvericilik orqanından da xahiş edirdi ki, 20 Yanvar Azərbaycan miqyasında matəm günü kimi qeyd edilsin.

Ümummilli lider o dövrdə, hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə seçilməzdən əvvəl xalq deputatı kimi Azərbaycan SSR Ali Sovetinin sessiyalarında da bir neçə dəfə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı məsələ qaldırmışdı. 1991-ci il avqust ayının 29-da parlamentdəki çıxışında isə bir daha bu məsələyə toxunaraq ölkə rəhbərliyindən qətiyyətlə soruşmuşdur: "20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda da cürbəcür söhbətlər gedir... Mən sual verirəm Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova. Nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib?..".

* * *

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də qanlı Yanvar faciəsi öz həqiqi siyasi qiymətini ala bilmədi. Yalnız ulu öndər Heydər

Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Ölkə Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə bununla bağlı ciddi addımlar atıldı. Məhz bu fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunurdu ki, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilsin.

Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarında, 1990-cı ilin 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi, cinayətkarların adları göstərildi. Həmin qərarın ikinci bəndində isə deyilir: "İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunsun".

20 Yanvar faciəsi yaddaşımıza kədərli hadisə, hüzn günü kimi həkk olunsa da, tariximizin qəhrəmanlıq, mübarizlik, mərdlik səhifəsini təşkil edir. Başlıcası isə o xalqımızın azadlıq və istiqlal mübarizəsində dönüş nöqtəsinə çevrildi. Hər il qanlı faciə qurbanlarının xatirəsinin böyük ehtiramla qeyd olunması da bu deyilənlərlə bağlıdır.

**"Azərbaycan",**
**19 yanvar 2010-cu il**

## Milli birlik və həmrəylik günü

**"Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır".**

**Heydər ƏLİYEV**

"O illərdə Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin demək olar ki, əksəriyyətini təşkil edirdi. Məhz bunun nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində Naxçıvan Muxtar Respublikası öz xidmətlərini göstərdi".

Bu sözlər xalqımızın ümummilli lideri Heydər Əliyevə məxsusdur. Ulu öndər ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Naxçıvanda gedən tarixi-siyasi prosesləri dəyərləndirərək belə söyləyib. O zaman Naxçıvanda başlanan xalq hərəkatı erməni təcavüzünə qarşı müqavimət hərəkatı olmaqla yanaşı, imperiya buxovlarından qurtulmaq və milli müstəqilliyə nail olmaq üçün geniş vüsət alan Azərbaycan milli azadlıq hərəkatının tərkib hissəsi idi. Naxçıvandakı hərəkat həm də mərkəz və respublika hökuməti qarşısında mütilik göstərən, haqlı tələbləri qulaqardına vuran, ermənilərin hücum təhlükəsinə qarşı təsirli tədbirlər görməkdən imtina edən, hətta əhalinin əlindəki ov silahlarını almağa çalışan və son nəticədə ictimai-siyasi vəziyyəti daha da gərginləşdirən yerli partiya və sovet rəhbərlərinə qarşı yönələn bir hərəkat idi.

### Sərhəd hərəkatı-milli azadlıq mübarizəsinin mühüm mərhələsi

Azərbaycan milli-azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən "sərhəd hərəkatı" da Naxçıvanda "doğulub". İranla sərhədboyu

ərazilərdə çəkilmiş tikanlı məftillər bir millətin iki hissəyə parçalanmasının "simvoluna" çevrilmişdi. Naxçıvan kimi aztorpaqlı bölgənin 17 min kvadrat kilometr münbit torpaq sahəsi tikanlı məftillərlə sərhəd xətti arasında qaldığından əhalinin bu torpaqlardan istifadə etməsinə imkan verilmirdi. Culfa rayonunda sərhəd zonasında yerləşən qəbiristanlığa və ziyarətgaha yerli əhalinin gedib-gəlməsi də mümkün deyildi.

Bunlarla bağlı 1989-cu il dekabr ayının əvvəllərində Naxçıvanda Ordubaddan Sədərəyədək bütün sərhəd boyu ardıcıl tədbirlər keçirilməyə başlandı. On minlərlə adam sərhəd xətlərinə toplaşaraq mövcud rejimə, onun yaratdığı qayda-qanunlara qarşı öz etirazını bildirdi, sərhəd xətlərinin sökülməsini tələb etdi. Dekabr ayının 5-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri Səkinə Əliyeva Azərbaycan SSR Ali Sovetinə müraciət edərək Naxçıvan MSSR-in sərhədyanı torpaqlarından istifadə edilməsi məsələsinin həll olunması zəruriliyini bildirmiş, həmçinin sərhədyanı ərazilərdə yaşayan əhalinin qonşu ölkələrdə yaşayan soydaşlarımızla qarşılıqlı əlaqələrinin bərpa edilməsi məsələsinə toxunmuşdu. Lakin vəziyyəti düzgün qiymətləndirə bilməyən Azərbaycanın rəsmi dairələrinin tədbir görmək istəməmələri etirazları daha da coşdurdu.

Dekabrın 31-də isə Naxçıvan MSSR ərazisində Araz çayı boyu 137 km Sovet-İran sərhədi boyunca tonqallar alovlandı, onlar milli birliyin və həmrəyliyin nişanəsinə çevrildi.

Naxçıvanda başlanan sərhəd hərəkatına SSRİ və Azərbaycanın kommunist rəhbərliyinin, hərbi dairələrinin qiyməti isə özgə cür oldu. Onlar xalqın həmrəyliyindən və birliyindən qorxaraq bu hərəkata qara yaxaraq onu bir qrup ekstremist və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa səy göstərdilər. O zaman SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələri isə sərhədlərin sökülməsini vandalizm hərəkəti kimi qiymətləndirmiş, bu hərəkəti Azərbaycanda islam fundamentalizminin baş qaldırması kimi göstərməyə çalışmışlar.

Sovet-İran sərhədinin Naxçıvan ərazisində baş vermiş hadisələrlə əlaqədar SSRİ rəhbərliyinin yüksək rütbəli nümayəndələri - Sov.İKP MK-nın katibi A.N.Girenkonun, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanovun, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun, SSRİ DTK sədrinin birinci müavini Batkovun, generallar Varennikovun, Şatalinin, Şironkinin Naxçıvana gəlişi də genişlənən milli-azadlıq hərəkatının, onun tərkib hissəsi olan "sərhəd hərəkatı"nın

qarşısını ala bilmədi. 1989-cu il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi tarixə düşdü.

## Dünya Azərbaycanlılarının Milli Həmrəylik və Birlik Günü

"Sərhəd hərəkatı" rəsmi səviyyədə siyasi və tarixi qiymətini isə ilk dəfə Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında aldı.

Həmin sessiyada "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələ də geniş müzakirə olunmuşdur. Ali Məclisin sədri müzakirələrə yekun vurarkən geniş nitq söyləmiş, qəbul edilən məsələnin siyasi əhəmiyyətinə xüsusi önəm vermişdir. O demişdir ki, "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, Naxçıvanda qədim türk diyarında irəli sürülmüşdür"

Əlbəttə, xalqımızın mərd, mübariz və uzaqgörən oğlu Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisindəki fəal ictimai fəaliyyəti ilə ilk növbədə Naxçıvan əhalisində milli dövlətçiliyə inam hissi formalaşdıra bilmişdi. Xalqımız özünün milli inkişafında ümummilli liderin nə demək olduğunu və onun ətrafında birləşməyin tarixi zəruriliyini də məhz o illərdə dərk etməyə başlamışdı. Ümummilli liderin uzaqgörənliyi həm də ondan ibarət idi ki, o, böyük təşəbbüslə xalqı böyük ideya - azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdirməyə çalışırdı. Həmin sessiyadakı çıxışında ulu öndər qürurla deyirdi: "İki il bundan əvvəl Naxçıvanın mütərəqqi qüvvələri tərəfindən "sərhəd hərəkatı" adı altında həyata keçirilən tədbirlər artıq özünün siyasi və tarixi qiymətini alır və dünya Azərbaycan türklərinin həmrəyliyinin və birliyinin nə qədər zərurət kəsb etdiyini nümayiş etdirir. Şübhə yoxdur ki, bu hərəkat getdikcə güclənərək bizim xalqın birləşməsinə, tam azadlığa nail olunmasına kömək edəcəkdir".

Kommunist rejiminin yaşadığı, "beynəlmiləlçiliyin" hökm sürdüyü bir dövrdə yeni düşüncə və təfəkkür tərzinin məhsulu olan ideologiyanı irəli sürmək təbii ki, asan məsələ deyildi. Bu, ilk növbədə, hələ də keçmiş ittifaqda yaşayan, hökmranlıq edən, qılıncının dalı da, qabağı da kəsən kommunist rejiminin qəzəbinə düçar olmaq demək idi. Ulu öndər isə çəkinmədən qürurla deyirdi ki, həmrəyliyi olmayan bir xalqın milli azadlıqdan danışması da əbəsdir.

Bəli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr tarixli sessiyasında 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününün elan edilməsi, onun hər il bayram olunması, həmin gün Naxçıvan Muxtar Respublikasının ərazisində iş günü hesab edilməməsi, bu günün bütün Azərbaycan Respublikasında qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilməsi haqqında tarixi qərar qəbul edilməsi ölkəmizin həyatında mühüm siyasi hadisə oldu. Bu tarixi qərarla da dünya dövlətləri qarşısında gücümüzü, birliyimizi, həmrəyliyimizi göstərməyin, bir ideya, bir amal ətrafında birləşməyin, erməni diasporunun dünyaya meydan suladığı bir dövrdə onlara qarşı əsaslı güc mərkəzinin yaradılmasının vaxtı çatdığını bildirdi.

Təbii ki, bu günün əsas qayəsini isə dünya azərbaycanlılarının birliyi və həmrəyliyi, Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqının mənsubiyyəti, tarixi Vətənə bağlılıq hissi və ideyası təşkil edir.

## Milli mənsubiyyətə görə qürur hissi

Ölkəmizdə Azərbaycançılıq ideologiyasının formalaşması yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət səviyyəsində həyata keçirilməyə başlandı. Bu həmrəyliyin yaradılması 1993-cü ilin 15 iyun - Milli Qurtuluş günündən sonra dövlət səviyyəsində ən başlıca, ən vacib məqsəd kimi qarşıya qoyularaq əməli işə çevrildi. Ulu öndər Heydər Əliyevin xarici ölkələrə bütün səfərləri çərçivəsində soydaşlarımızla görüşməsi, onların qayğıları ilə yaxından tanış olması, tövsiyələri həmvətənlərimizdə müstəqil dövlətimizə diqqət və marağın artmasında mühüm rol oynadı. Ümummilli liderimiz bəyan edirdi ki, dünya azərbaycanlılarının ümumi birliyinə nail olmaq üçün ilk növbədə ayrı-ayrı dövlətlərin daxilində onların həmrəyliyinə müvəffəq olunmalıdır. Çünki etnos olaraq əksər hissəsi tarixi vətənlərində, müəyyən qismi isə kənarda yaşayan 50 milyondan çox azərbaycanlı üçün ölkəmizin müstəqilliyi, gələcək taleyi, xalqın milli dirçəliş səviyyəsinin yüksəlməsi nə qədər əhəmiyyətlidirsə, onların sıx birliyinin yaradılması, etnik mədəni tələblərinin siyasi səviyyədə öyrənilməsi də Azərbaycan dövləti üçün o dərəcədə mümkündür.

Xarici ölkələrdə Azərbaycan icması üzvləri ilə keçirilən görüşlərdən birində ulu öndərimizin söylədiyi bu sözlər diasporun formalaşmasında daha mühüm rol oynadı: "Vətəndən, ana torpaqdan şirin şey yoxdur. Siz düşünməyin, Azərbaycan sizə nə etməlidir?

Düşünün ki, siz Azərbaycan üçün nə etməlisiniz. Şərt odur ki, insan milləti, vətəni, torpağı üçün nə edib?"

Ümummilli liderimiz Heydər Əliyev "Dünya azərbaycanlılarının qurultayının keçirilməsi haqqında" 23 may 2001-ci il tarixli sərəncamı ilə soydaşlarımızın vahid ideya ətrafında birliyinin, həmrəyliyinin daha da möhkəmlənməsini təmin etdi. Bu sərəncama əsasən, həmin ilin noyabrın 9-10-da Bakıda dünya azərbaycanlılarının I qurultayı keçirildi. Qurultay azərbaycançılıq ideyalarının həyata keçirilməsi, dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün mühüm bir tarixi mərhələnin başlanğıcı oldu. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" - bu sözləri də ümummilli liderimiz həmin qurultayda söyləyib.

2006-cı il martın 16-da keçirilən II qurultay isə Azərbaycan diasporunun qarşısında duran yeni vəzifələri müəyyənləşdirdi, yeni tarixi inkişaf mərhələsinin əsasını qoydu. Prezident İlham Əliyev qurultayda çıxışında bildirib ki, Azərbaycan diasporu ölkənin dünyada təbliğində, Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır: "Mən çox istərdim ki, azərbaycanlılar yaşadıqları ölkənin ictimai-siyasi həyatında mühüm rol oynasınlar. Bu, bizim mövqeləri möhkəmləndirir. İqtisadi baxımdan bizim mövqelərimiz möhkəmdir, indi də siyasi baxımdan möhkəmlənmək lazımdır. Bizim gücümüz sizin fəaliyyətinizdə, sizin də gücünüz Azərbaycan dövlətinin gücündədir. Ölkəmiz nə qədər güclü olsa, siz də o qədər güclü olacaqsınız".

Təbii ki, dünya azərbaycanlılarının təşkilatlanması, onların milli birlik və həmrəyliyinin güclənməsi ulu öndərimizin adı ilə bağlıdır. Son illər ölkəmizdə ictimai-siyasi həyatımızın digər sahələrində olduğu kimi, bu istiqamətdə də ümummilli liderimizin ideyaları dönmədən və ardıcıl həyata keçirilir. Ölkə Prezidenti İlham Əliyev ötən ilin dekabr ayının son günlərində dünya azərbaycanlılarına ünvanlanan müraciətində də bu amili xüsusi vurğulayıb: "Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə, on beş ildir dünyada yaşayan bütün azərbaycanlılar tərəfindən milli birlik və həmrəylik günü kimi qeyd edilən bu bayram Azərbaycan xalqına mənsubluq, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi Vətənə bağlılıq, soydaşlarımızın yekdillik və mütəşəkkilliyinin gücləndirilməsi ideyalarını təcəssüm etdirir".

* * *

# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü



# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü






# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü





Ulu öndərimizin qarşımıza qoyduğu mühüm vəzifə və tapşırıqlardan biri də bununla bağlı olub: "Hamımız çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın, müstəqil ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ də istifadə olunmamış böyük imkanlar vardır".

**"Azərbaycan",**
**16 dekabr 2007-ci il**

## Bir milləti, iki dövləti birləşdirən körpü

**"Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü, "Həsrət" körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik".**

**Heydər ƏLİYEV**

Bu bir həqiqətdir ki, möhtərəm Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində Azərbaycanın imperiya asılılığından tamamilə xilas olması, müstəqil, demokratik və dünyəvi dövlət kimi inkişaf etməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. Məsələn, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu, 19-20 yanvar 1990-cı il faciəsinə siyasi qiymət verildi. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması, ilk demokratik islahatların həyata keçirilməsi Muxtar Respublikanın sərhədləri boyu atəşkəs rejiminin tətbiq olunması, dinclik, əmin-amanlıq yaradılması bütövlükdə doğma Azərbaycanımız üçün taleyüklü məsələlər idi.

Onu da qeyd edək ki, o dövrdə Naxçıvan öz tarixinin ən dumanlı, çətin dövrlərini yaşayırdı. Onun müdrik və uzaqgörən rəhbəri bir tərəfdən müstəqillik və ərazi bütövlüyünə düşmən kəsilmiş siyasi təlatümlərə sinə gərir, digər tərəfdən Naxçıvan əhalisini nəhayətsiz iqtisadi çətinliklər məngənəsindən qurtarmağa çalışırdı. O zamankı Azərbaycan rəhbərliyi görülən bütün müsbət işlərə siyasi qısqanclıqla yanaşsa da gələcəyə ümidlə baxan Muxtar Respublika əhalisi öz rəhbərini – Ali Məclis Sədrini daha əzmkarlıqla müdafiə etdi.

Muxtar Respublika ilə böyük torpaq – Azərbaycan arasında Ermənistan ərazisindən keçən kommunikasiya xətlərinin – qaz nəqlinin, elektrik enerjisinin verilməsinin, eləcə də dəmir yolunda qatarların

hərəkətinin kəsilməsi regionun məkrli düşmənlərimiz tərəfindən tam blokadaya alınması ilə nəticələndi. Üstəlik də erməni yaraqlılarının sərhəd yaşayış məskənlərinə təcavüzləri güclənmişdi. Həmin dövrdə Naxçıvan həqiqətən də taleyin ümidinə buraxılmış bir adanı xatırladırdı. Belə bir dövrdə isə Muxtar Respublikanın Ali Məclisinə Sədrlik edən dünya şöhrətli siyasətçi Heydər Əliyev Muxtar Respublikanı düçar olduğu bəlalardan xilas etmək üçün yorulmaq bilmədən yollar axtarırdı. Bu dövrdə qonşu Türkiyə və İranla geniş əməkdaşlıq əlaqələrinin qurulması müdrik siyasətçini öz xalqını, Muxtar Respublikanı bu vəziyyətdən qurtarmaq üçün həyata keçirdiyi cahanşümul tədbirlərdən idi.

* * *

Möhtərəm Heydər Əliyevin 1992-ci ilin martında dost və qardaş Türkiyə Respublikasına səfəri Naxçıvanın həyatında böyük və görünməmiş bir hadisə olmuşdu. Türkiyənin o vaxtkı baş naziri Süleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin dost ölkəyə işgüzar səfəri və bu səfər zamanı aparılan səmərəli danışıqlar nəticəsində Naxçıvanın həyati tələbatını ödəmək üçün bir sıra əhəmiyyətli tədbirlərin nəzərdə tutulduğu protokolun imzalanması beynəlxalq aləmdə də geniş əks-səda doğurmuşdu. Bu protokola əsasən Naxçıvana 100 milyon dollar kredit ayrıldı. Muxtar Respublikanın elektrik şəbəkəsinin Türkiyə elektrik sisteminə qoşulması, qardaş ölkə ilə avtonəqliyyat əlaqəsinin yaradılması, kənd təsərrüfatı üçün zərurui olan məhsulların gətirilməsi, Naxçıvanın rabitə blokadasının yarılması üçün kommunikasiya sisteminin təkmilləşdirilməsi qərara alındı.

Bu dövrdə muxtra respublikanın iqtisadi problemlərinin həllinə də ciddi diqqət yetirilirdi. Muxtra respublikanın düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Bu əlaqələrin genişləndirilməsində düz 11 il bundan əvvəl –1992-ci ilin 28 mayında Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrini birləşdirən on bir aşırımlı və o vaxtdan "Ümid", "Həsrət" adlanan körpünün tikilib istifadəyə verilməsinin böyük əhəmiyyəti oldu. Açıq demək lazımdır ki, Naxçıvan əhalisi bugünkü yaşayış tərzinə görə də əsası 1992-ci ildən qoyulan Türkiyə və İran əlaqələrinin yaradıcısı Heydər Əliyevə özünü çox-çox borclu sayır.

* * *

28 may 1992-ci il... Bəlkə də qədim Naxçıvan torpağında heç vaxt belə izdiham olmamışdı. Sözün əsl mənasında kiçik paytaxt şəhərinin küçələrində yerimək, avtomaşınlarla hərəkət etmək mümkün deyildi. Təkcə muxtar respublikanın rayonlarından, kəndlərindən deyil, habelə, qardaş Türkiyənin yaxın bölgələrindən də minlərlə adamlar axışıb Naxçıvan şəhərinə gəlmişdi. Şəhərin ən görkəmli yerlərində vurulmuş şüarların hamısı eyni məna daşıyırdı: "Qədim Naxçıvana xoş gəlmisiniz, sayın Süleyman Dəmirəl!", "Yaşasın Azərbaycan-Türkiyə dostluğu!", "Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır!".

Bəli, Naxçıvanın tarixində ilk dəfə idi ki, dünyanın böyük və qüdrətli dövlətlərindən birinin hökumət başçısı – Türkiyə Respublikasının Baş Naziri Süleyman Dəmirəl bu torpağa qonaq gəlirdi. Türkiyə hökumətinin başçısı o zaman Naxçıvan Muxtra Respublikası Ali Məclisinin Sədri işləyən Heydər Əliyevin dəvətini qəbul edib, həmin gün, Araz çayı üzərində salınan və hamının "Həsrət" körpüsü adlandırdığı – "Sədərk-Dilucu" körpüsünün açılışı mərasimində iştirak etmək üçün Naxçıvana gəlmişdi.

Naxçıvan aeroportu Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmişdi. Saat 13:30-da Ankaradan gələn ilk təyyarə Naxçıvan aeroportunda yerə endi. Bu təyyarə ilə Türkiyədən gəlmiş 155 nəfərin içərisində Türkiyə hökumətinin nazirləri, yüksək vəzifəli dövlət məmurları, Böyük Millət Məclisinin deputatları, jurnalistlər var idi.

Çox keçmədən Türkiyə Respublikasının Baş Nazirini gətirən təyyarə də yerə endi. Təyyarənin pilləkənləri yanında Baş Nazir Süleyman Dəmirəli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və digər rəsmi şəxslər qarşıladılar. Heydər Əliyev hörmətli qonağı hərarətlə salamlayaraq qürur hissi ilə, – Naxçıvan tarixində ilk dəfə olaraq Türkiyənin Baş Naziri bu qədim torpağa ayaq basır. Hörmətli Süleyman Dəmirəli və onu müşayiət edən şəxsləri bu gün burada qarşılamaq kimi bir xoşbəxtlik bizə nəsib olub, – dedi.

Daha sonra heydər Əliyev dost və qardaş ölkənin baş nazirinə müraciətlə dedi: – Sizin Naxçıvana səfəriniz böyük tartixi əhəmiyyətə malikdir. Bu gün dərin razılıq hissi ilə qeyd edə bilərik ki, həyatımızın ötən dövrlərinin çətinlikləri tarixi dostluq tellərimizi qıra bilməmişdir. Biz Azərbaycanla Türkiyənin hərtərəfli əlaqələrinin inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, sayın baş bakan, sizin səfəriniz siyasi, iqtisadi və mədəni əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə güclü təkan verəcəkdir.

Vaxtında deyilən bu sözlərin həyatiliyi də sonrakı gedişatlarda özünü göstərdi. Bir millət, iki dövlət olan Azərbaycan-Türkiyə

əlaqələrinin getdikcə möhkəmlənməsində, qüdrətlənməsində, təbii ki, bu amillərin də rolu böyük oldu.

Baş nazir Süleyman Dəmirəl isə aeroportdakı çıxışında naxçıvanlılara sonsuz sevgisini və hörmətini ifadə edərək – şadam və xoşbəxtəm ki, bu gün naxçıvanlılarla görüşürəm, onları bağrıma basıram, – dedi, – Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birgə olmuş və olacaqdır. Siz doğru yolda – istiqlal və azadlıq yolundasınız. Bu yolunuz asan olmamışdır. Biz şadıq ki, bu yolda bütün maneələri aradan qaldıra bilmisiniz. Biz sizinlə birlikdə olmuşuq, dərdinizə də, sevincinizə də şərik olmuşuq.

Qarşılama mərasimi başa çatdıqdan sonra dünyanın böyük və müdrik siyasətçiləri sayılan Heydər Əliyev və Süleyman Dəmirəl, eləcə də Bakıdan və Türkiyədən gəlmiş qonaqlar avtomaşınlara əyləşərək Naxçıvan şəhərindən Sədərək rayonuna tərəf yola düşdülər. Yol boyu sürətlə irəliləyən maşın karvanını qarşılamağa çıxmış minlərlə adam dahi siyasətçiləri hərarətlə salamlayır, öz sevgi və məhəbbətlərini, hörmət və ehtiramlarını bildirirdilər. Əhalinin çox toplaşdığı yerlərdə – yol kənarlarında maşın karvanı tez-tez dayanır, Heydər Əliyev və Süleyman Dəmirəl adamlarla görüşüb söhbət edirdilər. Hər yerdə onların ayaqları altında qurbanlar kəsilirdi.

* * *

Təbii ki, Araz çayı üzrəində "Ümid" körpüsünün açılşı muxtar respublika üçün çox ağır olan dövrə təsadüf edirdi. Ermənistan silahlı qüvvələrinin ardı-arası kəsilmədən digər sərhəd yaşayış məntəqələri kimi Sədərəyə də hücumları nəticəsində dinc əhalinin yaşayışı pozulmuş, onlar evlərini tərk edərək kənddən xeyli aralıda, çadırlarda yaşamağa məcbur olmuşdular. Siyasi xadimlər bu adamlarla görüşüb söhbət etməyə, yaranmış vəziyyətlə ətraflı tanış olmağa da vaxt tapa bildilər.

Naxçıvan-Sədərək istiqamətindəki magistral avtomobil yolundan son ünvana çatmamış sol istiqamətə ayrılan yol "Ümid körpüsü"nə ünvanlanır. Bir azdan qarşıda möhkəm beton dayaqlar üzərində tikilən əzəmətli, yaraşıqlı körpü görünür. Çətin günlərdə Möhtərəm Heydər Əliyevin uzaqgörənliyi sayəsində inşa olunan, bir millət, iki dövləti bir-birinə birləşdirən və xalq üçün ümid və nicat körpüsü sayılan nəhəng bir obyekt qısa vaxt ərzində yüksək keyfiyyətlə inşa olunmuş – "Ümid körpüsü"dür. Əslində yeni obyektə bu ad da Möhtərəm Heydər Əliyev tərəfindən verilib.

Arazın o tayında isə özgə bir büsat qurulmuşdu. Minlərlə, on minlərlə adam bir-birlərilə görüşür, qucaqlaşırdılar. Sovet hakimiyyətinin

70 ili ərzində ayrılığa məruz qalmış yaxın adamlar bir-birinə qovuşur, bu vüsaldan, bu sevincdən doğan göz yaşlarını gizlədə bilmirdilər.

Araz çayının o tayında—Türkiyə ərazisində, körpüdən bir az aralıda peyk teleötürücülərinin antenləri qurulmuş, "Həsrət"-"Ümid" körpüsünün açılış mərasimini dünyaya nümayiş etdirmək üçün hazırlıq işləri görülmüşdü.

Bir azdan açılış mərasimi başlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə Respublikasının Baş Naziri Süleyman Dəmirəl və digər dövlət xadimləri burada düzəldilmiş kürsüyə qalxırlar. Alqış sədaları ətrafı bürüyür, səngimək bilmir. Mərasim açıq elan edilir.

Mərasimdə çıxış edən və türk qardaşlarımız tərəfindən də hərarətlə qarşılanan Heydər Əliyev qürurla deyir:

– Bu gün bu qocaman Araz çayı üzərində, qədim türk dünyasında, Azərbaycan torpağında böyük bir tarixi hadisə baş verir. Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü, "Həsrət" körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilmişdir.

Möhtərəm Heydər Əliyev həmin mötəbər toplantıda muxtar respublikanın son vaxtlar düçar olduğu ağır iqtisadi problemləri və onun yaranma şəraitini xatırlamaqla beynəlxalq ictimaiyyətin bir daha nəzər-diqqətinə çatdırır.

– Bu gün Azərbaycanda böyük bir bayramdır. İlk Milli Demokratik Cümhuriyyətin yaranmasının bayramıdır. Bununla yanaşı bu günlər Naxçıvanda faciəli günlərdir. Müharibə gedir, Ermənistan ilə Naxçıvan arasındakı sərhəddə qanlı döyüşlər olmuş və onlar davam edir, – söyləyən müdrik siyasətçi çıxışının sonunda Azərbaycana, Naxçıvana göstərdiyi yardıma görə, xalqımızın haqq işini dəstəklədiyinə görə Türkiyənin prezidenti Turqut Özala, baş nazir Süleyman Dəmirələ öz dərin təşəkkürünü və minnətdarlığını bildirir.

Türkiyə Respublikasının Baş Naziri Süleyman Dəmirəl də öz çıxışında borclu qalmadı: – Bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biriylə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur...

Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-biri ilə yaxınlaşacaqdır. Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu Avropa ilə Asiya arasında körpüdür, – dedi

* * *

...Uzun illər boyu Azərbaycan adlı məmləkətimiz ilə həmişə özümüzə dost və qardaş hesab etdiyimiz Türkiyə Respublikası arasında əlaqələrimiz zəif olub. Sovetlər Birliyinin hökm sürdüyü illərdə dünyanın o başına gedib-gəlmək bəlkə də qonşu dövlətə gedib-gəlməkdən asan olub. Hava nəqliyyatından başqa heç bir yolun olmaması da bunu sübutlayır.

Son 11 ildə isə... Azərbaycan-Türkiyə arasında əlaqələr daha da genişlənib. Elmi, mədəni, iqtisadi əlaqələr xeyli güclənib. Ticarət əlaqələri daha üstün yer tutub.

Bunlarsa dünya şöhrətli siyasətçimiz möhtərəm Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşıb. Başlıcası isə mənəvi-əxlaqi dəyərlər daha da yüksəlib. "Bir millət, iki dövlət" olmağımız bugünkü yaşayışımızın timsalında da gerçəkləşib.

Araz çayı üzərində 288 metr uzunluğunda körpü inşa olunmasaydı, təbii ki, bu əlaqələr də belə yüksək səviyyədə inkişaf edə bilməzdi. İnkişafın nəticəsidir ki, hər gün minlərlə vətəndaş – istər azrəbaycanlı olsun, istərsə də əcnəbi, Sədərək-Dilucu keçid məntəqəsinin xidmətindən istifadə edir. Bu gömrükxanalarda müsafirlərin gediş-gəlişi üçün sadələşdirilmiş qaydalar tətbiq edildiyindən narahatçılıqlar, çətinliklər də olmur. Əksinə, mədəni-iqtisadi əlaqələr daha da şaxələnib. Kütləvi tədbirlər də çoxalıb. Elə tədbirlər ki, onların hər birində yüz nəfərdən artıq qonaq iştirak edir.

Bunlarsa Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi sahəsində Heydər Əliyevin misilsiz xidmətlərindən biridir.

**"Şərq qapısı",**
**28 may 2006-cı il**

# Heydər Əliyev və Naxçıvanda Milli Ordu quruculuğu məsələləri

**"Yadda saxlamaq lazımdır ki, Sovet ordusu və onun hərbi texnikası keçmiş Ittifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik".**

**Heydər ƏLİYEV**

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də əhalinin təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycanın mürəkkəb və ağır dövrünə təsadüf edirdi. Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan həqiqətən də taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı. Tale Heydər Əliyevi Naxçıvana göndərməklə Naxçıvanı və bütün Azərbaycanı gözlənilən fəlakətlərdən xilas olmaq üçün real imkan yaratdı. Ümummilli liderimizin ilk gündən başlayaraq atdığı addımlar, həyata keçirdiyi tədbirlər Naxçıvanı düşmən əlinə keçmək təhlükəsindən xilas etdi. Muxtar respublikanın ali vəzifəli şəxsi seçildikdən sonra böyük öndər bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi. Ilk əvvəl isə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsi yaradıldı.

Heydər Əliyevin Naxçıvan Ali Məclisinə sədr seçilməsi milli miqyasda böyük hadisə olduğundan bədxah qonşularımız tərəfindən böyük narahatlıqla qarşılandı. Bu səbəbdən də az sonra erməni millətçiləri muxtar respublikaya qarşı yeni təcavüzkar hərəkətlərə əl atdılar. Sentyabrın 10-dan 11-nə keçən gecə erməni silahlı quldur dəstələri bir neçə sərhəd kəndinə basqın edərək Şahbuz rayonunun

Yuxarı Remeşin kəndindən 1083 baş, Ordubad rayonunun Tusi adına kolxozundan 1054 baş qoyun aparmış, həmin rayonun sakinləri Xəlil Xəlilovu və Əşrəf Abbasovu girov götürmüşdülər. Bununla bağlı muxtar respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin Ermənistanın hüquq-mühafizə orqanları ilə iki çobanın və qoyun sürülərinin dərhal geri qaytarılması tələbi ilə apardıqları danışıqlar heç bir nəticə vermədi. Bu hadisədən qəzəblənən Ordubad rayonunun bir qrup sakini isə İrəvan-Qafan qatarının hərəkətini saxladı. Vəziyyət daha da gərginləşdi. Yalnız bundan sonra Ermənistan Ali Sovetinin sədri Levon Ter-Petrosyan Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevə zəng edərək onu parlamentin başçısı seçilməsi münasibətilə təbrik etmiş və Ermənistanla Naxçıvanın sərhəd rayonlarında baş verən münaqişəli məsələləri "qarşılıqlı anlaşma və konstruktiv danışıqlarla həll etmək" niyyətində olduğunu bildirmişdi. O, Ordubad stansiyasında saxlanılan sərnişin qatarının yola salınmasına kömək göstərilməsini Heydər Əliyevdən xahiş etmiş, aparılmış çobanların, qoyun sürüsünün qaytarılması, baş vermiş cinayətin araşdırılması üçün tədbirlər görəcəyini vəd vermişdi. Heydər Əliyev ona verilən vədlər vaxtında yerinə yetirilsə, sərnişin qatarını buraxmaq zərurətini Ordubad rayonu əhalisinə inandırmaq imkanının olduğunu bildirmişdi.

* * *

1991-1993-cü illərdə Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin Rəyasət Heyətinin iclaslarında muxtar respublikanın sərhədindəki vəziyyət mütəmadi müzakirə edilmiş, müvafiq orqanların nümayəndələrinin iştirakı ilə operativ tədbirlər müəyyənləşdirilmişdi. 1991-ci il oktyabrın 2-də Ali Məclisin sessiyasında Ali Məclis Sədrinin təşəbbüsü ilə müdafiə məsələləri qapalı iclasda müzakirə olunaraq müvafiq qərar qəbul edildi. Sessiyada həmçinin Azərbaycanın Xocalı şəhərində yaranmış gərgin vəziyyət də müzakirə olundu. Naxçıvan deputatları qarşısında çıxış edən Xocalı Şəhər Sovetinin sədri Elman Məmmədov mövcud vəziyyət barədə ətraflı məlumat verərək respublika rəhbərliyinin fəaliyyətsizliyini tənqid etdi, Ali Məclisdən, onun sədrindən kömək istədi. Bu məsələlər barədə çıxış edən deputatlar çıxış yolunu yalnız Milli Ordunun yaradılmasında gördüklərini qeyd etdilər. Həmin iclasda həmçinin Goranboydan gəlmiş nümayəndələrin rayonda yaranmış vəziyyət barədə məlumatları dinlənildi. Həmin nümayəndələrin çıxışlarında, eləcə də Goranboy sakinlərinin Naxçıvan MR Ali Məclisi Sədrinə göndərdikləri çoxsaylı teleqramlarda rayon ərazisində ermənilər

tərəfindən girov götürülmüş insanların geri qaytarılmasına kömək göstərmək xahiş edilirdi. Belə mətnli müraciətlər respublikamızın digər rayonlarından da daxil olurdu. Ali Məclisin Sədri bu müraciətlərə cavab olaraq bildirirdi ki, muxtar respublika rəhbərliyini hər bir azərbaycanlının taleyi narahat edir. O, erməni quldurları tərəfindən girov götürülmüş azərbaycanlıların azad olunaraq öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edəcəyinə söz vermişdi.

Heydər Əliyev L.Ter-Petrosyanla telefon danışıqlarında və Ermənistan rəhbərliyinə göndərdiyi teleqramlarda Naxçıvanın taleyüklü məsələləri ilə yanaşı, Dağlıq Qarabağda və Goranboyda erməni yaraqlıları tərəfindən girov götürülmüş azərbaycanlıların qaytarılması haqqında dəfələrlə məsələ qaldırmışdı. Nəticədə Goranboy rayonunun sakinləri Umud Bayramov, Süleyman Bədəlov erməni əsirliyindən azad edilərək öz ailələrinə qaytarıldılar. Göstərdiyi insanpərvərliyə görə Bayramovlar ailəsi Naxçıvana gələrək Ali Məclis Sədrinə sonsuz minnətdarlıqlarını bildirdilər. Oktyabrın 26-da keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasında SSRI Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissələrinin statusu haqqında məsələ müzakirə olundu. Bu məsələnin müzakirəsinin zəruriliyi ondan irəli gəlirdi ki, son vaxtlar hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Hərbi hissələr tərəfindən hərbi texnikanın və silahın respublikadan kənara aparılması barədə şayiələr yayılır, ayrı-ayrı hərbi qulluqçuların hüquqazidd hərəkətləri yerli əhali arasında böyük narazılığa səbəb olurdu. Sessiyada Naxçıvanda qulluq edən hərbçilərin erməni quldurları ilə Azərbaycanın əleyhinə pozuculuq əlaqələri haqqında çoxlu faktlar göstərildi. Belə bir narahatlıq doğuran məqama da diqqət yetirildi ki, Naxçıvandakı Sədərək və Ordubad zastavaları gizli şəkildə Ermənistandakı sərhəd dəstəsinə tabe edilib. Ali Məclisin Sədri həmin məsələnin üç gün ərzində həll edilməsi və qeyd olunan zastavaların Naxçıvan sərhəd dəstəsinə tabe etdirilməsi haqqında 41-ci sərhəd dəstəsinin komandiri V.Jukova tapşırıq verdi. Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində bu məsələ öz müsbət həllini tapdı. Oktyabr ayının 30-da Naxçıvan sərhəd dəstəsinin komandanlığı Ali Məclisin Sədrinə muxtar respublikanın ərazisində yerləşən bütün sərhəd məntəqələrinin 41-ci sərhəd dəstəsinə tabe etdirilməsi haqqında məlumat verdi. Həmin sessiyada "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" məsələ də müzakirə olundu və müvafiq qərar qəbul edildi. Həmin qərarla muxtar respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin statusu ilə bağlı bütün məsələləri hərtərəfli

öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiya yaradıldı. Ali Məclis Sədri müavininin rəhbərliyi ilə yaradılmış komissiyaya muxtar respublikanın xalq deputatları ilə yanaşı, 75-ci diviziyanın komandiri Slaboşeviç və 41-ci sərhəd dəstəsinin komandiri Jukov da daxil edildilər. Lakin imperiyanın bəzi informasiya vasitələri Naxçıvanın hakimiyyət orqanları və əhalisinin Naxçıvandakı hərbi hissə və sərhəd dəstəsi ilə qarşılıqlı münasibətlərini təhrif edən, muxtar respublikada vəziyyəti gərginləşdirmək məqsədi güdən bir sıra məlumatlar yaymaqda davam edirdilər. Muxtar respublikada yerli əhali ilə hərbçilər arasında qarşıdurma haqqında yanlış məlumatlar müəyyən dairələr tərəfindən Mərkəzə ötürülürdü.

Noyabr ayının əvvəllərində SSRİ DTK sədrinin müavini N.Şam və Baş Sərhəd İdarəsinin şöbə rəisi A.Bessonov Naxçıvanda yerləşən sərhəd qoşunları ilə bağlı bəzi məsələləri araşdırmaq üçün muxtar respublikaya gəldilər. Ali Məclisin Sədri Heydər Əliyev onlarla görüşdə ayrı-ayrı hərbçilər tərəfindən törədilən, əhalinin narazılığına səbəb olan və yerli hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı fəaliyyətini mürəkkəbləşdirən hüququzidd hərəkətlər barədə danışaraq muxtar respublikanın hakimiyyət orqanlarının hərbi hissələrlə qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş fəaliyyət barədə qonaqlara məlumat verdi. Böyük öndər bu dövrdə hərbi hissələrlə münasibətləri yaxşılaşdırmaq, ayrı-ayrı hərbçilərin qanunsuz əməllərinə, Azərbaycanın mənafeyinə xələl gətirən fəaliyyətlərinə son qoymaq üçün bütün imkanlardan maksimum dərəcədə istifadə edirdi. Baş verə biləcək münaqişələrin qarşısını almaq üçün yerli hakimiyyət orqanları ilə hərbi hissələrin komandanlığı mütəmadi görüşür, birgə tədbirlər həyata keçirirdilər. Ali Məclisin Sədri özü bir neçə dəfə Naxçıvanda yerləşən hərbi hissələrin komandanlığı və şəxsi heyəti ilə görüşmüş və bu fikri xüsusilə vurğulamışdı ki, Naxçıvanda yerləşən hərbi hissələr öz xidməti vəzifələrini Azərbaycanın dövlət müstəqilliyini nəzərə almaqla, regionda yaranmış real vəziyyətə uyğun yerli hakimiyyət orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirməlidirlər.

* * *

1991-ci ilin dekabr ayında SSRİ-nin dağılması vahid silahlı qüvvələrin bölünməsi məsələsini ortaya çıxardı. Yaranmış yeni şərait

Naxçıvanda yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsi, həmin hissələrin burada qalmalarının məqsədəuyğunluğu məsələsini zəruri edirdi. Vəziyyətin sürətlə dəyişməsi, keçmiş strukturların dağılması muxtar respublikadakı hərbi hissələrin statusuna yeni şərait nöqteyi-nəzərindən yanaşmağı tələb edirdi. Muxtar respublika Ali Məclisinin 14-16 dekabr 1991-ci il tarixli sessiyasında hərbi hissələrin statusu məsələsi bir daha müzakirəyə çıxarılmış, bu məsələlər ilə bağlı yaradılmış xüsusi komissiyaya hərbi hissələrin komandirləri ilə birgə 10 gün müddətinə konkret təklifləri hazırlayıb Ali Məclisə təqdim etməsi tapşırılmışdı. Muxtar respublika rəhbərliyinin məsələni qarşılıqlı güzəşt və qanuni yolla həll etmək istəyinə baxmayaraq, yerli hakimiyyət orqanlarına rus hərbçilərinin yerli əhali ilə münaqişələrə səbəb olan hərəkətləri, onların hərbi texnikanı və avadanlıqları respublikadan çıxarmaq, sökərək yararsız hala salmaq cəhdləri haqqında çoxlu məlumatlar daxil olurdu. Bütün bunlara dair konkret faktlar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin hərbi hissə komandirlərinin də iştirak etdikləri 1992-ci il yanvarın 2-də keçirilən iclasında geniş müzakirə olundu. Iclasda çıxış edən Heydər Əliyev hərbçilərlə yerli əhali arasında baş vermiş münaqişələri təhqiq etmək üçün xüsusi komissiyanın yaradılması ilə bağlı təklif irəli sürdü. O, hərbi texnikanın və avadanlıqların muxtar respublikadan çıxarılması haqqında faktlara münasibət bildirərək dedi: "Yadda saxlamaq lazımdır ki, Sovet ordusu və onun hərbi texnikası keçmiş Ittifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik. Suveren respublikalar birliyinin yaranması ilə əlaqədar hər bir respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr yerli hakimiyyət orqanlarına tabe olmalıdırlar. Hərbçilər yerli əhaliyə, onun adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar. Əhali ilə hərbçilər arasında normal qarşılıqlı münasibətlər bərqərar olmalıdır". Iclasda Azərbaycan rəhbərliyinin göstərilən məsələlərlə əlaqədar qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən anlaşılmaz mövqe tutması da haqlı tənqid olundu.

Qəbul edilmiş qərarda Naxçıvandakı bütün yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, muxtar respublika əhalisinin milli sərvəti olduğu əsas götürülərək muxtar respublikada yerləşən silahlı qüvvələrin hissələrinin bütün hərbi və təsərrüfat tikililərinin, əmlakın, silahların və hərbi sursatların, hərbi və mülki texnikanın Naxçıvan MR-ə məxsus olduğu qeyd edilmiş, Ali Məclisin icazəsi olmadan respublika

ərazisindən hərbi sursat və texnika çıxarılması qadağan edilmiş, muxtar respublika ərazisində olan hərbi hissələrin hüquqi statusu haqqında məsələ qəti həll olunanadək, onların Ali Məclisə tabe olmaları, prinsipial məsələlərdə fəaliyyətlərini Ali Məclis ilə razılaşdırmaları göstərilmişdi.

1992-ci il martın 10-da Heydər Əliyevin Ermənistan Ali Sovetinin sədri Babken Arakçyanla görüşü oldu. Görüş zamanı Ermənistanla Naxçıvan arasındakı bütün sərhəddə sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi, Ermənistanın Mehri rayonu ərazisindən keçən Bakı-Naxçıvan sərnişin qatarının təhlükəsizliyinin təmin edilməsi, Ermənistandan keçən bütün kommunikasiya xətlərinin normal işləməsi haqqında razılıq əldə olunsa da, qarşı tərəf bu sazişin heç bir müddəalarına əməl etmədi. Bakıdakı bəzi üzdəniraq siyasətçilər isə Naxçıvan Ali Məclisi Sədrinin bu istiqamətdəki fəaliyyətini separatçılıq kimi qələmə verməyə cəhd göstərsələr də, Heydər Əliyev Ermənistanın rəhbərləri ilə telefon danışıqlarında, şəxsi görüşlərində təkcə Naxçıvanın təhlükəsizliyi ilə bağlı məsələləri deyil, bütün Azərbaycanı narahat edən, xüsusən Dağlıq Qarabağın taleyi ilə bağlı problemləri ön plana çəkirdi. Buna konkret misal olaraq 1992-ci il martın 12-də ermənilər Ağdam şəhərini və digər yaşayış məntəqələrimizi atəşə tutduqları zaman Heydər Əliyev dərhal Ermənistan rəhbərlərinə telefon açaraq atəşin dayandırılmasını tələb etməklə bütün problemlərin sülh yolu ilə həllinin vacibliyini vurğulamasını göstərmək olar. 1992-ci ilin mayı isə Azərbaycanın, eləcə də Naxçıvan MR-in müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edirdi. Həmin ayda Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından və onların Qarabağı yaddan çıxarmalarından istifadə edən ermənilər Azərbaycana qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini ələ keçirdilər və bununla da Dağlıq Qarabağın işğalını başa çatdırdılar. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı məkrli planlarını da həyata keçirməyə çalışır, sərhəd kəndlərinə təcavüzlər edirdilər. Bu amansız təcavüz bir neçə gün davam etmiş, yalnız möhtərəm Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onun qarşısını almaq mümkün olmuşdu. Lakin bu da müvəqqəti olaraq dayandı. Ayın 18-də müasir silahlarla silahlanmış ermənilər yenidən muxtar respublikaya hücuma keçərək bir sıra sərhəd məntəqələrini ələ keçirməyə çalışdılar. Bu dəfə torpaqlarımız uğrunda ölüm-dilim mübarizəsi başladı. Bu hücumlar nəticəsində hərbçilər və dinc əhali arasında çoxlu həlak olanlar, yaralananlar oldu. Sədərək kəndi ciddi dağıntılara məruz qaldı. Bir neçə sərhəd kəndinin əhalisi təhlükəsiz yerə köçürüldü.

* * *

Heydər Əliyevin fenomenal siyasətçi və diplomat dühası Naxçıvanı real işğal təhlükəsindən xilas etdi. Dahi rəhbərin uzaqgörən və düşünülmüş siyasəti təpədən-dırnağadək silahlanmış erməni yaraqlılarının məkrli planlarını alt-üst etdi. Həmin günlərdə Ali Məclis Sədrinin yorulmaq bilmədən gecəli-gündüzlü apardığı siyasət öz bəhrəsini verdi. O, xarici dövlətlərin başçılarına, beynəlxalq qurumlara, dünya ictimaiyyətinə müraciət edərək Ermənistanın Azərbaycan torpaqlarına, eləcə də Naxçıvana hərbi təcavüzü barədə məlumat vermiş, bu təcavüzü dayandırmaq üçün əməli tədbirlər görülməsini tələb etmişdi. Naxçıvan üçün son dərəcə ağır bir zamanda qardaş Türkiyənin birmənalı mövqeyi Ermənistana öz təcavüzkar niyyətlərini həyata keçirməyə mane oldu. May ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl, xarici işlər naziri Ərdal İnönü Heydər Əliyevə telefonla zəng edərək vəziyyət barədə ətraflı məlumat aldılar. Həmin gün gecə isə Süleyman Dəmirəlin sədrliyi ilə Türkiyənin Nazirlər Kabineti iclas keçirərək Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı bəyanat verdi. Baş nazirin göstərişi ilə böyük elçi Ömər Ərsun başda olmaqla Türkiyənin nümayəndə heyəti Naxçıvana gələrək vəziyyətlə yerində tanış olmaq üçün Sədərək bölgəsinə getmiş, sonra böyük siyasətçi ilə görüşmüşdülər. Heydər Əliyevin dünya xalqlarına müraciətindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın informasiya agentliklərinin, mətbuat orqanlarının nümayəndələri Naxçıvana gələrək buradakı vəziyyət haqqında dünya ictimaiyyətini obyektiv məlumatlandırdılar. Əlbəttə, bunlar ümummilli liderimizin də qeyd etdiyi kimi, Azərbaycan üçün böyük nailiyyət idi. Çünki Dağlıq Qarabağ münaqişəsi başlanandan həmişə Azərbaycan günahlandırılmış, mətbuat orqanları, dünya ictimaiyyəti, o cümlədən Rusiya ictimaiyyəti həmişə ermənilərin xeyrinə birtərəfli məlumatlar almışlar. Məhz o dövrdə dahi siyasətçinin səyləri nəticəsində dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yaradıldı və Ermənistanın təcavüzkar mövqeyi ifşa edildi. 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO isə bu barədə xüsusi bəyanat yaymışdı. Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri də Naxçıvana gələrək döyüş bölgəsinə, Sədərəyə baş çəkmişdilər və həlak olmuş naxçıvanlıların cəsədləri onların vasitəçiliyi ilə ermənilərdən geri alınmışdı. Təbii ki, Heydər Əliyevin diplomatik fəallığı, bütün dünya ictimaiyyətini ayağa qaldırması Ermənistanı geri çəkilməyə məcbur etdi. Bununla bərabər onlar yenə öz yerlərində oturmaq istəmir, hər cür vasitələrə əl ataraq sübut etməyə çalışırdılar ki, guya bu müharibədə ilk əvvəl hücumu onlar başlamayıblar və Naxçıvan ərazisini işğal etməyiblər. Nəhayət, mayın 24-də

Ermənistanın müdafiə naziri V.Sarkisyan və başqa rəhbər işçilər Naxçıvan rəhbərliyinə müraciət edərək danışıqlar aparmaq istədiklərini bildirdilər. Bir fakt da xüsusi qeyd edilməlidir ki, o dövrdə Naxçıvanın bütün əhalisi muxtar respublikanın müdafiəsini möhkəmləndirmək üçün öz köməyini göstərirdi. Muxtar respublikanın bütün yaşayış məntəqələrində könüllülərdən ibarət özünümüdafiə dəstələri yaradılmış və onlar sərhəd kəndlərində yerləşdirilmişdilər. Bəzi müəssisələr, ayrı-ayrı vətəndaşlar vətəndaşlıq təşəbbüsü ilə çıxış edərək Naxçıvanın müdafiəsi üçün vəsait toplayırdılar. Lakin bu iş bir çox hallarda pərakəndə aparıldığından ondan sui-istifadə edilməsi barədə söz-söhbətlər də eşidilirdi. Bütün bunları nəzərə alaraq Heydər Əliyev Ali Məclisin növbəti sessiyalarının birində Naxçıvanın vahid inkişaf və müdafiə fondunun yaradılması təklifi ilə çıxış etdi. Həmin təklif Ali Məclisin Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli iclasında geniş müzakirə edilərək bəyənildi. Naxçıvan iqtisadiyyatının inkişafını və müdafiəsini təmin etmək üçün hər bir vətəndaşın fəal vətənpərvərlik səyi göstərməsinə böyük ehtiyac olduğunu əsas götürərək Naxçıvan iqtisadiyyatına və müdafiəsinə yardım məqsədilə Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılması haqqında qərar qəbul edildi.

Heydər Əliyev muxtar respublika Ali Məclisinin Sədri işlədiyi dövrdə muxtar respublikada hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirirdi. Onun birbaşa rəhbərliyi və nəzarəti altında Rusiyanın Zaqafqaziya Sərhəd Dairəsinin Naxçıvandakı hərbi hissələrinin komandanlıqları ilə aparılan danışıqlar nəticəsində 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi. Həmin danışıqlarda muxtar respublika rəhbəri Azərbaycanın artıq tam müstəqil dövlət olduğunu və dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanındığını əsas tutaraq Azərbaycan, onun tərkib hissəsi olan Naxçıvanın ərazisində başqa dövlətin hərbi hissələrinin qalmasının qeyri-mümkünlüyünü qətiyyətlə bildirdi.

* * *

1992-ci il iyulun 25-də Ali Məclisin Rəyasət Heyətinin iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edildi. İki gündən sonra, iyulun 22-də 75-ci diviziyanın əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsi prosesinə başlanıldı və bu proses avqust ayının

15-də başa çatdırıldı. Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı. 1992-ci il avqustun 18-də keçmiş Sovet Ordusunun 75-ci diviziyasının şəxsi heyətinin son dəstəsi Naxçıvanı tərk etdi. Həmin gün diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının və sursatının Azərbaycan Milli Ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına təhvil verilməsi haqqında sənədlərin imzalanması və diviziyanın Naxçıvandan yola salınması mərasimi keçirilmiş, Ali Məclisin Sədri bu mərasimdə çıxış edərək ürək sözlərini demişdir. Milli Ordunun Naxçıvandakı 5-ci əlahiddə briqadasının zabit və əsgərləri qarşısında çıxış edən Heydər Əliyev əmin olduğunu birdirmişdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edəcək, briqadanın komandanlığı, bütün zabit və əsgər heyəti sərəncamlarına keçən hərbi əmlakın, texnikanın saxlanılmasına, ondan səmərəli istifadə edilməsinə böyük səy göstərəcəklər. O, ümidvar olduğunu bildirmişdi ki, bundan sonra Naxçıvanın müdafiəsi daha da möhkəmlənəcəkdir. 1992-ci il iyul ayının 28-də Naxçıvan MR Ali Məclisinin təklifi ilə Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvanda 1-ci sərhəd qoşunları dəstəsi yaradıldı. Həmin il sentyabrın 29-da Naxçıvan şəhərində Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti rəhbərliyinin, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsi nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının 1-ci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı. 75-ci diviziya ilə olduğu kimi, keçmiş 41-ci sərhəd dəstəsinin də bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakı Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvandakı dəstəsinə təhvil verildi, bu zaman heç bir münaqişəli hal olmadı. Elə həmin gün muxtar respublika rəhbərliyi və ictimaiyyətinin nümayəndələri tərəfindən 41-ci sərhəd dəstəsinin sonuncu qrup zabit və əsgərləri, başda dəstənin komandiri polkovnik V.Jukov olmaqla təyyarə ilə Naxçıvan Muxtar Respublikasından yola salındılar.

Bununla da Azərbaycan ilə qonşu dövlətlər - İran və Türkiyə arasında Naxçıvan ərazisindəki 215 kilometrlik dövlət sərhədinin mühafizəsi Azərbaycan Sərhəd Qoşunları tərəfindən həyata keçirilməyə başlandı. Bütün sərhəd məntəqələrində və sərhəd dəstəsi qərargahının üzərində Azərbaycanın dövlət bayraqları qaldırıldı. 1992-ci il sentyabrın 29-dan Naxçıvan ərazisində digər dövlətin - Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmadı. Naxçıvanda təxminən iki əsr müddətində mövcud olmuş əcnəbi ölkənin hərbi iştirakına son qoyuldu.

O vaxtdan Azərbaycan - Respublikasının Naxçıvan MR ərazisində Azərbaycan Milli Ordusunun və Azərbaycan Milli Sərhəd Qoşunlarının hissələri fəaliyyət göstərməkdədir. 1992-ci il oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin birinci ildönümü münasibətilə Bakıda olduğu kimi, Naxçıvanda da Azadlıq meydanında hərbi parad keçirildi. Ali Məclisin Sədri Heydər Əliyev paraddan əvvəl meydana toplaşmış döyüşçülər və vətəndaşlar qarşısında çıxış edərək bu əlamətdar gün münasibətilə onları təbrik etmiş və demişdir ki, biz 70 il ərzində hər il keçmiş Sovetlər Ittifaqının Silahlı Qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Çünki Azərbaycan xalqı nəhayət öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün Milli Ordusunu yaratmışdır. Bu ordunun bir hissəsi də Naxçıvanda yerləşir.

Sonra Heydər Əliyev Milli Ordunun yaranmasını şərtləndirən tarixi hadisələri səciyyələndirərək bu proseslərdə Naxçıvanın xüsusi vəziyyətini qeyd etmişdi. Ümummilli liderimiz Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, bütün könüllü dəstələrə minnətdarlıq hisslərini bildirərək onu da bəyan etmişdi ki, Naxçıvandakı Azərbaycan Milli Ordusunun hissələri lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Ali Məclisin Sədri könüllü dəstələrin keçmiş üzvlərinə üz tutaraq onlara da minnətdarlığını bildirmiş, eyni zamanda öz vətəndaşlıq vəzifələri ilə məşğul olmalarını tövsiyə etmiş, torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələrinin həyata keçirməli olduğunu göstərmişdi. Heydər Əliyev muxtar respublikanın Ali Məclisi, Nazirlər Kabineti, bütün nazirliklər, dövlət komitələri, müəssisələr, təşkilatlar və ayrı-ayrı vətəndaşlara Naxçıvanda yerləşən Milli Ordu hissələrinə qayğı və kömək göstərməyi şərəfli və müqəddəs bir vəzifə kimi tapşırmışdı. Muxtar respublikada hərbi quruculuq sahəsində mövcud problemlər də Ali Məclisin Sədri Heydər Əliyevin yanında keçirilən müşavirə və yığıncaqlarda dəfələrlə müzakirə edilmiş, onların aradan qaldırılması üçün tədbirlər həyata keçirilmişdi.

Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində görülmüş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitlik və əmin-amanlığın möhkəm təməlini qoydu.

“Dirçəliş-XXI əsr” jurnalı,<br>№ 112-113, 2007-ci il

## Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə beynəlxalq əlaqələr

**"Tarixin ən çətin, mürəkkəb mərhələlərində Naxçıvana mənəvi, siyasi dayaq olmuş, onun doğma Azərbaycandan ayrılıb düşmən əlinə keçməsinin qarşısını alan, bölgənin muxtariyyətinin beynəlxalq qarantı Türkiyə Respublikası ilə əlaqələrin bərpası bu dövrdə Muxtar Respublika üçün xüsusi əhəmiyyət daşıyırdı".**

**Heydər ƏLİYEV**

Ölkəmizin müstəqillik qazanması və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi ilə onun xarici əlaqələrinin inkişafında sərhəd bölgəsi olan Naxçıvanın da rolu artmış oldu. Bunun əsas səbəbləri aşağıdakılardan ibarət oldu: Ermənistanın Azərbaycana qarşı yeritdiyi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuş və hazırda o, blokada şəraitində yaşamaqdadır. Buna görə də Azərbaycanın digər rayonlarından fərqli olaraq Naxçıvan Muxtar Respublikası müəyyən mənada müstəqil (təbii ki, öz səlahiyyətləri daxilində) xarici əlaqələr qurmağa məhkum edilmişdir; Naxçıvanın İran və Ermənistanla həmsərhəd bölgə olması Azərbaycanın qardaş Türkiyəyə yeganə çıxışı olan bölgəsi olması, Muxtar Respublikanın ölkələrlə müəyyən nəqliyyat şəbəkəsinə malik olması onun xarici ölkələrə, həmçinin dünya bazarına çıxış imkanlarını genişləndirir.

Taleyin hökmü ilə ağır blokada şəraitində olan Naxçıvanda yaşamağa məcbur olan Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının İran və Türkiyə dövlətləri ilə əlaqələri yaradıldı, Naxçıvanın həyati tələbatlarını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün protokollar imzalandı. Muxtar Respublikaya rəhbərlik etdiyi 1 il 9 ay ərzində Heydər Əliyev əsasını qoyduğu xarici əlaqələr sayəsində bölgəni labüd fəlakətdən xilas etdi. Naxçıvanın o ağır dövrdə qurduğu beynəlxalq əlaqələr Muxtar Respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitəyə çevrildi.

* * *

"Tarixin ən çətin, mürəkkəb mərhələlərində Naxçıvana mənəvi, siyasi dayaq olmuş, onun doğma Azərbaycandan ayrılıb düşmən əlinə keçməsinin qarşısını alan, bölgənin muxtariyyətinin beynəlxalq qaranti Türkiyə Respublikası ilə əlaqələrin bərpası bu dövrdə Muxtar Respublika üçün xüsusi əhəmiyyət daşıyırdı".

1991-ci il sentyabrın 3-də Ali Məclisin Sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. «Naxçıvan türk-islam dünyasına bir qapıdır» deyən Heydər Əliyev bu istiqamətdə ardıcıl, məqsədəuyğun fəaliyyət göstərməyə başladı. Həmin il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində körpü müvəqqəti istifadəyə verildi.

Həmin körpünün rəsmi açılışı mərasimində Ali Məclisin Sədri Heydər Əliyevlə bərabər, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri də iştirak etdilər. Amma nə gizlədək, Azərbaycanın Türkiyə ilə birbaşa nəqliyyat əlaqəsi qurmasını o zamankı SSRİ rəhbərliyi qısqanclıqla qarşıladı. Bu səbəbdən də rəsmi informasiya vasitələri bu hadisəni gözdən salan məlumatlar yaymağa başlamışdılar. Ali Məclisin mətbuat xidməti buna öz etirazını bildirmiş və onlardan təkzib vermələrini tələb etmişdi.

70 il ərzində bir-birlərinə həsrət qalan bu dost və qardaş ölkələr arasında ilk gediş-gəliş əlaqələri yaradıldı. 1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti Muxtar Respublikaya səfər etmiş, səfər zamanı Ali Məclisin Sədri ilə Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması haqqında məsələlər müzakirə edilmiş, Muxtar Respublika Nazirlər Kabineti ilə həmin qurum arasında protokol tərtib edilmişdi.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökuməti nümayəndələrinin, iş adamlarının, qonşu vilayətlərin nümayəndələrinin Naxçıvana səfərləri genişlənmiş, Muxtar Respublikaya göstərilən yardımların həcmi artmışdı. 1991-ci il noyabrın 9-da Türkiyənin «Qızıl Ay» cəmiyyətinin xətti ilə Muxtar Respublikaya 126 ton ərzaq gətirilmişdi. Həmin ayın sonunda Iqdır şəhərinin əhalisi və valiliyi də ərzaq məhsullarından ibarət 19 yük maşını göndərmişdilər. Yardımları gətirən nümayəndə heyətləri ilə görüşündə xalqımızın ümummilli lideri göstərilən yardımı ən əvvəl mənəvi yardım kimi qiymətləndirmiş, bunun qardaşların görüşməsi və yaxınlaşması üçün bir vasitə olduğunu göstərmişdi.

Xarici əlaqələrin təşəkkül tapmasında Ali Məclisin Sədri Heydər Əliyevin 24 fevral 1992-ci il tarixli fərmanı ilə yaradılan Muxtar Respublika Dövlət Gömrük Komitəsi mühüm rol oynamağa başladı.

Bu dövrdə Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə rəsmi səfərləri xüsusi rol oynadı. 1992-ci ilin martında Naxçıvanın ictimai-siyasi həyatında görünməmiş bir hadisə baş verdi. Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin dost ölkəyə işgüzar səfəri oldu. Səfər zamanı Türkiyə Respublikasının prezidenti T.Özal, baş nazir S.Dəmirəl ilə geniş görüşlər keçirildi. Görüşlərdə əsas müzakirə edilən məsələ təbii ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyətlə bağlı olmuşdu. Muxtar Respublikanın qonşu dövlətlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədilə Türkiyənin Baş naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri birgə protokol imzalamışdılar.

13 maddəlik protokolda Muxtar Respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, Muxtar Respublikanın zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji xətlərinin yaradılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda həmçinin bank işi, turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, Muxtar Respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlinmişdi.

Muxtar Respublikanın Ali Məclisinin Sədri bu protokolu böyük əhəmiyyətə malik tarixi sənəd kimi qiymətləndirmiş, Muxtar Respublikanın icra strukturlarına protokolun icrası ilə əlaqədar konkret təkliflərlə çıxış etməyi tapşırmışdı.

Qısa müddət ərzində protokolda nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün konkret işlər görülməyə başlandı. Telekommunikasiya sahəsində Muxtar Respublikanın ehtiyaclarını ödəmək üçün Türkiyənin «Teletaş» şirkətinin nümayəndələri bölgəyə gəlmişlər. Qonşu ölkənin kənd təsərrüfatı nazirliyi əməkdaşlarının Naxçıvana səfəri zamanı (aprel, 1992) böyük miqdarda texniki yardım, gübrə, toxum göndərilməsi haqqında razılıq əldə edilmişdi.

* * *

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış «Sədərək-Dilucu» körpüsü mühüm mərhələ oldu. Naxçıvan

torpağı həmin gün böyük bayram əhval-ruhiyyəsi yaşadı. Naxçıvanın tarixində ilk dəfə olaraq dünyanın ən iri dövlətlərindən birinin–Türkiyənin Baş naziri birbaşa bu torpağa qonaq gəldi. Bu münasibətlə hava limanında qarşılanma mərasimi də böyük təntənəyə çevrildi. Və bu qarşılanmada ondan bir qədər əvvəl Naxçıvana xüsusi təyyarə ilə təşrif buyuran və 150 nəfərdən artıq Türkiyənin nazirlərindən, yüksək çinli məmurlarından və yaradıcı ziyalılarından ibarət nümayəndələr də iştirak edirdilər.

Naxçıvan Hava Limanında Süleyman Dəmirəli böyük məhəbbətlə salamlayan Ali Məclisin Sədri sevinclə dedi: İlk dəfə olaraq Türkiyənin Baş naziri bu qədim torpağa ayaq basır. Sayın Süleyman Dəmirəl və onu müşayiət edən şəxsləri bu gün burada qarşılamaq kimi bir xoşbəxtlik bizə nəsib olub. Baş nazir Süleyman Dəmirəl də Heydər Əliyevə, eləcə də naxçıvanlılara sonsuz sevgi və məhəbbətini gizlətmədi:

–Şadam və xoşbəxtəm ki, bu gün naxçıvanlılarla görüşürəm, sizləri bağrıma basıram. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birgə olmuş və olacaqdır. Dərdinizə də, sevincinizə də şərik olmuşuq.

Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri S. Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Muxtar Respublikaya gəlmişdi. Körpünün açılış mərasimində çıxış edən Heydər Əliyev qeyd edir ki, biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik.

Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl də öz çıxışında borclu qalmadı–bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur...

Muxtar Respublikanın ictimai, iqtisadi həyatında mühüm mərhələ olacaq, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirmiş «Ümid», «Həsrət» körpüsünün istifadəyə verilməsi böyük hadisəyə çevrilmişdi.

1992-ci ilin iyulunda keçirilmiş Muxtar Respublika Ali Məclisinin Rəyasət Heyətinin iclasında körpünün istifadəyə verilməsini böyük tarixi hadisə kimi qiymətləndirmiş, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə, qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəyini bildirmişdi. Rəyasət Heyətinin qərarı

ilə «Sədərək-Dilucu» körpüsü Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında rəsmi keçid qapısı elan edilmişdi.

* * *

Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında açıq demək lazımdır ki, Ali Məclisin Sədri Heydər Əliyevlə Türkiyənin Baş naziri S.Dəmirəl arasında yaranmış dostluq münasibətləri xüsusi rol oynayırdı. Heydər Əliyev Ermənistanın təcavüzü ilə əlaqədar Naxçıvanda yaranmış vəziyyətlə onu və digər Türkiyə rəhbərlərini daim məlumatlandırmış, təcavüzün dayandırılması üçün kömək göstərilməsini xahiş etmişdir. 1992-ci ilin mayında Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı Türkiyə hökuməti bəyanat qəbul etmiş və 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan Muxtar Respublikası haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etmişdi.

Heydər Əliyev Ermənistanın təcavüzü ilə bağlı Naxçıvanda yaranmış vəziyyət haqqında obyektiv məlumatı 1992-ci ilin iyulunda Türkiyəyə etdiyi səfərdə də qonşu dövlətin rəhbərlərinin, bütün dünya ictimaiyyətinin nəzərinə çatdırmışdı. Həmin səfərdə Türkiyənin Naxçıvan Muxtar Respublikasına yardımı məsələsi müzakirə edilmiş, açılmış kreditin 10 milyonundan istifadəsi barədə protokol imzalanmışdı. Səfər müddətində Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də öz həllini tapmışdı.

Naxçıvan Muxtar Respublikasının qonşu Türkiyə vilayətləri - Qars, İqdır, Ağrı, Ərzurum, Van ilə də əlaqələri yaranır və möhkəmlənirdi. Heydər Əliyev Türkiyədə səfərdə olarkən dəfələrlə bu bölgələrdə olmuş, həmin vilayətlərin nümayəndə heyətləri də öz növbəsində Naxçıvana işgüzar və mədəni səfərlər etmişdilər. Xüsusən Qars və İqdır vilayətləri ilə əlaqələr sürətlə, yüksələn xətt üzrə inkişaf edirdi. Belə bir faktı qeyd etmək lazımdır ki, İqdıra vilayət statusunun verilməsində Heydər Əliyevin rolu böyük olmuşdur. İqdıra vilayət statusunun verilməsi mərasimində Türkiyə ali rəhbərləri ilə yanaşı Heydər Əliyev də iştirak etmişdi.

1992-ci ilin avqust ayında Heydər Əliyevin Türkiyəyə növbəti səfəri zamanı Türkiyədən ərzaq yardımı gətirilməsi barədə razılıq əldə edilmiş, 1993-cü ilin aprelində Muxtar Respublikada yaranmış çətinliklə əlaqədar Ali Məclisin Sədri yenidən Türkiyənin «Qızıl Ay» cəmiyyətinin rəsmi hökumət dairələrinə yardımla bağlı müraciət edəndən sonra əlavə yardımlar daxil olmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədrlik etdiyi dövrdə muxtar respublikamızın xarici əlaqələrinin sıx inkişaf etməyə başladığı ikinci dövlət–Azərbaycanın cənub qonşusu olan İran İslam Respublikası idi.

* * *

Ölkəmiz müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikası Azərbaycan-İran siyasi, iqtisadi, mədəni əlaqələrində öz coğrafi şəraitinə görə, eyni zamanda düşdüyü blokada vəziyyətinə görə mühüm və əhəmiyyətli rol oynamağa başladı. Bu səbəbdəndir ki, 20 ilə yaxındır ki, Azərbaycan dövləti öz tərkib hissəsi olan Naxçıvanla nəqliyyat-kommunikasiya əlaqələrini İran ərazisi vasitəsi ilə həyata keçirir. Bu da öz növbəsində, Azərbaycan-İran əlaqələrinin inkişafında muxtar respublikanın təkanverici amil olduğunu zəruri edir.

Ümumiyyətlə götürdükdə isə müstəqillik dövründə Azərbaycan-İran münasibətləri heç də hamar olmamış, istənilən səviyyədə qurulmamışdı. Bir tərəfdən Azərbaycanın müstəqilliyini özü üçün təhlükə mənbəyi hesab edən qonşu dövlətin bəzi rəsmi dairələri Azərbaycana münasibətdə ehtiyatlı siyasət yürütmüş, nəticədə yalnız ölkələr arasında diplomatik əlaqələr 1992-ci ilin martın 12-də qurulmuşdu.

Digər tərəfdən, ilk dövrlərdə, xüsusən Xalq cəbhəsinin hakimiyyəti dövründə İrana münasibətdə radikal çağırışlarla müşayiət olunan hərəkətlər iki dövlət arasında kifayət qədər problem yaratmışdı. Belə şəraitdə Naxçıvana uğurla rəhbərlik edən Heydər Əliyev öz uzaqgörən siyasəti ilə qonşu dövlətlə münasibətləri müəyyən qədər tarazlaşdırmağa, bununla da Muxtar Respublikanın iqtisadi ağrılarını bir qədər yüngülləşdirməyə nail olmuşdu.

Ali Məclis Sədrinin İrana rəsmi səfərlərində qarşı tərəflə bağladığı razılaşmalar, İİR-in çoxsaylı nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfərləri bütün sahələrdə əlaqələrin genişlənməsinə səbəb oldu.

Naxçıvan-İran əməkdaşlığının möhkəmlənməsində muxtar respublikanın İranın şimal əyalətləri, xüsusən Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil və sair ilə əlaqələri mühüm əhəmiyyət kəsb etməyə başladı.

Ali Məclisin Sədri kimi fəaliyyətə başladığı ilk dövrlərdə Heydər Əliyev Mərənd fərmandarı Rza İbadinin başçılığı ilə İİR -in işgüzar dairələrinin bir qrupunu, Şərqi Azərbaycan ostandarı Əkbər Pəhrizkarı

qəbul etmiş, birgə danışıqlarda Naxçıvana qaz, elektrik enerjisi verilməsi və digər məsələlər müzakirə edilmişdi.

İranın nazirlik və idarələri, özəl şirkətləri ilə qarşılıqlı iqtisadi əlaqələr də inkişaf etdirilirdi. 1992-ci ilin yanvarında İİR -in neft naziri Qulamrza Ağazadə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək üçün muxtar respublikaya gəlmişdi. Naxçıvanın İranla iqtisadi, humanitar əlaqələrində, ona yardım göstərilməsində İranın məşhur «Bonyade Mostezəfan və canbazane Enqelabe Eslami» sənaye-ticarət şirkəti mühüm yer tuturdu.

1992-ci ilin əvvəllərindən şirkət Naxçıvanda bir çox iqtisadi layihələri əsaslandırmış və həyata keçirmiş, onun Naxçıvanda nümayəndəliyi təşkil edilmişdi.

Heydər Əliyev İranın rəsmi nümayəndələri ilə görüşlərində həmişə onların diqqətini Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə, Dağlıq Qarabağ münaqişəsinə, Naxçıvanın düşdüyü ağır hərbi-siyasi, iqtisadi vəziyyətinə yönəltmiş, dost və qardaş ölkənin Azərbaycanın ədalətli mövqeyini müdafiə etməyə və Ermənistana təsir göstərməyə çağırırdı.

1992-ci ilin aprelində İİR XIN-in müşaviri Şeyx Əttar Qarabağ münaqişəsinin həllində Iranın vasitəçilik missiyası ilə əlaqədar Naxçıvana gələrək böyük öndərlə görüşmüş, mehribanlıq şəraitində keçən söhbətdə Heydər Əliyev Iranın bu təşəbbüsünün faydalı olacağına ümid bəslədiyini bildirmişdi. Lakin bu vasitəçilik heç bir nəticə verməmiş, əksinə bir aydan sonra 1992-ci ilin may ayında Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Yaqub Məmmədovun başçılığı altında Tehranda yüksək səviyyəli Azərbaycan-Ermənistan görüşü keçirilərkən Şuşa şəhəri işğal edilmişdi. Eyni zamanda Ermənistan ordusu Naxçıvan Muxtar Respublikasının sərhəd ərazilərini ələ keçirmək üçün cəhdlər göstərmişdi.

Belə bir vəziyyətdə İİR XİN-in müavini Vaizini Naxçıvanda qəbul edən Ali Məclisin Sədri böyük narahatlıqla demişdir ki, biz Tehranda Ermənistan-Azərbaycan rəhbərlərinin görüşünə böyük ümid bəsləyirdik. Lakin həmin günlərdə Şuşada baş verən hadisələr, Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin erməni silahlı qüvvələri tərəfindən işğalı bizi çox pərişan etdi. Bu, Azərbaycan üçün çox faciəli haldır.

Heydər Əliyev qonağa Naxçıvan-Ermənistan sərhəddində baş verən hadisələr, dəmiryolunda yaranmış vəziyyət haqqında bir daha ətraflı məlumat vermiş, bu problemlərin həllində İrandan kömək gözlədiyini bildirmişdi.

* * *

Naxçıvan Muxtar Respublikasının İİR ilə siyasi, iqtisadi, mədəni əlaqələrin yeni mərhələyə qalxmasında Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyətinin İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin dəvəti ilə 1992-ci il avqustun 22-25-i qonşu dövlətə səfəri mühüm rol oynadı.

Səfər zamanı İİR-in dini lideri S.Ə.Xamneyi, prezident Ə.Ə.Haşimi Rəfsəncani, parlamentin sədri Natiq Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti, yol və nəqliyyat naziri Səidi Kiya, rabitə naziri Fərrazi, koorporasiya naziri Şəfali, energetika naziri Zəncani, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və canbazane Enqelabe Eslami» fondunun prezidenti Möhsün Rəfiqdust, «Hilal Əhmər» cəmiyyətinin sədri Vahid Dəstiyirdi ilə görüşlər və danışıqlar aparmış, blokada şəraitində yaşayan muxtar respublikada siyasi, iqtisadi vəziyyət haqqında onlara məlumat vermişdi. Səfərin yekunu olaraq İİR ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdı. Həmin protokollarda qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi, muxtar respublikaya ərzaq yardımı göstərilməsi nəzərdə tutulmuşdu. İran tərəfi Naxçıvana enerji verilməsi, İİR ərazisindən Culfa-Xudafərin yolu ilə yüklərin Naxçıvana daşınması, Poldəşt-Şahtaxtı körpüsünün tikilməsinə razılıq vermişdi. Səfər zamanı həmçinin birgə müəssisələrin açılması, ticarət qaydalarının yüngülləşdirilməsi, gömrük siyasətinin liberallaşdırılması, Naxçıvan şəhərində İİR Baş konsulluğunun açılması qərara alınmışdı. Əslində tərəflər arasında bağlanmış müqavilələrdəki tədbirlər başdan-başa İranın Naxçıvana təmənnasız yardımını nəzərdə tuturdu. Təbii ki, bu, Heydər Əliyevin böyük nüfuzunun, ona olan hörmətin ifadəsi idi.

1993-cü ilin martında isə Ali Məclisin Sədri Heydər Əliyevin İran İslam Respublikasına ikinci rəsmi səfəri oldu. Rəsmi görüşlərdə İİR ilə Naxçıvan Muxtar Respublikası arasında bağlanmış 24 avqust 1992-ci il tarixli müqaviləsinin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasının blokada ilə əlaqədar yaranmış problemlərinin İİR vasitəsi ilə həlli yolları müzakirə edildi.

Səfər çərçivəsində Heydər Əliyev Təbriz şəhərində də olmuş, Şərqi Azərbaycan ostandarı Ə.Əbdüləlizadə ilə əməkdaşlıq protokolu imzalanmışdı. Müvafiq razılaşmalar həmçinin 1993-cü ilin mayında Naxçıvanda Qərbi Azərbaycan ostandarı Qurbanəli Səadətlə də bağlanmışdı.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən muxtar respublikanın İİR ilə mədəni və humanitar sahələrdə

də əməkdaşlığa böyük diqqət yetirir, bütün görüşlərində bu sahədə əlaqələrin faydalılığını göstərirdi.

Onun 1992-ci il avqustun 24-də İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayəti ilə bağladığı əməkdaşlıq protokolunun 17 maddəsinin 5-i tərəflər arasında mədəni, dini, təhsil əlaqələrinin genişləndirilməsini nəzərdə tuturdu. Burada muxtar respublika gənclərinin İİR-də, İran gənclərinin isə Naxçıvanda təhsil almaları üçün şərait yaradılması, informasiya mübadiləsi, Naxçıvan dindarlarının Iranın müqəddəs yerlərinə ziyarətinin təşkili, Naxçıvan şəhərində məscid binasının tikintisi və başqa məsələlərin həyata keçirilməsi daxil idi.

* * *

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə muxtar respublikanın dünyanın digər ölkələri və beynəlxalq qurumları ilə də münasibətlərinin əsası qoyulmuşdu. Həmin dövrdə bölgəni ağır vəziyyətdən çıxarmaq üçün Heydər Əliyev gərgin diplomatik fəaliyyət göstərmiş, Azərbaycanın, muxtar respublikanın problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mümkün vasitələrdən istifadə etmişdi

Dağlıq Qarabağ münaqişəsinin qızışdığı ilk vaxtlarda Azərbaycan rəhbərliyinin səriştəsiz diplomatik siyasəti nəticəsində dünyada ermənilərin haqlı olduğu haqda fikrin formalaşdığı, Azərbaycanın az qala beynəlxalq təcridlə üzləşdiyi bir vaxtda Heydər Əliyev öz diplomatik fəaliyyəti ilə Ermənistanın Azərbaycana, onun ayrılmaz hissəsi Naxçıvana qarşı yeritdiyi təcavüzkar siyasəti haqqında əsas həqiqətləri dünya birliyinə çatdırmağa, ölkəmiz ətrafındakı informasiya blokadasını yarmağa çalışmışdı.

Bunun üçün birinci növbədə dünyanın aparıcı dövlətləri, xüsusən ABŞ ilə münasibətləri normallaşdırmaq lazım idi. Lakin o zamankı SSRI və Azərbaycan rəhbərliyi onun xarici diplomatlarla görüşünə hər vasitə ilə mane olmağa çalışırdı.

1991-ci il dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin nümayəndələri Ense G. Breyter və Orbi A. Karlson son 70 ildə ilk Amerika diplomatları kimi Naxçıvana gəlmiş və Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmüşdülər. Heydər Əliyev Naxçıvanda gedən demokratik dəyişikliklər haqqında qonaqlara məlumat vermiş, mühüm siyasi məsələlər üzrə prinsipial və müstəqil mövqe tutduqlarına görə muxtar respublikanın son vaxtlar Azərbaycanın müəyyən dairələri tərəfindən təzyiqlərə məruz qaldığından danışmışdı.

1992-ci il aprelin 28-də ABŞ-ın Azərbaycanda ilk səfiri Robert Fin, həmin il iyulun 17-də yeni səfir Riçard Mayls Naxçıvanda Ali Məclisin Sədri ilə görüşmüşdülər.

Heydər Əliyev hər iki qonağa Naxçıvanın ağır vəziyyəti haqqında məlumat vermiş və bunun əsas səbəbinin Ermənistanın Azərbaycana hərbi təcavüzü olduğunu qeyd etmişdi. Ali Məclisin Sədri eyni zamanda dünya ictimaiyyətində Azərbaycan, onun Naxçıvan bölgəsi haqqında obyektiv məlumat yayılmasına ehtiyac olduğunu söyləmiş, Ermənistanla hərbi münaqişə və onun aradan qaldırılması yolları da müzakirə edilmişdi.

B.Klinton ABŞ prezidenti seçilərkən Heydər Əliyev ona təbrik teleqramı göndərmiş, onun müstəqil Azərbaycan Respublikasına və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına xoş və xeyirxah münasibətlər bəsləyəcəyinə ümid etdiyini bildirmişdi. B.Klintona digər məktubunda isə ABŞ hökumətinin Ermənistanın guya blokada şəraitində olması ilə əlaqədar humanitar yardım göstərdiyi, lakin Naxçıvan Muxtar Respublikasının daha ağır iqtisadi blokada şəraitində olduğunu xatırladaraq bunun əsas səbəbkarının məhz Ermənistan olduğunu bildirmiş və ABŞ prezidentindən muxtar respublikaya humanitar yardım göstərilməsini xahiş etmişdi.

ABŞ hökuməti bu məktuba cavab olaraq muxtar respublikaya 1993-cü ilin martında 1 milyon dollar dəyərində ilk humanitar yardım göndərmişdi. Bu yardım o zaman göndərilmişdi ki, ABŞ konqresi erməni lobbisinin təsiri altında Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı günahkar bilərək, ona humanitar yardım göstərilməsinin qadağan edilməsi haqqında bədnam «907-ci düzəliş»i qəbul etmişdi. Göstərilən yardımdan əlavə ABŞ-ın bir sıra hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri Naxçıvana gələrək vəziyyətlə yerində tanış olmuşdular.

1993-cü il mayın 19-da ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli və ABŞ-ın Azərbaycandakı səfirliyinin ticarət-iqtisadiyyat şöbəsinin müdiri Robert Silverman Naxçıvana gəlmiş və muxtar respublikaya yardımın davam edəcəyini bildirmişdilər. Bu təşkilatlardan biri– Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyi Naxçıvana ilk yardım göstərmiş təşkilatlardan biri olmuşdu.

Heydər Əliyevin diplomatik fəallığı nəticəsində digər dövlətlərin hökumətləri də öz nümayəndələrini muxtar respublikadakı vəziyyətlə tanış olmaq üçün Naxçıvana göndərmişdilər.

Naxçıvana yardım göstərən ilk beynəlxalq təşkilatlar isə BMT-nin müvafiq qurumları, birinci növbədə onun Inkişaf Proqramı olmuşdur.

Muxtar respublikada yaranmış sosial-iqtisadi vəziyyəti öyrənmək və humanitar yardım üçün BMT Baş Katibinə məlumat vermək üçün BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid Naxçıvana gəlmişdi.

Heydər Əliyev onunla söhbətdə əmin olduğunu bildirmişdi ki, BMT özünün ənənəvi humanizm və sülh prinsiplərinə sadiq qalaraq Naxçıvanın mövcud problemlərinə diqqətlə yanaşacaqdır. Bir müddətdən sonra BMT-nin Qaçqınlarla İş Şurasının və BQXC-nin nümayəndələri Ceral Besson və Bernard Culer qaçqınların vəziyyəti ilə tanış olmaq üçün Naxçıvana gəlmişdilər. BMT-nin qaçqınlarla iş üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırma üzrə rəhbəri Lois Rovira qaçqınlara yardım proqramını hazırlamaq üçün Naxçıvanda olmuşdu.

* * *

Əlbəttə, bu yardımlar Naxçıvanın üzləşdiyi problemlərin həlli, ehtiyaclarının təmin edilməsi üçün cüzi xarakter daşısa da, xarici dövlətlərin beynəlxalq təşkilatları nümayəndələrinin Naxçıvana hər gəlişi, bölgədəki real vəziyyət, Ermənistanın təcavüzkar hərəkətləri haqqında obyektiv həqiqətin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ətrafında yaranmış informasiya blokadasının aradan götürülməsi istiqamətində mühüm addım idi .

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi müddətdə qonşu Iran, Türkiyə rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlərdə, xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə apardığı söhbətlərdə təkcə Naxçıvanın deyil, həm də Azərbaycanın, onun Dağlıq Qarabağ bölgəsinin Ermənistan tərəfindən təcavüzə məruz qalması ilə bağlı problemləri ön plana çəkir, bütün diplomatik fəaliyyətini bu problemin həllinə yönəldirdi. Bütün bu diplomatik gedişlər isə iqtisadi blokadanın ağır məngənələri altında yaşayan Naxçıvanın çətin imtahanlardan uğurla çıxmasına şərait yaratdı.

**"Azərbaycan",**
**3 avqust 2008-ci il**

# ÜÇÜNCÜ BÖLMƏ

## Yeni və müasir Naxçıvan

# Müstəqillik dövrümüzdə Naxçıvan

**"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, onu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".**

**Heydər ƏLİYEV**

Ötən əsrin 80-ci illərinin ortalarından başlayaraq keçmiş SSRİ-də və bütün dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan xalqı öz müstəqillik arzusunu reallaşdırdı. Lakin bu, xalqımıza heç də asan başa gəlmədi. Yaranmış şəraiti özlərinin bədnam planlarının gerçəkləşməsi üçün əlverişli məqam hesab edən bədxah qonşularımız - ermənilər Azərbaycan torpaqlarını, o cümlədən Naxçıvanı da silah gücünə ilhaq etmək üçün təcavüzlərə başladılar. Bir çox hallarda bu təcavüzlər elan olunmamış müharibə səviyyəsinə yüksəldi.

Ermənistanda və Dağlıq Qarabağda ermənilərin azərbaycanlılara qarşı azğın hərəkətlərinin cavabsız qalması, öz yurd-yuvalarından didərgin düşərək Naxçıvana pənah gətirmiş qaçqınların acı taleyi, muxtar respublika əhalisinin də dərin hiddətinə səbəb olmuş, 1988-ci ilin may ayının 20-də Naxçıvan şəhərində ermənilərin özbaşınalıqlarına və cinayətlərinə son qoyulması tələbi ilə muxtar respublika ictimaiyyətinin ilk böyük mitinqi keçirilmişdi. Mitinq iştirakçıları SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR rəhbərliyindən qəti tədbirlər görülməsini, Azərbaycan xalqının suveren hüquqlarının qorunmasını təkidlə tələb edirdilər.

Əslində, Naxçıvandakı xalq hərəkatı erməni təcavüzünə qarşı müqavimət hərəkatı olmaqla yanaşı, milli müstəqillik uğrunda geniş vüsət alan Azərbaycan xalqının milli-azadlıq hərəkatının tərkib hissəsi idi. Bu hərəkatın ilk dövrdə formaları mitinqlər, nümayişlər, tətillər idi. Naxçıvandakı hərəkat həm də mərkəzi və respublika hökuməti qarşısında mütilik göstərən, əhalinin haqlı tələblərini qulaqardına vuran, ermənilərin hücum təhlükəsinə qarşı təsirli tədbirlər görməkdən imtina edən, hətta əhalinin əlindəki ov silahlarını almağa çalışan və son nəticədə muxtar

respublikada ictimai-siyasi vəziyyəti daha da gərginləşdirən yerli partiya və sovet rəhbərlərinə qarşı yönəlmişdi. Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi.

Sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan torpağı o dövrdə Heydər Əliyevin təbirincə desək, "taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladırdı.

1990-cı illərin əvvəllərində muxtar respublikanın nəqliyyat-kommunikasiya, elektrik enerjisi, rabitə, təbii qaz xətləri və dəmiryolunda qatarların hərəkəti mənfur qonşularımız tərəfindən kəsiləndən, bölgə tam iqtisadi blokadaya alınandan sonra burada iqtisadi və siyasi böhran daha da dərinləşdi.

## Sərhəd hərəkatı

Azərbaycanda milli-azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən sərhəd hərəkatı da məhz o dövrdə Naxçıvanda başlanmışdır. Azadlıq hərəkatının ilk günlərindən başlayaraq Azərbaycan SSR-in suverenliyi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik islahatların həyata keçirilməsi ilə yanaşı, Cənubi Azərbaycanla gediş-gəlişin təmin edilməsi tələbləri irəli sürülürdü.

1989-cu il dekabrın əvvəllərində Ordubaddan Sədərəyədək bütün sərhəd boyu on minlərlə adam toplaşaraq kütləvi mitinqlər keçirməyə başladı. Dekabr ayının 5-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S. Əliyeva Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə müraciət edərək Naxçıvan MSSR-in sərhədyanı torpaqlarından istifadə edilməsi məsələsinin həll olunması zəruriliyini bildirdi. Müraciətdə sərhədyanı ərazilərdə yaşayan əhalinin qarşılıqlı əlaqələrinin bərpa edilməsi məsələsinə də toxunulmuşdu. Lakin vəziyyəti düzgün qiymətləndirə bilməyən rəsmi dairələrin tədbir görmək istəməmələri ehtirasları daha da coşdurur, əhalini radikal addımlar atmağa sövq edirdi. Sərhəd zolağının bir sıra hissəsində - Ordubadda, Culfada, Şahtaxtıda insanlar sərhəd məftillərini sökərək Arazın o tayında toplanmış həmvətənləri ilə görüşürdülər. Sərhəd hərəkatının qarşısını almaq üçün ciddi cəhdlər göstərilsə də, bu, heç bir nəticə vermədi. 1989-cu il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramına çevrildi.

Naxçıvanın mütərəqqi qüvvələri tərəfindən həyata keçirilən "Sərhəd hərəkatı" rəsmi səviyyədə siyasi və tarixi qiymətini də birinci dəfə məhz Naxçıvanda Heydər Əliyevin rəhbərlik etdiyi Muxtar Respublika Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında

alınışdır. Heydər Əliyev Dünya Azərbaycanlılarının Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunmasını, siyasi qərar qəbul edilməsini, Azərbaycan türklərinin uzun illərin ayrılığından sonra birləşməsi yolunda ilk addım kimi qiymətləndirmişdi.

## Zamanında qəbul olunan qərar

Azərbaycan xalqının azadlıq və istiqlaliyyət hərəkatını yerində boğmaq üçün imperiya dairələri 1990-cı ilin yanvarında xalqımıza qanlı divan tutdular. Yanvarın 19-dan 20-nə keçən gecə erməni-rus birləşmələri Bakıda qanlı qırğın törətdilər. Xalqımız azadlıq və istiqlaliyyət uğrunda mübarizədə neçə-neçə şəhid verdi. Xalqımızın böyük oğlu Heydər Əliyev törədilən bu böyük facia ilə bağlı sonralar belə deyəcəkdi: "O, ayrı-ayrı insanlara qarşı törədilən qəsd, təcavüz deyildir. Bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi...

Qanlı 20 Yanvar faciəsindən 8 saat əvvəl erməni-rus birləşmələri Sədərəyə hücum edib Kərki kəndini ələ keçirmişdilər. Mərkəz Bakıda olduğu kimi, Naxçıvanda da milli azadlıq hərəkatının qarşısını almaq üçün fövqəladə vəziyyət elan olunmasına, muxtar respublikada cəza dəstələri yerləşdirməsinə çalışırdı. Kərki kəndini ələ keçirdikdən sonra ermənilər sovet qoşunlarına arxalanaraq Sədərək kəndində sərhəddə yerləşən mebel sexi və şərab zavoduna hücuma keçdilər. Lakin Naxçıvanın igid müdafiəçiləri qeyri-bərabər döyüşdə düşməni çoxlu itki verərək geri çəkilməyə məcbur etdilər. Düşmən Sədərəyi raket, top, pulemyot, avtomat atəşinə tutmaqla yenidən ələ keçirməyə çalışırdı. Qırğınların qarşısını almaq məqsədilə əhali təhlükəsiz yerə çıxarılmışdı. Kənddə yalnız əli silah tutanlar qalmışdı. Sədərəyə hücum zamanı 9 nəfər şəhid olmuş, onlarca adam yaralanmışdı.

Azərbaycanın ərazi bütövlüyünün pozulması, Naxçıvanın Kərki kəndinin işğalı, bütün sərhəd boyu ermənilərin hücuma keçmələri, muxtar respublika əhalisinin dinc yaşayışı üçün real təhlükənin artması, nəqliyyat və kommunikasiya blokadası və bütün bunların müqabilində ittifaq və respublika hakimiyyət dairələrinin fəaliyyətsizliyi muxtar respublika əhalisini və rəhbərliyini ən radikal addımlar atmağa sövq edirdi. Naxçıvan şəhərində Ali Sovetin binası qarşısında toplanmış 20 mindən çox əhali Muxtar Respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını tələb etdi. Xalqın tələbi və təzyiqi altında yanvarın 19-da çağırılmış sessiya Naxçıvan Muxtar Respublikasının

SSRİ-nin tərkibindən çıxması haqqında məsələni müzakirə etdi. Qərarda Azərbaycan SSR və onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyünün müdafiə edilmədiyi, Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə etdikləri müraciətlərin nəticəsiz qaldığı Türkiyə, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında RSFSR-in iştirakı ilə bağlanan Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğu qeyd edilmiş və 6 bənddən ibarət tarixi qərar qəbul edilmişdi.

Təbii ki, Naxçıvan parlamentinin qəbul etdiyi bu qərarın hüquqi əsası yox idi. Bu səbəbdən onun çox yaşaması mümkün deyildi. Yanvarın 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin həmin qərarını ləğv etdi. Amma buna baxmayaraq, sonralar həmin qərarın Naxçıvanın taleyi üçün böyük əhəmiyyəti oldu. SSRİ tarixində ilk dəfə olaraq muxtar qurumun özünü müstəqil elan etməsi faktı dünya ictimaiyyətinin diqqətini sovet imperiyasının və onun əlaltısı olan Ermənistanın Azərbaycana, onun tərkib hissəsi olan Naxçıvana qarşı təcavüzkarlıq hərəkətlərinə yönəltməyə məcbur etdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyev sonralar Naxçıvan MSSR Ali Sovetinin həmin tarixi qərarını yüksək qiymətləndirərək demişdi: "Mən Moskvada olarkən Azərbaycana qarşı edilən bu cinayətə qarşı etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim... Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər: Azərbaycana qarşı edilən cinayətə, təcavüzə görə Naxçıvan Muxtar Respublikasında Sovetlər İttifaqının tərkibindən çıxmaq haqqında qərar qəbul ediblər... Naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovetlər İttifaqında yeganə bir addım idi... Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".

1990-1993-cü illər Naxçıvanın müasir tarixinin ən gərgin və maraqlı səhifələrindəndir. Naxçıvanın muxtariyyət statusu Azərbaycanın müstəqillik uğrunda mübarizə tarixində də mühüm mərhələ təşkil edir. Ulu öndər Heydər Əliyevin sayəsində Naxçıvan xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda mübarizənin mərkəzinə çevrildi. Bu dövrdə ölkəmizin müstəqilliyi ilə bağlı qanunvericilik təşəbbüsü Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məxsusdur. Ulu öndər Heydər Əliyev yorulmaz və titanik fəaliyyəti nəticəsində muxtar respublikanın başı üzərində dolanan siyasi oyunlardan, ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Ulu öndərin böyük siyasətə qayıdışı imperiya qüvvələri ilə mübarizənin daha

da kəskinləşməsinə səbəb oldu. Naxçıvandan başlanan milli dirçəliş prosesi Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrildi, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımlar atılmağa başlandı.

1990-cı il noyabrın 17-də keçirilən Muxtar Respublika Ali Sovetinin birinci sessiyası milli dövlətçilik ənənələrimizin bərpasında mühüm rol oynadı. Sessiyada Naxçıvan Muxtar Respublikası adından "Sovet, Sosialist" sözləri çıxarıldı, onun "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirildi, bundan sonra onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması qərara alındı. Sovetlər Birliyinin mövcud olduğu bir dövrdə muxtar respublika adından "Sovet, Sosialist" sözlərinin çıxarılması həqiqətən də böyük hünər, cəsarət və uzaqgörənlik tələb edirdi.

Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş müzakirə olundu. Azərbaycan Demokratik Respublikasının rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi də adi məsələ deyildi. O zamankı Azərbaycan rəhbərliyinin SSRİ-nin qorunub saxlanılmasına dair göstərdiyi təşəbbüslərin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 14 mart tarixli qərarı ilə ittifaqın saxlanılmasına dair ümumittifaq referendumunda iştirakın yolverilməz olduğunu bəyan etdi. 1991-ci ilin oktyabrında "keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında" SSRİ qanununun müzakirəsi zamanı da Naxçıvan parlamenti Azərbaycan dövlət hakimiyyət orqanlarından fərqli mövqe tutaraq SSRİ-nin yenidən bərpasına və unitar ittifaq dövlətinin möhkəmləndirilməsinə dair qanunu rədd etmiş, Azərbaycan Ali Sovetindən də müvafiq qərarın qəbul edilməsini xahiş etmişdir.

Bununla bərabər, Naxçıvan parlamenti qanunvericilik təşəbbüsü ilə Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldıraraq Azərbaycan Respublikasının dövlət rəmzlərinə yenidən baxılmasını təklif etdi.

Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət o dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verildi. Ulu öndər Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi. Dahi rəhbərin siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə yanvar hadisələrinə düzgün siyasi qiymət verilmiş, bu

qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilmiş və onların adları açıq şəkildə çəkilərək məsuliyyətə cəlb edilmələri tələb olunmuşdur. Qərarda yanvar hadisələri Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilmiş, dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocalara, qadınlara, uşaqlara qarşı törədilmiş təcavüz kimi göstərilmişdi.

## Uzaqgörənlik

1991-ci il sentyabr ayının əvvəllərində Naxçıvan MR-in ictimai-siyasi həyatında onun müqəddəratını həll edəcək mühüm hadisələr baş verdi. Naxçıvan əhalisi böyük uzaqgörənlik göstərərək düzgün rəhbər seçimi etdi. Sentyabrın 3-də xalqın təkidli tələbindən sonra Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Heydər Əliyev həmin sessiyadakı çıxışında da bir daha hakimiyyət arzusunda olmadığını, bu niyyətlə Azərbaycana qayıtmadığını bəyan etdi. Bununla belə, böyük siyasətçi bölgənin ağır sosial-iqtisadi vəziyyətində, xüsusən də torpaqlarına düşmən təcavüzünün genişləndiyi bir dövrdə onun taleyinə biganə qala bilməzdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Sədr seçilməsi böyük hadisə oldu. Məsələ heç də keçmiş Sovetlər İttifaqının Siyasi Bürosuna mənsub nüfuzlu simalardan birinin - SSRİ Nazirlər Soveti Sədrinin birinci müavininin Azərbaycanın ərazisinin bir hissəsində - muxtar respublikada Ali Məclisə Sədr vəzifəsinə seçilməsində deyildi. Heydər Əliyev ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi. Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyəti dövründə Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün əməli addımlar atdı. Azərbaycanın müstəqil dövlət olaraq sonrakı inkişafının bir sıra konseptual istiqamətləri məhz o zaman - Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etdiyi dövrdə işlənib hazırlandı.

Sonralar dahi öndər bunlarla bağlı demişdi: "Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur".

Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində erməni işğalının aradan qaldırılması, ağır blokada şəraitində adamların yaşayışının təmin olunması sahəsində də taleyüklü qərarların qəbul olunmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi ümummilli lider Heydər Əliyev qonşu İran və Türkiyə respublikaları ilə əlaqələr yaradaraq bu ölkələrdə səfərlərdə olmuş, müxtəlif sahələrdə əməkdaşlığa dair protokollar imzalanmışdır.

Bu illərdə ümummilli liderin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, 1992-ci ilin mart ayında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür verdi. Məhz o ağır və məşəqqətli illərdə müdrik siyasətçi böyük uzaqgörənliklə deyirdi: "Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük əvəz olmayan bir sənəddir".

## Müstəqil dövlətçiliyimizə qarşı ilk qəsd

Ulu öndərin muxtar respublikada milli birliyin, həmrəyliyin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər xalqın mütləq əksəriyyəti tərəfindən dəstəklənir və müdafiə edilirdi. Bununla bərabər, muxtar respublikada həyata keçirilən bu siyasət Azərbaycanın bəzi siyasi qüvvələri tərəfindən qısqanclıqla qarşılanır və separatçılıq kimi qiymətləndirilirdi. AXC hakimiyyətinin bəzi nümayəndələri Naxçıvanın muxtariyyət statusunu ləğv etmək, muxtar respublikanın qanuni hakimiyyətini devirmək məqsədilə 1992-ci il oktyabrın 24-də çevriliş cəhdi etsələr də, Heydər Əliyevin naxçıvanlıların mütləq əksəriyyəti tərəfindən müdafiə olunan prinsipial mövqeyi bu cəhdin qarşısını aldı.

Dövlət çevrilişi cəhdi haqqında Ali Məclisin qəbul etdiyi qərarda qeyd edilirdi ki, bu hərəkətlərdə Xalq Cəbhəsinin əsas məqsədi muxtar respublikada dövlət çevrilişi etmək və silah gücü ilə Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsindən kənarlaşdırmaq idi və bu qanunazidd hərəkətlər Azərbaycanın rəhbər dövlət orqanlarının Naxçıvan Muxtar

Respublikasının Konstitusiya hüquqlarının tapdalanmasına yönəldilmiş böyük tədbirlərinin bir hissəsi idi. Ondan bir il əvvəl isə Naxçıvanı Azərbaycan üçün "kor bağırsaq" hesab edən Ayaz Mütəllibov da hakimiyyəti əldə saxlamaq üçün antikonstitusion tədbirlərə əl atmışdı. Bunun üçün də ilk növbədə Naxçıvanın muxtariyyət statusunun ləğv olunmasına çalışırdılar. Amma dərk etmək istəmirdilər ki, indiki şəraitdə Naxçıvanın statusunun saxlanması onun erməni təcavüzündən, işğalından qorunmasının mümkün variantlarından biridir.

## Muxtariyyət statusunun möhkəmləndirilməsi

Heydər Əliyevin xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətindən sonra 1993-cü ilin iyununda respublikanın siyasi rəhbərliyinə qayıtması Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi, milli qurtuluşumuzun, gələcək uğurlarımızın əsasını qoydu. Vətəndaş müharibəsi, etnik separatçılığın, dövlət çevrilişləri cəhdlərinin qarşısı alındı. Ordu quruculuğuna başlandı, düşmənin yeni hücumları dəf edildi. Tarazlaşdırılmış xarici siyasət yeridilməyə, informasiya blokadası dağılmağa, müasir demokratik dəyərlərə, bazar iqtisadiyyatına əsaslanan vətəndaş cəmiyyəti formalaşdırılmağa başlandı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildi. Əgər 1921-ci ildə bağlanmış Moskva və Qars müqavilələri Naxçıvanın tarixi-hüquqi statusunu müəyyənləşdirmişdisə, ölkəmizin müstəqilliyi dövründə qəbul olunan Əsas Qanun ilə Naxçıvanın statusu ali hüquqi qüvvəyə qaldırılır. Yeni Konstitusiyanın 8-ci fəsli bütünlüklə "Naxçıvan Muxtar Respublikası" adlanır. Naxçıvan Muxtar Respublikasının Azərbaycanın ayrılmaz tərkib hissəsi olması barədə müddəanın muxtar respublikanın statusunu müəyyən edən maddəyə daxil edilməsi mühüm əhəmiyyət daşımaqla bərabər dünya təcrübəsinə də uyğunlaşdırılmışdır.

1998-ci ilin dekabr ayında isə Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası qəbul olundu. Həmin il yanvarın 14-də ölkə başçısı Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında muxtar respublikanın Konstitusiya layihəsi geniş müzakirə edildi. İclasda dahi rəhbər qəbul olunacaq Konstitusiyanın ölkəmizin ictimai-siyasi həyatı və muxtar respublikanın taleyi üçün oynayacağı rola toxunaraq demişdi: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, onu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması

üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Muxtar respublikanın qanunvericilik təcrübəsi də Avropa qanunvericiliyinin tərkib hissəsinə çevrilməkdədir. Hələ 1997-ci ildə Avropa Şurasının qanun vasitəsi ilə Demokratiya Komissiyasının (Venesiya Komissiyası) hüquqi ekspertizasından keçirilən Naxçıvan Muxtar Respublikasının Konstitusiyası barədə bu mötəbər qurum belə yüksək fikir söyləmişdi: "Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının möhkəmləndirilməsində model kimi çıxış edə bilər".

Lakin Azərbaycanın bəzi siyasi dairələri, xüsusən də müxalifət liderləri 1992-1993-cü illərdə olduğu kimi, bu dövrdə də muxtar respublikanın statusu ilə bağlı əsassız iddialar, bu statusu ləğv etməyə çağıran təkliflər irəli sürürdülər. Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrə əsaslandığını unudan müxalifət liderləri bəyanatlar verərək bölgənin yeni konstitusiya layihəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğun gəlmədiyini iddia edirdilər. Onların əsas bəhanəsi də bu idi ki, guya unitar dövlətdə muxtariyyət ola bilməz. Halbuki bu, etnik muxtariyyət təşkil etmədiyi üçün heç vaxt Azərbaycanın bütövlüyünə təhlükə törədə bilməz.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə bağlı yaradılan dövlət komissiyasının iclasında böyük yanğı və narahatçılıqla həmin hadisələri xatırladaraq demişdi: "Təəssüflər olsun ki, bizim daxilimizdə də müxalifətə mənsub olan "Naxçıvana muxtariyyət verilməməlidir", "Muxtariyyət ləğv olunmalıdır" fikirləri söyləyən bəzi şəxslər, yaxud Naxçıvanın Konstitusiyasının qəbul olunmasına mənfi münasibət göstərənlər istər-istəməz Azərbaycana düşmən mövqeyində duran ermənilərin həmin iddialarına kömək edirlər.

Dahi siyasətçi onu da dönə-dönə deyirdi ki, Naxçıvanın muxtariyyət statusu alması da çox ağır, gərgin bir dövrdə, yəni gərgin mübarizələr nəticəsində mümkün olub.

## Uğurlu siyasətin bəhrəsi

Təməli Heydər Əliyev tərəfindən qoyulan, Naxçıvanın xilasına və inkişafına istiqamətlənən yeni həyat quruculuğu 1995-ci il 12 noyabr

tarixindən - "Heydər Əliyev Konstitusiyası" adlandırılan ilk müstəqil Konstitusiyamızın qəbulundan sonra dönmədən və ardıcıllıqla həyata keçirilməyə başlanıb. Bu dövr müstəqil dövlətçilik tariximizdə olduğu kimi, Naxçıvanın müasir tarixində də yeni mərhələnin başlanğıcını qoyub. Həmin ilin 16 dekabr günü qədim diyarın sakinləri üçün həm də onunla əlamətdar və yaddaqalan olub ki, onlar özlərinə yenidən düzgün rəhbər seçimi imkanı əldə ediblər. Son on üç ildə istər sosial, istərsə də iqtisadi inkişaf sahəsində qazanılan uğurlar da ilk növbədə bu amillə bağlı olub.

Muxtar respublika iqtisadiyyatının inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət hər il məhsul istehsalının və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə gətirib çıxarıb. Son on ilin makroiqtisadi göstəriciləri də deyilənlərə sübutdur. Bunun üçün bir neçə statistik rəqəmə nəzər yetirmək kifayət edər. Bu müddət ərzində iqtisadi inkişafı xarakterizə edən ümumi daxili məhsulun həcmi 11,4 dəfə artıb. 1995-ci ilə nisbətən sənaye məhsulunun artımı 12,7 dəfə, əsas kapitala yönəldilən investisiyaların həcmi isə 64,1 dəfə çoxalıb.

Ötən ilin iqtisadi göstəriciləri daha yüksək artım tempi ilə müşayiət olunub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iqtisadi inkişafın əsas ümumiləşdirilmiş göstəricisi olan ÜDM istehsalının həcmi 35 faiz artaraq 795 milyon 764 min manata çatıb. Adambaşına düşən ümumi daxili məhsul bölgədə ilk dəfə olaraq 2 min manatı ötərək 2 min 57 manata çatıb. Bu sahədə əvvəlki illə müqayisədə 44,3 faiz artım qeydə alınıb. Orta aylıq əməkhaqqıda artım 51 faiz olub.

Bu dövr ərzində muxtar respublikada əsas kapitalın yaradılmasına 309,5 milyon manatlıq investisiya qoyulub. Əvvəlki ildə istifadə olunan 222 milyon 948 min manatlıq investisiya ilə müqayisədə sərmayə qoyuluşunun həcmi 38,9 faiz artıb. İnvestisiya qoyuluşlarının 280,8 milyon manatı və ya 90,7 faizi tikinti-quraşdırma işlərinə yönəldilib. Nəticədə muxtar respublikada tikinti-quruculuq işlərinin həcmi xeyli çoxalıb.

Ötən il muxtar respublika iqtisadiyyatında yüksək inkişaf tempinin müşahidə olunduğu sahələrdən biri sənayedir. Bir il ərzində regionda 164 milyon 451 min manatlıq məhsul istehsal edilib. Bunun 135 milyon 358 manatı özəl sektorun payına düşüb. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu sahədə 19 faiz artım olub. Sənaye sahəsində inkişafın dinamikliyinin qorunub saxlanılması üçün yeni istehsal və xidmət obyektlərinin fəaliyyətə başlaması davamlı olaraq dəstəklənib. İl ərzində dövlət dəstəyi ilə 37 istehsal və xidmət sahəsi yaradılıb. Muxtar respublikanın kənd təsərrüfatında isə 11,5 faiz artım qeydə alınıb. 2003-

cü il oktyabrın 1-dən 2009-cu il yanvarın 1-dək muxtar respublikada 37 min 73 yeni iş yeri açılmışdır ki, onların da 23 min 675-i və ya 63,9 faizi daimi iş yerləridir.

Muxtar respublikanın ictimai-siyasi həyatında qazanılan böyük uğurlardan biri hüquqpozmalara qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, kriminogen vəziyyətin normallaşması ilə bağlıdır. Aparılan məqsədyönlü tədbirlər nəticəsində baş verən cinayət hadisələrinin sayı xeyli azalıb. Başqa sözlə, muxtar respublikanın cinayətsiz region, Naxçıvan şəhərinin isə təhlükəsiz şəhər olması istiqamətində aparılan tədbirlər öz səmərəsini verib. Bu inkişaf bölgədə əhalinin artımına və məskunlaşmasına da öz təsirini göstərib. Son on ildə muxtar respublikanın əhalisi 40 min nəfərə yaxın artaraq 400 minə çatıb.

Naxçıvanın muxtariyyət statusu bu gün də ərazicə Azərbaycandan ayrı düşmüş, blokada şəraitində yaşayan regionda dövlət hakimiyyət orqanlarının ahəngdar fəaliyyətini təmin edən mühüm faktordur. Əsası ümummilli lider tərəfindən qoyulan qonşu dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq siyasəti də uğurla davam etdirilir. Muxtar respublika həm də Avropa Şurası ilə geniş əməkdaşlıq edir, onun səlahiyyətli nümayəndələri bu qurumun Yerli və Regional Hakimiyyətlər Konqresinin Regionlar Palatasında layiqincə təmsil olunurlar.

* * *

Naxçıvan məmləkətimiz üçün həmişə strateji əhəmiyyətli bölgə olub. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətində bu amil həmişə üstün yer tutub. Dahi rəhbər siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu diyarın möhkəmlənməsinə və inkişafına xüsusi qayğı göstərib. Söz düşəndə də dönə-dönə deyib ki, "Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur".

Prezident İlham Əliyev də bu ənənəni, siyasi xətti çox böyük uğurla davam etdirir. Naxçıvana səfəri çərçivəsində çıxışlarının birində dövlət başçısı bir daha bölgənin möhkəmləndirilməsinin vacibliyindən danışaraq deyib: "Naxçıvana daim xüsusi diqqət göstərilməlidir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır, strateji əhəmiyyətə malikdir... Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".

Bu ilin aprel ayının sonlarında bir çox xarici ölkələrin tədqiqatçı alimlərinin birgə iştirakı ilə keçirilən "Nuh tufanı və Naxçıvan" mövzusunda beynəlxalq elmi konfrans da bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri oldu.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkib hissəsi kimi ölkəmizin ictimai-siyasi, iqtisadi-mədəni həyatı ilə həmahəng şəkildə özünün tarixi inkişaf yolunu uğurla davam etdirir. Muxtar respublika bu gün də milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir, özünün ən böyük tarixi nailiyyəti olan muxtariyyətinin 85 illik yubileyini layiqli töhfələrlə qarşılayır.

**"Azərbaycan",**
**9 fevral 2010-cu il**

# Müasir Azərbaycan – Türkiyə əlaqələrində Naxçıvanın yeri

**"Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır".**

**İlham ƏLİYEV**

Naxçıvan həmişə strateji əhəmiyyətli bir bölgə olub. Dünyanın görkəmli dövlət xadimlərindən biri olan Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub. Bəlkə də elə bu mənada müdrik insan, dahi rəhbər siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu diyarın möhkəmlənməsinə və inkişafına xüsusi qayğı və diqqət göstərib. Bu amil də torpaqlarımıza zaman-zaman göz dikən bədxah və yaramaz erməni millətçilərinin məkrli planlarının və niyyətlərinin puç olmalarında önəmli rol oynayıb.

Prezident İlham Əliyev də bu ənənəni, siyasi xətti uğurla davam etdirir. 2008-ci ilin iyun ayının əvvəllərində Naxçıvana səfəri çərçivəsində çıxışlarının birində dövlət başçısı bir daha Naxçıvanın möhkəmləndirilməsinin vacibliyindən danışaraq deyib: "Naxçıvana daim xüsusi diqqət göstərilməlidir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır, strateji əhəmiyyətə malikdir..."

* * *

Naxçıvanın Qərblə Şərqi birləşdirən Böyük İpək yolunun üzərində yerləşməsi onu həmişə fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi və toqquşduğu ünvana çevirib. 1918-20-ci illərdə Azərbaycanın əsas ərazisindən tədric olunan Naxçıvanın nə qədər gərgin və təzadlı bir dövr yaşadığını belə bir fakt da sübut edir ki, qısa müddətdə burada iki xarici dövlətin – ABŞ və İngiltərənin ermənipərəst general-qubernatorluğu fəaliyyət göstərib. Bu o dövr olub ki, Azərbaycan əraziləri hesabına öz dövlətini yaradan ermənilər təkcə əzəli dədə-baba

yurdumuz olan Zəngəzuru ələ keçirməklə kifayətlənməyərək Naxçıvana da sahib çıxmaq istəyiblər. Yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin şimalda bolşeviklərin, cənubda ermənilərin hərbi təcavüzündən ehtiyatlanaraq barışdırıcı siyasət yeritməsi, qədim Azərbaycan şəhəri olan İrəvanı ermənilərə güzəştə getməsi də "Böyük Ermənistan" ideyasını hansı yolla olursa-olsun gerçəkləşdirmək istəyən daşnakların əl-qolunu daha da açıb. Belə ağır və məşəqqətli dövrdə də ermənilərin silahlı basqınlarına mərdliklə sinə gərən Naxçıvan əhalisi yeganə xilasını Azərbaycanın tərkibində qalmaqda görüb. Türkiyə dövlətinin bu dövrdə siyasi və hərbi cəhətdən göstərdiyi kömək əvəzsiz rol oynayıb.

Naxçıvanın muxtariyyət məsələsi təkcə döyüş meydanlarında həll olunmayıb. O, eyni zamanda fəal diplomatik və siyasət meydanında müzakirələrə cıxarılıb. Onun siyasi aktuallığını belə bir fakt da təsdiq edir ki, bu məsələ 1919-cu ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin, Türkiyə Respublikasının və Ermənistanın milli şuralarında və parlamentlərində, 1919-cu ildə Versal Sülh Konfransında, Sovet hakimiyyətinin ilk illərində Azərbaycan və Ermənistan inqilab komitələrində, Rusiya Xalq Komissarları Sovetində, 1921-ci il martın 16-da isə Rusiya Kommunist Bolşeviklər Partiyasının Siyasi Bürosunda müzakirə obyektinə çevrilib.

Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi yalnız 1921-ci ildə imzalanmış iki beynəlxalq sənəddə – Moskva və Qars müqavilələrində öz əksini tapa bilib. Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürk də 1918-1921-ci illərdə Naxçıvanın yadelli düşmənlərdən qorunmasında böyük uzaqgörənlik nümunəsi göstərib. "Naxçıvan türk dünyasının qapısıdır" – deyən böyük öndər öz ölkəsinin çətin durumda, erməni daşnakları ilə mübarizəyə kömək məqsədilə Kazım Qarabəkir paşanın rəhbərliyi altında Naxçıvana böyük ordu göndərib. Onların köməyi ilə tayqulaq Andronikin rəhbərlik etdiyi daşnak yaraqlıları qovulub. 1921-ci il oktyabrın 13-də isə Qarsda Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə hökuməti arasında, Sovet Rusiyasının iştirakı ilə imzalanan beynəlxalq müqavilədə Naxçıvanın muxtariyyət məsələsi öz əksini tapıb. Həmin müqavilənin beşinci maddəsində göstərilib ki, "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin 3-cü əlavəsində göstərilən sərhəd daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməyə razıdırlar". Müqavilənin fəaliyyət müddəti də məhdudlaşdırılmayıb. O, bu gün də qüvvədədir. Türkiyə dövləti də tarixin bütün məqamlarında öz sözünün üstündə durmağa çalışıb.

* * *

Türkiyə-Azərbaycan münasibətləri dərin tarixi köklərdən qaynaqlanır, müasir mərhələdə isə daha geniş xarakterli miqyas alıb. Avropanın böyük və qüdrətli dövlətlərindən, səlahiyyətli söz sahiblərindən biri sayılan Türkiyədə məmləkətimizin ayrılmaz bir parçası olan, iyirmi ilə yaxın bir müddətdə məkrli erməni qonşularımızın təqsirləri ucbatından iqtisadi blokada şəraitində yaşayan bölgəyə bu qədər sevgi və məhəbbətin olması da qürurvericidir. Həm də o mənada ki, Qafqazda geosiyasi proseslərin hələ də səngiməddiyi, ermənilərin torpaqlarımıza qarşı iyrənc və məkrli iddialarının gücləndiyi bir vaxtda dünyanın aparıcı dövlətləri də qədim oğuz-türk yurdu olan Naxçıvanın bugünkü varlığından, onun keşməkeşli tarixindən, sosial-iqtisadi durumundan və sabahkı həyatından bu yolla yeni informasiyalar əldə edirlər.

Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun bu ilin aprel ayının sonlarında qardaş və dost Türkiyəyə səfəri ötən əsrin 90-cı illərini xatırlatdı. O vaxtları ki, SSRİ-nin dağılması nəticəsində yaranmış hərc-mərclikdən istifadə edən məkrli düşmənlərimiz məmləkətimizə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlmişlər. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşun hissələrinin Bakı şəhərinə hərbi müdaxiləsindən 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvanın sərhəd bölgələrinə hücum edərək Kərki kəndini işğal edirlər. Düşmənlərimizin işğalçılıq niyyətləri bununla tamamlanmır. Beynəlxalq təcrübədə misli görünməmiş təzyiq metodlarına əl atan Ermənistan hökumətinin məkrli siyasəti nəticəsində muxtar respublika ölkəmizin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuş, iqtisadi blokadanın ağrı və acıları ilə üz-üzə dayanmışdı. Elektrik enerjisinə olan tələbat təxminən səkkiz-on faiz həcmində ödənilirdi. Təbii qaz xətti kəsilmişdi. Dəmir yolu nəqliyyatında qatarların hərəkətinin dayanması vəziyyəti daha da ağırlaşdırmışdı. Qışın sərt şaxtalı günlərində evləri, mənzilləri qızdırmaq üçün odun, kömür, neft tapılmırdı. Ərzaq məhsulları, xüsusən də un sarıdan ciddi çətinliklər var idi. Bəzən çörək istehsal edən müəssisələrdə iki-üç günlük un ehtiyatı yaratmaq da müşkülə dönürdü. Çörək mağazaları qarşısında uzun növbələr yaranırdı. Naxçıvan dahi öndərin sözləri ilə desək, "taleyin ümidinə buraxılmış bir ada"nı xatırladırdı.

Muxtar respublika ağır sınaqlar, məhrumiyyətlər qarşısında idi. Yeganə xoşbəxtlik onda idi ki, Heydər Əliyev kimi dünya siyasətinin böyük korifeylərindən biri Naxçıvanda yaşayırdı və muxtar respublikaya rəhbərlik edirdi. Bütün ümidlər də təkcə dahi şəxsiyyətə bağlanmışdı. Dahi öndər Naxçıvanın xilası naminə mübarizəsinə indiyədək bizə həm yaxın, həm də uzaq olan qonşu xarici dövlətlərlə mədəni-iqtisadi əlaqələrin yaradılmasından başladı. Bu əlaqələr bölgəni labüd fəlakətdən xilas etdi.

Türkiyənin qüdrətli dövlət və siyasi xadimlərindən biri olan Süleyman Dəmirəl də Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rolunu yüksək qiymətləndirib. Onun fikrincə, Heydər Əliyev erməni təcavüzü nəticəsində blokadaya məhkum olunmuş Naxçıvana rəhbərlik etdiyi dövrlərdən Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət vermiş, bu hesaba ölkələrimiz arasında faydalı əməkdaşlığa nail olunmuşdur.

Prezident İlham Əliyev də muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində bu amili xüsusi vurğulayaraq deyib ki, "Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır."

"Naxçıvan türk-islam dünyasına bir qapıdır" – söyləyən Naxçıvan Ali Məclisinin o zamankı Sədri Heydər Əliyevin Türkiyə Respublikasına ilk rəsmi səfəri 1992-ci ilin martında həyata keçirilmiş, səfər zamanı Türkiyə Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə görüşlər keçirilmişdir. Görüşlərdə əsas müzakirə edilən məsələ isə unudulmaqda olan Qars müqaviləsini yenidən gündəmə gətirməklə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyət olmuşdur. Nəticədə Türkiyənin Baş Naziri ilə Naxçıvan Ali Məclisinin Sədri arasında birgə protokol imzalanaraq, bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

13 maddəlik protokolda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, regionun zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda, həmçinin bank işi, turizm, informasiya sahəsində əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan yüz nəfər tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlinmişdir. Muxtar Respublika Ali Məclisinin Sədri bu protokolu böyük əhəmiyyətə malik tarixi sənəd kimi

qiymətləndirmiş, icra strukturlarına protokolun icrası ilə əlaqədar konkret təkliflərlə çıxış etməyi tapşırmışdı.

1992-ci ilin may ayı isə Azərbaycanın, eləcə də Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü əhatə edib. Həmin ayda Bakıda siyasi qüvvələr arasında hakimiyyət davası qızışdığından və onların Qarabağı yaddan çıxarmalarından istifadə edən ermənilər ölkəmizə qarşı hücumlarını genişləndiriblər. Ermənilər Şuşa və Laçın şəhərlərini ələ keçirməklə, Dağlıq Qarabağın işğalını başa çatdırıblar. Məkrli düşmənlərimiz yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı hərbi təcavüzləri də gücləndirirlər. Yalnız ulu öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onların məkrli planlarının qarşısı alınır. Bu dəfə də qardaş Türkiyə dövləti öz sözünü birmənalı deyir. Mayın 18-də Muxtar Respublika Ali Məclisinin Sədri Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün Türkiyədən kömək göstərilməsini xahiş edir. Həmin gecə Türkiyə hökuməti xüsusi bəyanatla çıxış edərək, 1921-ci il Qars müqaviləsinə əsasən, Naxçıvan haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu yenidən bütün dünyaya bəyan edir. Məhz bu bəyanatdan sonra dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pisləyir.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılan "Sədərək-Dilucu" körpüsü daha mühüm rol oynayıb. Həmin gün iqtisadi böhran içərisində yaşayan region bayram əhval-ruhiyyəsi yaşayır. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş Naziri S.Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gələrək bölgə ilə ətraflı tanış olurlar. Muxtar respublikanın ictimai-iqtisadi həyatında mühüm mərhələ olan, iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirən "Ümid" körpüsünün istifadəyə verilməsi böyük təntənə ilə qeyd olunur.

Körpünün açılış mərasimində, – "bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir, bu coşğunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşğunluqdur" – deyən S.Dəmirəl onu da əlavə edir ki, "Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, ona bağlı Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-birləri ilə yaxınlaşacaqlar".

* * *

Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə əlaqələri Azərbaycan-Türkiyə əlaqələri kontekstində sonrakı illərdə də yüksələn xətlə inkişaf edib. Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun qardaş və dost ölkəyə ilk rəsmi səfəri 1996-ci il martın 12-17-si arasında olub. Bu səfər çərçivəsində aparılan danışıqlar da muxtar respublikanın mövcud problemlərinin həlli istiqamətində olub. Ali Məclis Sədrinin səfər müddətində Türkiyənin bütün ali rəhbərliyi - Prezident, Baş nazir, parlamentin spikeri ilə görüş və söhbətləri də bölgəyə daimi diqqət və qayğısının sübutu olub.

2008-ci il iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğanın eyni vaxtda Naxçıvana səfəri böyük siyasi məna daşıyıb. Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsini regional əməkdaşlığa böyük töhfə olduğunu bildirən Prezident İlham Əliyev mətbuat üçün bəyanatında Türkiyənin hökumət başçısının bölgəyə səfərini yüksək qiymətləndirib. ("Azərbaycan" qəzeti, 2008, 5 iyun)

İstər təkbətək, istərsə də geniş tərkibdə keçirilən görüşlərdə iki dövlət arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişafından məmnunluq duyulub. Geniş tərkibdə keçirilən görüşdə "Sizin Naxçıvana səfəriniz çox böyük əhəmiyyət daşıyır və əminəm ki, onun nəticələri də çox uğurlu olacaqdır, Naxçıvan qədim Azərbaycan torpağıdır və Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd yeri buradır", – ölkə başçımızın bu sözlərinə Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan onu da əlavə edib ki, "sərhəd şəhəri Naxçıvanda keçirəcəyimiz görüşlərin çox böyük mənası olacaqdır. Bu baxımdan biz buna çox böyük əhəmiyyət veririk".

Bu görüşdə əldə olunan nəticələrdən razı qaldığını söyləyən dövlətimizin başçısı onu da bildirib ki, Naxçıvanın enerji təhlükəsizliyi barədə ətraflı söhbət oldu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsindən və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olmasından, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulur. Bu layihənin təbii davamı olaraq Naxçıvanın bu xəttə birləşməsi də mümkündür.

Enerji təhlükəsizliyinin vacibliyini bildirən Prezident İlham Əliyev onu da deyib ki, Naxçıvanın yeni layihəyə qoşulması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edən məsələdir. Eyni zamanda, bölgəni nəqliyyat mühasirəsindən çıxarmaq üçün Naxçıvanın Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşməsi məsələsi də müzakirə olunaraq müsbət rəyə gəlinib. Nəzərə alsaq ki, ötən

iyirmi il ərzində regionun polad relslərində də hərəkət dayanıb, onda bu layihənin hansı əhəmiyyət kəsb etdiyini də aydın görmək olar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Türkiyəyə indiki rəsmi səfəri, orada keçirdiyi görüşlərdə də bu məsələlər yenidən gündəmə gətirilib, onların operativ həlli üçün konkret yollar müəyyənləşib. Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun dəvəti ilə reallaşan bu səfərdə Naxçıvan MR Ali Məclisinin Sədri Türkiyənin dövlət və hökumət başçıları, ordu rəhbərliyi və digər rəsmi şəxslərlə görüşüb.

Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğanla və xarici işlər naziri ilə görüşlərdə Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Türkiyə Hava Yollarının Naxçıvana reyslər açması, Qars-Naxçıvan dəmir yolunun, İqdır-Naxçıvan magistral qaz kəmərinin çəkilməsi kimi iri iqtisadi layihələrin müzakirəsi regionun gələcək inkişafına istiqamətlənib. Türkiyə hökuməti regional əməkdaşlığı gücləndirmək üçün 3 dövləti – Türkiyə, Azərbaycan və İranı əhatə edəcək sərhəd qapısının yaradılması üzrə də iş aparır.

Türkiyənin xarici siyasət idarəsinin başçısı Əhməd Davudoğlu belə bir amili də xüsusi vurğulayıb ki, "Türkiyə-Azərbaycan əlaqələrinin ən çox inkişaf etdiyi bölgələrdən biri Naxçıvandır. Naxçıvanın təhlükəsizliyi və rifahı bizim təhlükəsizliyimiz və rifahımızdır". Türkiyəyə səfərə dəvətə görə təşəkkürünü bildirən Ali Məclisin Sədri deyib ki, bu gün aparılan müzakirələr onu deməyə əsas verir ki, tarixi, adəti, dili, dini ilə bir-birinə bağlı olan Azərbaycan-Türkiyə əlaqələri, habelə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın Türkiyə ilə əməkdaşlığı bundan sonra da davam edəcək və daha möhkəm təməllər üzərində inkişaf edəcəkdir.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisi, ordu generalı İlkər Başbuğla görüş və hərbi əməkdaşlıq məsələlərinin müzakirəsi isə bölgədə siyasi təhlükəsizliyin təminatı olub.

Səfərin sonuncu günü isə Çankaya köşkündə Türkiyə Prezidenti Abdullah Gül Naxçıvan Ali Məclisi Sədrini qəbul edib. Görüşdə Naxçıvan MR ilə Türkiyə arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, əməkdaşlığın perspektivləri müzakirə edilib.

Təbii ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Türkiyəyə səfəri indiki ərəfədə dünyaya, o cümlədən Ermənistana mesaj baxımından da müsbət qiymətləndirilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə ümidlərin azaldığı bir vaxtda ölkəmizlə quru sərhəd xətti olmayan



Heydər ƏLİYEV dövlətçilik məktəbi iki müdavimi ilə daha çox tanınacaq:
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və
Naxçıvan MR Ali Məclisinin Sədri cənab Vasif Talıbov



Türkiyə Cumhuriyyətinin Prezidenti Abdulla Güllə görüş



Naxçıvan MR-in inkişaf yolları müzakirə olunur



Türkiyə Cumhuriyyətinin Baş naziri R.T.Ərdoğanla görüş



Türkiyəyə səfər çərçivəsində İğdır valiliyində görüş



Azərbaycan Prezidenti İlham Əliyev yeni obyektin açılışında



Şərur rayonunun Yengicə kənd orta məktəbi



Sərhəd bölgəsində yeni və müasir tipli xəstəxana binası tikilib




Sədərək rayon Mərkəzi Xəstəxanası üçün yeni obyekt



Müasir Naxçıvanda quruculuq tədbirləri ilə bağlı fikir mübadiləsi




Naxçıvan şəhərində 1100 şagird yerlik Heydər Əliyev adına orta məktəb



Naxçıvan şəhərində ictimaiyyət nümayəndələri ilə görüş



Naxçıvan şəhərindən bir görünüş



XXI əsr dünya siyasətinin yeni siması -
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri
cənab Vasif Talıbov

Naxçıvanın iqtisadi və müdafiə qüdrətinin bu dərəcədə artması xarici tərəfdaşlarımızın da ürəyincə olub.

Bu il aprel ayının 23-də Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunan müşavirədə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev belə bir amili xüsusi vurğulayıb ki, yeniləşmiş Madrid prinsipləri əsasında son təkliflər qəbul olunarsa, onda sülh sazişi üzərində iş başlana bilər. Əgər təkliflər qəbul olunmazsa, onda, ümumiyyətlə, danışıqlar prosesinə yenidən baxılmalıdır və əlbəttə ki, Azərbaycan yaranacaq vəziyyətə adekvat mövqe nümayiş etdirəcəkdir.

Politoloqların fikrincə, Ali Məclis Sədrinin Türkiyə rəhbərliyi ilə görüşdə Qars müqaviləsini yenidən gündəmə gətirməsi də adi məsələ olmayıb. Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunun, "Qars müqaviləsinin keçərliliyi məsələsində heç bir şübhə yoxdur. Bu müqavilə istər beynəlxalq hüquq, istərsə də Türkiyənin öhdəliyinə sadiqliyi baxımından möhkəmdir. Bu sənəddə mühüm maddələrdən biri olan Türkiyənin Naxçıvanın təminatçısı olması da çox açıqdır. Bu, beynəlxalq hüququn təsbit etdiyi kimi, Türkiyənin öhdəliyidir. Bu öhdəlik əbədiyyətə qədər davam edəcəkdir", – sözləri isə məkrli qonşularımızı ciddi narahat edib.

Bir sözlə, dünənə qədər əyalət mərkəzini xatırladan, iqtisadi blokadanın çətinlikləri ilə üzləşən Naxçıvan indi yalnız regional deyil, dövlətlərarası əməkdaşlıqda da yaxından iştirak edir. Azərbaycan-Türkiyə əlaqələri konteksində o, aparıcı rol oynayır. Təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət düşmən mühasirəsində yaşayan Naxçıvanın daha da möhkəmlənməsinə, güclənməsinə xidmət edir. Bu gün regionun ən ucqar sərhəd bölgələrində aparılan quruculuq tədbirləri də bu cür düşünməyə əsas verir.

Onu da qeyd edək ki, son illər Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm də cəlbedici regiona və etibarlı tərəfdaşa çevrilir. Bu gün muxtar respublikanın Türkiyə ilə bərabər İran İslam Respublikası, Avstriya arasında da yaxın və sıx əməkdaşlıq əlaqələri mövcuddur. Ötən ilin oktyabr ayının 2-də və 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də muxtar respublikanın tanıdılmasında önəmli rol oynayıb.

**"Dirçəliş-XXI əsr" jurnalı,**
**№ 147-148, 2010-cu il**

## Naxçıvan daha da gözəlləşəcək və inkişaf edəcək

**"Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük".**

**İlham ƏLİYEV**

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində respublikamızın hər bir guşəsində böyük tikinti-quruculuq və abadlıq işləri aparılır. Prezident İlham Əliyev bəyan edib ki, "Bizim siyasətimiz məhz bundan ibarətdir ki, bütün yerlərdə, bütün bölgələrdə, ən ucqar kəndlərdə də ən müasir səviyyə, insanların yaşaması, işləməsi üçün bütün şərait yaradılmalıdır".

Bu istiqamətdə görülən işlər, həyata keçirilən möhtəşəm tədbirlər göz qabağındadır. Bunun canlı və konkret nümunəsini iyirmi ilə yaxın bir müddətdə blokada şəraitinin ağırlığına mətanətlə sinə gərən Naxçıvan Muxtar Respublikasının timsalında aydın görmək olar. Son 5 ildə regionun iqtisadi inkişafı 4 dəfə artıb. Sənayenin, kənd təsərrüfatının və sosial sahələrin inkişafında əsaslı dönüşə nail olunub. Yeni yaradılan sənaye və emal sahələri sovetlər birliyinin mövcud olduğu illər ərzində istifadəyə verilən müəssisələrin sayını 8 dəfə üstələyib.

Bu ilin səkkiz ayında isə ümumi daxili məhsul ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,5 faiz artaraq 772 milyon manatı ötüb. Sənaye sahəsində aparılan islahatlar nəticəsində 213 milyon manatdan çox məhsul istehsal olunub. İxracyönümlü müəssisələr hesabına 125,5 milyon ABŞ dolları həcmində xarici ticarət əməliyyatları aparılıb. Sosial inkişaf - təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması sahəsində mühüm irəliləyişlərə nail olunub. Ölkə başçısı cənab İlham Əliyev oktyabr ayının 5-də regiona növbəti səfəri çərçivəsində keçirilən tədbirlərin birində görülən işləri yüksək qiymətləndirərək deyib: "Naxçıvanda gözəl quruculuq, abadlıq işləri sürətlə gedir və bu məni çox sevindirir. Hər dəfə Naxçıvanda olanda mən bu yenilikləri, müasir yanaşmanı görürəm ".

Onu da qeyd edək ki, bu, cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə Naxçıvana səkkizinci səfəri idi. Digər səfərlərində olduğu kimi, Prezidentin budəfəki gəlişi də muxtar respublika sakinləri üçün əlamətdar hadisələrlə yadda qalıb. Dövlət başçısı səfər çərçivəsində muxtar respublikada bir neçə infrastruktur sahəsinin - üç müasir tipli orta məktəb binasının, Naxçıvan-Sədərək magistral yolunun, Sədərək rayonundakı mərkəzi xəstəxananın, Ordubad rayonundakı Biləv Su Elektrik Stansiyasının, Naxçıvan şəhərində "Gəmiqaya daş emalı sənaye kompleksinin, Naxçıvan şəhərinin içməli su təchizatının, məhdud fiziki imkanlı insanlar üçün Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Regional İnformasiya Mərkəzinin açılış mərasimlərində iştirak edib öz xeyir-duasını verdi. Sədərək rayonunda "N" saylı hərbi hissə, Kəngərli rayon mərkəzində ictimaiyyət nümayəndələri ilə görüş, sərhəd bölgəsində yerləşən Heydərabadda tikilən yeni mənzillərlə tanışlıq da xoş təəssürat yaratdı.

Dövlətimizin başçısı səfər çərçivəsində regionların sosial-iqtisadi inkişafına dair ikinci Dövlət Proqramının icra vəziyyəti ilə tanış olub, əhalinin yaşayışı, gün-güzəranı ilə maraqlanıb. Bu istiqamətdə həyata keçirilən siyasətin real bəhrələrindən danışan ölkə Prezidenti bunu konkret olaraq muxtar respublikanın timsalında aydın açıqlayıb: "Naxçıvan uzun illərdir ki, blokada şəraitində yaşayır və bu blokadanı Ermənistan tətbiq edir. Ancaq buna baxmayaraq, Naxçıvanın bütün imkanları səfərbər olunub və əlavə tədbirlər görülür, proqramlar icra olunur. Bu gün Naxçıvan uğurla və sürətlə inkişaf edən diyardır, respublikadır. Bütün şəhərlər abadlaşır, gözəlləşir, yeni mehmanxanalar, sənaye müəssisələri yaradılır".

## Uğurlu siyasət və konkret nəticə

Bu da bir faktdır ki, son on beş ildə muxtar respublikanın sosial-iqtisadi inkişafında böyük irəliləyişlər yaranıb. Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti ötən illər ərzində uğurla davam etdirilib. Bu müddət ərzində muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə düşüb. Ötən il daxili tələbatdan artıq istehsal olunmuş 62 milyon 220 min ABŞ dolları dəyərində sənaye məhsullarının qonşu xarici ölkələrə və respublikamızın digər bölgələrinə ixrac olunması da regionun getdikcə artan iqtisadi potensialından xəbər verir. Bu rəqəm əvvəlki illə müqayisədə 2,9 dəfə çox olub.

Təbii ki, bölgəyə dövlətin qayğı və dəstəyinin çox olması ilk növbədə regionun yerləşdiyi geosiyasi mövqedən irəli gəlir. Naxçıvan ölkəmiz üçün həmişə strateji əhəmiyyət kəsb edən bir bölgə olub.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkəni yeni inkişaf müstəvisinə çıxarmaqla bu inkişafın mərkəzlə bərabər regionlara doğru istiqamətlənməsində mühüm rol oynayıb. Bu səbəbdən də muxtar respublika nəinki iqtisadi və sosial böhrandan qısa vaxt ərzində yaxa qurtarıb, həmçinin onun dinamik inkişafı təmin edilib. Prezident İlham Əliyev bu amili yüksək qiymətləndirərək: "Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir", - deyib.

2003-cü ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 44 min 647 yeni iş yeri açılmışdır ki, bunun da 29 min 393-ü və yaxud 66 faizi daimi iş yerləridir. Yeni iş yerlərinin açılması, iqtisadiyyatın ümumi strukturuna uyğun olaraq və daxili bazarın qorunması tələbləri nəzərə alınaraq yeni istehsal və emal sahələrinin yaradılması sahibkarlığın inkişafı üçün əlverişli şəraitin formalaşdırılması hesabına mümkün olmuş, ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 86 faiz təşkil etmişdir. Hazırda muxtar respublikada əhalinin 89 növdə ərzaq, 153 növdə qeyri-ərzaq olmaqla 242 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir.

## İqtisadi potensialın başlıca mənbəyi

Ərzaq təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyi də bu gün xüsusi diqqət yetirilən sahələrdəndir. Vaxt var idi ki, muxtar respublikada elektrik enerjisi sutka ərzində 10-12 saat verilir, böyük fasilələr yaranırdı, qonşu ölkələrdən baha qiymətə enerji alınırdı. Dövlət başçısının Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2 may 2005-ci il tarixli sərəncamından sonra vəziyyət tamamilə dəyişib. O vaxtlar Prezident İlham Əliyev bu sahədə qarşıda duran hədəfləri də aydın göstərmişdir: "Naxçıvanda tikilən elektrik stansiyalarının və növbəti illərdə tikiləcək su elektrik stansiyalarının gücü elə olmalıdır ki, muxtar respublikada enerji təhlükəsizliyi tam şəkildə daxili resurslar hesabına təmin olunsun".

Regiona təbii qaz kəmərinin çəkilməsindən sonra enerji təsərrüfatının gücləndirilməsi sahəsində təsirli tədbirlər görülmüş, modul və qaz-turbin elektrik stansiyaları, Heydər Əliyev su anbarı üzərində

elektrik stansiyası tikilib istifadəyə verilib. Az vaxt ərzində muxtar respublika elektrik enerjisi alan regiondan elektrik enerjisi ixrac edən regiona çevrilib. Hazırda Türkiyə Respublikasına gündə 16 meqavat elektrik enerjisi verilir.

20 meqavat gücündə olan Biləv Su Elektrik Stansiyası da muxtar respublikada həyata keçirilən ən böyük infrastruktur tədbirlərdən biri olub. Həmin stansiyanın tikintisinə ötən ilin mart ayından başlanılsa da, qısa vaxt ərzində inşaat işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Burada böyük həcmdə inşaat və tikinti işləri aparılıb.

Gilançay üzərində tikilən stansiyada ilk əvvəl suyun toplanması üçün tutumu 250 min kubmetr olan tənzimləyici bənd yaradılıb. Buradan su açıq və qapalı kanallarla üçsıralı sutəmizləyici anbara ötürülür. Su bərk cisimlərdən təmizlənəndən sonra tutumu 34 min kubmetr olan anbara yönəldilir. Növbəti mərhələdə isə o, poladdan hazırlanan təzyiq borusu ilə stansiyaya verilir. Stansiya binası bütün zəruri avadanlıqlarla təchiz edilib. Burada Avstriya istehsalı olan iki turbin və generatorlar quraşdırılıb. İstehsal edilən enerji xüsusi xətlərlə yarımstansiyaya ötürülür. Həmin obyektin açılış mərasimində iştirak edən dövlət başçısı görülən işlərdən, həyata keçirilən tədbirlərdən razılığını bildirib.

Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq, görülən işlərin yeni mərhələsidir,- söyləyən dövlətimizin başçısı bu cür stansiyaların digərlərindən üstün cəhətlərini də açıqlayıb: "O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır".

Bu gün Naxçıvanda elektrik enerjisi və qazla təminat ən yüksək səviyyədədir. Muxtar respublikada qazlaşdırma uğurla başa çatdırılıb və hətta sovet dövründə qazlaşdırılmayan kəndlərə də təbii qaz xətləri çəkilib. Əslində bunlar dövlət səviyyəsində həyata keçirilən böyük bir proqramın icrası nəticəsində mümkün olub.

### Avropa standartları əsasında qurulan yol

87 kilometr uzunluğunda olan Naxçıvan-Sədərək magistral avtomobil yolunun yenidən qurulması muxtar respublikada həyata keçirilən böyük infrastruktur tədbirlərdən biridir. O yol iqtisadiyyatın qan damarı olmaqla bərabər, adamların rahat və firavan yaşamalarına xidmət edəcək.

Böyük İpək yolunun bir hissəsi sayılan bu yol muxtar respublikanın Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirir. Avropa standartları

əsasında qurulan yolun ümumi en sahəsi 23 metr, asfalt qatının eni 17,2 metrdir. Burada hər iki istiqamətdə 2 hərəkət zolağı olmaqla 4 xətt yaradılıb. Yolun hər iki istiqamətində "təhlükəsiz zona"sı var.

Magistral xəttdə yenidənqurma tədbirləri iki mərhələdə həyata keçirilib. İlkin mərhələdə görülən işlərə ötən ilin avqust ayında yekun vurulub. Naxçıvan-Şərur şəhəri istiqamətində istifadəyə verilən yolun birinci mərhələsinin açılışında ölkə Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak edib.

Cari ilin oktyabr ayında yolun ikinci mərhələsində inşaat işləri başa çatdırılıb. Yolun açılışında iştirak edən Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirib: "Biz yolun bir hissəsini keçən dəfə bərabər açdıq. Bu gün isə yolun ikinci mərhələsi açılır və Naxçıvandan Türkiyə ilə sərhədə qədər müasir, gözəl, keyfiyyətli yol salınıb. Keçən dəfə də biz bu yoldan istifadə edəndə gördük ki, keyfiyyət yüksəkdir. Bu dəfə də gələndə görürəm ki, çox yüksək keyfiyyətlə tikilib, geniş, rahat, hamar yoldur, dünya standartlarına cavab verir".

Dövlətimizin başçısı yerli şirkətin bu cür böyük tikintilərin öhdəsindən layiqincə gələ bilməsini də müsbət qiymətləndirib. "Gəmiqaya yol, su, enerji" MMC bu işin öhdəsindən uğurla gəlib. Şirkətin maddi-texniki imkanları da yüksəkdir. Burada işlədilən maşın və mexanizmlər əsasən ABŞ-ın "Kat" və Almaniyanın "Mersedes" firmalarına məxsusdur.

## Təhsildə böyük quruculuq tədbirləri

Hər bir tarixi mərhələdə cəmiyyətin tərəqqisi xeyli dərəcədə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olub.

Məktəb tikintisi sahəsində də muxtar respublika qabaqcıldır. Son 10 ildə regionda 68 min 374 şagird yeri olan 168 ümumtəhsil məktəb binası, 1398 yerlik 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Yeni təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılmış, fənn kabinələri, laboratoriyalar, açıq və örtülü idman qurğuları, zallar müasir dünya standartları nəzərə alınaraq hazırlanmış, ən yeni informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmuşdur.

Prezident İlham Əliyev bölgəyə budəfəki səfəri çərçivəsində üç məktəbin açılş mərasimində iştirak edib. 130 ildən çox yaşı olan Yengicə kənd orta məktəbi nəinki Şərur rayonunun, eləcə də muxtar respublikanın ən qocaman təhsil ocağıdır. Sovet dönəmində də bu məktəb rayonun qabaqcıl təhsil müəssisələrindən olub. Amma bunlarla belə uzun illər

boyu burada təmir işləri aparılmayıb. İndiki quruculuq tədbirləri sayəsində kənddə böyük şəhərlərdəkitək gozəl təhsil ocağı tikilib. Prezident İlham Əliyev də görülən işlərdən, yaradılan şəraitdən razı qaldığını bildirib: "Bu məktəb əslində kənd məktəbinə oxşamır. Çox əzəmətli, gözəl, geniş, işıqlı bir məktəbdir", -deyib.

568 yerlik təhsil ocağında müəllim və şagirdlərin ixtiyarına 32 sinif otağı ilə bərabər, zəngin əyani vəsaitlərlə təmin olunan fənn kabinələri, laboratoriyalar, kitabxana, idman zalı, yeməkxana da verilib. Şagirdlərin müasir informasiya texnologiyalarına yiyələnə bilmələri üçün burada iki kompüter otağı yaradılıb. Hər bir otaqda 19 kompüter internetə qoşulub. İki elektron lövhəli sinif də tədrisin yüksək səviyyədə aparılmasına imkan yaradacaqdır.

Azərbaycanın Milli Qəhrəmanı Əli Camalovun adını daşıyan Maxta kənd orta məktəbi də yeni istifadəyə verilən təhsil ocaqlarından-dandır. Üçmərtəbəli, 540 şagird yerlik binada sinif otaqları, fənn kabinə və laboratoriyalar zəruri vəsaitlərlə təchiz olunub.

"Maxta kəndində gözəl, yaraşıqlı məktəb tikilib. Əminəm ki, bu, uşaqlara böyük bir töhfədi- deyən dövlət başçısı ölkəmizin gələcək və xoş inkişafı naminə öz tövsiyə və tapşırıqlarını da bildirib: "Burada uşaqlar ancaq yaxşı oxumalıdırlar. Müəllimlər də uşaqlara yaxşı tərbiyə verməlidirlər, yaxşı nəzarət etməlidirlər. Bizə savadlı, bilikli gənclər lazımdır ki, bundan sonra bütün sahələrdə işləyə bilsinlər".

594 şagird yerlik 2 nömrəli Sədərək orta məktəbi də indiki quruculuq siyasətinin bəhrələrindən biri olub. Sərhəd kəndində dördmərtəbəli binanın tikintisinə cari ilin may ayından başlanılıb. Ötən müddət ərzində də tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Müasir təhsil ocağı sərhəd bölgəsinin ümumi görünüşünə də yeni çalarlar gətirib.

## Sərhəd bölgəsində müasir tipli xəstəxana

"Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük". Cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə ölkəmizdə sosial problemlərin həlli, eləcə də səhiyyənin inkişafı ümdə vəzifələr sırasına çıxarılıb. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı da bu sahədə mövcud olan problem və çatışmazlıqları həll etməyə real imkan yaradıb. Ölkədə səhiyyə şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində konkret vəzifələr də müəyyənləşib. Bu səbəbdəndir ki, hər il böyük həcmlə artan

dövlət büdcəsinin xeyli hissəsi sosial siyasətin həllinə yönəldilir. Sosialyönlü siyasətin davam etdirilməsinin vacibliyindən danışan dövlət başçısı bu amilin ölkənin iqtisadi gücü ilə də sıx bağlı olduğunu bildirib: Mən istəyirəm ki, hər bir xəstəxana onun yerləşməsindən asılı olmayaraq, müasir səviyyədə olsun. Azərbaycanda hər bir sahədə müasirlik, yenilik və keyfiyyət özünü daim göstərsin və Azərbaycan xalqı bu gözəl imkanlardan bəhrələnsin. Bu, bir tərəfdən insanlara olan diqqətin və qayğının əlamətidir, digər tərəfdən Azərbaycanın bugünkü imkanlarını göstərir".

Respublikanın regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirləri sırasında yeni səhiyyə ocaqlarının tikilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi də mühüm yer tutur. Bu gün muxtar respublikanın hər bir rayonunda ən müasir tələblərə cavab verən mərkəzi xəstəxana binalarının tikintisi proqramı uğurla icra olunmaqdadır. Belə ki, 5 mərkəzi xəstəxana binası tikilmiş, 1 mərkəzi xəstəxananın inşası isə davam etdirilir. Naxçıvan şəhərində ətraf bölgələrdə analoqu olmayan diaqnostika-müalicə və doğum mərkəzləri istifadəyə verilmiş, əlavə 42 xəstəxana, 51 həkim ambulatoriyası, 56 feldşer-mama, 17 tibb məntəqəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur.

Sədərək rayon mərkəzi xəstəxanasının açılış mərasimində Prezident İlham Əliyev bu istiqamətdə görülən işləri yüksək qiymətləndirib: "Mən xəstəxana ilə tanış oldum, gördüm ki, burada müasir avadanlıq quraşdırılıbdır, yüksək səviyyədə tikinti işləri aparılıbdır, gözəl layihədir. Həm müalicə almaq, həm də müayinədən, diaqnostik prosedurlardan keçmək üçün bütün şərait, imkan vardır", - deyən ölkə başçısı əmin olduğunu bildirib ki, gələcəkdə belə xəstəxanaların sayı daha da çox olacaqdır.

Sədərək rayon mərkəzi xəstəxanasının yeni binası zirzəmi qatı ilə birlikdə üç mərtəbədən ibarət olmaqla 26 çarpayılıqdır. Xəstəxana binası ən müasir tələblər əsasında inşa olunub. Burada stasionar, poliklinika və təcili yardım şöbələri ilə bərabər, yoluxucu xəstəliklər, pediatriya, doğum və ginekologiya, cərrahiyyə, terapiya bölmələri də fəaliyyət göstərəcək. Cərrahiyyə əməliyyatı otaqları ən müasir avadanlıqlarla təmin olunub.

## Bölgə iqtisadiyyatında ixracyönümlü müəssisə

Hər bir bölgənin, regionun iqtisadi inkişafı xeyli dərəcədə onun sənaye potensialı və bu sahənin inkişaf səviyyəsi ilə ölçülür. Təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan inkişaf

strategiyası bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investorları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarilə ölkəmizin iqtisadi qüdrətinin artırılmasına yönəldilib. İxracyönümlü iqtisadiyyatın qurulması sənayenin inkişafı üçün vacib şərtdir. "Gəmiqaya daş emalı sənaye kompleksi" də belə müəssisələrdən biridir. Prezidenti İlham Əliyev həmin müəssisənin açılışında da iştirak edib, burada istehsal olunan məhsullarla tanış olub. Tikintisinə 2009-cu ilin ortalarından başlanan müəssisə travertin və mərmər emalı üzrə ixtisaslaşıb. Kompleksdə Türkiyənin "Sesemak" şirkətinin avadanlıqları quraşdırılıb və 170 nəfər işlə təmin olunub. Müəssisənin gündəlik istehsal gücü 2 min kvadratmetrdir.

Muxtar respublikanın təbii sərvətləri yeni sənaye müəssisələri üçün əvəzsiz xammaldır. Qarabağlar, Çalxanqala və Yuxarı Buzqov ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşları emal üçün bu kompleksə gətirilir. Ümumi sahəsi 53 min kvadratmetr olan kompleksdə müxtəlif çeşiddə inşaat və məişət məmulatı istehsal ediləcəkdir. Məhsul buraxılışında istifadə edilən daşlar antibakterial keyfiyyətə malikdir.

Müəssisədə travertin və mərmər daşlarından təkcə üzlük və döşəmə materiallar hazırlanmır. Bilgisayar sistemi ilə idarə olunan texnoloji avadanlıqlarla daş lövhələr üzərində cilalanma və dekorasiya işləri də həyata keçirilir. Mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərin hazırlanmasında istifadə olunacaqdır. Bu məhsullar daha çox ixrac üçün nəzərdə tutulur.

## Ordu quruculuğuna böyük diqqət

Ümummilli liderimiz Heydər Əliyev kimi Prezident, Ali Baş Komandan İlham Əliyev də Naxçıvana səfərləri çərçivəsində əsgər və zabitlərlə görüşməyi, ordudakı əhval-ruhiyyə ilə yerindəcə tanış olmağı vacib bilir. Təbii ki, müharibə şəraitində yaşayan bir ölkənin Ali Baş Komandanının əsgər və zabitlərlə görüşməsi, onların qayğı və problemləri ilə yaxından maraqlanması da müsbət haldır. Bu dəfə də dövlət başçısı öz ənənəsinə sadiq qaldı.

Sədərək rayonunda ön xətdə yerləşən hərbi hissənin tabor mərkəzi ilə tanış olan dövlət başçısı ordumuzun indiki döyüş hazırlığından məmnun qalıb. 2008-ci ildə inşa olunmuş binada zabit, gizir və əsgər heyətinin normal xidməti üçün hər cür şərait yaradılıb. Əsgər

yataqxanasındakı səliqə-sahman da göz oxşayır. Zabitlər üçün isə hər biri iki mənzildən ibarət olan yaşayış evləri tikilib. Ona çalışılıb ki, orduda xidmət edən əsgər və zabitlərin şəraiti daha yaxşı olsun. Çünki güclü ordusu olmayan dövlətin müstəqilliyindən danışmaq da əbəsdir.

Əsgərlərin məşğələ prosesi ilə ətraflı tanışlıqdan sonra dövlətimizin başçısı müşahidə məntəqəsindən təmas xəttini seyr edib, hərbi hissəyə təcili tibbi yardım maşını bağışlayıb. Prezident, Ali Baş Komandan İlham Əliyev sərhəd bölgəsində ictimaiyyət nümayəndələri ilə görüşündə də ordu quruculuğu məsələlərinə toxunub və görülən işlərdən razılığını bildirib: "Bu gün burada, sərhəddə vəziyyətlə tanış olarkən bir daha gördüm ki, Azərbaycan Ordusu sərhədlərimizi lazımi səviyyədə qoruyur. Ordumuz hər il daha da güclənir və ordu quruculuğu üçün bütün lazımi tədbirlər görülür. Həm peşəkarlıq artır, həm silah-sursat, texnika alınır və bundan sonra da alınacaqdır". O ki qaldı itirilmiş torpaqlarımızın geri qaytarılmasına, ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı bir daha bəyan etdi ki, "Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək, işğal edilmiş torpaqları azad edəcəkdir. Bu gün işğal altındakı bütün torpaqlarda Azərbaycanın suveren hüquqları bərpa olunacaqdır".

Dövlət başçısının qədim Naxçıvan torpağına birgünlük səfəri bir çox hadisələrlə yadda qaldı. Həm yeni sosial obyektlərin açılışı oldu, həm digər vacib məsələlər həllini tapdı. Səfər xoş təəssüratla başa çatdı. "Mən çox şadam ki, muxtar respublikanın rəhbərliyi bütün bu işləri çox böyük zövqlə və məhəbbətlə edir. Hər şey etmək olar, çünki indi Azərbaycanın iqtisadi imkanları genişlənir, maliyyə resurslarımız da, ciddi düşünülmüş proqramlarımız da vardır. Amma bununla bərabər, hər bir vətəndaş öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir", - deyən dövlət başçısı bu sahədə cəmiyyət ilə dövlət arasında orta vasilə sayılan məmurların da üzərinə böyük məsuliyyət düşdüyünü bildirdi.

Dövlət başçısının fikrincə, qazanılan uğurlarla, görülən işlərlə kifayətlənmək, razılaşmaq olmaz: "Mən əminəm ki, gələcəkdə Naxçıvan daha da gözəlləşəcək, inkişaf edəcək və bütün işlər burada həmişə olduğu kimi, yüksək səviyyədə təşkil olunacaqdır".

Təbii ki, bütün bunlar ölkəmizin xoş və işıqlı gələcəyindən soraq verir.

**"Azərbaycan",**
**29 oktyabr 2010-cu il**

# Heydər Əliyev və Naxçıvanda mətbuatın inkişaf tarixi

**"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".**

**Heydər ƏLİYEV**

Ötən əsrin 70-ci illərindən Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da mətbuatın inkişafında yeni mərhələ başlanıb. Bu dövrdən ölkəmizdə baş verən sosial-iqtisadi inkişafı, intibahı burada nəşr olunan qəzetlərin səhifələrində də aydın duymaq olur. Azad söz və sərbəst fikir, kütləvi informasiya vasitələrinə yeni baxış, mətbuat və ədəbi mühitdə yalan və qərəzdən uzaq tənqidin formalaşması da bu dövr üçün xarakterikdir. Təbii ki, mətbuatın yeni inkişaf mərhələsinə qədəm qoyması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi ümummilli lider Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlı olub. Bunlar respublikada böyük vüsətlə aparılan quruculuq siyasətinin tərkib hissəsinə çevrilib.

70-ci illərin əvvəllərində Naxçıvan şəhərində redaksiya-nəşriyyat kompleksi inşa olunmuş, muxtar respublikanın söz tribunası olan "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Mövzu genişliyi, janr əlvanlığı, operativlik qəzetin başlıca fəaliyyət istiqamətinə çevrilmişdir. Ana dilimizə, milli mənəvi dəyərlərimizə qayğıkeş münasibət, ənənə və novatorluqda normativliyi əsas götürməsi onu mükəmməl bir yaradıcılıq məktəbinə çevirmişdir.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra qəzet təkcə həyatın işıqlı tərəflərini deyil, həm də cəmiyyətdəki neqativ halları, problemləri cəsarətlə açıb göstərməyə başlamışdı. Qəzet adamların mövcud ideologiya əsasında tərbiyə olunması ilə bərabər, muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl əmək, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında, regionun iqtisadi dirçəlişində və bu prosesin

salnaməsinin yaradılmasında mühüm rol oynayıb. O, öz müsbət ənənələrinə sadiq qalaraq insanları yaşamağa, qurub-yaratmağa sövq edib.

1972-ci ilin yanvar ayında o vaxtkı respublika rəhbəri Heydər Əliyevin himayəsi ilə qəzetin ilk nömrəsinin çapdan çıxmasının 50 illiyi münasibəti ilə yubiley tədbirləri keçirilmişdir. Qəzet redaksiyası sovet dövrünün ən yüksək dövlət mükafatlarından biri olan "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, qəzetin bir neçə əməkdaşına fəxri adlar verilmişdir. Bunlar yarım əsr ərzində qəzetə və onun əməkdaşlarına verilən ən yüksək qiymət olmuşdur.

1981-ci ilin dekabr ayında isə qəzetin 60 illik yubileyi keçirilmişdir. Bu münasibətlə qəzet Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Qəzetin redaktoru Sənubər Kərimovaya Azərbaycan SSR-in əməkdar mədəniyyət işçisi, üç əməkdaşa isə muxtar respublikanın fəxri adları verilmişdir.

* * *

Həmin illərdə qəzetdə tez-tez xalqımızın dil, ədəbiyyat, mədəniyyət və tarixinə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən çoxlu yazılar dərc olunub. Bu baxımdan xalqımızın ən qədim tarixi abidələrindən biri olan Gəmiqaya haqqında dərc olunan "Xalqımızın mənlik heykəli" (31 yanvar 1986) adlı yazı diqqəti daha çox cəlb edir. Az sonra həmin yazının sorağı Sov.İKP MK Siyasi Bürosuna qədər çatmış, sovet imperiyasının başçısı M.S.Qorbaçov qəzetin bu çıxışını millətçilik təzahürü adlandırmışdır. Buna səbəb isə həmin yazıda Nuh peyğəmbərlə bağlı toponimlərin Naxçıvanda mövcud olması, əcdadlarımızın bəşəriyyətin ilkin sakinlərindən olması barədə qocaman alim, filologiya elmləri namizədi Əbülfəz Hüseyninin mülahizələrinin erməni millətçilərini qıcıqlandırması olmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev sonralar, 2002-ci ilin sentyabrında Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə bu məsələyə toxunarkən demişdir: "... mən Moskvada işləyəndə "Şərq qapısı" qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük bir problemə çevirdilər. Ermənilər qalxdılar ki, burada-Azərbaycanda millətçilik var. Xatirimdədir, bir dəfə biz-Siyasi Büronun üzvləri Moskvada Böyük Teatrda mövsümün açılışına getmişdik. Tənəffüs zamanı oturmuşduq, çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik

çoxdur, yoxsa azdır? Mən dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var, Azərbaycan ən beynəlmiləl bir respublikadır...

Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, "Yox, Heydər Əliyeviç, yəqin ki, siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda "Şərq qapısı" qəzetində məqalə dərc ediblər, millətçilik haqqında...

Düzü, mənim bundan heç xəbərim yox idi ki, nə məqalədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbətlər gedirdi... Nə üçün? Çünki ermənilər deyirdilər ki, bu abidə Azərbaycanın deyil, ermənilərindir..."

Heç şübhəsiz ki, 80-ci illərin ortalarından məmləkətimizdə milli şüurun oyanmasında və özünüdərk prosesinin formalaşmasında vətənpərvərlik ruhunda dərc olunan belə yazılar ulu öndərin Azərbaycanda yaratdığı şəraitin nəticəsi idi. Heydər Əliyev böyük siyasətçi, xalqının maraqlarını qoruyan dövlət xadimi kimi milli ruhlu ziyalılarımızı yad təzyiq və təqiblərdən qoruya bilmişdir.

* * *

Səksəninci illərin sonlarından, 90-cı illərin əvvəlindən isə "Şərq qapısı"qəzeti ölkəmizdə müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Ali Soveti torpaqlarımıza erməni təcavüzü ilə bağlı ədalətsizliklərə etiraz olaraq sovet imperiyasının tərkibindən çıxmaq haqqında qərar qəbul edərkən "Şərq qapısı" həmin qısamüddətli "müstəqillik" dövründə də əsas mətbu orqanı kimi çıxış etmişdi. O ağır və mürəkkəb zamanda müstəqil "Şərq qapısı" qəzetinin 7 nömrəsi işıq üzü görmüşdü.

Azərbaycanda, o cümlədən, Naxçıvanda xalq hərəkatı, genişlənməkdə olan demokratikləşmə prosesi MR-də mətbu orqanların fəaliyyətində də özünü göstərməyə bilməzdi. Ulu öndərin Naxçıvanda tarixi xilaskarlıq missiyasını həyata keçirdiyi dövrdə Naxçıvan Vilayət Həmkarlar Şurasının "Ağrıdağ", AXC Naxçıvan şöbəsinin "Varlıq" qəzetləri də nəşr olunmağa başlamışdır. Onlar qısa müddət ərzində fəaliyyət göstərmələrinə baxmayaraq milli şüurun oyanmasında əhəmiyyətli rol oynamışlar.

Müstəqillik dövrümüzdə Muxtar Respublikada rayon qəzetlərinin adları ilə yanaşı, fəaliyyət istiqamətləri də genişlənmişdir. Naxçıvan Şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" (1996), Sədərəkdə "Oğuz yurdu" (2000), Kəngərli rayonunda isə "Yeni həyat" (2005) qəzetləri və

"Naxçıvan" ictimai-siyasi və elmi publisistik jurnalı fəaliyyətə başlamışdır.

Xalqımızın böyük oğlu, dahi siyasətçi Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından, Muxtar Respublikaya rəhbərlik etməyə başlamasından sonra bu qədim diyarın çoxəsrlik tarixində yeni bir mərhələnin təməli qoyuldu.

Ağır günlər keçirən Naxçıvan Muxtar Respublikasının bu dövrü olduqca gərgin, ziddiyyətli, eyni zamanda, tələbkar və maraqlı bir dövr idi. Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan "taleyin ümidinə buraxılmış bir ada"nı (Heydər Əliyev) xatırladırdı. Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, iqtisadi və siyasi böhran içərisində boğulan adamların son ümidləri olan ov tüfəngləri də yığılandan sonra erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvan 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə düşdüyü vəziyyətə SSRİ-nin tərkibindən çıxması ilə etirazını bildirdi. Bundan narazı qalan iqtidar və ixtiyar sahiblərinin qəzəbinə düçar olmuş Naxçıvana qarşı təzyiqlər gücləndi.

Vətən torpağına qayıdışından sonra, 22 iyul 1990-cı ildə geniş xalq kütləsi qarşısında ilk tarixi çıxışını Naxçıvan şəhərindəki Azadlıq meydanında edən ümummilli lider Heydər Əliyev hadisələrin gərginliyi fonunda mətbuatı da unutmamışdı. İlk müsahibəni bölgəyə gəlişindən dörd gün sonra "Şərq qapısı" qəzetinin müxbirinə vermişdi. "Daha susa bilməzdim..." adlı həmin yazını bəzən tədqiqatçılar "Vətənə qayıtdıqdan sonra Heydər Əliyevdən alınıb Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə" kimi də dəyərləndirirlər. Ulu öndər müsahibədə qəzetə olan münasibətini belə açıqlamışdı: "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".

Qəzetin 2 avqust 1990-cı il tarixli nömrəsində dərc olunan, müdrik siyasətçinin Naxçıvan gəncləri ilə görüşündən bəhs edən yazının sonunda verilən fikirlər də diqqəti cəlb edir: "Hələlik Naxçıvandayam, əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edərsə, buna etiraz etmərəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".

* * *

Dahi rəhbər Ali Məclisin sədri kimi fəaliyyəti dövründə regionda kütləvi informasiya vasitələrinin roluna böyük əhəmiyyət vermiş, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Bununla bərabər o, vaxtaşırı yerli mətbuat nümayəndələri ilə görüşmüş, nəyi və necə yazmağı, ümummilli maraqlara qulluq etməyin nədən ibarət olduğunu onlara anlatmağa vaxt tapa bilmişdi. Yaxşı xatirimdədir ki, 1992-ci ilin may ayında muxtar respublikanın sərhəd bölgələrində erməni təcavüzkarları ilə döyüşlərin qızğın çağında müdrik siyasətçi kütləvi informasiya vasitələrinin Naxçıvandakı müxbirlərini otağına toplayaraq (onda bu sətirlərin müəllifi "Sovet kəndi" qəzetinin müxbiri idi) "sərhəd bölgələrində qızğın döyüşlər gedir, o yerlərdən niyə yazılar yazmırsınız" - deyə təəccüblə soruşmuşdu.

O vaxt hamımız təəccüblə bir-birimizin üzünə baxmışdıq. Məgər bunu bizlərə demək lazım imiş?! Elə həmin günlərdə mənim mətbuatda "Müharibə görməmişdim..." adlı publisistik qeydlərim dərc olundu.

Azərbaycanın suverenliyi, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşması, siyasi sabitlik, ictimai gərginliyin aradan qaldırılması və digər ümummilli məsələlər o dövrdə "Şərq qapısı" qəzetinin əsas mövzu dairəsini əhatə etmişdi. Böyük öndərin rəhbərliyi altında milli dövlətçiliyimizin bərpası ilə bağlı Naxçıvan parlamentində qəbul edilən tarixi qərarlar da məhz ilk dəfə bu qəzetin səhifələrində dərc olunmuşdu. Sovet rejiminin hökmranlıq etdiyi bir dövrdə məmləkətimizin müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji əhəmiyyət kəsb edən tarixi qərarların qəbul edilməsi, həqiqətən, böyük uzaqgörənlik və cəsarət tələb edirdi.

Azərbaycanın ayrı-ayrı bölgələrindən daxil olan məktublar da ulu öndərin Naxçıvana rəhbərlik etməsi ilə bağlı qəzetin yayım dairəsinin muxtar respublika sərhədlərini xeyli aşdığını göstərirdi. Blokada şəraitində olan Naxçıvanın problemləri, muxtar respublikada baş verən ictimai-siyasi proseslər, o dövrkü hakimiyyət tərəfindən Heydər Əliyevə yönəldilən təzyiqlər və digər hadisələr obyektiv şəkildə qəzetin aparıcı mövzularını təşkil edirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevə qarşı siyasi təqiblərin davam etdiyi illərdə qəzet, həqiqi mənada, demokratik fikrin, azad sözün tribunası kimi seçilmişdi.

* * *

Müstəqillik dövründə "Şərq qapısı" fikir plüralizmini, əqidə, söz azadlığını, dövlətçilik amalını özünün başlıca meyarları hesab edərək ictimai-siyasi prosesləri operativ və tərəfsiz əks etdirməyə çalışan, milli maraqları hakimiyyət maraqlarından üstün tutan mətbu orqanlardan biri kimi fəaliyyət göstərmişdir. Geniş oxucu kütləsinin qəzetə böyük maraq göstərməsinin əsas səbəbi isə heç şübhəsiz ki, bu qəzetin Azərbaycanı bəlalardan xilas edəcək liderin məhz ulu öndər Heydər Əliyev olduğunu öz səhifələrində qətiyyətlə və cəsarətlə ifadə etməsi idi. Laçın rayon sakini, ziyalı Səfa Rzayevin məktubu (21 fevral 1991-ci il) bu baxımdan maraqlıdır. Məktubun bir yerində deyilirdi: "Bizə parçalanma lazım deyil. Axı, cəbhələşmə erməni daşnaklarının dəyirmanına su tökməkdən daha dəhşətlidir. Biz Heydər Əliyev kimi görkəmli siyasi və ictimai xadimdən, onun təcrübəsindən, nüfuzundan, potensial imkanlarından nə üçün istifadə etməyək?"

Qəzetin 9 may 1992-ci il tarixli nömrəsində dərc olunan "Şəxsiyyət" adlı məqalənin müəllifi prezident seçkiləri ərəfəsində vəzifə hərisləri və hakimiyyətdən öz şəxsi mənafeləri üçün istifadə etməyə çalışanlara üz tutaraq atdıqları hər addımı yüz dəfə ölçüb-biçməyə və qəflət yuxusundan ayılıb Heydər Əliyev şəxsiyyətinin varlığını dərk etməyə çağırırdı. Müəllif indiki ağır bir durumda kimi prezident seçmək gərəkdir sualına birmənalı belə cavab verirdi: "Əgər o şəxs faciələrimizi doğuran səbəbləri aşkarlayıb bizi batdığımız böhran bataqlığından çəkib çıxara biləcəksə, bakirəliyi tapdalanmış qızlarımızın, başları kəsilmiş ağsaqqallarımızın, tonqallarda yandırılmış körpələrimizin intiqamını almaq üçün bayquşlar yuvası olan daşnakstanın baş kəndini ikinci Xocalıya döndərə biləcəksə, öz polad yumruğunu günahsız xalqımızı qızıl xəzinələri üstə dilənçi kökünə salmış acgöz Azərbaycan mafiyasının təpəsində Koroğlu gürzünə çevirə biləcəksə buyursun... Bunun üçün qüdrətli şəxsiyyət olmaq gərəkdir. Belə bir şəxsiyyət isə 7 milyonluq xalqın içərisində hələlik bir nəfərdir, təkcə bir nəfər: Heydər Əliyev. Qurtardıq!".

* * *

Muxtar respublika Ali Məclisinə rəhbərlik etdiyi dövrdə-1991-ci ilin sentyabrından 1993-cü ilin iyun ayınadək ümummilli lider regionun yeganə mə bu orqanı olan "Şərq qapısı" qəzetinin maliyyə fəaliyyəti ilə yaxından maraqlanmış, keçid dövrünün ağır günlərində onun müntəzəm nəşri üçün lazımi kömək göstərmişdir. Bu səbəbdən həmin dövrdə

qəzetin tirajı xeyli artmış, o, Bakıda və digər bölgələrimizdə də maraqla oxunmuşdu.

Qəzetin ən çox yaddaqalan və tədqiqatçıların marağını özünə çəkən dövrü, heç şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin çətin günlərdə həmyerliləri ilə birgə keçirdiyi görüşlər olacaq. Böyük dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin Naxçıvan dövrünə müraciət edən tədqiqatçılar üçün də qəzetin bu dövrkü çıxışları ən yaxşı bələdçi rolunu oynayır. Dahi siyasətçi o dövrdə həm də ağır iqtisadi blokada şəraitində yaşamasına baxmayaraq, dünyanın nəzər-diqqətini də mətbuatın gücü ilə bu qədim diyara yönəltməyi bacarmışdı. Buna konkret və canlı bir misal göstərmək istəyirəm.

1992-ci ilin mayı Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edir. Həmin ayda Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından və Qarabağı yaddan çıxarmalarından istifadə edən Ermənistan ölkəmizə qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini tutmuş, bununla Dağlıq Qarabağın işğalını başa çatdırmışdı. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı da ələ keçirmək üçün mayın 1-də muxtar respublikaya qarşı hərbi təcavüzə başlamışdı. Bu təcavüz bir neçə gün davam etmiş, yalnız ulu öndərin gərgin siyasi və diplomatik səyləri nəticəsində onun qarşısını müvəqqəti almaq mümkün olmuşdu. Lakin mayın 18-də ermənilər yenidən hücuma keçərək bir sıra sərhəd məntəqələrini ələ keçirməyə çalışmışdılar. Düşmənin hücumu nəticəsində hərbçilər və dinc əhali arasında çoxlu şəhid və yaralanan olmuş, on min nəfərdən artıq əhalinin yaşadığı Sədərək kəndi dağıdılmışdı. Bir neçə sərhəd kəndinin əhalisi isə təhlükəsiz yerə köçürülmüşdü. Təbii ki, belə mürəkkəb şəraitdə Heydər Əliyevin foneomenal siyasətçi dühası, onun beynəlxalq aləmdəki nüfuzu regionu real işğal təhlükəsindən xilas etmişdi.

Həmin günlərdə Ali Məclisin sədri kimi Heydər Əliyev xarici dövlətlərin başçılarına, beynəlxalq qurumlara, dünya ictimaiyyətinə müraciət edərək Ermənistanın Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana hərbi təcavüzü barədə məlumat vermiş, bu təcavüzü dayandırmaq üçün əməli tədbirlər görülməsini tələb etmişdi. Məhz dahi siyasətçinin müraciətindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın informasiya agentliklərinin, mətbuat orqanlarının nümayəndələri Naxçıvana gələrək buradakı vəziyyət haqqında dünya ictimaiyyətini məlumatlandırmışdılar. Ulu öndərin sonralar qeyd etdiyi kimi, bu, o zaman ölkəmiz üçün böyük nailiyyət idi. Çünki Dağlıq Qarabağ münaqişəsi başlanandan ölkəmiz günahlandırılmış, mətbuat orqanları,

dünya ictimaiyyəti həmişə ermənilərin xeyirinə, birtərəfli məlumatlar almışlar. Heydər Əliyevin səyləri nəticəsində dünya ictimaiyyətində ilk dəfə olaraq ölkəmiz haqqında düzgün, obyektiv təsəvvür yaradılmışdı və Ermənistanın təcavüzkar mövqeyi ifşa edilmişdi.

Bu yerdə "İnterfaks" agentliyinin baş direktorunun xatirələrindən bir iqtibas gətirmək istəyirəm: "...1992-ci ilin baharında mənə dedilər ki, bizə feldyeger gəlib. Mən hətta bunun nə demək olduğunu anlamadım. İndiyədək bizim bu xidmətlə əlaqəmiz olmamışdı. Mənim kabinetimə bir zabit daxil oldu, çantasından üzərində iri qırmızı hərflərlə "hökumət" sözləri yazılmış teleqram çıxardı, mən beləsini heç vaxt görməmişdim və o, məndən teleqramı aldığıma görə qol çəkməyi xahiş etdi. Teleqramın Naxçıvandakı vəziyyətlə bağlı informasiyadan ibarət olması məni çox təəccübləndirdi. Aşağıda imza var idi: "Heydər Əliyev ".

Biz, əlbəttə, məlumatı həvəslə hazırladıq və buraxdıq. Bu gündən etibarən bizim Naxçıvandakı yeni "ştatdankənar müxbirlə" sıx işimiz başladı. Bu qeyri-adi əməkdaşlıq onun Azərbaycan prezidenti seçilməsinədək davam etdi. Az qala hər gün bizə feldyegerlər gəlir və onun imzası ilə bizə "hökumət" teleqramları gətirirdilər".

Ümummilli lider Heydər Əliyevin Tbilisidəki "Gürcüstan" qəzeti ilə də yaxından əməkdaşlığı olub. Sonralar ulu öndər bu barədə belə demişdi: "O vaxt Naxçıvanda idim. Naxçıvan blokada şəraitində idi. Gediş-gəliş yox idi. Mənim üçün gözlənilməyən bir hal idi ki, gürcü müxbir Tbilisidən Naxçıvana gəldi. Tamamilə qəflətən. Məni arayıb tapdılar. Orada bacımın kiçik bir evində yaşayırdım. Məndən bir çox məsələlər barəsində müsahibə götürdülər. Mən azad və müstəqil bir adam idim. Hansı bir qəzetçi, jurnalist mənə müraciət edirdisə, suallarına cavab verirdim... Sonra həmin müsahibəni indi "Gürcüstan" adını daşıyan qəzet Azərbaycan dilində dərc etdi və onu mənə göndərdilər. O vaxt mənim üçün bu, böyük mənəvi dayaq idi."

* * *

Amma nə gizlədək, ümümmilli liderimiz 1993-cü ilin iyun ayında Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra muxtar respublikanın ictimai-siyasi və mədəni həyatının digər sahələrində yaranan boşluqlardan, yerli hakimiyyət orqanları arasındakı anlaşılmazlıqlardan region mətbuatına da acı pay düşüb. Bu səbəbdən 1994-cü ilin əvvəllərindən "Şərq qapısı" qəzeti öz tirajını və dövriyyəliyini xeyli azaltmış, ondan sonrakı ildə isə fasilələrlə nəşr olunmuşdur. Həmin il ərzində kiçik formatda, 4 səhifə həcmində nəşr

olunan qəzetin cəmi 54 nömrəsi çişıq üzü görmüşdür. Ən acınacaqlı hal isə odur ki, 1995-ci ildə Muxtar Respublika Ali Məclisi sədrinin imzaladığı bir çox fərman və sərəncamlar mətbuatda öz əksini tapmamışdır.

Naxçıvan mətbuatının lideri hesab edilən "Şərq qapısı" qəzetinin müstəqillik dövrümüzdə ilk yubileyi 1996-cı ilin noyabr ayında keçirilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev qəzetin 75 illik yubileyi münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda kollektivin əməyini yüksək qiymətləndirmişdi: "Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində canlı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur".

Qəzet, eyni zamanda, uzun illər boyu muxtar respublikada milli jurnalist kadrları yetişdirən, yönləndirən yaradıcılıq məktəbi olub. Onun ideya-siyasi və peşəkarlıq səviyyəsi rayon qəzetləri üçün örnək kimi qəbul olunub.

* * *

Qəzetin fəaliyyətində növbəti canlanma 2000-ci ilin əvvəllərində başlanılıb. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" imzaladığı sənəd ümummilli liderimizin "Azərbaycan milli mətbuatının 125 illiyi haqqında" sərəncamından qaynaqlanmışdır. Məhz bu sərəncamlardan sonra yerli qəzetlərin maddi-texniki bazası xeyli gücləndirilmiş, onların problemləri həllini tapmışdır. Mətbu sözün dəyər və kəsərinə verilən qiymət jurnalistlərin fəaliyyətini xeyli canlandırmışdır. Artıq üç ildir ki, muxtar respublikada rayon (şəhər) qəzetlərinin həftədə bir dəfə nəşri təmin olunur.

2005-ci ilin iyulunda "Şərq qapısı" qəzetinin fəaliyyətinin daha da yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Ali Məclis Sədrinin imzaladığı sərəncam da mətbuata göstərilən qayğının özgə bir nümunəsi oldu. Bu dəfə qəzet əməkdaşlarının sosial müdafiəsi diqqət mərkəzinə çəkildi. Az sonra, muxtar respublikanın "Əməkdar jurnalisti" fəxri adı təsis olundu, son dörd il ərzində on nəfərdən artıq qələm sahibi bu ada layiq görülüb. Onların arasında Rusiyanın tanınmış yazıçı-jurnalisti Rudolf İvanov da var. Azərbaycanın tanınmış qələm sahibləri olan

Abdulla Qurbani, Mehriban Ələkbərzadə və Sadıq Elcanlıya isə "Naxçıvan MR-in əməkdar incəsənət xadimi" fəxri adı verilib.

Parlament seçkilərində mətbuat işçilərindən iki nəfərin muxtar respublikanın qanunverici hakimiyyət orqanına üzv seçilməsi də bu sahəyə göstərilən qayğının daha bir nümunəsi oldu. NDU-da jurnalistika ixtisasının açılması, Naxçıvan Mətbuat Şurasının yaradılması da görülən işlər sırasındadır. Ötən illərdə ölkəmizin fəxri adlarını alan qələm sahibləri də az olmayıb.

2006-cı ilin noyabr ayında isə qəzetin 85 illik yubileyi böyük təntənə ilə qeyd olunmuşdur. Həmin gün qəzetin kollektivi ilə səmimi görüşüb söhbət edən Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbov bu yubileyi əlamətdar hadisə kimi qiymətləndirərək jurnalistlərin qarşısında duran başlıca vəzifələri də göstərmişdir. "Muxtar Respublikanın 85 illik tarixinin böyük bir hissəsi bu qəzetin səhifələrində əksini taparaq arxivlərdə saxlanılır. Bu qəzetin oxucuları muxtar respublikamızda gedən gündəlik proseslərlə quruculuq işləri ilə tanış olurlar. Qəzetin həyat proseslərinin güzgüsünə çevrilməsi üçün hər bir jurnalist daim çalışmalı, yaradıcılıq vərdişlərini artırmalıdır.

Ali Məclisin Sədri qəzetin daha yaxşı nəşr olunması, maddi texniki bazasının güclənməsi üçün bundan sonra da lazımi tədbirlərin həyata keçiriləcəyini bildirmişdir.

89 yaşlı "Şərq qapısı" qəzeti öz tarixi ənənələrinə söykənərək bu gün də fəaliyyətini uğurla davam etdirir. Muxtar Respublikada həyata keçirilən uğurlu siyasət geniş quruculuq işləri, Muxtar Respublika Ali Məclisi Sədrinin regionun sosial-iqtisadi inkişafı sahəsində göstərdiyi fəaliyyət qəzetin əsas mövzusudur.

Cari ildə ölkəmizdə analoqu olmayan nəşriyyat-redaksiya kompleksi milli mətbuatımızın 135 illik yubileyi günündə Naxçıvan şəhərində istifadəyə verildi. 4 mərtəbədən ibarət olan müasir tipli obyekt inşa olunub, Almaniya çap avadanlıqları quraşdırılıb. Yeni qəzet sexində məhsuldarlığı saatda 15 min nüsxə olan "KBA Rapida-75" markalı ofset maşını, cild sexində kitab və jurnal vərəqlərini avtomatik yığıb-bükərək hazır məhsula çevirən poliqrafiya avadanlıqları - kağız doğrayıcı, kəsici, qatlayıcı, cildləyici qurğular quraşdırılıb. Yeni poliqrafiya müəssisəsində qəzetlərin böyük formatda və rəngli çapı ilə yanaşı, müxtəlif çeşiddə kitabların, jurnalların, dəftərxana məhsullarının, sadə və ciddi hesabat blanklarının nəşri üçün də imkanlar yaranıb. İndiyədək bu cür məhsullar kənarda çap olunurdu. Rayon (şəhər) qəzetlərinin burada böyük formatda və rəngli çapı isə ümumən ölkəmizin mətbuat həyatında mühüm hadisəyə çevrildi.

Obyektin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Azərbaycan" nəşriyyatından sonra Naxçıvanda belə bir müəssisənin quraşdırılmasını dövlətimizin mətbuatın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi dəyərləndirdi. Bu, həm də mətbuata Heydər Əliyev qayğısının uğurla davam etdirilməsidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev qəzetin ilk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibəti ilə redaksiya kollektivinə ünvanladığı məktubda onların gələcək fəaliyyətini də istiqamətləndirmişdir: "Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycana inam yaratmaq üçün var qüvvəsini sərf edəcəkdir. Son illər başlıca vəzifə də bu tövsiyyə və tapşırıqların yerinə yetirilməsinə yönəldilib.

**"Xalq qəzeti",**
**5 sentyabr 2010-cu il**

## Naxçıvanda mətbuatın qayğıkeşi və himayədarı

**"Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri obyektiv qiymətləndirmək və prosesləri düzgün analiz etmək bacarığı tələb edən sənətdir".**

**Heydər ƏLİYEV**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Mətbuatın dostu" adına layiq görülməsi xəbərini eşidəndə düzü sevindim, "bu onun halal haqqıdır"-dedim. Elə o anda muxtar respublikanın gündəlik ictimai-siyasi qəzeti olan "Şərq qapısı" qəzetində işlədiyim dövrü xatırlayası oldum. Çünki birgə fəaliyyətimiz dövründə onun nə dərəcədə mətbuat adamı olduğunu yaxından duymuşdum. Elə bu mənada ürəyimdən keçənləri qələmə almağa çalışdım. Baxmayaraq ki, ondan əvvəlki illərdə böyük mətbuatda - "Sovet kəndi", "Həyat" və "Azərbaycan" qəzetlərində peşəkar qələm sahibləri ilə birgə çalışmışdım, onlardan xeyli təcrübə toplamışdım, amma bölgədə 7 illik baş redaktorluq dövrüm mənim üçün həqiqi mənada bir həyat məktəbi oldu. O vaxtadək iki dəfə ali məktəbbitirsəm, üstəlik tarix elmləri namizədi alimlik dərəcəsi alsam da bu məktəbdən öyrəndiklərim, əxz etdiklərim daha çox oldu.

Düşüncə və təfəkkürümdə formalaşan yeniliklər həyata və cəmiyyətə olan baxışlarımı bir qədər də dəyişdi. Özümü burada "qaynar qazanda" hiss etdim. Başlıca fərq isə hər zaman sözə qiymət verməyi bacaran Muxtar Respublika Ali Məclisi Sədrinin qayğısını, diqqətini və tələbini hiss etməyim oldu. Nə gizlədim, Heydər Əliyev dövlətçilik məktəbinin nə demək olduğunu, onun üstün istiqamətlərini və cəhətlərini də onun timsalında aydın gördüm.

* * *

Təbiəti alicənablıq və xeyirxahlıqdan, işgüzarlıq və tələbkarlıqdan yoğrulan Ali Məclisin Sədri təkcə mətbuatın qayğıkeşi və himayədarı olmayıb. O, mətbuatın, söz adamlarının yaxın dostu olmaqla bərabər,

onların qayğı və problemlərini də həmişə öz çiyinləri üzərinə götürür. Bu səbəbdən maliyyə problemlərini yerli redaksiyalar hiss etmirlər. Yeri düşdükcə bitkin qələm sahiblərinə yol göstərməyi, onlara jurnalistikadan dərs keçməyi də unutmur. Bunun üçün tez-tez mətbuat işçləri ilə görüşür, mükafatlandırır, onlarla xatirə şəkilləri çəkdirir və yumşaq halda da nəyi, necə yazmağı və hadisələrə milli maraqlardan yanaşmağı tövsiyyə edir. Bir oxucu kimi də həmişə analitik təhlilli, dolğun və publisistik yazıların sorağındadır.

Onun fikrincə, bu janrlarda deyilən söz oxucuya daha tez və aydın çatır. O, görüş və söhbətlərində mətbuatımızın cəfakeşi olan ümümmilli liderimizin belə bir kəlamını da tez-tez xatırlatmaqla bu sahəyə yaxından bələd olduğunu açıqlayır: "Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri obyektiv qiymətləndirmək və prosesləri düzgün analiz etmək bacarığı tələb edən sənətdir". Üstün keyfiyyətlərindən biri də yaxşı redaktə qabiliyyətinin olmasıdır. Hər zaman mütaliənin tərəfdarıdır. Azərbaycan milli mətbuatının qaranquşu sayılan "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsiplərin-maarifləşmə, müasirləşmə, məfkurə saflığı, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdətini, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılmasını, hadisələrin obyektiv işıqlandırılmasını xatırladaraq ümümmilli mənafelərə xidmət etməyin vacibliyini ortaya qoyur.

Qəzet adamının ələbaxımlığının əlehinə olduğundan əməkdaşları maddi cəhətdən tez-tez həvəsləndirmək istəyi ondan ibarətdir ki, jurnalistlər öz ehtiyaclarını ödəyə bilsinlər. Onun bu tapşırığı əsasında da hər il əməkdaş və texniki işçilərə ildə bir neçə dəfə mükafat və yardımlar verilir. Ali Məclis sədrinin fondundan verilən mükafatlar da az olmur.

* * *

Yerli həyatın güzgüsü sayılan əyalət qəzetinin özünü saxlamaq imkanları hər zaman çətin olub. Reklam bazarı yox dərəcəsindədir. Az sayda abunə ilə mətbu orqanını maliyyələşdirmək müşkül məsələdir. Bu baxımdan regionda fəaliyyət göstərən qəzetlərin bəxti bir qədər gətirib. Onların normal fəaliyyəti üçün abunənin düzgün təşkili ilə yanaşı, yerli büdcədən də dotasiya ayrılır.

Qoy heç də belə rəy yaranmasın ki, baş redaktor vəzifəsində işlədiyim dövrdə həmişə başımıza sığallar çəkilib, yalnız xoş və tərifli sözlər eşitmişik. Xeyr, əksinə bu məktəbdə aldığımız dərslərin çətinlikləri, imtahanları da az olmayıb. Hər dərsi qavramaq, dərk etmək və sabah onu icra etmək asan başa gəlmirdi. Madam ki, qəzetə bu qədər

qayğı və diqqət bəslənilirsə, onun dərd-sərlərinə əməlli-başlı can yandırılırsa, onda gərək bazara çıxaracağın məhsul da keyfiyyətli olsun. Bu halda zay məhsula da mənən haqqın yoxdur.

Ali Məclisin sədri hər zaman mətbu sözün dəyərinin və kəsərinin artırılmasının tərəfdar olub. Başlıca amalı və istəyi də ondan ibarət olub ki, dərc olunan yazılar yeni düşüncəyə, təfəkkürə, analitik təhlilə, operativ əksetdirmə imkanlarına söykənməklə oxucu maraqlarına cavab versin. Elə buradaca iştirakçısı olduğum bir əhvalatı xatırlamağı lazım bilirəm. Bir dəfə mətbuatla bağlı keçirilən müşavirələrin birində Ali Məclisin Sədri baş redaktortək məndən soruşdu:

-Qəzetdə tənqidi materiallar niyə az dərc olunur?

Əslinə qalsa, nə deyəcəyimi bilmədim.

Yenidən dilləndi:

-Olmaya tənqidi materiallar üçün mövzu tapılmır?

-Xeyr, vardır, -dedim.

Bu dəfə əsəbi və amiranə şəkildə, -vardırsa bəs niyə yazmırsınız, olmaya qorxursunuz, -dedi.

Sonrakı günlərdə Muxtar Respublikanın icra hakimiyyəti strukturları ilə bağlı bir sıra ciddi, tənqidi yazılar dərc etdik. Bunlar isə o zamana qədər yerli mətbuatda görünməyən hallar idi. Sən demə naziri, komitə sədrini, icra hakimiyyəti başçısını da haqlı tənqid etmək olardı. Həmin yazılar ictimai rəydə də ünvanımıza xoş sözlər gətirdi. Məmur-mətbuat müstəvisində baş verən qalmaqallarda, söz-söhbətlərdə də muxtar respublikanın başçısı birmənalı şəkildə qələm sahiblərini müdafiə edir. Təki yazı obyektivliyə və gerçək faktlara söykənsin.

...Muxtar respublikanın icra strukturlarından birinin başçısı – nazirlərdən biri haqqında ciddi bir tənqidi yazı yazmışdım. Kiçik formatda qəzetin bir səhifəsi boyda idi. Sanki görünməmiş bir hadisə baş vermişdi. İndiyədək yerli mətbuatda bu cür səlahiyyət sahibləri haqqında tənqidi yazı dərc olunmamışdı. Bu səbəbdən də əksər məmurlar qəzetə bir növ yuxarıdan aşağıya baxırdılar. Yazı dərc olunan günün birinci yarısı sakitlik oldu. Mətbuata rəhbərlik edən məmurlar da dinib-danışmırdı. Sanki hamı birinci şəxsin reaksiyasını öyrənmək istəyirdi. Nahardan sonra isə Ali Məclis Sədri ilə telefonda danışası oldum. Adəti üzrə ilk əvvəl işlərin gedişi, çətinliklərimiz ilə maraqlandı. Sonra isə "bu günki yazını oxudum, çox xoşuma gəldi, səni təbrik edirəm", -dedi. Ardınca da, -"Cəmiyyətin bu cür obyektiv, qərəzsiz, kəsərli yazılara ehtiyacı çoxdur", -dedi.

Ondan tez-tez eşitdiyim sözlərdən, kəlamlardan bir neçəsini xatırlatmaq istərdim: "Mətbuat mənim vuran əlim, döyünən ürəyimdir",

"Hər bir qəzet redaksiyası məktəb, laborotoriya olmalıdır", "Söz var, ordudan da güclüdür", " Mətbuat bu günlə sabah arasında həm də mənəvi bir bağlantıdır".

... Bir dəfə isə yanında olarkən baş redaktortək məndən soruşdu: - Ölkəmizdə hər gün, həftədə yeddi dəfə nəşr olunan qəzet varmı? Dedım ki, xeyr. Son sözü də bu oldu ki, onda hazırlaşın, qüvvələrinizi cəmləşdirin, yeni ildən bu cür qəzet çıxaraq...

* * *

Onun yerli mətbuatın inkişafı sahəsində xidmətləri bununla bitmir. "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" imzaladığı 26 mart 2000-ci il tarixli sərəncamı region mətbuatının inkişafında yeni mərhələnin başlanğıcını qoyub. Həmin sərəncamın icrası ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən qəzet redaksiyalarının maddi texniki bazaları xeyli gücləndirildi, onların hər biri müasir informasiya texnologiyaları ilə təmin edildi. Bu qayğı və diqqətdən "Şərq qapısı" qəzetinə daha çox pay düşdü. İlk növbədə redaksiyanın yerləşdiyi bina əsaslı təmir olunaraq yenidən quruldu, qəzetin tirajı və dövriyyəsi getdikcə artdı. O, həftədə 5 dəfə nəşr olunan mətbu orqanına çevrildi. Rayon qəzetlərinin isə həftədə bir dəfə nəşrinə nail olundu. Bütün qəzetlərdə abunə işi məsələsi axarına qoyuldu, onlara yerli büdcədən dotasiyalar ayrıldı. Şərur rayonunda nəşr olunan yerli qəzet üçün müasir bina inşa olundu. "Əcəmi" nəşriyyat-poliqrafiya birliyinin yaradılması, onun yeni çap texnologiyaları ilə təmin olunması burada kitab, buklet nəşrinin həyata keçirilməsinə imkan yaratdı.

2005-ci ilin iyulunda "Şərq qapısı" qəzetinin fəaliyyətinin daha da yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Ali Məclis sədrinin imzaladığı Sərəncam da mətbuata göstərilən qayğının bir nümunəsi oldu. Bu dəfə əməkdaşların sosial müdafiəsi diqqət mərkəzinə çəkildi. Az sonra, muxtar respublikanın "Əməkdar jurnalisti" fəxri adı təsis olundu, son dörd il ərzində on nəfərə yaxın qələm sahibi bu ada layiq görülüb. Onların arasında Rusiyanın tanınmış yazıçı-jurnalisti Rudolf İvanov da var. Azərbaycan Dövlət Televiziyasının baş redaktoru Sadıq Elcanlı, telejurnalist Mehriban Ələkbərzadə, hərbi jurnalist Abdulla Qurbaniyə isə Naxçıvan MR-in əməkdar incəsənət xadimi adı verilib.

Parlament seçkilərində mətbuat işçilərindən iki nəfərin muxtar respublikanın qanunverici hakimiyyət orqanına üzv seçilməsi də bu sahəyə göstərilən qayğının daha bir nümunəsi oldu. Naxçıvan Dövlət

Univeritetində jurnalistika ixtisasının açılması, Naxçıvan Mətbuat Şurasının yaradılması da görülən işlər sırasında oldu. Ötən illərdə ölkəmizin, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın fəxri adlarını alan qələm sahibləri də az olmadı. Nurəddin Babayev və Səxavət Kəngərli isə Prezident təqaüdünə layiq görülüblər. 25 nəfərdən artıq adam isə Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüblər.

Üç il bundan əvvəl isə "Şərq qapısı"nın abunəsi 6 min 300 nüsxə olub. Onun 800 ədədi Azərbaycanın digər bölgələrində yayılırdı. Bu Naxçıvan mətbuatının mövcud olduğu 89 il ərzində qazandığı ən böyük uğur olub.

* * *

Müsbət ənənələr indi də yaşadılır. Cari ildə ölkəmizdə anoloqu olmayan nəşriyyat-redaksiya kompleksi də burada istifadəyə veriləcək. Bunun üçün zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olan müasir tipli obyekt inşa olunur. Binanın 3 mərtəbəsi "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin ixtiyarına veriləcək. Burada Almaniya mənşəli çap avadanlıqları quraşdırılıb. Nəşriyyatın direktoru Rəfael Babayevin sözlərinə görə, yeni qəzet sexində qurulan " "KBA Rapida-75" markalı ofset maşını, cild sexində kitab və jurnal vərəqlərini avtomatik yığıb-bükərək hazır məhsula çevirən poliqrafiya avadanlıqları, eləcə də yeni forma köçürmə qurğuları quraşdırılacaq ki, bunlar da, dünyanın ən böyük modern mətbəələrində istifadə olunan poliqrafiya avadanlıqlarındandır.

Müasir standartlar əsasında qurulan bu obyektdə "Şərq qapısı" qəzeti üçün 14 iş otağı ayrılıb. Hər bir əməkdaş müasir informasiya texnologiyalarından normal istifadə edə biləcək. 50 nəfərlik iclas zalı da mətbuat işçilərinin ixtiyarına veriləcək. Onu da qeyd edək ki, burada rayon qəzetlərinin də rəngli nəşri nəzərdə tutulub.

Əlbəttə mətbuat dövrün, zamanın salnaməsi və güzgüsüdür. Ali Məclis sədrinin sözləri ilə desək, mətbuat bu günümüzlə gələcək arasında həm də mənəvi bir körpüdür, bağlılıqdır. Heç şübhə yoxdur ki, gələcəkdə Naxçıvan Muxtar Respublikasının bu günki inkişafı və həyatı ilə maraqlanmaq istəyənlər də ilk növbədə arxivlərdə və kitabxanalarda yerli həyatın salnaməsi olan qəzetlərin səhifələrini vərəqləməli olacaqlar.

Naxçıvan mətbuatı həm də milli jurnalistika məktəbimizin formalaşmasında önəmli rol oynayır.

**"525-ci qəzet",**
**2 fevral 2010-cu il**

## Yeni və müasir Naxçıvan: İnkişafdan intibaha doğru

**"Mən ümümiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər".**

**Heydər ƏLİYEV**

Son on beş il ərzində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni həyatında böyük irəliləyişlər yaranıb. Dünənə qədər adi və ucqar bir əyalət mərkəzini xatırladan, işıqsız, qazsız qalan və digər məişət problemləri ilə çırpınan Naxçıvan son illər Şərqin, Avropanın inkişaf etmiş şəhərləritək yenidən qurulub, gözəlləşib. Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti uğurla davam etdirilib. 1995-ci il dekabrın 16-da birinci çağırış Naxçıvan MR Ali Məclisinin sessiyasında Ali Məclisin Sədri seçilən Vasif Talıbov Ulu öndərin quruculuq və inkişaf xəttini konkret bir regionda davam etdirərək ağır blokada şəraitində yaşayan, davamlı olaraq enerji qıtlığı keçirən, kommunikasiya əlaqələrinin olmaması ucbatından xammal, material gətirilməsində ciddi problemlərlə üzləşən – Naxçıvanda öz gərgin zəhməti və əməyi ilə fəal yaradıcı gücə malik olmasını sübut edib. "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" - deyərək siyasət meydanına qədəm qoyan Ali Məclisin Sədri Böyük öndərin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdəti nəticəsində istəyinə nail olub. Tələbkarlıq və prinsipallıq, yaradıcılıq və təxəyyül, intizam və məsuliyyət, düşüncə və təfəkkür, xeyirxahlıq və humanizm, yurdsevərlik və vətənpərvərlik

onun siyasi portretinin əsas cizgilərini təşkil edir. Qurucu-rəhbər obrazının bütün əsas səciyyəvi xüsusiyyətləri də onun simasında cəmləşib. Muxtar Respublikanın yeni inkişaf mərhələsinə-intibah dövrünə qədəm qoymasında da bu amil önəmli rol oynayıb.

Umümmilli lider Heydər Əliyev dörd il sonra da ondakı bu keyfiyyətləri yüksək qiymətləndirərək deyib: "Mən ümümiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər".

Prezident İlham Əliyev də çıxışlarının birində bu amili yüksək qiymətləndirərək deyib: "Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir. Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu Naxçıvanda var və məni çox sevindirir". Dövlət başçımız başqa bir çıxışında isə bununla bağlı belə deyib: "Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə ulu öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu çox böyük nailiyyətdir".

* * *

Naxçıvan diyarının iyirmi il bundan əvvəlki dövrü bir növ qaynar qazana bənzəyirdi. Onda bu torpaq həqiqətən də özünün ağır, məşəqqətli günlərini yaşayırdı. "Ölüm və ya olum" dilemması qarşısında qalmışdı. Elə bu yerdəcə kimsə soruşa bilər ki, bəs nə əcəb bu torpaq məkrli və xəyanətkar planların qurbanına çevrilmədi? Cavabı isə qısa və aydındır: Əgər həmin ağır, ictimai-siyasi proseslərin qarışdığı illərdə tale Heydər Əliyevtək müdrik, uzaqgörən bir siyasətçini bu torpağa xilaskar göndərməsəydi, onda bu diyarın indiki varlığından və inkişafından danışmaq da əbəs olardı. Ulu öndər Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində işlədiyi qısa vaxt ərzində böyük uzaqgörənliklə qəbul etdiyi siyasi qərarlarla nəinki regionu ağır bəlalardan, oddan-alovdan xilas etdi, eləcə də onun uzun müddətə hesablanmış inkişaf strategiyasını işləyib hazırladı. Bu gün də muxtar respublika həmin strategiya üzrə inkişaf edir.

Düz on beş il bundan əvvəl bölgədə start götürən yeni həyat quruculuğu xətti də bu amilə söykənir. Elə o vaxtdan həyata keçirilən

tədbirlər vüsət və sürət etibarı ilə də digər rayonlarda aparılan analoji işlərdən fərqlənir. Bəlkə, bu ilk növbədə Avropanın, eləcə də Şərqin qabaqcıl ölkələrinin təcrübələrindən, arxitektura üslublarından geniş istifadə olunması ilə bağlıdır. Amma bir vaxtlar, daha doğrusu miladi tariximizin XI-XII əsrlərində təməli qoyulan, orta əsrlərdə məşhur olan Naxçıvan memarlıq məktəbinin ənənələri də unudulmayıb. Şərq memarlığı ilə Avropa memarlığının qarşılıqlı sintezindən bacarıqla istifadə olunur. Nuh peyğəmbərin məzarüstü türbəsinin bərpa edilməsi, böyük romantik şair Hüseyn Cavidin məqbərəsinin ucaldılması, Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun – bir sözlə milli irs və düşüncə tərzinin unikal ifadə vasitəsinə çevrilmiş onlarla tarixi-memarlıq abidəsinə yeni nəfəs verilməsi də, dediklərimi sübutlayır.

Regionun şəhər və rayon mərkəzlərində, kəndlərində görülən işlər, tikilən binalar, salınan körpülər, çəkilən yollar da göz oxşayır, könül açır. Bu sırada yeni tikilən ali, orta ixtisas və ümumtəhsil məktəblərini, səhiyyə ocaqlarını, mədəniyyət müəssisələrini xüsusi qeyd etməyə dəyər. Onların hər biri görünüşü ilə diqqəti cəlb edir. Hər bir obyektdə müasir tikinti mədəniyyətinin, texnologiyanın son nailiyyətlərindən istifadə olunub.

Son on beş ildə həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər sayəsində region tərəqqidən intibaha doğru böyük inkişaf yolu keçib. Sosial-iqtisadi inkişafın özünəməxsus modeli yaradılan Naxçıvanda tikinti-quruculuq işləri böyük zövq və istəklə aparılır, muxtar respublikanın inkişafına, gələcəyinin möhkəm təməllər üzərində qurulmasına xidmət edən layihələr reallaşdırılır. Bunu bir neçə statistik rəqəmlərlə açıqlamaq istəyirəm: Bu müddət ərzində muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə düşüb. Əsas kapitala 2 milyard manata yaxın investisiya yönəldilib. Bu investisiyadan səmərəli istifadə nəticəsində 393 inzibati bina, mənzil-kommunal təsərrüfatı sahəsində 593 obyekt, 406 su nasos stansiyası və subartezian quyusu, 119 körpü, 45 məişət evi və ticarət mərkəzi, 231 elm və təhsil müəssisəsi, 173 səhiyyə müəssisəsi, 33 idman obyekti və s. tikilib. Cəmi 7 min nəfərə yaxın sakini olan Şərur şəhərində müasir tipli olimpiya-idman kompleksinin tikilib istifadəyə verilməsi kiçik şəhərə böyük idman mədəniyyəti gətirib. Sərhəd bölgəsi olan Heydərabadda tikilən müasir obyektlər, ikimərtəbəli yaşayış evləri qəsəbəyə şəhər görkəmi verib.

Ötən il daxili tələbatdan artıq istehsal olunmuş 62 milyon 220 min ABŞ dolları dəyərində sənaye məhsullarının respublikamızın digər bölgələrinə, həmçinin qonşu və xarici ölkələrə ixrac olunması da regionun getdikcə artan iqtisadi potensialından xəbər verir. Sahibkarlıq

fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası xeyli genişlənib. İki il bundan əvvəlsə ilk dəfə olaraq idxal ixracı üstələyərək xarici ticarətdə müsbət saldo yaradıb.

Həyata keşirilən mühüm quruculuq tədbirlərindən biri də 10394 hektar sahədə yeni yaşıllıq zolaqlarının – meşə massivlərinin, meyvə bağlarının salınması olub. Yaşıllıq zolaqları muxtar respublika ərazisinin artıq 8 faizini əhatə edir. Halbuki on il bundan əvvəl bu rəqəm cəmi bir faizi təşkil edirdi.

* * *

Təbii ki, bölgəyə dövlətin qayğı və dəstəyinin çox olması ilk növbədə regionun yerləşdiyi geosiyasi mövqedən irəli gəlir. Çünki Naxçıvan ölkəmiz üçün həmişə strateji əhəmiyyət kəsb edən bölgə olub. Tarixə nəzər salsaq görərik ki, muxtar respublika bir yandan geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə diqqəti özünə cəlb edibsə, digər tərəfdən əlverişli tranzit imkanlarına malik olması, Böyük İpək Yolunun üzərində yerləşməsi onu iri ölkələrin maraqlarının kəsişdiyi əraziyə çevirib. Bütün bunlarsa Naxçıvanı qədim dövrlərdən dəfələrlə hərbi və siyasi savaş meydanına çevirib.

Naxçıvan şəhəri bizim eranın onuncu əsrində Naxçıvan şahlığının, on ikinci əsrdə qüdrətli Atabəylər dövlətinin, on səkkizinci əsrdə siyasi səhnədə əhəmiyyətli rol oynayan Naxçıvan xanlığının, 1918-ci ildə 1 milyondan artıq əhaliyə malik Araz-Türk Respublikasının paytaxtı olub və Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasında mühüm mərhələ təşkil edib. Naxçıvanın muxtariyyət əldə etməsindən sonra formalaşmış xarici dövlətlərlə əlaqələr sahəsində təcrübəsi Azərbaycan dövlətçiliyinin daha da zənginləşməsinə xidmət edib. Amma bu müddətdə məkrli erməni iddiaları daim onun başı üzərində olub.

Ötən əsrin 90-cı illərinin əvvəllərində bu təhlükə yenidən baş qaldırdı. Naxçıvan Muxtar Respublikasının rəhbəri olan ulu öndər Heydər Əliyev xarici dövlətlərlə münasibətdə qonşuluq prinsipinin əsaslarını yaradaraq tətbiq etdikdən sonra İran və Türkiyə ilə mehriban münasibətlər quruldu, Araz çayı üzərində Şahtaxtı-Poldəşt, Sədərək-Dilucu körpüləri salındı. Sadələşdirilmiş rejimdə işləyən yeni sərhəd-keçid məntəqələri yaradıldı. İranın və Türkiyənin Naxçıvan Muxtar Respublikasında konsulluqları fəaliyyətə başladı. O dövrdə böyük uzaqgörənliklə tətbiq olunan düzgün siyasi xətt Naxçıvanın işğalının

qarşısını almaqla bərabər, son dərəcə ağır blokada şəraitində olan bölgədə yaşayışı və inkişafı təmin etdi.

Dahi öndər siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu torpağın möhkəmlənməsinə və onun inkişafına xüsusi qayğı göstərib. Bu amil də torpaqlarımıza zaman-zaman göz dikən bədxah və yaramaz erməni millətçilərinin məkrli plan və niyyətlərinin puç olmasında önəmli rol oynayıb. "Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? Çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır.

Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunmuşdur".

* * *

Prezident İlham Əliyev də bu siyasi xətti uğurla davam etdirir, ulu öndərin tövsiyə və tapşırıqlarını layiqincə yerinə yetirir. O, çıxışlarının birində bununla bağlı deyib: "Xalqımızın ümmümmilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü".

Ötən ilin oktyabr ayında muxtar respublikaya növbəti səfəri çərçivəsində keçirdiyi görüşlərdə dövlət başçısı qazanılan uğurların hansı mənbədən, gücdən qaynaqlandığını da açıqlayaraq müstəqil dövlətçilik tariximizin ağır və çətin dövrlərinin bəzi məqamlarını xatırladıb: "Heydər Əliyev siyasəti Azərbaycanın bütün bölgələrində özünü büruzə verir. Hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda quruculuq, abadlıq işləri aparılır. Böyük investisiyalar qoyulur. İqtisadi və sosial məsələlər öz həllini tapır".

Heç şübhəsiz ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq həyata keçirilən tədbirlərin çox olması da regionun yerləşdiyi geosiyasi mövqe ilə bağlıdır. Blokada şəraitində olmasına baxmayaraq bölgədə aparılan tikinti-abadlıq işləri düşmənlərimiz üçün göz dağına çevrilir. Xüsusən də, ucqar və sərhəd yaşayış məskənlərində – Havuşda, Şadada, Qaraağac və Heydərabadda

tikilənlər. Məgər düşmənlərimiz Naxçıvanı iqtisadi blokadanın ağrıları şəraitində yaşamağa məcbur edəndə onların başlıca məqsədləri bu torpağı iqtisadi cəhətdən zəiflətməklə onu ələ keçirmək istəyindən ibarət olmayıbmı? Top-tüfənglə niyyətlərinə çata bilməyəndə onlar istəyiblər ki, bu əzəli oğuz-türk yurdunda yaşayan insanların əhval-ruhiyyəsini aşağı salmaqla onları öz ev-eşiklərindən, ocaqlarından "perik" salsınlar...

Amma müdriklərimizin belə bir sözü, kəlamı da var ki, sərkərdə igid olsa heç zaman ordunu bada verməz. Son illərdə belə bir deyim də formalaşıb ki, elin-obanın başçısı, ağsaqqalı öz yerində oturanda–əyləşəndə, əhalinin yaşayışında, gün-güzəranında çətinliklər, problemlər yaranmır, el ilə gələn dərd-bəla da toy-bayramla həll olunur. Təki rəhbər ağıllı və tədbirli, qətiyyətli bir lider olsun. Naxçıvan Muxtar Respublikasının bugünkü sosial-iqtisadi inkişafında da, qazanılan uğurlarda da bu amil önəmli rol oynayır. Bu səbəbdən muxtar respublika nəinki iqtisadi və sosial böhrandan qısa vaxt ərzində yaxa qurtarıb, həmçinin onun dinamik inkişafı təmin edilib.

2003-cü ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 44 min 647 yeni iş yeri açılmışdır ki, onun da 29 min 393-ü və yaxud 66 faizi daimi iş yerləridir. Bu isə o deməkdir ki, ərazisi əsasən xarici dövlətlərlə sərhəddə yerləşən, sadələşdirilmiş birgə gömrük-keçid qaydaları fəaliyyət göstərən bir regionda bu qədər iqtisadi cəhətdən fəal əhalinin iş dalınca yaxın-uzaq ünvanlara, qonşu ölkələrə getməsinə ehtiyac qalmayıb.

Hazırda muxtar respublika əhalisininin 89 növdə ərzaq, 153 növdə qeyri-ərzaq olmaqla, 242 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir.

* * *

Ərzaq təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyi də bu gün xüsusi diqqət yetirilən sahələrdəndir. Bu istiqamətdə muxtar respublikada böyük layihələr həyata keçirilib. Vaxt var idi ki, bölgədə elektrik enerjisi gün ərzində uzun fasilələrlə verilirdi. O da qonşu ölkələrdən baha qiymətə alınma hesabına. Dövlət başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2 may 2005-ci il tarixli sərəncamından sonra vəziyyət tamam dəyişdi. Enerji təsərrüfatının gücləndirilməsi sahəsində mühüm tədbirlər görüldü. Modul və qaz-turbin elektrik stansiyaları, Heydər Əliyev su anbarı üzərində elektrik stansiyası tikildi. Qısa vaxt ərzində muxtar respublika elektrik enerjisi alan bölgədən elektrik enerjisi ixrac

edən regiona çevrildi. Hazırda muxtar respublika Türkiyəyə gündə 16 meqavat elektrik enerjisi verir.

20 meqavat gücündə olan Biləv Su Elektrik Stansiyası Naxçıvan MR-də həyata keçirilən ən böyük infrastruktur layihələrindən biridir. Stansiyanın tikintisinə 2008-ci ilin mart ayından başlanılmış və qısa müddətə başa çatdırılmışdır. Gilançay üzərində tikilən stansiyada Avstriya istehsalı olan 2 turbin və generatorlar quraşdırılmışdır.

Stansiyanın açılış mərasimində iştirak edən dövlət başçısı demişdir: "Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir... Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq görülən işlərin yeni mərhələsidir. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır".

Prezident İlham Əliyev 87 kilometr uzunluğunda olan Naxçıvan-Sədərək magistral avtomobil yolunun açılışında da iştirak etmişdir. Böyük İpək Yolunun bir hissəsi sayılan bu yol Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirir. Avropa standartları əsasında salınan yolun ümumi en sahəsi 23, asfalt qatının eni 17,2 metrdir. Magistral 4 zolaqlıdır. Zolaqları 1 metr enində xətt ayırır. Bununla bərabər, yolun hər iki istiqamətində təhlükəsiz zona salınıb.

* * *

Sirr deyil ki, hər bir cəmiyyətin tərəqqisi təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılıdır. Təsadüfi deyil ki, ölkənin ağır və çətin dövründə – 1995-ci ildə keçirilən tədbirlərin birində "Mən müəllim sənətini, müəllim işini və zəhmətini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, müəllimə xərcləməlidir" – deyən Ümummilli lider təhsilin maddi bazasının gücləndirilməsini vacib və təxirəsalınmaz vəzifələrdən biri hesab edirdi.

Prezident İlham Əliyev də öz fəaliyyətində dəfələrlə bu xəttə sadiq olduğunu sübut etmişdir. Ötən il muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində dövlət başçısı demişdir: "Mən müəllimlərin əməyini çox yüksək qiymətləndirirəm. Hər bir ölkənin inkişafı üçün müəllimlərin fəaliyyəti başlıca rol oynayır. Çünki ölkə təbii sərvətlərlə zəngin ola bilər, ölkənin digər imkanları, yəni, maliyyə imkanları geniş

ola bilər. Amma əgər peşəkar kadrlar yoxdursa, intellektual potensial yüksək səviyyədə deyilsə, o ölkələr həmin imkanlardan heç vaxt səmərəli şəkildə istifadə edə bilməyəcəklər".

Məhz təhsilə dövlət səviyyəsində bu cür yüksək qiymətin verilməsinin nəticəsidir ki, son 10 ildə muxtar respublikada 68 min 374 şagirdlik 168 məktəb binası, 1398 yerlik 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi tikilib və ya yenidən qurulub. Yeni təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılmış, fənn kabinələri, laboratoriyalar, açıq və örtülü idman qurğuları müasir avadanlıqla təchiz edilmiş, ən yeni informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmuşdur.

Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük. Cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə ölkəmizdə sosial problemlərin həlli, eləcə də səhiyyənin inkişafı ümdə vəzifələr sırasına çıxarılıb. Regionların sosial iqtisadi inkişafına dair Dövlət Proqramı da bu sahədə mövcud olan problem və çatışmazlıqları həll etməyə real imkan yaradıb. Ölkədə səhiyyə şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində konkret vəzifələr də müəyyənləşib. Bu səbəbdəndir ki, hər il böyük həcmlə artan dövlət büdcəsinin xeyli hissəsi sosial siyasətin həllinə yönəldilir. Bu siyasətin davam etdirilməsinin vacibliyindən danışan dövlət başçısı bu amilin ölkənin iqtisadü gücü ilə də sıx bağlı olduğunu bildirib: "Mən istəyirəm ki, hər bir xəstəxana onun yerləşməsindən asılı olmayaraq müasir səviyyədə olsun. Azərbaycanda hər bir sahədə müasirlik, yenilik və keyfiyyət özünü daim göstərsin və Azərbaycan xalqı bu gözəl imkanlardan bəhrələnsin. Bu, bir tərəfdən insanlara olan diqqətin və qayğının əlamətidir, digər tərəfdən Azərbaycanın bugünkü imkanlarını göstərir".

Onu da qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirləri sırasında yeni səhiyyə ocaqlarının tikilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi də mühüm yer tutur. Bu gün muxtar respublikanın hər bir rayonunda ən müasir tələblərə cavab verən mərkəzi xəstəxana binalarının tikintisi proqramı uğurla icra olunmaqdadır. Belə ki, bölgədə 5 mərkəzi xəstəxana binası tikilmiş, 1 mərkəzi xəstəxananın inşası isə davam etdirilir. Naxçıvan şəhərində ətraf bölgələrdə analoqu olmayan diaqnostika-müalicə və doğum mərkəzləri istifadəyə verilmiş, bundan başqa 42 xəstəxana, 51 həkim ambulatoriyası,

56 feldşer-mama, 17 tibb məntəqəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Naxşıvan Müalicə Diaqnostika Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan şəhər Doğum Mərkəzi, Şərur, Şahbuz, Culfa rayon mərkəzi xəstəxanaları üçün inşa olunan obyektlər Avropa standartları əsasında qurulub. Ötən il Sədərək rayon mərkəzi xəstəxanası üçün inşa olunan yeni binanın açılış mərasimində Prezident İlham Əliyev iştirak edib.

Muxtar respublikada reallaşdırılan səmərəli demoqrafik və sosial-iqtisadi siyasətin uğurlu nəticəsidir ki, son illər ərzində əhalinin orta ömür müddəti 4,2 il yüksələrək 74,4 ilə çatıb. Muxtar respublikan tarixində ilk dəfə olaraq ötən il ərzində doğulan körpələrin on min nəfəri ötməsi də iqtisadi inkişafın, sosial vəziyyətin ürəkaçan olmasından irəli gəlib. Halbuki, sovet dönəmində, daha doğrusu, 1988-ci ildə bu rəqəm indikindən 34,3 faiz az olub. Müqayisə olunan dövrdə əhalinin sayı isə 115,6 min nəfər artaraq 410 min nəfərə çatıb.

Demoqrafik inkişafa dair daha bir müsbət nümunə: Əgər ötən əsrin səksəninci illərinin sonlarında muxtar respublikada bir kvadrat kilometrə düşən əhalinin sayı cəmi 55 nəfər təşkil edirdisə, ötən ilin sonunda bu göstərici 76-a çatıb. Hər min nəfər hesabı ilə bir yaşa qədər ölən uşaqların sayı isə 28,3 nəfərdən 1,2 nəfərə enib. Təbii ki, əhali artımının dinamikliyi demoqrafik siyasətin səmərəliliyini təsdiqləyir.

* * *

Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramına uyğun olaraq həyata keçirilən tədbirlərdə başlıca məqsəd sosial-iqtisadi problemləri həll etməklə əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmaqdır. Naxçıvanda quruculuq və abadlıq tədbirlərinin yüksək sürətlə, böyük zövqlə, canıyananlıqla aparılması da təbii ki, ilk növbədə bu amala xidmət edir. Görülən işlər sosial-iqtisadi inkişafımızda böyük irəliləyişlərin bəhrəsi olmaqla bərabər, adamların təfəkkür, düşüncə və psixologiyalarında da müəyyən dəyişikliklərin yaranmasına səbəb olur. İnsanların həyata və cəmiyyətə olan baxışları xeyli dəyişir, torpağa bağlılıq hissləri artır. Bunun nəticəsidir ki, min bir əziyyətlə yaradılanlar, tikilənlər, qurulanlar əvvəlki dövrlərdə olduğu kimi, dağıdılmır, əksinə, onlara sahiblik hissi yarandığından göz bəbəyi kimi qorunub saxlanılır.

Az vaxt ərzində regionun iqtisadi göstəriciləri də xeyli yüksəlib. Dünənə qədər sahibsiz qalan, yaxud xammal şəklində yaxın-uzaq ünvanlara satılan yeraltı təbii sərvətlərdən müasir texnoloji avadanlıqların tətbiqi hesabına səmərəli istifadə muxtar respublika sənayesində

iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsinə səbəb olub. Ötən illər sənaye müəssisələrinin maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsi üçün səmərəli kredit mexanizmi qurulub, satış problemlərinin həlli üçün yerli və xarici bazarlara çıxış imkanları maksimum sadələşdirilib. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikanın sənaye sektorunda 12 min nəfərdən artıq adam işlə təmin olunub, onların gücü ilə müəssisələrdə 237 adda məhsul istehsal edilir.

Zəngin yeraltı təbii sərvətlərə malik bölgədə qiymətli daşlar, xammal ehtiyatları çoxdur. Düzdür, sovet dönəmində onların bir çoxundan - travertin, mərmər, qum-çinqıl yataqlarından istifadə olunurdu. Amma aşkara çıxarılmayan yataqlar, mənbələr də az deyildi. Muxtar respublikada geniş imkanlara malik olan transmilli özəl şirkətin - "Gəmiqaya Holdinq"in yaradılması isə bu sahədə imkanları xeyli artırdı. Ankaradakı Texniki Universitetin əməkdaşları ilə birgə aparılan axtarışlar nəticəsində Kəngərli rayonunun Çalxanqala, Qarabağlar, Babək rayonunun Buzqov kəndləri ərazisində, uca dağların ətəyində qara, boz və qəhvəyi rəngdə mərmər yataqları üzə çıxarıldı.

Bu gün adıçəkilən holdinqə məxsus Gəmiqaya Daş Emalı Sənaye Kompleksinin istehsal sexlərində 30 çeşiddən artıq məhsul hazırlanır. Onların əksəriyyəti travertindəndir. Qara və qəhvəyi rəngli mərmərdən hazırlanan məhsullar antibakterial keyfiyyətə malikdir. Bu səbəbdən xarici bazarlarda onlara üstünlük verilir.

Bir qədər də Şərur rayonunun Aralıq kəndində aparılan quruculuq tədbirləri barədə. Bu il ərzində o əsl mənada şəhər libasına bürünüb, burada müasir Azərbaycan kəndinin ən bariz modeli yaradılıb. İlk əvvəl kəndarası yollar qaydaya salınıb. Sakinlərin təşəbbüsü ilə kəndin darısqal, ensiz yolları onların şəxsi həyətləri hesabına xeyli genişlənib, yola qara örtük döşənib. Yol boyunca uzanan həyətlər eyni formada hasara alınıb, onlara dəmir qapılar qoyulub. Yol kənarlarındakı palçıq arxlara da möhkəm əl gəzdirilib, onları ətrafı çay daşları ilə hörülən arxlar əvəz edib. Kənddəki bir çox sosial obyektlərdə də yenidənqurma və əsaslı təmir işləri aparılıb. Üstəlik yeni obyektlər də inşa olunub. Birmərtəbəli xəstəxana ikimərtəbəli müasir obyektlə əvəzlənib. İndi burada yeni tipli orta məktəblə yanaşı yeddiillik uşaq musiqi məktəbi, böyük mədəniyyət evi, xəstəxana, poçt məntəqəsi və digər obyektlər də fəaliyyət göstərir.

Muxtar respublikada isə belə abad, yaraşıqlı və gözıl kəndlər sayca coxdur. Təkcə Şərur rayonunda Yengicə, Zeyvə, Tumaslı, Maxta, Aşağı Yaycı, Mahmudkənd kəndlərini buna misal göstərmək olar. Regionun

digər rayonlarında və kəndlərində də bu cür quruculuq tədbirləri sürətlə aparılıb.

* * *

Bir sözlə, XXI əsrin Naxçıvanı sürətlə, dinamik inkişaf edən, gündən-günə gözəlləşən bir bölgəyə çevrilib. Ulu öndərin "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri, bu gün artıq həqiqətə çevrilib.

Artıq Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modeli də formalaşıb. Bu məktəbdə tədris olunan dərslərin başlıca qayəsini milli dövlətçilik, vətənpərvərlik, yurda, torpağa bağlılıq hissləri təşkil edir. Müasir dünya standartları səviyyəsində qurulan hər obyekt, yaradılan şərait isə adamlara yeni bir mədəniyyət aşılayır. Bu yeniliyin təsiridir ki, bu gün Naxçıvanda küçə və meydanlar, park və xiyabanlar öz təmizlikləri ilə daha çox seçilirlər.

Naxçıvan indi yalnız regional deyil, dövlətlərarası əməkdaşlıqda da yaxından iştirak edir. Azərbaycan-Türkiyə, Azərbaycan-İran əlaqələri konteksində o, aparıcı rol oynayır. Son illər Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm də cəlbedici regiona və etibarlı tərəfdaşa çevrilib. Bu gün muxtar respublikanın Türkiyə, İran İslam Respublikası ilə bərabər Avropanın inkişaf etmiş bölgələrindən biri olan Avstriya ilə də sıx əməkdaşlıq əlaqələri mövcuddur.

2009-cu il oktyabr ayının 2-də və 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də muxtar respublikanın tanıdılmasında önəmli rol oynayıb.

Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov artıq XXI əsr Avropa siyasətinin qəbul etdiyi yeni simalardandır. Onun gözəl bir kəlamı var: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".

**"525-ci" qəzet,**
**18-19 yanvar 2010-cu il**

## "Naxçıvan möcüzəsi"
### Bir ildə 669 müxtəlif təyinatlı obyekt

**"Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir."**

**Ilham ƏLİYEV**

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" ölkə başçısı cənab İlham Əliyevin imzaladığı 21 yanvar 2011-ci il tarixli Sərəncamda dövlət müstəqilliyinin bərpasının iyirmiillik yubileyi ölkəmizin həyatında müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə kimi xarekterizə olunub. Bununla bərabər müstəqillik illərində keçilən zəngin inkişaf yolunda qazanılan parlaq nailiyyətlərin təbliğ olunması başlıca vəzifə kimi qarşıya qoyulub. Çünki sosial-iqtisadi və mədəni həyatımızda qazanılan uğurların hər biri müstəqilliyimizin şirin bəhrəsi olub. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri də diqqəti cəlb edir.

* * *

Naxçıvanda ötən il elan olunan "Yeniləşmə ili" bir çox əlamətdar hadisələrlə yadda qaldı. Heç şübhəsiz ki, ötən ilin mühüm və yaddaqalan hadisələrindən biri ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya növbəti səfəri olub. Səfər zamanı dövlətimizin başçısı Kəngərli rayonunun mərkəzində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm abidəsinin və abadlaşdırılmış rayon mərkəzinin, Şərur rayonunun Yengicə və Maxta kəndlərində orta məktəb binalarının, Naxçıvan-Sədərək avtomobil yolunun ikinci hissəsinin, Sədərək rayonunda mərkəzi xəstəxana və orta məktəb binalarının, sözün əsl

mənasında yenidən qurulmuş Heydərabad qəsəbəsinin, Ordubad rayonunda Biləv Su Elektrik Stansiyasının, Naxçıvan şəhərində məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin, Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksinin, Naxçıvan şəhərini içməli su ilə təmin edəcək supaylayıcı qurğunun açılışı mərasimlərində iştirak edib.

Ötən il muxtar respublikada sosial-iqtisadi sahədə yeniləşmə və quruculuq tədbirlərinin daha da dərinləşməsi kimi yadda qalacaq. Effektiv islahatların xeyli sürətləndirildiyi dövrdə iqtisadi və sosial inkişaf üzrə yeni nəticələr təmin olunmuş, insanların həyat səviyyəsinin yüksəldilməsinə diqqət daha da artırılmışdır. Ölkəmizin bütün regionlarının tarazlı inkişafına çalışan ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına da qayğı və diqqətini əsirgəməmiş, muxtar respublikaya səfəri zamanı görülmüş işləri yüksək qiymətləndirmişdir: "Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir."

Əvvəlki illərdə olduğu kimi, 2010-cu ildə də iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən və əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun həcminin artmasına zəmin yaratmışdır. Özündə ciddi nəticələri əks etdirən bu artımın səciyyəvi xüsusiyyəti keçən il muxtar respublikanın tarixində ilk dəfə olaraq Ümumi Daxili Məhsulun həcmi 1 milyard manat səviyyəsini ötməsindən ibarət olub.

ÜDM-nin həcmi 1 milyard 171 milyon manata çatıb, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,6 faiz artım əldə olunub. Adambaşına düşən məhsulun həcmi isə 18,8 faiz artaraq dörd min Amerika Birləşmiş Ştatları dollarına yaxınlaşıb.

Həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri də sənayenin üstün inkişafının təmin olunmasıdır. Yeni sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi diqqət yetirilib. Daxili bazarın tələbatı ilə yanaşı, ixrac yönümlü məhsulların istehsalı artıb. Əgər 1989-cu ilin əvvəlində muxtar respublikada 40 sənaye müəssisəsi mövcud idisə, 2011-ci ilin əvvəlinə bu müəssisələrin sayı 11 dəfə artaraq 423-ə çatmış, 239 adda sənaye məhsulunun istehsalı təmin olunmuşdur. Görülmüş işlərin nəticəsidir ki, tarixən aqrar region kimi formalaşan

muxtar respublika hazırda sənayenin üstün inkişafı təmin olunan regiona çevrilmişdir.

Ötən il əvvəlki ildəkindən 44 faiz çox olmaqla 318 milyon 565 min manatlıq sənaye məhsulu istehsal olunub. İstehsal olunan sənaye məhsulun 88 faizi özəl sektorun payına düşüb... Ötən dövr ərzində dövlət dəstəyi ilə 78 istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Hazırda 32 layihə üzrə işlər davam etdirilir.

* * *

Təbii ki, daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının dolğun ödənilməsində yerli istehsalın həcminin artırılması mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə həyata keçirilən siyasətin nəticəsidir ki, bu gün muxtar respublikada 108-i ərzaq və 184-ü qeyri-ərzaq olmaqla 292 növdə məhsul istehsal olunur. 247 növ məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bu məhsullardan 89-u ərzaq, 158-i isə qeyri-ərzaq məhsullarıdır.

Son dövrlər ərzində sahibkarlıq fəaliyyəti və ticarətin inkişafı üçün yaradılmış şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənmiş, ilk dəfə olaraq xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır. Bu proses 2010-cu ildə də davam etdirilmiş, 211 milyon 714 min ABŞ dollarını ixrac, 46 milyon 219 min ABŞ dollarını isə idxal təşkil etməklə xarici ticarət dövriyyəsi 257 milyon 933 min ABŞ dollarına çatmışdır. İdxalın strukturundakı əsas dəyişiklik isə ərzaq məhsulları idxalının texnoloji avadanlıqlarla əvəz olunmasıdır. Yəni indiki halda xarici ölkələrdən ərzaq məhsulları alınıb gətirilmir. Müasir texnoloji avadanlıqlar hesabına isə əsasən yeni müəssisələr, istehsal sahələri yaradılır.

İqtisadi inkişafda diqqəti cəlb edən əsas amillərdən biri də Ümumi Daxili Məhsulda tikinti-quraşdırma işlərinin xüsusi çəkisinin davamlı olaraq yüksəlməsidir. 2010-cu il ərzində muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala əvvəlki illə müqayisədə 22 faiz çox olmaqla 501 milyon manat həcmində investisiya yönəldilib. İstifadə olunan investisiyaların həcmində əvvəlki illə müqayisədə 22 faiz artım qeydə alınıb. İnvestisiyanın 443,4 milyon manatı, yaxud 88 faizi isə tikinti-quraşdırma işlərində istifadə olunub. İl ərzində tikinti və ya əsaslı təmirdən sonra 669 müxtəlif təyinatlı obyekt istifadəyə verilib.

Dövlət idarəetməsinin səmərəli təşkili prosesinin ilkin mərhələsi üzrə mühüm element qismində inzibati binaların inşası və yenidən

qurulması, iş yerlərinin erqonomik tələblər səviyyəsində təşkili ötən dövr ərzində də diqqət mərkəzində saxlanılmış, bir il ərzində bu istiqamətdə 30 obyekt istifadəyə verilib. Hazırda 14 inzibati binanın inşası sürətlə davam etdirilir. İnzibati obyektlər arasında dörd və beş mərtəbəli binalar da az deyil. Naxçıvan şəhər məhkəməsi və şəhər vergilər idarəsi üçün inşa olunan obyektlər memarlıq üslubları ilə də seçiliblər.

Məmləkətimizin başqa bölgələrindən fərqli olaraq muxtar respublikanın bir çox kənd yaşayış məskənlərində, daha doğrusu 3 qəsəbə və 52 kəndində ictimai mərkəz funksiyasını məzmun və mahiyyətcə yeni yaradılan "Kənd mərkəzləri" adlı obyektlər yerinə yetirməyə başlayıblar. Onlar kəndə yeni mədəniyyət gətirməklə bərabər adamların düşüncə və təfəkkürlərində də yeniliklər yaradıb.

Müasir layihə əsasında inşa olunan, hər biri iki mərtəbədən artıq olan bu obyektlərdə kənddə fəaliyyət göstərən dövlət qurum və təşkilatları – ərazi icra nümayəndəliyi, YAP-ın ərazi ilk təşkilatı, klub, kitabxana, poct şöbəsi, ATS, baytarlıq məntəqəsi, sahə polis müvəkkili, eləcə də yerli özünü idarəetmə orqanı olan bələdiyyə üçün normal iş şəraiti yaradılır, otaqlar lazımi avadanlıq və mebel dəstləri ilə təmin olunurlar. Ötən il daha 9 kənd mərkəzi istifadəyə verilmişdir.

Belə bir amili də xüsusi vurğulayaq ki, son dörd ildə muxtar respublikada 284 yaşayış binasında tikinti, yenidənqurma və bərpa işləri aparılmış, 301 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəzlənmiş, 35 lift quraşdırılmışdır. Bu faktın özü də müstəqillik dövrümüzdə ölkəmizdə insan amilinə göstərilən qayğının bəhrəsidir.

Son illər Muxtar Respublikada aparılan quruculuq tədbirlərində məktəb tikintisi üstün yer tutur. Əgər müstəqilliyimizin ilk on ili ərzində 36 yeni məktəb binası tikilmişdirsə, ondan sonrakı illərdə 68 min 374 şagirdlik 168 məktəb binası, 1398 yerlik 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi tikilib və ya yenidən qurulub. Ötən il daha 10 ümümtəhsil məktəbi istifadəyə verilib. Onlardan təkcə biri – 954 şagird yerlik 15 saylı orta məktəb binası muxtar respublikanın paytaxt şəhərinin payına düşüb. Digər məktəblər isə rayon mərkəzlərində və kənd yaşayış məskənlərində tikilib. Onlardan dördü yüz min nəfərdən artıq əhalisi olan Şərur rayonunda inşa olunub. Rayon mərkəzindəki 2 saylı 738 şagird yerlik orta məktəb binası isə əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Ötən ilin oktyabr ayında Şərur rayonun Yengicə və Maxta, Sədərək rayonunun Sədərək kənd orta məktəblərinin açılış mərasimlərində ölkə başçısı cənab İlham Əliyev iştirak edərək öz xeyir-duasını verib. Dövlət başçımız bu təhsil müəssisələrində

görülən işlərdən, yaradılan şəraitdən razı qaldığını bildirərək ölkəmizdə bu sahədə həyata keçirilən siyasətin məqsədini də açıqlayıb: "Bu gün Azərbaycanın bütün kəndlərində belə gözəl məktəblər tikilir. Bizim siyasətimiz məhz bundan ibarətdir ki, bütün yerlərdə, bütün bölgələrdə, ən ucqar kəndlərdə də ən müasir səviyyə, insanların yaşaması, işləməsi üçün bütün şərait yaradılmalıdır".

Cari ildə müasirtipli təhsil ocaqları sırasına daha on məktəb daxil olacaqdır. Ən iri təhsil ocağı Naxçıvan şəhərində 17 nömrəli məktəb üçün inşa olunan 864 şagird yerlik məktəb binası olacaqdır. Digər məktəblər kənd yaşayış məskənlərinin payına düşür. Culfada rayonun sərhəd və ucqar dağ kəndi olan və cəmi 61 şagirdin təhsil aldığı Nəhəcirdə yeni tipli təhsil ocağının inşa olunması da dövlətin bu sahəyə göstərdiyi yüksək qayğı və diqqətin parlaq təzahürünə çevrilib. Sərhəd kəndində inşa olunan məktəb də ikimərtəbəli olacaqdır.

Səhiyyə müəssisələrinin yenidən qurulması, onun maddi-texniki bazasının gücləndirilməsi, bu sahədə qabaqcıl texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanması da prioritet istiqamətlərdəndir. Bu sahədə həyata keçirilən dövlət siyasətinin başlıca məqsədi əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsinə yönəldilib. Son illər aparılan genişmiqyaslı quruculuq tədbirləri sayəsində 42 xəstəxana, 51 həkim ambulatoriyası, 56 feldşer-mama, 17 tibb məntəqəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur.

Hazırda regionun hər bir bölgəsində ən müasir tələblərə cavab verən mərkəzi xəstəxana binalarının tikintisi proqramı uğurla icra olunmaqdadır. Son dörd il ərzində Şərur, Culfa, Şahbuz, Kəngərli rayonlarının mərkəzlərində Avropa standartları əsasında dörd mərkəzi xəstəxana binası tikilmiş, Ordubad şəhərində isə beşmərtəbəli səhiyyə müəssisəsinin inşası sürətlə davam etdirilir. Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi və Naxçıvan şəhər Doğum Mərkəzi regionda anoloqu olmayan tibb müəssisələri sırasına daxil olub.

Ötən il Naxçıvan şəhərində məhdud fiziki imkanlılar üçün regional-informasiya mərkəzi, psixi xəstəliklər dispanseri üçün 85 çarpayılıq yeni korpus, ağciyər xəstəlikləri dispanserinin bakterioloji laboratoriyası, sərhəd bölgəsi olan Sədərək rayon mərkəzi xəstəxanası üçün inşa olunan yeni bina da quruculuq ərmağanları sırasındadır.

Sədərək rayon mərkəzi xəstəxanasının açılış mərasimində Prezident İlham Əliyev quruculuq istiqamətində görülən işləri yüksək qiymətləndirib: "Mən xəstəxana ilə tanış oldum, gördüm ki, burada müasir avadanlıq quraşdırılıbdır, yüksək səviyyədə tikinti işləri

aparılıbdır, gözəl layihədir. Həm müalicə almaq, həm də müayinədən, diaqnostik prosedurlardan keçmək üçün bütün şərait, imkan vardır" – deyən ölkə başçısı, əmin olduğunu bildirib ki, gələcəkdə belə xəstəxanaların sayı daha çox olacaqdır.

Səhiyyə sahəsində aparılan quruculuq tədbirləri kənd yaşayış məskənlərini də əhatə edib. Şərur rayonunun Yengicə, Maxta, Kəngərli rayonunun Qarabağlar və Şahtaxtı kəndlərində ikimərtəbəli, müasirtipli həkim ambulatoriyaları, Təzəkənd və Yeni Kərki, Babək rayonunun Aşağı Uzunoba kəndində isə feldşer-mama məntəqələri tikilərək istifadəyə verilib.

Müstəqillik dövrümüzdə mədəniyyət obyektlərinin inşası və ya əsaslı təmiri də davamlı xarakter alıb. Təkcə ötən il Naxçıvan şəhərində Naxçıvan Dövlət Xalça Muzeyinin, "Xan sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin, Sədərək rayonunun Heydərabad qəsəbəsində Tarix-Diyarşünaslıq Muzeyinin, Ordubad şəhərində M.S.Ordubadinin ev muzeyinin, Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər muzeyinin, Naxçıvan şəhərində Şəhidlər xiyabanının tikintisi və yenidən qurulması başa çatdırılıb. Aparılan genişmiqyaslı quruculuq tədbirləri muxtar respublikanın memarlıq incilərini də ağuşuna alıb. Ordubad şəhərində Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Qeysəriyyə" tarixi abidəsi, "Şərq hamamı" tarixi abidə kompleksi, qədim məbəd və 2 abidə təmir-bərpa işlərindən sonra istifadəyə verilmişdir. Naxçıvan şəhərində qədim Qala tarixi abidəsində bərpa və təmir işləri sürətlə davam etdirilir.

Əvvəlki illərdə olduğu kimi 2010-cu ildə də yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 277 kilometr uzunluğunda yeni yollar salınmışdır. İstifadəyə verilmiş yolların 167 kilometri magistral, 110 kilometri isə yerli əhəmiyyətli yollardır. Bundan əlavə, 8 yeni körpü tikilmiş, 5 körpü bərpa edilmiş, 1 körpünün isə tikintisi hazırda davam etdirilir. Ümümilikdə isə, son on beş ildə müxtəlif ölçülərdə 63 körpü inşa olunub. İstifadəyə verilən obyektlər sırasında su-nasos stansiyaları, subartezian quyuları da az olmayıb.

* * *

Muxtar Respublikada ərzaq təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyi də hazırda xüsusi diqqət yetirilən sahələrdəndir. Bu istiqamətdə böyük layihələr həyata keçirilib. Əvvəllər elektrik enerjisinin böyük bir hissəsi qonşu ölkələrdən idxal edildiyi halda, bu gün muxtar respublikamız artıq elektrik enerjisi ixrac edən bir diyara çevrilmişdir.

Bunun nəticəsidir ki, yaradılmış elektrik stansiyaları daxili tələbatı artıqlanması ilə ödəyir. Əgər sovet dönəmində, daha doğrusu, 1988-ci ildə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, hazırda bu müəssisələrin sayı 5-ə çatdırılıb.

Ötən il istifadəyə verilən 20 meqavat gücündə olan Biləv Su Elektrik Stansiyası Naxçıvan MR-də həyata keçirilən böyük infrastruktur layihələrindən biri olub. Stansiyanın açılış mərasimində iştirak edən dövlət başçısı demişdir ki, Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq görülən işlərin yeni mərhələsidir. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır.

2005-ci ilin sonundan başlayaraq muxtar respublikamıza təbii qazın nəqlinin bərpası enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış, 01 yanvar 2011-ci il tarixə əhali qrupu yüz faiz olmaqla 78 min 157 abonent təbii qazla təmin olunmuşdur. Bu bölgənin bütün yaşayış məskənlərində olan bütün mənzillərin qazlaşdırılması deməkdir. Halbuki 01 yanvar 1989-cu ildə muxtar respublikamızda 32 min 565 abonentə təbii qaz verilirdi ki, bu da indiki göstəricidən 2,4 dəfə azdır.

Regionda Ümumi Daxili Məhsul istehsalının orta hesabla üçdə bir hissəsi kənd təsərrüfatının payına düşür. Ötən il muxtar respublikada 247 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu illə müqayisədə 13 faiz çoxdur. 59 min 204 hektar sahədə əkin aparılmışdır ki, bu da 1988-ci ilin məhsulu üçün əkilmiş sahələrdən düz dörd dəfə çoxdur.

Taxıl anbarlarının, elevatorların inşası kənd təsərrüfatının inkişafı naminə aparılan infrastruktur quruculuğunun mühüm bir istiqamətidir. Bu zərurət nəzərə alınaraq 2009-cu ildə 18 min ton taxılı uzun müddətə, 20 min ton taxılı isə qısa müddətə saxlamaq gücünə malik Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı Anbarı yaradılmışdır. İstehsal olunan buğdanın hər kiloqramının orta hesabla 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması məhsul istehsalçılarının taxıl istehsalına və onun itkisiz yığılmasına marağını daha da artırmışdır.

2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nın icrası ötən il uğurla başa çatdırılmışdır. Ötən il 37 min 901 ton məhsul tədarük edilmişdir ki, bu da 2004-cü illə müqayisədə 2,2 dəfə və ya 20 min 843 ton, 1988-ci illə müqayisədə isə 38 dəfə və ya 36 min 896 ton artım deməkdir. Ötən il meyvə istehsalının həcmi 447 ton artaraq 38 min 228 tona catıb.

Aqrar sektorun inkişafında mühüm element kimi soyuducu anbarların yaradılması işi də üstün istiqamət almışdır. Bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar meydana çıxan problemləri aradan qaldırmaqla meyvə-tərəvəzin yetişdirilməsinə marağı artırırsa, digər tərəfdən əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatına imkan verir. Son illər ümumi tutumu 7 min 920 ton olan 12 soyuducu anbar istifadəyə verilmiş, ümumi tutumu 500 ton olan 1 soyuducu anbarın qurulması hazırda davam etdirilir.

Təbii ki, son illər muxtar respublika iqtisadiyyatında müşahidə olunan sabit artım tempi sosial yönümlü inkişafın təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təşkili üçün əlverişli şərait yaradıb. Son yeddi il ərzində muxtar respublika üzrə 45 min 371 yeni iş yeri açılması faktı bunu sübut edir. Onu da qeyd edək ki, açılmış iş yerlərinin 66,1 faizi daimidir.

Muxtar Respublika Dövlət Statistika Komitəsinin məlumatında diqqəti çəkən məqamlardan biri də odur ki, ötən il əhalinin gəlirləri bir il öncəyə nisbətdə 10 faiz artaraq 1 milyard 7 milyon 484 min manata çatıb. Aparılan məqsədyönlü tədbirlər muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmış, 2010-cu ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 303 manata çatmışdır ki, bu da 2009-cu ildəki müvafiq göstəricini 11 faiz üstələmişdir.

Əhalinin yaşayış tərzinin artmasını sübutlayan özgə fakt: Əgər 1988-ci ilin sonunda muxtar respublikada 14216 ədəd avtomobil var idisə, 01 yanvar 2011-ci il tarixdə bu göstərici 3 dəfə artaraq 38692 ədədə çatıb. Bu təxminən hər on nəfərin bir maşınla təmin olunması deməkdir.

* * *

Muxtar respublikanın sosial-iqtisadi inkişafında qazanılan uğurlar Prezident İlham Əliyevin rəhbərliyi altında Ulu öndərin quruculuq və inkişaf xəttinin blokada şəraitində yaşayan regionda uğurla həyata keçirilməsinin nəticəsidir. Regionların sosial iqtisadi inkişafına dair dövlət proqramlarından irəli gələn vəzifələrin uğurla həyata keçirilməsi əhalinin gündəlik yaşayış səviyyəsində, onların maddi-rifah halının yaxşılaşdırılmasında, şəhər və kəndlərin sosial mənzərələrinin büsbütün dəyişilməsində öz əksini tapır. Bütün bunlar isə dövlət müstəqilliyimizin xalqımıza bəxş etdiyi ərmağanlardır.

Ölkə mətbuatında Muxtar Respublikanın müstəqillik illərindəki sosial-iqtisadi inkişafını "Naxçıvan möcüzəsi" adlandıranlar az deyil. "Naxçıvan möcüzəsi"nin əldə edilməsini Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbov belə xarekterizə edir: *"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".*

**13 mart 2011-ci il**

## Şərurun abad, gözəl və yaraşıqlı kəndləri

**"Şərur rayonunda bütün sosial məsələlər həllini çox uğurla və keyfiyyətlə tapır. Keçən dəfə Olimpiya Kompleksinin açılışında, mərkəzi rayon xəstəxanasının istifadəyə verilməsində iştirak etmişdim. Digər obyektlərin, sosial infrastrukturun yaradılması bu rayonda çox uğurla və sürətlə gedir..."**

**İlham ƏLİYEV**

Şərur rayonun Yengicə kəndində gördüklərim mənə müasir Azərbaycan kəndinin bir modelini xatırlatdı. Çünki bu ilin bahar günlərinin birində də həmin yaşayış məskənində olmuşdum. Onda bir çox sosial obyektlərin tikintisi yenicə başlamışdı. Rayon icra hakimiyyətinin başçısı İbrahim Məmmədovun "yaxın vaxtlarda bu yaşayış məskəni də Şərurun abad və yaraşıqlı kəndlərindən birinə çevriləcəkdir" sözləri də mənə bir qədər inandırıcı görünmürdü. Kəndin ensiz, yöndəmsiz, darısqal yollarının yenidən qurula biləcəyinə inamım az idi. Yol kənarlarında fərdi vətəndaşlara məxsus tikililər, yardımçı binalar da az deyildi.

Qızılı payız günlərinin birində isə gördüklərimə heyran qaldım. Sanki dörd min nəfərə yaxın əhalinin yaşadığı kənd başdan-ayağa yenidən qurulmuşdu. İki hərəkət zolaqlı avtomobil yolu diqqətimi daha çox cəlb etdi. İlk anda kənd hara, bu cür abad yol hara-deyə düşündüm. Yolun yataq hissəsi genişləndirilmiş, piyadaların rahat hərəkəti üçün dekorativ daşlarla bəzənən səkilər salınıb. Yol boyunca aparılan yaşıllaşdırma işləri, müasir işıqlandırma xətləri də adamlarda xoş təəssürat yaradır. İki kilometrdən artıq yola keyfiyyətli asfalt örtüyü çəkilib. Yolun en sahəsi 6 metrdən 11-12 metrə çatdırılıb. Şəxsi evlərə, fərdi təsərrüfatlara dəyən maddi ziyanlar ödənilib. Bir ailə yeni mənzillə təmin olunub, 3 təsərrüfat üçün yardımçı binalar tikilib. Yol boyunca palçıq, möhrə hasarlar daş divarlarla əvəzlənib, onlar suvanaraq yasəmən rəngində boyanıb. Kompleks tədbirlər sayəsində kənd qəbiristanlığının

ərazisi də səliqəyə salınıb. Ən təqdirəlayiq hal isə kənd sakinlərinin bu xeyirxahlıq tədbirlərində yaxından, fəal iştirak etmələri olub.

...Yengicə Şərurun orta əsrlərə məxsus yaşayış məskənlərindən olub. Kənddəki köhnə hamam da o dövrlərə aid tarixi-memarlıq abidəsidir. Yerli əhalinin məlumatına görə, vaxtilə burada üstüörtülü çarşı, buzxana və karvansara fəaliyyət göstərib. Olduqca böyük olan yaşayış yerində sənətkarlara məxsus xüsusi məhəllə də olub. Onlardan biri hazırda xalq arasında "Çölməkçilər küçəsi" adı ilə qalmaqdadır. Uzun illər boyu burada ictimai binaların tikintisində tağbənd və günbəzlərdən geniş istifadə olunub.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Yengicə Şərur-Dərələyəz qəzasında mühüm mərkəzlərdən biri kimi tanınıb. Uzun müddət qəza inzibati-ərazi bölgüsünün mərkəzi olub, indiki rayon mərkəzi funksiyasını yerinə yetirib. Muxtar Respublikada ilk təhsil ocağı 1882-ci ildə burada açılıb. Həmin məktəbin açılmasının təşəbbüskarı və təşkilatçısı dövrünün böyük maarifçi ziyalılarından olan Mirzə Ələkbər Süleymanov olub. Qori Müəllimlər Seminariyasını bitirən bu şəxs həmin il kənddə 11 uşağı təhsilə cəlb edib. İki il sonra isə məktəb üçün ikisinifli bina inşa edilib. O, rayon əhalisinin maariflənməsində, savadlanmasında önəmli rol oynamaqla yanaşı, məktəbi ədəbi-pedaqoji fikrin qabaqcıl mərkəzlərindən birinə çevirmişdir.

Sovet dövründə də Yengicə kənd orta məktəbi öz uğurları ilə tanınıb. Məzunları sırasında onlarca dövlət, elm və mədəniyyət xadimləri, tanınmış hüquqşünaslar və həkimlər, sənət adamları çıxıb. Azərbaycan elminin görkəmli nümayəndələrindən sayılan Asəf Nadirov, Həsən Şirəliyev, Yusif Seyidov kimi alimlər bir vaxtlar təhsillərini bu məktəbdə alıblar. Sıravi təsərrüfatçı Tamam Əliyeva isə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülüb.

1941-1945-ci illər müharibəsi dövründə Mozdokdan Berlinədək şərəfli döyüş yolu keçən, göstərdiyi şücaətlərə görə "Qırmızı Ulduz" ordeni ilə təltif edilən Asiya Hüseynova da bu məktəbin məzunlarından olub.

Üç yüzdən artıq şagirdin təhsil aldığı kənd orta məktəbi bu gün də öz müsbət ənənələrini yaşadır. Ötən il məktəbi bitirən15 məzundan 5-i ali təhsil ocağına qəbul olunub. Köhnə və yararsız bir binada yerləşən məktəb üçün bu boyük uğur sayılıb. Yeni dərs ilində şagirdlərin təlim-tərbiyəsi ilə 45 müəllim məşğul olur. Xanım Cəfərova, Afət Seyidova, Ədalət Tağıyev, Laləzar Zeynalova, Səriyyə İbrahimova təcrübəli müəllimlər kimi tanınıblar. Onlar təlim prosesində mütərəqqi üsullardan istifadəyə həmişə önəm verirlər.

Təbii ki, bu tədris ilində qazanılan uğurlar ötən ildəkindən də çox olacaq. Bu ilk növbədə regionların soasial-inkişafının Dövlət Proqramı çərçivəsində kənddə 568 şagird yerlik, zirzəmi qatı ilə birlikdə dörd mərtəbədən ibarət olan müasir tipli məktəb binasının tikilib istifadəyə verilməsi ilə bağlıdır. Obyektin inşası cəmi altı ay çəkib, burada qiymətli tikinti materiallarından istifadə olunub. Pilləkən və foyelərə mərmər daşlar döşənib. Sinif otaqları, fənn kabinə və laborotoriyalar lazımi avadanlıq və mebel dəstləri ilə təmin olunub. Məktəbin qarşısında və arxasında isə böyük həcmdə yaşıllıq və külkarlıq işləri aparılıb.

Prezident İlham Əliyev bu ilin oktyabr ayında muxtar respublikaya səfəri çərçivəsində təhsil ocağında görülən işlərdən, yaradılan şəraitdən razı qaldığını bildirib: "Bu məktəb əslində kənd məktəbinə oxşamır. Çox əzəmətli, gözəl, geniş, işıqlı bir məktəbdir," – deyib. Dövlət başçımız həmin görüşündə bu gün ölkəmizdə həyata keçirilən sosial siyasətin bəzi məqamlarından da danışıb: " Bu gün Azərbaycanın bütün kəndlərində belə gözəl məktəblər tikilir. Bizim siyasətimiz məhz bundan ibarətdir ki, bütün yerlərdə, bütün bölgələrdə, ən ucqar kəndlərdə də ən müasir səviyyə, insanların yaşaması, işləməsi üçün bütün şərait yaradılmalıdır".

Müasir layihə əsasında inşa olunan yeni təhsil ocağında müəllim və şagirdlərin ixtiyarına 32 sinif otağı ilə bərabər, zəngin əyani vəsaitlərlə təmin olunan fənn kabinələri, laborotoriyalar, kitabxana, idman zalı, yeməkxana verilib. Şagirdlərin müasir informasiya texnologiyalarına yiyələnə bilmələri üçün burada komyuter mərkəzi yaradılıb. İki elektron lövhəli sinif də tədrisin yüksək səviyyədə aparılmasına imkan yaradır. Məktəb müasir istilik sistemi ilə də təmin olunub.

Ən başlıcası isə yeni məktəbin tikintisində kəndin gələcək inkişaf perspektivinin nəzərə alınmasıdır. Bu hesabla yaxın 20-25 il ərzində burada əlavə sinif otaqlarına, yeni tədris korpusuna ehtiyac duyulmayacaq.

Kənddə yeni inşa olunan obyektlərdən biri də "Kənd mərkəzi"dir. Bir vaxtlar kolxoz idarə heyətinin inzibati binasının yerləşdiyi ərazi də müasir layihə əsasında inşa olunan mərkəz kəndin görkəminə yeni çalarlar gətirib. İkimərtəbəli binanın birinci qatında poct bölməsi, elektron tipli ATS, baytar məntəqəsi, kənd kitabxanası yerləşir. İkinci mərtəbə yerli icra nümayəndəliyi ilə bələdiyyənin ixtiyarına veriləcəkdir. YAP-ın ərazi ilk təşkilatına da iş otağı ayrılıb. Bütün iş otaqları müasir mebel avadanlıqları ilə təmin olunub. 70 yerlik iclas zalı buradakı qurumların birgə ixtiyarında olacaqdır.

Kənd mərkəzinin qarşısındakı həyətdə "Heç kim unudulmur" adlı kompleks yaradılıb. Bu abidə torpaqlarımızın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılıb. Azərbaycanın Milli Qəhrəmanı Səyavuş Həsənovun tuncdan büstü də buradadır. Ötən əsrin doxsanıncı ilində yaradılan Qarabağı müdafiə taborunun ilk əsgərlərindən olan Səyavuş Qazaxda, Goranboyda, Gədəbəydə, Şuşada erməni təcavüzkarları ilə döyüşlərdə iştirak etmiş, Ağdərə kəndi uğrunda döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəzinə ucalmışdır. O, Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunsa da həmyerliləri onun xatirəsini əziz tuturlar. Doğma kəndində onun abidəsi ucaldılıb.

Kəndə müasir görkəm bəxş edən binalardan biri də ikimərtəbəli həkim ambulatoriyasıdır. Neçə vaxt idi ki, 10 nəfərə yaxın tibb işçisinin çalışdığı səhiyyə ocağı qeyri-münasib binada yerləşirdi. Bu səbəbdən də xidmətin normal səviyyəsindən danışmaq əbəs idi. Kənd sakinləri ilkin tibbi xidmətdən də ötrü rayon mərkəzi xəstəxanasının xidmətindən istifadə etməli olurdular. Yeni müəssisə istifadəyə veriləndən sonra əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəlib. Müəssisə müasir tibb alət və avadanlıqları ilə təmin olunub. İki çarpayılıq palata isə stasionar xəstələrin ixtiyarına verilib.

Kənddə ticarət obyektinin və məişət evinin inşa olunması sakinlərin ürəyincə olub. Ticarət mərkəzində gündəlik təsərrüfat malları, ərzaq, sənaye və məhsulları satılır. Ət dükanı isə yerli istehsalçıların ixtiyarına verilib.

Həyata keçirilən quruculuq tədbirləri bunlarla bitməyib. Kənd məscidində də təmir işləri aparılıb. Kənd qəbiristanlığının ərazisi çəpərə salınıb, burada abadlıq işləri aparılıb. Kənddə elektrik dirəkləri təzələnib, yeni məhəllələrə xətlər çəkilib.

Cari ildə Şərur rayonunda həyata keçirilən genişmiqyaslı quruculuq-abadlıq tədbirləri sayəsində yeniləşən, gözəlləşən, yaraşıqlı və abad yaşayış məskənlərindən biri də iki min nəfərə yaxın əhalinin məskunlaşdığı Maxta kəndidir. O kənd ki, qədim tarixə, mədəniyyətə malikdir. Sovet dönəmində burada illik istehsal gücü 20 min ton olan üzümün ilkin emalı müəssisəsi fəaliyyət göstərib.

Azərbaycanın Milli Qəhrəmanı Əli Camalovun adını daşıyan Maxta kənd orta məktəbi dövlət başçımızın xeyir-duası ilə istifadəyə verilən yeni təhsil ocaqlarındandır. Üçmərtəbəli, 540 şagird yerlik binada sinif otaqları, fənn kabinə və laborotoriyalar zəruri vəsaitlərlə təchiz olunub.

"Maxta kəndində gözəl, yaraşıqlı məktəb tikilib. Əminəm ki, bu uşaqlara böyük bir töhfədir"-deyən dövlət başçımız ölkəmizin gələcək və xoş inkişafı naminə öz tövsiyə və tapşırıqlarını da bildirib: "Burada uşaqlar ancaq yaxşı oxumalıdırlar. Müəllimlər də uşaqlara yaxşı tərbiyə verməlidirlər, yaxşı nəzarət etməlidirlər. Bizə savadlı, bilikli gənclər lazımdır ki, bundan sonra bütün sahələrdə işləyə bilsinlər".

Maxta kəndində də tikinti-quruculuq tədbirləri kompleks şəkildə aparılıb. Kənd mərkəzi, həkim ambulatoriyası, ticarət obyekti, məişət evi adamların ixtiyarına verilib. Kənd yollarında əsaslı təmir və yenidənqurma tədbirləri aparılıb.

Onu da deyim ki, Şərurda-muxtar respublikanın əhali sayı və ərazi baxımından ən iri bölgələrindən biri sayılan rayonda müasir Azərbaycan kəndinin bir modelini xatırladan yaşayış məskənləri çoxdur. Aralıq, Tumaslı, Qarxun, Aşağı Daşarx, Mahmudkənd, Vərməziyar, Axura, Aşağı Yaycı kəndlərini buna misal göstərmək olar. Müasir standartlar əsasında qurulan Naxçıvan-Sədərək magistral yolunun kənarında yerləşən Zeyvə kəndi də yaxın günlərdə bu sıraya daxil olacaqdır. Heç şübhəsiz ki, bunlar isə regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlərin bir qismidir.

Son illər regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramları çərçivəsində görülən tədbirlər kənd yaşayış məskənləri ilə bərabər rayon mərkəzinin də sosial simasını xeyli dəyişib. 7 min nəfərə yaxın sakini olan Şərur şəhərində böyük infrastruktur tədbirləri həyata keçirilib. O regionların inkişafı sahəsində böyük hədəflərə doğru iri addımlarla irəliləyən bölgələrdən birinin mərkəzinə çevrilib.

Cari il rayon mərkəzində 200 yerlik müasir tipli uşaq bağçası istifadəyə verilib. Üç bölmədən ibarət Şərur ticarət mərkəzində 220 yerlik açıq və örtülü bazarlar, 48 mağaza, məişət xidməti sahələri, iaşə obyektləri fəaliyyət göstərir.O, muxtar respublikada fəaliyyət göstərən ən iri ticarət obyektlərindən biridir. Ötən il istifadəyə verilən Şərur Olimpiya-İdman kompleksi də rayonun ictimai-mədəni həyatında böyük canlanma yaradıb. Az vaxt ərzində o kiçik şəhərə böyük idman mədəniyyəti gətirib. Artıq burada idmanın ayrı-ayrı növləri üzrə bir neçə mötəbər yarışlar keçirilib. 68 çarpayılıq Şərur rayon mərkəzi xəstəxanası da Avropa standartları əsasında tikilib, burada xidmətin müasir tələblər səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb. Şərur şəhər məscidi də müasir memarlıq üslubunda inşa olunub.

Ölkə prezidenti İlham Əliyev bölgəyə səfəri çərçivəsində ictimaiyyət nümayəndələri ilə keçirdiyi görüşdə regionların sosial-

iqtisadi inkişafının Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib: "Şərur rayonunda bütün sosial məsələlər həllini çox uğurla və keyfiyyətlə tapır. Keçən dəfə Olimpiya Kompleksinin açılışında, mərkəzi rayon xəstəxanasının istifadəyə verilməsində iştirak etmişdim. Digər obyektlərin, sosial infrastrukturun yaradılması bu rayonda çox uğurla və sürətlə gedir...: Mən çox şadam ki, muxtar respublikanın rəhbərliyi bütün bu işləri çox böyük zövqlə və məhəbbətlə edir'.

Təbii ki, Şərur muxtar respublikanın inzibati-ərazi bölgüsündə mövcud olan səkkiz rayon və şəhərdən biridir. Genişmiqyaslı quruculuq tədbirləri muxtar respublikanın digər bölgələrini də ağuşuna alıb. Ölkə başçısı cənab İlham Əliyev də bu istiqamətdə görülən işlərdən məmnun qaldığını bildirib: "Naxçıvanda gözəl quruculuq, abadlıq işləri sürətlə gedir və bu məni çox sevindirir. Hər dəfə Naxçıvanda olanda mən bu yenilikləri, müasir yanaşmanı görürəm"

**(Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fərdi jurnalist yazıları arasında keçirdiyi müsabiqədə (dekabr 2010) birinci mükafata layiq görülüb)**

# DÖRDÜNCÜ BÖLMƏ

## Qədim abidələr diyarı: Naxçıvan

## Naxçıvanın memarlıq inciləri

**”Mömünə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudanda böyük memarlıq məktəbi olduğunu göstərir... Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir.”**

**Heydər ƏLİYEV**

“Elə XX əsri götürün. Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, çünki imkanları yoxdur”- bu sözlər xalqımızın ümümmilli lideri Heydər Əliyevə məxsusdur. O, Naxçıvan şəhərində Mömünə xatun məqbərəsini ziyarət edərkən bu sözləri söyləyib. Dahi öndər “bizlər çox vaxt bu abidəni gözəl memarlıq abidəsi kimi təbliğ edirik” deyərək bu sənət əsərinin çoxəsrlik dövlətçilik ənənələrimizin yaşadılması istiqamətində oynadığı rola da toxunub: “Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması barədə qərar qəbul edə bilərdilərmi?”.

### Tariximizin tədqiq və təbliğinə maraq artıb

“Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkiliu haqqında” Muxtar Respublika Ali Məclisi Sədrinin imzaladığı sərəncam əsasında isə burada 1157 abidə qeydə alınıb, onlardan 56-sı isə dünya əhəmiyyətli abidə olub. Hər biri də xalqımızın zəngin və çoxəsrlik dövlətçilik ənənələrini özündə yaşadan memarlıq inciləridir. O incilər ki, onlar

tariximizin on ikinci yüzilliyindən başlayaraq bu günümüzə qədər ayrı-ayrı dövrlərdə, məqamlarda inşa olunublar, iqtisadi qüdrətimizi, gücümüzü, baçlıcası isə varlığımızı dünyanın yaxın-uzaq ölkələrinə tanıdıblar.

Əslinə qalsa həyata keçirilən bu tədbirlər də xalqımızın ümümmilli lideri Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikanın uzun müddət üçün işlənib hazırlanmış inkişaf strategiyasından qaynaqlanıb. AMEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunan geniş müşavirədə "Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var... Onların hər biri Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir"-deyən ulu öndər böyük təəssüflə onu da qeyd edib ki, hələ də bunlar haqqında tarixi mənbələr və toplular yoxdur.

Dahi öndər həmin çıxışında qarşıda duran mühüm vəzifələrdən də danışıb. Böyük narahatçılıqla deyib ki, "əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənbəyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, sübut etməsələr bəs bunu kim edəcəkdir. Bax, bütün bu səbəbdən mən Naxçıvan Muxtar Respublikasında Elmlər Akademiyasının bölməsinin yaradılması haqqında qərar qəbul etmişəm".

## Daşlar dil açıb danışır...

Alimlərin fikrincə, Naxçıvanda hər daşın, hər qayanın altında bir tarix yatır. Bu yaxınlarda bölgədə keçirilən mötəbər elmi toplantıda--beynəlxalq simpoziumda iştirak edən mütəxəssislərin yekun rəyləri də bundan ibarət olub ki məmləkətimizin ayrılmaz bir parçası olan bu diyar bəşər sivilzasiyasının, mədəniyyətinin ən başlanğıc nöqtələrindən biri olub. Bu qədim və kəşməkeşli tarixi isə sübut edən mənbələr, amillər də çoxdur: ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri olan memarlıq inciləri...

Qazma, Əshabi-kəhf, Kilid mağaralarında daş dövrü mədəniyyətinin izləri aşkar olunub. Bu yerlərdə insanlar ibtidai icma dövründə yaşayıblar. Eramızdan əvvəl dördüncü minilliyin sonu və ikinci minilliyin əvvəllərində isə Naxçıvan ərazisində Oğlanqala, Qarabağlar, Çalxanqala, Govurqala kimi qala–şəhər məntəqələri fəaliyyət göstərib. Gəmiqaya rəsmləri kimi təsviri sənət abidələri, bədii tərtibatlı boyalı qablar, tunc məmulatları və sairə Naxçıvanın qədim tayfalarının həyat tərzini, dini-ideoloji və fəlsəfi-estetik dünyagörüşünü əks etdirərib.

Sonrakı dövrlərdə də Naxçıvan Şərqlə Qərb arasında mühüm karvan yolları üzərində yerləşən iri ticarət mərkəzinə çevrilib. Bu amil heç də bölgəyə həmişə xeyir-bərəkət, bolluq gətirməyib. Bu səbəbdən də uzun illər boyu o, döyüş meydanlarına çevrilib. Hətta qədim romalılar, parfiyalılar, sasanilər də neçə əsrlərlə bu torpağa göz tikiblər.

IX-XI əsrlərdə Azərbaycan feodal dövlətlərinin tərkibinə daxil olan Naxçıvan təkcə ayrılmaz parçası olduğu Azərbaycanın deyil, həm də Yaxın və Orta Şərqin gözəl və əzəmətli şəhərlərindən birinə çevrilir. O, böyük ticarət və sənaye, mədəniyyət mərkəzlərindən biri kimi şöhrət qazanır. XII əsrdə isə Naxçıvan Azərbaycanın Atabəylər-Eldəgizlər dövlətinin paytaxtına cevrildikdən sonra onun qüdrəti daha da artır. Regionda çoxəsrlik dövlətçilik ənənələrinin təməli də məhz o dövrdə qoyulur. Xalqımızın ümümmilli lideri Heydər Əliyev tariximizin tədqiqi, öyrənilməsi və təbliği sahəsində bu amillə bağlı qarşıda duran vəzifələri aydın və konkret şəkildə belə göstərib: "Bugünki Azərbaycanın böyük bir hissəsi, həm Naxçıvan tərəfdə olan hissəsi, həm də Araz çayının o tərəfindəki hissəsi Azərbaycan dövləti, Atabəylər dövləti olubdur. Ona görə də biz buna tarixi qiymət verməliyik".

## Orta əsr Naxçıvan memarlıq məktəbi və onun ilk əsəri

XII əsrdə Azərbaycan intibahı özünü iki zirvədə xüsusilə göstərə bilib: ədəbiyyat sahəsində və memarlıqda. Böyük rus şərqşünası Yevgeni Bertelsin belə bir fikri var: "Əgər dünyanın bütün dövrlərində yaşamış şairləri bir cərgəyə düzmək lazım gəlsə, mən birinci yeri tərəddüd etmədən Nizami Gəncəviyə verərdim". Sənətşünaslar isə belə deyirlər: Dahi Nizami poeziyada hansı zirvəni kəşf edə bilmişdirsə, Naxçıvan memarlıq məktəbi öz sahəsində ən yüksək zirvəyə qalxmışdır. Naxçıvan memarlıq məktəbi öz dövrünün ən yüksək nailiyyəti olmaq etibarı ilə Azərbaycan mədəniyyətinin qızıl fonduna daxil olub. O, türk, ərəb, səlcuq memarlıq xüsusiyyətlərinin əsas ştrixlərini özündə birləşdirərək heç bir mədəniyyəti təkrar etməyib.

Əcəmi Əbubəkr oğlu Naxçıvan memarlıq məktəbinin banisi və ən görkəmli nümayəndəsi olmaqla Qərb ölkələrində bu sənətin imzasıs olduğu bir dövrdə Şərq aləmində bir sıra şah əsərlərin müəllifi kimi tanınıb. Böyük rus alimi, akademik M. V. Alpatov onun yaradıcılığından söz açaraq deyib ki, "belə yüksək memarlıq forması duyğusuna, kompozisiyasının bu cür klassik bitkinliyinə və ifa mükəmməlliyinə bu dövrdə Orta Avropa memarlığında təsadüf olunmur".

Memar Əcəmi həm də öz zəmanəsinin elmi biliklərinə yiyələnmiş, hərtərəfli inkişaf etmiş bir şəxsiyyət olub. Bu məktəb Şərq dünyasına Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani kimi dahi memarlar, sənətkarlar bəxş edib. Bu dövrdə həndəsə və riyaziyyat elmləri də yüksək dərəcədə inkişaf etdiyindən bu elmi bilik və vərdişlərin tətbiq olunduğu sahələrdən biri də memarlıq olub.

Memar Əcəminin yaradıcılığında formalaşan memarlıq tiplərindən ən bitkini qülləvari türbələr olub. Ayrı-ayrı hüfuzlu şəxslərin xatirəsinə ucaldılan bu monumental abidələr el arasında uzun illər "Günbəz" adı ilə də tanınıblar. Naxçıvan şəhərinin mərkəzində yerləşən və yerli camaat arasında "Atababa künbəzi" adı ilə tanınan Yusif Küseyr oğlu türbəsi 1162-ci ildə inşa olunub. O, ustad memarın bu günümüzə gəlib catan ilk böyük əsəri olub. Sərdabə və yerüstü qülləvari hissədən ibarət olan bu abidənin kitabəsindədə onun kimin şərəfinə və hansı tarixdə inşa olunduğu da əksini tapıb: "Bu türbə xacə, canlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Kuseyir oğlunundur". Digər kitabədə isə onun "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli" sözləri yazılıb.

Şeyxlər başçısının türbəsi ikiqatlı olub, səkkizbucaqlı formadadır. Sərdabə yer altına salındığından türbə ətrafdan birqatlı qüllə kimi görünür. Abidə ilk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərinin incəliyi və harmonik gözəlliyi ilə seçilir. Əsas tikinti və bəzək hörgüsü kimi bir materialdan--bişmiş kərpicdən ustalıqla elə istifadə olunub ki, o da abidənin həndəsi biçiminin bütövlüyünü gücləndirməklə bərabər ona vahid, qırmızımtıl kalorit verir. Kompozisiyanın sadə olmasına baxmayaraq, bu abidə özünün düzgün münasibliyi, ornament bəzəyinin zənginliyi ilə də seçilir.

## Naxçıvanın "Tac -Mahalı"—Mömünə xatun məqbərəsi

Mömün xatunn məqbərəsini Naxçıvanın Tac-Mahalı adlandıranlar heç də yanılmırlar. Düzdür, Tac-Mahal Hindistanda yerləşir. Deylənə görə, orta əsrlərdə inşa olunan bu abidə oradakı memarlıq incilərini ən gözəlidir. Mömünə xatun türbəsi isə memar Əcəminin şah əsəri olmaqla Naxçıvanın gözəllik simvoluna çevrilib.

Təkcə Azərbaycanda deyil, islam ölkələrində də ən uca və incə kompozisiyalı türbələrindən olan bu abidənin belə uzunömürlüyü, ilk olaraq onun mühəndis həllinin bitkinliyi ilə bağlıdır. Memar Əcəmi bu əsərində təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik dühası nümayiş etdirə bilib. AMEA-nın müxbir üzvi,

memarlıq doktoru Cəfər Qiyasinin sözləri ilə desək, abidənin dayaq sistemi, xüsusi ilə sərdabəsinin quruluşu ilə tanışlıq əyani göstərir ki, naxçıvanlı memar öz sağlğında "mühəndislər başçısı"titulunu heç də nahaq yerə qazanmayıb.

Təbii ki, Azərbaycan Atabəylər dövləti tariximizin və varlığımızın ən parlaq səhifələrindən birini təşkil edib. Xalqımızın ümümmmilli lideri Heydər Əliyev Naxçıvan MR-in 75 illik yubiley tədbirləri çərçivəsində Mömünə xatun türbəsi muzeyinin ekspozisiyası ilə tanış olarkən bununla bağlı deyib ki, "bu abidə Atabəylər dövlətinin Azərbaycan dövlətçiliyini yüz illərlə dünyaya nümayiş etdirməsini, Atabəylər sülaləsinin, nəslinin Azərbaycan tarixində nə qədər böyük yer tutduğunu göstərir."

Əsrlər boyu yerli əhali arasında "Atabəy künbəzi" kimi tanınan bu məqbərə 1186-cı ildə inşa olunub. O. Azərbaycan Atabəylər dövlətinin banisi olan Şəmsəddin Eldənizin arvadı Mömünə xatunun şərəfinə ucaldılıb. Bəzi tədqiqatçılara görə, Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun həyat yoldaşı Mömünə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan da bu sərdabədə dəfn olunublar.

Ümümmilli liderimiz abidəni inşa etdirən adamlar haqqında da yüksək fikirlər söyləyərək onları müdrik insanlar adlandırıb. Deyib ki, "əgər o müdriklik, böyük zəka, ağıl olmasaydı, məsələn Şəmsəddin Eldəniz öz həyat yoldaşına bu cür türbənin yaradılmasına qərar qəbul etməzdi... O nəsil nə qədər ağıllı olubdur ki, onun oğlu bunu davam etdirib və bizim tariximizi göstərən bu qədər əzəmətli memarlıq abidəsi, tariximizi təsdiq edən abidə yaranıbdır".

Ümümi hündürlüyü 30 metrə yaxın olan tütrbə sərdabə və yerüstü hissədən ibarətdir. Sərdabə hissəsi planda on bucaqlıdır, orjinal quruluşlu olub, bədii baxımdan da zəngin tərtibata malikdir. Türbənin bucaqlarındakı sıxıntılar isə kufi xəttlə işlənmiş kitabələrlə örtülüb. Bu kitabələrin uzunluğu isə 500 metrə çatır. Mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılar onu daha da zənginləşdirilir.

Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçilik ənənələrini , onun yüksək mədəniyyətə malik olmasını da açıb göstərir. Abidənin baş tağında kufi xətlə yazılan bu sözlər də insanları xeyirxah əməllərə səsləyir: "Biz gedirik ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

## Qarabağlar-Elxanilər dövrünün məşhur şəhəri

Naxçıvanın memarlıq inciləri sırasında Kəngərli rayonunun Qarabağlar kəndindəki memarlıq kompleksi özünəməxsus yer tutur. Kompleks iki qoşa minarədən, 16 metr hündürlükdə olan türbədən ibarətdir. Minarə ilə türbənin üst qatı kaşı naxışlarla bəzədilib. Onların arasında qalan 15-20 metr məsafədə isə dini bina qalıqları var.

Dərələyəz dağ silsiləsinin yamaclarında yerləşən bu kəndin də uzaq keçmişi, qədim tarixi olub. Qalacıq deyilən ərazidə insanlar son tunc və ilk dəmir dövründə yaşayıblar. Yaşayış məskəninin adının etimologiysı ilə bağlı deyilənlər də maraqlıdır. Alimlərin fikrincə, Qarabağlar sözü qədim türk tayfası olan kəngərlərin bir qolunun adı ilə bağlı olub. Bu məlumat X əsr müəllifi Konstantin Baqruanarodnının Cənubi Rusiya çöllərində yaşayan peçeneq-kəngərlərin bir tayfasının qarabay adlanması barədə deyilənlərlə tam uzlaşır. Tariximizin orta əsrlər dövründə isə Qarabağlar Azərbaycanın qədim şəhərlərindən biri olub. Onun Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi edib.

Qarabağlar kəndindəki qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birlərinə bağayan baştağ isə XIV əsrdə inşa olunub. Baştağın üzərində Elxani hökmdarı Hülaki xanın arvadı Quti xatunun adı yazıldığından, onun şərəfinə tikildiyi güman edilir. Heç şübhəsiz ki, Hülaki xanı bu şəhərdə yaşayıb.

Sərdabə və yerüstü hissədən ibarət olan Qarabağlar türbəsində qülləvari türbələrin əsas xüsusiyyətləri əks olunub. Abidənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülüb. Türbənin səthi isə qırmızı və firuzəyi kaşılı kərpiclə örtülərək, həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilib. Kitabə qurşağı isə nəsx xəttlə işlənib. Onun memarlıqda başlıca kompozisiya xüsusiyyəti isə 4 baştağlı olmasıdır. Ayrı-ayrı qütblərdə yerləşən bu baştağlar ona dörd fasadlı görkəm verir.

Türbənin konus şəklində olan yuxarı künbəzi və müvafiq kitabələri dağıldığından onun tikilmə tarixini dəqiq müəyyən etmək mümkün olmayıb. Aparılan tədqiqatlar isə Bərdə türbəsi kimi onun XIV əsrin əvvəllərində tikildiyini göstərir. Bu türbələr arasında oxşarlıqlar da çoxdur.

XII əsr türk səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində Qarabağları meyvə bağları arasında yerləşən böyük şəhər kimi təsvir

edib. Onun fikrincə, o dövrdə burada 50 min adam yaşayırdı, çoxlu məscid, minarə, karvansara mövcud olubi.

## Araz çayı sahilində məğrur abidə

Culfa rayonu ərazisində yerləşən Gülüstan türbəsi memarlıq xüsusiyyətləri baxımından Naxçıvandakı qülləvari türbələr qrupuna daxil olan abidələrdən fərqlənir. Bu abidə ilk növbədə orta əsr Naxçıvan memarlığında əsas tikinti materiallarının yalnız kərpic və kaşıdan olmasını iddia edənlərin fikirlərini alt-üst edir. Türbənin 12 üzlü gövdəsi qırmızı tuf daşlarından, kürsüsü isə iri üzlük daş lövhələrindən inşa olunub. Digər qülləvari türbələr kimi bu abidədə iki hissədən ibarət olsa da, burada sərdabə qatı yerin üst qatında tikilib. Türbənin qülləvari tutumu ilə onu üzərində saxlayan kürsülüyün üzvi bağlılığı təmin edilib. Bu səbəbdən də inşa tarixindən neçə əsrlər ötməsinə baxmayaraq öz vüqarını hələ də saxlaya bilib.

Türbənin səthi daş üzərində həkk olunan qabartma həndəsi ornamentlərlə bəzədildiyindən o incə və zərif görünür. Halbuki Möminə xatun və Yusif Küseyr oğlu türbələrində bu cür ornamentlərdən istifadə olunmayıb. Bu ilk növbədə bu abidədə istifadə olunan tikinti materiallarının bu cür xassələrindən irəli gəlib. Abidənin üst çadır örtüyü bütövlükdə dağıdıldığından onun günbəzinin pramidal, yoxsa konus biçimli olması ətrafında mübahisələr hələ də davam edir. Abidədə epiqrafik materialın, daş kitabənin olmaması türbənin inşa tarixini qəqiqləşdirməyə imkan vermir. Onun kimin şərəfinə tikildiyi, memarının kim olması da hələlik bəlli deyil.

Möminə xatun məqbərəsinin təsiri ilə onun XIII əsrin əvvəllərində inşa olunduğu ehtimal olunur. Bu abidə də ölkəmizin iqtisadi qüdrətini göstərir.

## Çoxəsrlik dövlətçilik ənənələrimizin mühüm yadigarı

Ulu öndərin belə bir kəlamı da var: "Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar". Bu, ümummilli liderimiz tərəfindən Naxçıvan xanlığının 81 illik fəaliyyətinə verilən qiymət olub.

Naxçıvan xanlığının fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.O dövrdə Naxçıvana rəhbərlik etmiş xanlar içərisində

Kalbalı xanın, onun övladlarının xidmətləri xüsusilə qeyd edilməlidir. Xan Sarayı da məhz bu dövrdə inşa olunub.

1820-ci ildən sonra Kalbalı xanın oğlanları Ehsan xan və İsmayıl xan bu binada Naxçıvan xanlığını idarə etmişlər. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulmuşdur. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Bölmələr arasında daxili keşid yaradılıb.

Onu da qeyd edək ki, 9429 kvadratkilometr ərazini əhatə edən Naxçıvan xanlığı özünün dövlətçilik ənənələri, torpaqlarımızın qorunması ilə Azərbaycan dövlətçiliyinə çox böyük töhfələr vermişdir. Naxçıvan xanlığı ləğv olunduqdan sonra bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilmiş, 1918-20-ci illərdə isə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülmüşdür.

Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq Muxtar Respublika Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılıb. Xan Evi tək tanınan obyektdə böyük həcmdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. bərpaçı mütəxəssislər insafən bu sənət əsərinin ruhunu və nəfəsini düzgün duyaraq onun əvvəlki görkəmini qaytara biliblər.

## Memarlıq abidələrinə isti münasibət

Son on ildə Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirlərinin mühüm bir qolunu da xalqın keçmişinə mənsub olan hər qayanın, hər daşın tarixini yaşatmaq ideyası təşkil edib. Bir çox abidələrdə aparılan əsaslı təmir və yenidənqurma işləri aparılıb. Əlincəçay üzərindəki XIII – XIV əsrlərə aid edilən Xanəgah kompleksi də onlardan biri olub. Deyilənə görə, həmin xanəgahda ustad Nəsiminin müəllimi olan Fəzlullah Nəimi dəfn edilib.

Xanəgah əvəzinə "İmamzadə"lərin meydana gəlməsi Səfəvilər dövrü üçün xarakterik olub. Naxçıvan "İmamzadə"si isə bir kompleks kimi yaranmasını da XVII əsrə aid etmək olar. Son illər bu abidə-kompleksdə də əsaslı təmir işləri aparılıb, ora dindarların ixtiyarına verilib. XVIII əsrdə tkilməsi güman edilən Xan evində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra bu obyekt də şəhərin ən gözəl tikililərindən birinə çevriləcək. Naxçıvan şəhərində Buzxana kompleksi, Cümə və Zaviyyə məscidləri, İsmayılxan hamamı və digər obyektlərdə

də bərpaçı mütəxəssislər bu abidələrin nəfəsini, ruhunu tam duya biliblər.

Naxçıvan şəhərində Köhnə Qala deyilən ərazidə Nuh peyğəmbərin məzarüstü türbəsi bərpa edilib. İki hissədən – sərdabə və türbə hissədən ibarət olan səkkiz guşəli bu abidədə tikinti işləri yüksək zövqlə aparılıb. Kaşı daşlarla işlənən həndəsi ornamentlər abidəyə xüsusi yaraşıq verir. Türbənin çardaq hissəsi isə piramida şəkildə işlənib. Naxçıvan MR Nazirlər Kabineti yanında elmi-bərpa istehsalat idarəsinin bərpaçı mütəxəssisləri orta əsrlərdə məhşur olan Naxçıvan memarlıq məktəbinin müsbət ənənələrini yaşada biliblər. Onu da qüyd edək ki, bu abidə Muxtar Respublika Ali Məclisi Sədrinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncamına əsasən inşa olunub.

* * *

Təbii ki, əcdadlarımızın özlərindən sonar qoyub getdikləri bütün tarix və mədəniyyət abidələri bu yurdun Azərbaycançılıq möhürü olub. Bu abidələr təkcə varlığımızı və dövlətçiliyimizi yaşatmırlar, onlar həm də zaman-zaman ölkəmizin iqtisadi qüdrətini özlərində təcəssüm etdirirlər.

Görünür, Azərbaycan bu cəhətdən xoşbəxt ölkədir.

**"Mədəni maarif"**
**jurnalı, № 4, 2010-cu il**

## Naxçıvanda Nuh peyğəmbərin məzarüstü türbəsi

**“Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir”.**

**Heydər ƏLİYEV**

Bəlkə də sərlövhəyə çıxardığım bu sözlərə ilk baxışdan təəccüb edənlər də cox olacaq, kimi isə bu sətirlərin müəllifindən soruşacaq: Məgər bəşəriyyətin Adəm peyğəmbərdən (ə) sonra ikinci atası cayılan Nuh peyğəmbər (ə) bu torpaqda yaşayıbmı ki, orada da onun indi məzarüstü türbəsinin bərpasından söhbət getsin? Əslində bu cür düşünən insanları savadsızlıqda qınamaq da düzgün deyil. Çünki neçə-neçə on illər boyu biz doğma tariximizin öyrənilməsi, tədqiqi və təbliği ilə bağlı lazımi səviyyədə məşğul olmamışıq. Bir çox dövrlərdə isə özümüzü beynəlmiləl və vətənpərvər xalq, millət sayıb öz tarixi keçmişimizdən, varlığımızdan uzaq düşmüşük. O vaxt bu qəflət yuxusundan ayılmışıq ki, dünənə qədər bizim geniş və bərəkətli süfrələrimizin qırıntıları ilə öz qarınlarını doydurmağa çalışan bədnam erməni qonşularımız torpaqlarımıza göz dikiblər və sahib çıxmağa başlayıblar.

Elə bu yerdəcə ustad Üzeyir Hacıbəyovun ötən əsrin əvvəllərində qələmə aldığı “Nərdivan” felyetonu yadıma düşür. Böyük ustad ürək ağrısı ilə yazırdı: ”Qonşularımız siçan boyda iş görməyə başlayanda biz yatmışdıq. O vaxt oyandıq ki, onlar fil boyda iş görməyə başladılar. Gözlərimizi ovxalayıb dedik ki, biz də o boyda iş görə bilərik. Başladıq filin bir ayağını qayırmağa yorulduq, durub qaçdıq. Utandıq və yenidən işə başladıq. Amma bu dəfə fildən balaca olan dəvə boyda iş görməyi qərara aldıq. Ona da gücümüz çatmadı. Başladıq dəvədən balaca olan camış, eşşək, keçi, pişik boyda iş görməyə... Məsləhəti qoyduq siçanın üstünə, bu vaxt aramızdan bir pişik çıxdı və siçanı yedi. Biz belə iş görürük...”

Bunlara səbəb isə heç şübhəsiz ki, ilk növbədə unutqanlığımız, biganəliyimiz və laqeydliyimiz olub.

* * *

Milli özünü dərk prosesinin güclənməsi dünənimizə, keçmişimizə olan bağlılığımız xeyli artıb. Etiraf edək ki, bu sahədə xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olub. Düşüncə və təfəkkürümüzdə yaranan bu müsbət dəyişikliklərə görə də ilk növbədə özümüzü müdrik və uzaqgörən dövlət xadiminə borclu bilməliyik. Böyük öndər dönə-dönə deyirdi: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da..."

Son illər ana vətənimizin ayrılmaz bir parçası olan Naxçıvanda tariximizin tədqiqi, təbliği və öyrənilməsi istiqamətində bir çox işlər görülüb. Əslində bu işlər regionda aparılan genişmiqyaslı quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilib. Buna konkret misal olaraq Muxtar Respublika Ali Məclisi sədrinin imzaladığı bir neçə sərəncamı göstərmək olar: "Ordubad rayonunda Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" və "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında."

Onu da qeyd edək ki, ötən yaxın müddətdə burada bir neçə beynəlxalq əhəmiyyətli elmi-praktik konfrans və simpoziumlar da keçirilib, by mötəbər toplantılarda tariximizin indiyədək qaranlıq qalan ayrı-ayrı dövrlərinə və səhifələrinə işıq salınıb. Bu baxımdan ötən ilin ortalarında kecirilən "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" mövzusundakı konfrans kəsb etdiyi mənaya görə daha əhəmiyyətli olub. Bir sıra xarici ölkələrdən gəlmiş alimlərin də iştirak etdiyi bu konfransda ermənilərin "tarixi dəlillər"i alt-üst edilib. Mötəbər toplantıda səslənən müddəa və tövsiyələr muxtar respublika rəhbərliyi üçün də impuls olub. "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Ali Məclis Sədrinin imzaladığı sərəncam da məhz tarixçi alimlərimizin çoxsaylı sübut və dəlillərindən qaynaqlanıb...

Tarixdən bu həqiqət də bizə məlumdur ki, Naxçıvan torpağı məmləkətimiz üçün həmişə strateji əhəmiyyət kəsb edən bir bölgə olub. Ana vətənimizin bu günki varlığı, inkişafı da xeyli dərəcədə bu amildən asılı olub. Bu amillə biz ilk növbədə öz soy-kökümüzü, varlığımızı açıb ortaya qoya bilmişik, onunla haqlı olaraq sevinc və qürur hissi keçirmişik. Onunla da öyünmüşük ki, torpaqlarımızın ayrılmaz bir parçası olan bu diyar bəşər sivilizasiyasında həyatın, insan yaşayışının, ilkin

mədəniyyətin başlanğıc nöqtəsi kimi qəbul olunub. AMEA-nın müxbir üzvi, tarix elmləri doktoru, professor Yaqub Mahmudov da mötəbər toplantılarda dəfələrlə bəyan edib ki, "...bura ilk yerdir ki, planetimizdə həyat burada başlanıb, insan cəmiyyəti buradan formalaşıb". Bunlar isə o deməkolub ki, dünyanın ilk ibtidai məxluqu bu torpaqda yaşayıb. Bəlkə elə bu səbəbdən də zaman-zaman məkrli düşmənlərimiz bu torpağa göz tikiblər, ona sahib çıxmağa çalışıblar. Guya dünyada ilkin mədəniyyətin sahibi də onlar olublar.

Alimlər həmişə bu fikirdə olublar ki, Naxçıvanda hər daşın, hər qayanın altında bir tarix yatır. Bu tarixin başlanğıcı da məhz insan övladının meydana gəldiyi ilk dövrlərə aparıb çıxarır. O vaxta ki, hələ də planetdə sinifli cəmiyyət yaranmamışdı, insanlar daş mağaralarda yaşayırdılar. Qazma, Əshabi-Kəhf, Daşqala və Kilid mağaralarında qədim daş dövrünün insanları yaşayıblar. Eramızdan əvvəl dördüncü minilliyin sonu, ikinci minilliyin əvvəllərində isə Naxçıvan ərazisində Oğlanqala, Govurqala, Çalxanqala kimi qala-şəhər məntəqələri yaradılıb. Bu gün də onların izləri yaşayır.

Təbii ki, bu torpaqlarda yaşayan ilkin insanlar da bizim əcdadlarımız, ata-babalarımız olan qədim türk tayfaları olub. Amma çox təəssüf ki, qadir olduğumuz bu varlığı indiyə qədər lazımi sübut və dəlillərlə ortaya qoya bilməmişik.

* * *

Xalqımızın qədim tarixə malik olmasını sübut edən dəlillərdən birisi də qədim zamanlardan Naxçıvanda əhali arasında yayılan rəvayətlərlə bağlıdır. Bir rəvayətə görə, 7500 il bundan əvvəl baş vermiş ümümdünya tufanı zamanı Nuh peyğəmbər və ona iman gətirənlərin mindiyi nəhəng gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və burada məskən salmışdır. Əfsanəyə görə, bəşəriyyətdə yeni nəsil bu torpaqda törəyərək müxtəlif ölkələrə yayılmışdır.

Alimlər onu da sübut etmişlər ki, Nuhla bağlı bu rəvayətin ilk yazılı variantı eramızdan əvvəl ikinci minilliyin ortalarına gedib çıxan şumer əfsanəsi ilə bağlıdır. Şumer əfsanəsinin isə Naxçıvan şəhəri ilə bağlılığının elmi əsasları artıq sübut olunub. Deyilənə görə, bir vaxtlar Naxçıvan Makedoniya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx və yaxın əlaqələr şəraitində inkişaf edib.

...Şəhər adı kimi "Naxçıvan" toponimi də ən qədim dövrlərdən mövcud olub. Əldə olunan arxeoloji materiallara, Gəmiqaya qayaüstü rəsmlərinə, buradakı daş abidələrə və yazılı mənbələrə istinad edən

tədqiqatçı alimlər bu qərara gəliblər ki, Naxçıvan dünyanın ən qədim şəhərlərindən biri olub və onun 3500-4000 ildən artıq yaşı var.

Qədim yunan mənbələrində "Naksuana", ərəb-fars mənbələrində "Naxçuvan", "Nəxçəvan", "Naşəva", "Nəqşicahan" kimi adı çəkilən bu toponimin müxtəlif dövrlərdə müxtəlif yozumları olmuş, onun yaranmasının əsası kimi "Naxç" türk tayfa, elatlarının "Nahhunte" Allah adlarına istinad olunmuş, bir sıra tədqiqatçılar isə onu Nuh peyğəmbərin adı ilə bağlamışlar. Akademik B.Budaqovla tarix elmləri doktoru Q.Qeybullayev isə yunan alimi Klavdi Ptolomeyin "Coğrafi təlimnamə" əsərində adı çəkilən "Naksuana" sözünün yerli tələffüz formasından danışarkən qeyd ediblər ki, bu dildə "ç" şəkilçisi olmadığına görə müəllif onu "s" kimi səsləndirib. Bu mənada ilk dəfə yazılı mənbələrdə adı çəkilən Naksuana sözü də "Naxçuana" kimi ifadə olunub.

Həmin rəvayyətə görə, Kəmkir dağı əfsanəvi gəminin dayandığı ilk yer olub. Nuh peyğəmbər buradan Ağrıdağ istiqamətinə yola düşüb, oradan da Naxçıvan ərazisinə gəlib. Yolda bu gəmi Naxçıvanın indiki Culfa rayonu ərazisində olan İlanlı dağa toxunub. Nəhəng gəmi dağın zirvəsinə elə bir zərbə çalıb ki, o iki yerə haçalanıb. Elə o vaxtdan da bu dağ Haçadağ adlanıb.

Elə bu yerdəcə həssas və diqqətcil oxuculardan kimisə soruşa bilər: Neçə min il bundan əvvəl məlum əfsanə və rəvayətlərdən süzülüb gələn bilgilər həqiqətə nə dərəcədə uyğundur? Təbii ki, bir çox əfsanə və rəvayətlərin yaranması da artıq elmi əsaslarla sübut olunub. Naxçıvan ərazisində ümümdünya daşqını barədə geniş rəvayətlərin yayılması və yaşaması, eləcə də Nuhla bağlı yer adlarının çoxluq təşkil etmələri də bu varlığı təsdiq edir. Yer üzərində elə bir ərazi yoxdur ki, Nuhla bağlı toponomik vahid Naxçıvandakı qədər (Nuhdaban, Naxcıvan, Nəhəcir, Nehrəm və sair) çox olsun.

Naxçıvan MR Ali Məclisi Sədrinin imzaladığı Sərəncamda belə bir fikir də qeyd olunur ki, xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxcıvan şəhərinin cənubunda Nuhun, Şimal-Qərbində isə onun bacısının qəbri var. Bu isə o deməkdir ki, Nuh peyğəmbər də, onun ailə üzvləri də bir müddət bu torpaqda yaşayıblar.

* * *

Təbii ki, Muxtar Respublika Ali Məclisi Sədrinin imzaladığı bu hüquqi sənəd bir çox tutarlı elmi mənbələrə, sübut və dəlillərə əsaslanıb. Bunlar barəsində Sərəncamın giriş hissəsində də geniş danışılır. İlk növbədə X1X əsrin 80-ci illərində Naxçıvanda maarifçiliklə məşğul olan

K.A.Hikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsəri buna misal çəkilir. Bu kitabın bir yerində deyilir: "Əfsanəvi gəmi quruya çıxdıqdan sonra Nuh Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. Öz ailəsi ilə birlikdə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bldirən adı da buradan meydana gəlmişdir".

Müəllif Naxçıvanda Nuhun qəbrinin harada yerləşdiyini, cənazənin harada dəfn olunduğunu və onun üzərindəki türbənin hansı quruluşda olduğunu da təsvir edib: "Nuhun qəbri şəhərin cənub tərəfindən qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırki görkəmi səkkizinci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır... Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəsi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş daş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir".

Rus tədqiqatçısı V.M.Sisoyev isə Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkiz guşəli sütun olduğunu qeyd edib. XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin (ə) qəbrini, hətta gəmisinin qalıqlarının da Naxçıvanda olması barədə məlumat verib. Yəhidi alimi İosif Flavi də öz tədqiqatlarında Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab edib. Rus alimləri İ.M.Dyakanov Gəmiqaya qayaüstü rəsmlərindən danışarkən Naxçıvanın Nuhla bağlı məsələlərinə toxunub, K.İ.Simirnov isə Nuhun qəbrinin Naxçıvan şəhərinin cənub hissəsində olduğunu göstərib.

Bu mövzu o dövrdə ölkə ziyalılarının yaradıcılığında da öz əksini tapıb. Realist rəssamlıq məktəbimizin banisi olan Bəhruz Kəngərli Nuh peyğəmbərin (ə) Naxçıvandakı türbəsini düz altı dəfə naturadan kətan üzərinə köçürüb. Özü də ötən əsrin 20-ci illərində. Həmin nadir əsərlər indi qiymətli eksponatlar tək Naxçıvandakı mədəniyyət müəssisələrində - Dövlət Tarix Muzeyində və Bəhruz Kəngərlinin Ev Muzeyində nümayiş olunur.

Əlbəttə, bütün elmi dəlillər Nuh peyğəmbərin (ə) qəbrinin, eləcə də məzarüstü türbəsinin Naxçıvanda olmasını bir daha inandırıcı edir. Onda belə bir sual yarana bilər ki, əgər bu faktlar bu qədər inandırıcıdırsa, niyə bu abidə son vaxtlara qədər yaşamayıb? Sualın cavabı da qısadır: Sovet hakimiyyətinin ilk illərində həyata keçirilən ideoloji siyasət nəticəsində Naxçıvanın ən qədim dövrlərindən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə məhv edilib. Nuh peyğəmbərin (ə) məzarüstü türbəsi də onlardan biri olub.

Son illər Naxçıvanda doğma tariximizin öyrənilməsinə, tədqiqinə və təbliğinə olan maraq bu məsələni yenidən gündəmə gətirib. Bu səbəbdən də iki ilə yaxın bir müddətdə Naxçıvan şəhərində Köhnə Qala deyilən ərazidə Nuh peyğəmbərin məzarüstü türbəsi bərpa edilib. Üç hissədən – sərdabə, türbə və çardaq hissədən ibarət olan səkkiz guşəli bu abidədə Naxçıvan memarlıq məktəbinin ənənələri əsasında inşa olunub. Kaşı daşlarla işlənən həndəsi ornamentlər abidəyə xüsusi yaraşıq verir. Türbənin çardaq hissəsi isə piramidal şəkildə əlvan metallardan işlənib. Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsinin bərpaçı mütəxəssisləri 15 metr hündürlüyündə olan bu memarlıq incisinin ruhunu, nəfəsini tam duya biliblər.

* * *

Naxçıvanda Nuh Peyğəmbərin (ə) məzarüstü türbəsinin bərpa edilməsi, eləcə də 60-a yaxın dünya əhəmiyyətli tarixi abidənin mövcudluğu zaman-zaman torpaqlarımıza "sahib" çıxmağa çalışan erməni millətçilərinə qarşı ən tutarlı cavablardandır. Bu günlərdə Naxçıvan şəhərində bir çox xarici ölkələrin – Rusiyanın, Türkiyənin, İranın, Misirin nüfuzlu alimlərinin iştirakı ilə keçirilən "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumunda söylənilənlər də bu həqiqəti bir daha təsdiq etdi.

**"Kəlam" jurnalı,**
**№ 39, 2010-cu il**

## "Azərbaycanın incisi" və ya qoruq şəhəri olan Ordubad

**"Gəmiqaya təkcə təbiətin böyük bir abidəsi olmayıb, eyni zamanda min illərlə insan yaradıcılığının məhsuludur... Gəmiqayanın daşlarında Qobustan qayalarındakı kimi rəsmlər var. Orada insanların qoyduğu izlər var..."**

**Heydər ƏLİYEV**

Xalqımızın ümümmilli lideri Heydər Əliyev tərəfindən "Azərbaycanın incisi" adlandırılan Ordubad təkcə təbii gözəllikləri, relyefi, flora və faunası ilə öyünmür. Burada tarixilik baxımdan diqqəti cəlb edən qədim yurd yerləri və məskənlər, həmçinin tarixi abidələr rayonda məskunlaşmış etnosların yüksək mədəniyyətindən, mənəvi irsindən xəbər verir.

Qaynaqlarda Ordubad sözünün mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Əsasən bu adın qədim türk dillərində "xan duşərgəsi", "iqmətgah", "qərargah" mənalarında işlədilən "ordu" və "abad" sözlərinin birləşməsindən əmələ gəldiyi göstərilir. Keçmişdə şəhərin adı Orduvar şəklində qeydə alınıb. Mahmud Kaşğari bu sözü "xaqanın yaşadığı yer, iqamətgah" mənasında işlədib. Tədqiqatçı Ə.Hüseyni isə bu toponimin əvvəl "Orduvad" adlanıb, "Bəyin qalası" mənasını ifadə etdiyini bildirir. Onun fikrincə "Bəy qalası" sonralar böyüyərək şəhərə çevrilmişdir.

Yazılı qaynaqlarda Ordubadın orta əsrlərdə böyük şəhər oduğu göstərilir. Onun haqqında ərəb, türk, fars, gürcü, erməni və Avropa mənbələrində ətraflı məlumatlar verilir. Şəhərin salındığı tarix dəqiq müəyyənləşdirilməsə də onun adı ilk dəfə VII əsrə aid mənbələrdə çəkilir. Yepiskop Sebeos həmin dövrdə ərəb istilalarından danışarkən "işğalçıların buradan keçməsini" göstərmişdir. Səfəvi tarixçisi İsgəndər Münşi Ordubadın gözəl meyvə bağları ilə əhatə olunduğunu qeyd edir. XIX əsrdə yaşamış etnoqraf və tarixçi, milliyətcə fransız olan İ.İ. Şopen Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə həsr

etdiyi əsərində buranı "bütün Qafqazın ən şairənə, dilbər guşələrindən biri" adlandırır.

Bu böyük şəhər orta əsrlərdən ərazisinə görə "Ambaras", "Kürdata", "Üçtürləngə", "Mingis", "Sərşəhər" kimi bir neçə böyük məhəlləyə bölünüb. Ancaq onu da deyək ki, şəhərdə "Qaraçanaq", "Dilbər", "Əngəç", "Qarahovuz başı", "Əsgərxan", "Körpübaşı", "Bəylər", "Qoşqar" və bu kimi kiçik məhəllələr də mövcuddur.

Rayon ərazisi bəşər sivilzasiyasının ilkin insan məskənlərindən biridir. Buradakı Kilid mağarası daş dövrünün abidəsi olmaqla, o dövrdə insanların yaşayış yeri, sığınacağı olmuşdur.

Onu da deyək ki, rayon ərazisində qeydə alınan 292 abidənin hər biri tariximizin dərin və sirli qatlarından soraq verir. Bu abidələrdən dördü dünya əhəmiyyətli hesab olunur. Qeyd edək ki, Muncuqlutəpə nekropolu Dəmir dövrünə aid arxeoloji abidədir, Xaraba Gilan və Plovdağda isə e.ə. II-I minilliklərə aid mədəniyyət qalıqları ilə zəngin olan yaşayış yerləri və nekropollar üzə çıxarılıb.

* * *

Dünyanın müqəddəs panteonlarından sayılan, dəniz səviyyəsindən 3900 metrdən də artıq hündürlükdə yerləşən Qapıcıq dağının ətəyində, fantastik görünüşü ilə insanı heyrətə gətirən, Gəmiqaya abidəsi də Ordubad ərazisindədir. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, "o, təkcə təbiətin böyük bir abidəsi olmayıb, eyni zamanda min illərlə insan yaradıcılığının məhsuludur". Minlərlə qayaüstü rəsmlərin həkk olunduğu ərazidə qədim yurd yerlərinin qalıqları aşkara çıxarılıb. Sərt və sıldırım qayaların üzərində insan və müxtəlif heyvan rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, piktoqrafik xarekterli rəmzi işarələr və təsvirlər məharətlə həkk olunub. Türk xalqlarının totemlərlə bağlı təsvirləri də özünə geniş yer alıb. Səma cismləri ilə əlaqədar qazılmış təsvirlər ciddi maraq doğurur. Gəmiqaya təsvirləri eramızdan əvvəl VI-I minilliklərdə yaşamış tayfaların həyat tərzini və mədəni inkişaf yollarını hərtərəfli izləməyə imkan verir. O, bəşər sivilzasiyasının ikin yaşayış məskənlərindən biri sayılır. Məkrli erməni iddialarında Gəmiqayanın adının tez-tez çəkilməsi də onların bu torpağa və tarixə sahiblik iştahalarından irəli gəlir.

Gilançayın sahilində, təpələr və dağlar üzərində yerləşən Xaraba Gilan ərazisində antik dövrdə şəhər mədəniyyəti yaranmış, sonralar bu yaşayış yeri ölkəmizin mühüm ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevrilmişdir. Şəhər xarabalıqları yüz hektardan artıq ərazini əhatə

edir. Arxeoloji qazıntılar nəticəsində daş, çiy və bişmiş kərpicdən tikilmiş yaşayış evləri, karvansaralar, türbələr, məscid, habelə sənətkarlıq ocaqları və digər tikinti qalıqları aşkar edilmiş, XII-XIV əsrlərə aid gil qab və memarlıq fraqmentləri üzərində kufi, nəsx xətlərlə yazılara rast gəlinir.

Onu da deyək ki, Gilan sözünün etimologiyası haqqında da müxtəlif fikirlər səslənməkdədir. Bu söz qaynaqlarda "böyük", "möhtəşəm", "giləklərin yaşadığı yer" kimi göstərilsə də, böyük şərqşünas alim, akademik Bartold Gilan adının kadusi tayfalarının bir qolu olan "gellərin yaşadığı yer" mənasını ifadə etdiyini yazmışdır. Deyilənlərə görə, XIV əsrdə monqol istilaları zamanı şəhər büsbütün dağıdıldığından onun xarabalıqlarına yerli əhali tərəfindən Xaraba Gilan adı verilib.

* * *

Ordubad qədim zamanlardan Şərqin memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən tarixi abidələri ilə də məşhurdur. Bölgə ərazisindəki dünya əhəmiyyətli abidələrdən biri də orta əsr Ordubad şəhəri olub. Necə deyərlər, bütöv şəhər ərazisi arxeoloji abidə kimi qeydə alınıb. Əldə olunan maddi mədəniyyət nümunələri də orta əsrlərdən bəri formalaşan şəhər mədəniyyətindən xəbər verir. Arxeoloji abidənin xeyli hissəsi müasir tikililəri altında qasa da Came məscidinin təmiri zamanı üzə çıxarılan bir kitabə onun səkkizinci əsrdə mövcud olduğunu göstərib. Rayon mərkəzuində orta əsrlərə aid yaşayış evlərinin və memarlıq abidələrinin bir qismi isə bu günədək qalmaqdadır.

Özünəməxsus memarlıq quruluşu və tarixi abidələri ilə fərqlənən Ordubad 1977-ci ildə Azərbaycan hökumətinin qərarı ilə qoruq şəhərə çevrilib. O vaxt bu cür statusa malik olan yaşayış yerləri sırasında İçərişəhər, Şuşa və Şəki şəhərləri də olub. Onların hər birində də rayon və ya şəhər mədəniyyət şöbələrinin tabeliyində tarix-memarlıq qoruğu yaradılıb. Bu qoruqların qarşısında duran başlıca vəzifə isə ərazidəki abidələrinin mühafizəsi, onların təbliği ilə məşğul olmaqdan ibarət olub.

Rayon mərkəzinin ümumi panoramasını yaradan yaşayış binaları onu digər şəhərlərdən xeyli fərqləndirir. Küçələr boyu relyefdən asılı olaraq müxtəlif yüksəkliklərdə iki-üç, bəzən isə daha artıq meydan yerləşir. Hər bir meydan özündə bir sıra elementləri əhatə edir. Bura kiçik məhəllə məscidi, kəhrizlər və meydanı öz çətiri ilə örtən çinarlar aiddir. Qoşa qanadlı çinarlar, qiymətli su mənbəyi olan kəhrizlər də buranın qədim tarixindən soraq verir. İlk baxışdan sadə görünsə də mürəkkəb quruluşa, "unikal" hidrotexniki qurğulara malik kəhrizlər

əhalini təkcə içməli və təsərrüfat suyu ilə təmin etməmiş, həmçinin onlar memarlıq abidəsi kimi də tanınmışlar. Başqa bölgələrdən fərqli olaraq, burada kəhrizlər yeraltı tunellər şəklində tikilib. Onların bir çoxu isə qırx pillədir. Vaxtilə Qafqaza sürgün edilən böyük fransız yazıçı və səyyahı A.Düma bu gözəlliklərə heyran qaldığını bildirmişdir.

* * *

Ordubad şəhərində qürurla dayanan, qamətini itirməyən xeyli sayda tarixi-memarlıq abidələri var. Onların arasında məscidlər bir qədər çoxluq təşkil edir. Tariximizin orta dövrlərində yaradılan bu məscidlər yalnız namaz qılmaq üçün ibadətxana funksiyasını yerinə yetirməyib. Zaman keçdikcə məscidlər həm də sosial-siyasi və ideoloji mərkəzlərdən birinə çevrilib. Məscidlərdə tədris müəssisələrinin aşılması, onların mədəniyyət mərkəzləri funksiyalarını yerinə yetirməsi, dəftərxana işlərinin gürülməsi, eyni zamanda məhkəmələrin aparılması və ədəbi məclislərin də burada keçirilməsi deyilənləri sübutlayır. Məscidlər vaxtilə bir çox yerlərdə siyasi məsələlərin müzakirə edildiyi məşvərət məclisi rolunu da icra edib. Tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərlinin sözlərinə görə, orta əsrlərdə Came məscidlərində sosial və iqtisadi məsələlər həll olunmuş, sədəqə və hədiyyələr toplanılaraq elə oradaca ehtiyac içərisində yaşayanlara paylanmışdır.

Şəhərin mərkəzi meydanında, Bərəkə dağının sinəsində ucalan 7 min nəfərlik Cümə məscidi də bu cür funksiyaları yerinə yetirib. O əzəmətli və nadir memarlıq abidəsi kimi indi də qonaqları heyrətə salır. Memarlıq görkəmi ilə diqqəti cəlb edən obyekt XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə birləşdirir. Məscidin giriş qapısındakı lövhədə 1604-ci ildə Şah Abbasın nəsh xətlə farsca beş sətirlik fərmanının mətni yazılıb. Həmin fərmana əsasən qəsəbənin əhalisi bütün vergilərdən azad edilir.

Vaxtilə Ordubadın hakimi-kələntəri olan Həmzə bəy buranı özünün iqamətgahına çevirib. Məscidin yaxınlığında karvansaralar, dükanlar fəaliyyət göstərib. Obyektin daxilindəki həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. Ötən əsrin ilk illərində məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpic üzərindəki yazıdan onun əsasının 729-cu ildə qoyulduğu göstərilib. 1980-ci illərin sonlarında isə burada əsaslı təmir və bərpa işləri aparılıb.

Qədim şəhərin böyük ibadətxanalarından biri də Mingis məscididir. Mingis "min kəs" mənasındadır. Yəni həmin məsciddə min nəfər eyni

vaxtda ibadət edə, namaz qıla bilərmiş. Vaxtilə giriş qapısının baş tərəfində qoyulmuş lövhə üzərindəki kitabədən aydın olur ki, o, 1677-ci ildə Səfəvi hökmdarı I Şah Abbasın baş vəziri olan Hatəm bəy Ordubadinin qardaşı oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilmişdir. M.Hadinin atası da şah sarayında mühüm vəzifədə çalışıb. Zaman keçdikcə dağıntıya məruz qalan abidəyə 2001-ci ildə yeni nəfəs verilib.

Ambaras məscidi də Naxçıvan memarlıq məktəbinin ənənələri əsasında inşa olunub. Plan quruluşunun həllində, eləcə də fasad hissələrinin qurulmasında tətbiq olunan memarlıq kompozisiyası üsulları onun XVII-XVIII əsr tikililərinə uyğun gəldiyini göstərir. El arasında yerləşdiyi məhəllənin adı ilə adlandırılan Ambaras (yəni çoxlu ambarların yerləşdiyi məhəllə) məscidində tədqiq olunan kitabədən aydın olur ki, bu məscid XVII əsrdə Ağa Mirzə Cəfər adlı şəxs tərəfindən inşa etdirilib.

Malik İbrahim abidəsi isə bütöv bir abidə-kompleksdir. Burada məscidlə yanaşı pir, qəbirstanlıq da var. El arasında söylənilən fikrə görə, pirdəki qəbirdə şiələrin üçüncü imamı İmam Hüseynin Kərbəlada şəhid olmasından sonra onun qisasını almaq üçün VII əsrin sonlarından başlayan hərəkatın rəhbərlərindən biri olmuş sərkədə İbrahim Əjdərin oğlu Malik İbrahim burada dəfn olunub. Dini ədəbiyyatdan o da məlumdur ki, İbrahim Əjdər həlak oduqdan sonra onun övladları təqib olunmuş, bəziləri Azərbaycana gələrək məskən salmışlar. 2 hektardan artıq ərazini əhatə edən Malik İbrahim qəbirstanlığında bu gün də orta əsrlərə aid çoxlu sayda qəbirüstü xatirə abidələri qalmaqdadır.

İnşa tarixi 1714-cü ilə, Səfəvi hökmdarı Şah sultan Hüseynin hakimiyyəti dövrünə aid olunan Ordubad mədrəsəsi isə zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə orta əsrlərdə ölkəmizin ən mühüm mədəniyyət və təhsil müəssisələrindən biri olmuş, dövlət aparatının yüksək vəzifəli adamları tərəfindən himayə və idarə edilmişdir. Fəaliyyət göstərdiyi bütün dövrlərdə mədrəsə şəhərin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayıb. O, Naxçıvanda sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərib. Akademik Məşədi xanım Nemətin yazdıqlarına görə, orta əsrlərdə Ordubad şəhərindən çıxmış və "Ordubadi" nisbəsi ilə tanınmış bir sıra görkəmli şəxsiyyətlər də bu mədrəsədə təhsil almışlar. Onlardan biri də qüdrətli yazıçı-publisist və ictimai xadim olan Məmməd Səid Ordubadi olub.

* * *

Son illər regionların sosial-iqtisadi inkişafının Dövlət Prqoqramları çərçivəsində aparılan quruculuq tədbirləri Ordubadda memarlıq incilərini də ağuşuna alıb. Burada aparılan quruculuq işləri şəhərin əsas memarlıq üslubu saxlanılmaqla həyata keçirilir, tarixi-memarlıq abidələri bərpa edilir. Bərpa olunan tarixi-memarlıq abidələri ilə müasir abidələr vəhdət təşkil edir, rayon mərkəzinə xüsusi gözəllik gətirir. Bərpa və təmir işlərindən sonra istifadəyə verilən obyektlərdən biri "Qeysəriyyə" abidəsidir. O, XVII əsrə məxsus tikilidir. Ümümi sahəsi 540 kv. metr olan bu abidə mərkəzi səkkizbucaqlı zaldan, onun üzərini bağlayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən ibarətdir. Böyük günbəzdən və ona bitişik 16 kiçik günbəzdən ibarət olan bu bina gözəl memarlıq üslubunda tikilib. Abidənin bişmiş kərpicdən inşa olunmuş, günbəzi də daxil olmaqla ümümi hündürlüyü 8,5 metrdir.

Qeysəriyyə sözünün mənası şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədi ilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Sonrakı dövrlərdə bu abidə Zorxana kimi istifadə olunub. Burada idman yarışları keçirilərmiş. Zalın döşəməsi nisbətən aşağılı olduğu üşün döşək əvəzinə dağlardan yığılmış gəvən kollarını toplayıb üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan gələn pəhləvanlar yerli idmaçılarla birgə güclərini sınayarmışlar. Qalib gələnsə hökmdardan mükafat alarmış.

Qeysəriyyə çar Rusiyasının hakimiyyəti dövründə ipək arıyan sexə çevrilib. Sovet hakimiyyəti illərində isə binadan müxtəlif məqsədlərlə istifadə olunub. Bir hissəsi mağaza-anbar, mağaza, digər tərəfi isə aşxana kimi fəaliyyət göstərib. Ötən əsrin 70-ci illərinin axırlarında aparılan təmir-bərpa işlərindən sonra rayon-tarix diyarşünaslıq muzeyi burada fəaliyyət göstərib.

Ötən il aparılan əsaslı təmir və bərpa işləri isə abidənin əvvəlki görkəmini özünə qaytarıb. Binanın daxili naxışlı kərpiclə bəzədilmiş, 200 kvadratmetr sahədə şəbəkə sistemi, daxili divarları bərpa olunmuşdur. Ekspozisiya zalında müasir işıqlandırma sistemi yaradılıb. Hazırda muzeydə 3919 eksponat nümayiş olunur. Ordubadın qədim tarixini əks etdirən, arxeoloji qazıntılar nəticəsində tapılan mühüm elmi və tarixi əhəmiyyət kəsb edən əşyalar, dekorativ tətbiqi sənət nümunələri bura gələnlər tərəfindən maraqla qarşılanır. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş bölmədə Ulu öndərimizin həyat və fəaliyyətindən bəhs edən sənədlər, müxtəlif fotoşəkillər vardır. "Ordubadın görkəmli elm

xadimləri", "Ordubadın yetirmələri" bölmələrində üç yüz nəfərdən artıq görkəmli şəxs haqqında ətraflı məlumatlar verilir. Qeyd olunur ki, 150 nəfərdən şox elmlər doktoru, professor yetirən bölgənin 19 nəfər alimi AMEA-nın həqiqi üzvi seçilib. Yusif Məmmədəliyev, İsmayıl İbrahimov, Müzəffər Abutalıbov, Rəhim Rəhimov, Musa Rüstəmov, Əliqulu Fərəcov, Nəsib Məmmədov da bu cür elm xadimlərindəndir. Qüdrətli roman ustası M.S.Ordubadi, Əkrəm Əylisli, yazıçı-publisist Əvəz Sadıq, naşir Əjdər Xanbabayev, ilk türkoloq alimimiz Fərhad Zeynalov haqqında toplanan materiallar da muzeyə gələnlərdə xöş ovqat yaradır.

"Heç kim unudulmur. Hec nə yaddan çıxmır" adlı guşədə isə ikinci cahan müharibəsində şücaət göstərən ordubadlıların qəhrəmanlıqlarından danışılır. Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev, Buhenvaldın əfsanəvi döyüşçüsü Əkbər Ağayev, Polşada fəaliyyət göstərən "Avanqard" partizan dəstəsinin komandiri leytenant Məmmədhüseyn Kərimov, Mehdi Hüseynzazədinn "Ave" ləqəbli silahdaşı Əvəz Əliyev və başqaları da bu cür mərd, qorxmaz oğullardandır. Başqa bir sənəddən isə aydın olur ki, qələbə naminə Sura Sadıqova, Madər Nəsirova, Tutu və Sara Rəfiyeva kimi qəhrəman qızlar da odlu-alovlu döyüşlərdə kişilərlə çiyin-çiyinə döyüşüblər.

* * *

Rayonda tarixi abidələrin bərpası ilə yanaşı tədqiqinə də xüsusi diqqət göstərilir. Ötən il həyata keçirilən tədbirlər iki yeraltı abidəni üzə çıxardıb. Həmin abidələr XIX əsrin ikinci yarısında inşa olunub. Ordubadlı Mənsur Ağa tərəfindən inşa olunan binadan Çar Rusiyası dövründə poçt binası, Sovet hakimiyyəti illərində isə bir tərəfi poçt binası, digər tərəfi "Pionerlər evi" kimi istifadə edilib. Sonralar bu bina da boş qalmış, uçub-sökülmək təhlükəsi ilə üz-üzə dayanmışdır. Əsası təmir və bərpa işlərindən sonra sahəsi 114 kv. metr olan, dəhliz və iki otaqdan ibarət olan abidə yenidən həyata qaytarılıb. Bərpa işlərindən sonra burada kiçik xalçaçılıq sexi və foto-satış-sərgi salonu fəaliyyətə başlayıb. Xalçaçılıq sexində dörd nəfər işlə təmin olunub, onlar hədiyyəlik məhsullar istehsal edirlər. İstehsal olunan məhsulların bazar problemi də həllini tapıb.

İkinci yeraltı abidə isə iri torpaq mülkiyyətçisi Tağı Nağıyevin vəsaiti hesabına inşa olunub. Sovet dönəmində bu binada əvvəlcə yaşayış evi, ərzaq anbarı kimi istifadə edilib, XX əsrin ikinci yarısından isə musiqi məktəbi kimi fəaliyyət göstərib. Ötən əsrin 90-cı illərindən

baxımsızlıq ucbatından bu tikili də dağılmaq təhlükəsi ilə üzləşib. Amma nə yaxşı ki, aparılan genişmiqyaslı quruculuq tədbirləri bu abidəni də öz ağuşuna alıb. Hazırda burada xalq təbabəti mağazası ilə yanaşı, nəqqaş Cabir Cabbarovun dekorativ sənət nümunələrinin sərgi-satış salonu fəaliyyət göstərir.

Ötən il bərpaçı mütəxəssislər tərəfindən əvvəlki görkəminə qaytarılan binalardan biri də qədim məbəd binası olub. Ümumi sahəsi 110 kvadratmetr olan abidənin daxilində, qüllə və günbəzlərdə böyük həcmdə bərpa işləri aparılmış, fasad hissəsi üzlənmiş, ətrafı abadlaşdırılmışdır. Hazırda burada həvəskar fotoqraf Rasim Bədəlovun rayonun təbiətinə, tarixi abidələrin və indiki gözəllik ünvanlarına aid foto və rəsmləri nümayiş etdirilir.

Bölgədə tarixi abidələrin bərpası istiqamətində aparılan quruculuq tədbirləri bunlarla bitmir. XVIII əsrə aid edilən, ümümi sahəsi 483 kvadratmetr olan "Şərq hamamı"nda aparılan əsaslı təmir və yenidənqurma işləri də obyektə ikinci həyat bəxş edib. Obyekt iki zaldan, dörd otaqdan ibarətdir. Burada iki gümbəz vardır.

Böyük ədib, yazıçı-demokrat Məmməd Səid Ordubadinin, görkəmli alim Yusif Məmmədəliyevin ev muzeyləri i yenidən qurulub. Muzeylərin geniş ekzpozisiyasında mindən artıq eksponat nümayiş etdirilir. Şəhərin ayrı-ayrı məhəllələrində yerləşən 3 kəhrizdə aparılan təmir işləri də sakinlərin ürəyincə olub. Əhalinin içməli və suvarma suyuna olan tələbatı daha da yaxşılaşıb.

* * *

Bir sözlə, ümümmilli liderimiz tərəfindən "Azərbaycanın incisi" adlandırılan Ordubad təbiəti, relyefi, təbii abidələri ilə bərabər memarlıq inciləri ilə də öyünür.

**"Azərbaycan"**
**20 mart 2010-cu il**

## Naxçıvan buzxanası

**"Hər bir yay fəsli küçələrdə arabalarda, buz sallarını görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir"**

**Cəlil Məmmədquluzadə**

Orta əsrlərdən bütün Şərq aləmində məşhur olan Naxçıvan memarlıq məktəbi təkcə öz dövrlərinin görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılan türbələri - Mömünə xatun, Yusif Küseyiroğlu, Gülüstan, Qarabağlar abidələri ilə öyünməyib. Bu sırada dini binalar, mülki memarlıq abidələri də önəmli rol oynayır. Həmin abidələr də xalqımıza məxsus olan çoxəsrlik dövlətçilik ənənələrinin canlı yadigarlarına çevrilib. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək, bu abidələr təkcə memarlığın yox, həm də dövlətçiliyimizin nə qədər dərin köklərə malik olduğunu göstərir.

"Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı memarlıq abidəsi var. Onların hər biri Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir"- deyən ulu öndər böyük təəssüflə onu da qeyd etmişdir ki, hələ də bunlar haqqında sanballı tədqiqatlar hazırlanmayıb. Amma nə yaxşı ki, ötən illər ərzində böyük öndərin bu arzusu da artıq reallaşıb. "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" muxtar respublika Ali Məclisi sədri Vasif Talıbovun imzaladığı sərəncam əsasında isə 1157 abidə qeydə alınıb, onlardan 555-i dünya və ölkə əhəmiyyətli abidədir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən "Naxçıvan abidələri" ensiklopediyasının nəşr olunması ən vacib və gərəkli işlərdən biri olub.

Bir vaxtlar məxsus olduğu dövrlərin xeyirxah və imkanlı adamları tərəfindən inşa olunan bu tikililər - çoxaşırımlı və təkaşırımlı körpülər, karvansaralar, yeraltı hamamlar, bazar kompleksləri və digər obyektlər də tariximizin doğru-dürüst tədqiqində qiymətli mənbələrdir. Orta əsr səyyahları da öz əsərlərində bu abidələr haqqında heyranlıqla danışıblar. Övliyə Çələbi divarları, salon döşəməsi müxtəlif rəngli yaşəm mərməri

və qranit tavalarla örtülən Zal-paşa hamamından söz salarkən hətta belə bir ifadə də işlədib ki, "Naxçıvan özünün hamamları ilə bütün Şərqdə şöhrət qazanmışdır". Müəllif İranın şəhərlərindəki hamamlarla müqayisədə də üstünlüyü buradakı obyektlərə verib. Bunu burada suyun keyfiyyəti və xidmətin yüksək səviyyəsi ilə əlaqələndirib.

* * *

Mülki memarlıq abidələri sırasına daxil olan və ölkə əhəmiyyətli sayılan obyektlərdən biri Naxçıvan şəhərindəki Buzxana abidəsidir. O abidə ki, bu təmayüldə ölkəmizdə qeydə alınan ən böyük tikilidir. 20 metr uzunluğunda və 8 metr enində olan bu abidə ilk baxışdan bir mərtəbəli binanı xatırlatsa da, onun ümumi hündürlüyü 9,6 metrdir. Dam örtüyünün üzərində isə altı kiçik günbəz ucaldılıb.

Başlıca məziyyəti heç də onun böyük ölçülərə malik olmasında deyil. Memar, mütəxəssis dili ilə desək, yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa yüngül və dinamik konstruksiya sxemi üzərində yaradılması abidənin səciyyəvi cəhətlərindəndir. Təxminən hər üç metrdən bir qurulan çatmavari tağlararası boşluq çatma tağbəndlərlə örtülüb. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilib. Binanın örtük hissəsinin kərpic hissələrindən göründüyü kimi, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və onlar balaca tağbəndlərlə tamamlanır. Balaca tağbəndlər isə binanın əsas oxu boyu yerləşdirilib.

Onu da qeyd edək ki, bu cür oxşar konstruksiyadan Ordubad şəhərindəki Buzxanada da istifadə olunub. Hətta o dövrdə Təbriz və Ərdəbildə inşa olunan bazar komplekslərinin örtülü keçidləri də bunun oxşarıdır. Bu da, ilk növbədə XII-XIV əsrlərdə mövcud olan Naxçıvan memarlıq məktəbinin geniş əhatə dairəsi ilə bağlı olub. Heç şübhəsiz ki, bu məktəbin təməli də ondan bir qədər əvvəl, daha doğrusu XI əsrin ortalarında, Alp Arslanın hakimiyyəti dövründə qoyulub. Haqqında söhbət açdığımız Buzxana kompleksi də regionda ticarət məqsədi ilə inşa olunan obyektlərdən biri olub.

Obyektin inşa tarixi barədə söylənilən mülahizələr bir qədər fərqlidir. Tədqiqatçıların bir qisminin fikrincə, o, orta əsrlər Naxçıvan memarlıq məktəbinin inkişaf etdiyi və çiçəkləndiyi dövrdə inşa olunub. O dövrdə ki, Naxçıvan Atabəylər-Eldəgizlər dövlətinin paytaxtı olduqdan sonra bu şəhər bədii-memarlıq mərkəzi kimi də xeyli təşəkkül tapıb. Həmin dövrdə bölgədə mövcud olan Naxçıvan, Culfa və Ordubad

şəhərləri Yaxın və Orta Şərqdə böyük ticarət və sənət mərkəzləri kimi şöhrət qazanıblar. XIV əsrdə məşhur olan Təbriz minatür sənəti də elə bu məktəbdən qaynaqlanıb.

Azərbaycan memarlığında Naxçıvan məktəbi abidələrinin yorulmaz tədqiqatçılarından olan akademik Ə.Salamzadə ilə sənətşünaslıq doktoru K. Məmmədzadənin qənaətləri bundan ibarət olub ki, Buzxana obyekti də XIV əsrin əvvəllərində inşa olunub. Amma onun XVII əsrdə Şah Abbasın hakimiyyəti dövründə inşa olunduğunu deyənlər də vardır. O ki qaldı bu buzxanadan, necə və hansı məqsədlə istifadə olunmasına, bu barədə Naxçıvan Elmi-Bərpa İstehsalat İdarəsinin direktoru, muxtar respublikanın əməkdar memarı Arif Əzizovun dedikləri də maraqlıdır. Onun fikrincə, tarixən buzxanalar çay kənarlarında inşa olunub. Qışın sərt şaxtalarında çayın suyu həmin obyektin qarşısındakı xüsusi meydançada dondurulduqdan sonra iri parçalar şəklində doğranıb binanın yerin səthindən dörd-beş metr aşağıda olan buzxana hissəsinə yığılardı. Havalanma sisteminin düzgün qurulması isti yay günlərində buz ehtiyatından səmərəli istifadə etməyə imkan verərdi. Ondan daha çox ticarətdə, ərzaq məhsullarının saxlanılmasında və digər məqsədlər üşün istifadə olunardı.

* * *

Böyük ədib, yazıcı-demokrat Mirzə Cəlilin uşaqlıq və yeniyetməlik dövrünün təəssüratları altında qələmə aldığı "Buz" hekayəsindən də aydın olur ki, XIX əsrin axırları, XX əsrin əvvəllərində də Naxçıvan şəhərinin bazarlarında, küçə və meydanlarında buz satışı təşkil olunardı və adamlar ondan müxtəlif məqsədlər üçün istifadə edərdilər. "Hər bir yay fəsli küçələrdə arabalarda, buz sallarını görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir" - deyən müəllif onu da bildirir ki, bu nemətdən - "ağ və təmiz duru buz kərpiclərindən" təbabətdə də geniş istifadə olunurmuş.

Son illərdə muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri memarlıq abidələrini də öz ağuşuna alıb. Naxçıvan Buzxana kompleksində aparılan bərpa və təmir işləri onu uçub-dağılmaq təhlükəsindən xilas edib. Səkkiz il bundan əvvəl Naxçıvandakı Elmi-Bərpa İstehsalat İdarəsinin bərpaçı mütəxəssisləri insafən bu sənət əsərinin ruhunu və nəfəsini düzgün duyaraq onun əvvəlki görkəmini qaytara biliblər.

**"Azərbaycan",**
**5 mart 2009-cu il**

## Qarabağların daş yaddaşı

**"Mömünə Xatun məqbərəsi, Yusif ibn Kuseyir, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr-bunların hamısı Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb-yaratdıqlarını göstərir".**

**Heydər ƏLİYEV**

Naxçıvanın memarlıq inciləri sırasında Kəngərli rayonunun Qarabağlar kəndindəki memarlıq kompleksi özünəməxsus yer tutur. Kompleks iki qoşa minarədən, 16 metr hündürlükdə olan türbədən ibarətdir. Minarə ilə türbənin üst qatı kaşı naxışlarla bəzədilib. Onların arasında qalan 15-20 metr məsafədə isə sıradan çıxmış məbəd qalıqları var.

* * *

Hər dəfə Qarabağlar kəndinə yolum düşəndə bərpaçı Həbib ustanı xatırlayıram. Sanki xeyirxahlıq üçün dünyaya gəlmişdi. Maraqlı peşə sahibi idi. İyirmi ilə yaxın müddətdə dağılmaqda olan abidələrimizin ruhu ilə yaşayıb, onlara yeni nəfəs verməyə çalışıb. Bir vaxtlar yazıçı Anar da onun Naxçıvan memarlıq məktəbinin qanlarla, genlərlə keçən yaşarı ənənələrindən qidalanmasından heyrətə gəlib, haqqında xeyli xoş sözlər yazıb.

Həbib mahir sənətkar idi. Ötən əsrin 80-ci illərinin axırlarında möhtəşəm və qiymətli Qarabağlar abidələrinin bərpası da ona həvalə edilmişdi. O, burada da hördüyü muncuq-muncuq kərpiclərlə, saldığı zərif naxışlarla dahi memarların dəst-xəttini olduğu kimi təkrarlayırdı...

* * *

Dərələyəz dağ silsiləsinin yamaclarında maili istiqamətdə yerləşən Qarabağlar kəndinin qədim tarixi var. Kəndin şimal-şərqində Qalacıq deyilən ərazidə insanlar eramızdan əvvəl ikinci minilliyin sonu və birinci

minilliyin əvvəllərində yaşayıblar. Elə o dövrlərdə də böyük yaşayış məskəni olub, 30 hektara yaxın ərazini əhatə edib. Govurqalada aparılan arxeoloji qazıntılar nəticəsində çoxlu sayda maddi-mədəniyyət nümunələri, daş kürzlər, tunc bəzək əşyaları, monoxrom naxışlı boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və oval şəkilli bina qalıqları aşkara çıxarılıb. Hamısı da son tunc və ilk dəmir dövrünə aid olub. Bu faktlar təsdiqləyir ki, təxminən dörd min il bundan əvvəl bu kənd əcdadlarımızın ilkin yaşayış yerlərindən biri olub.

Yaşayış məskəninin adının etimologiyası ilə bağlı deyilənlər də maraqlıdır. Alimlərin fikrincə, Qarabağlar sözü qədim türk tayfası olan kəngərlərin bir qolunun adı ilə bağlıdır. Deyilənə görə, XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan döyüşkən tayfa kimi ad çıxarmış kəngərlilərin bir hissəsini Naxçıvandan Qarabağa köçürüb. Çox ehtimal ki, tarixi mənbələrdə adıçəkilən "Qarabay" tayfasının nümayəndələri da onların arasında olub.

Tariximizin orta əsrlər dövründə isə dağların yamaclarına sığınan Qarabağlar Azərbaycanın qədim şəhərlərindən biridir.

Qarabağlar türbəsi də təkcə orta əsrlərə aid memarlıq abidəsi olmayıb. O da çoxəsrlik dövlətçilik ənənələrimizin yadigarlarından birinə çevrilib. 1256-1357-ci illərdə fəaliyyət göstərən Elxanilərin hökmdarlığı dövründə inşa olunan abidələrdən biri olub.

Digər yerlərdən fərqli olaraq, türbə memarlıq kompleksinə aiddir. Burada qoşa minarə və məbəd qalıqları da var. Qoşa minarənin XII əsrin sonu XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birlərinə bağlayan baştağ isə XIV əsrdə inşa olunub. Baştağın üzərində Elxanilər dövlətinin siyasi, iqtisadi və mədəni həyatının dirçəlişində mühüm rol oynayan Quti xatunun şərəfinə tikilib. Quti xatun Elxanilər sülaləsinin və dövlətinin banisi olan Hülaki xanın arvadı, elxanilərin üçüncü hökmdarı Əhməd Teykudarın anası olmuşdur. Şübhəsiz ki, o dövrdə Qarabağlar hökmdarlığın əsas ictimai-siyasi mərkəzlərindən biri olub.

Sərdabə və yerüstü hissədən ibarət olan Qarabağlar türbəsində qülləvari türbələrin əsas xüsusiyyətləri əks olunub. Abidənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülüb. Türbənin səthi isə qırmızı və firuzəyi kaşılı kərpiclə örtülərək həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilib. Kitabə qurşağı isə nəsx xəttlə işlənib. Onun memarlıqda başlıca kompozisiya xüsusiyyəti isə 4 baştağlı olmasıdır. Ayrı-ayrı qütblərdə yerləşən bu baştağlar ona dörd fasadlı görkəm verir.

Türbənin konus şəklində olan yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından onun tikilmə tarixini dəqiq müəyyən etmək mümkün olmayıb. Aparılan tədqiqatlar isə Bərdə türbəsi kimi onun XIV əsrin əvvəllərində tikildiyini göstərir. Bu türbələr arasında oxşarlıqlar da çoxdur. Aydın duyulur ki, o dövrdə bu ərazilər bir dövlətin tərkibində olub.

XVIII əsrdə yaşayan məşhur türk səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində Qarabağları meyvə bağları arasında yerləşən böyük şəhər kimi təsvir edib. Onun sözlərinə görə, o dövrdə burada təxminən 50 min adam yaşayıb...

* * *

Sonrakı yüzilliklərdə baş verən müharibələr və daxili çəkişmələr nəticəsində bu şəhər də tənəzzül edib. Hətta XX əsrin əvvəllərində burada cəmi 2 min nəfər əhalinin yaşaması da tarixi sənədlərdə əksini tapıb. Əsrin sonlarında isə burada yaşayan əhalinin sayı yenə də xeyli artıb. Hazırda isə o, Kəngərli rayonunun ən böyük yaşayış məskəninə çevrilib. Muxtar respublikada aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri bu kəndi də öz əhatəsinə alıb. Memarlıq kompleksində konservasiya işlərinin görülməsi də həyata keçirilən mühüm tədbirlərdən biridir. Başlıcası isə rayon mərkəzi olan Qıvraq qəsəbəsindən Qarabağlara uzanan avtomobil yolu boyunca geniş həcmdə yaşıllıq zolaqları salınıb.

**“Azərbaycan”,**
**1 fevral 2009-cu il**

## Xan Sarayı – yenidən qurulan və gözəlləşən abidə

**"Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar".**

**Heydər ƏLİYEV**

Ulu öndər Heydər Əliyev Naxçıvan şəhərində Mömünə xatun məqbərəsini ziyarət edərkən bu sözləri söyləyib: "Elə XX əsri götürün. Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, çünki imkanları yoxdur... Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması barədə qərar qəbul edə bilərdilərmi?»

"Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Muxtar Respublika Ali Məclisi Sədrinin imzaladığı sərəncam əsasında burada xeyli iş görülüb. Naxçıvanda 1157 abidə qeydə alınıb, onlardan 56-sı isə dünya əhəmiyyətlidir. Hər biri də xalqımızın zəngin və çoxəsrlik dövlətçilik ənənələrini özündə yaşadan memarlıq inciləridir. Onlar tariximizin on ikinci yüzilliyindən başlayaraq bu günümüzə qədər ayrı-ayrı dövrlərdə, məqamlarda inşa olunublar, iqtisadi qüdrətimizi, gücümüzü, varlığımızı, milli dövlətçiliyimizi dünyanın yaxın-uzaq ölkələrinə tanıdıblar.

Əslinə qalsa tarixi və memarlıq abidələrimizin bərpası istiqamətində həyata keçirilən indiki tədbirlər də xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikanın uzun müddət üçün işlənib hazırlanmış inkişaf strategiyasından qaynaqlanıb. AMEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunan geniş müşavirədə "Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var... Onların hər biri Azərbaycan

xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir"- deyən ulu öndər böyük təəssüflə onu da qeyd edirdi ki, hələ də bunlar haqqında tarixi mənbələr və toplular yoxdur.

* * *

Naxçıvanda hər daşın, hər qayanın altında bir tarix yatır. Bu yaxınlarda bölgədə keçirilən mötəbər elmi toplantıda-- beynəlxalq simpoziumda iştirak edən mütəxəssislərin yekun rəyləri də bundan ibarət olub ki məmləkətimizin ayrılmaz bir parçası olan bu diyar bəşər sivilzasiyasının, mədəniyyətinin ən başlanğıc nöqtələrindən biridir. Bu qədim və keşməkeşli tarixi isə sübut edən mənbələr, amillər də çoxdur: ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri olan memarlıq inciləri...

Qazma, Əshabi-kəhf, Kilid mağaralarında daş dövrü mədəniyyətinin izləri aşkar olunub. Bu yerlərdə insanlar ibtidai icma dövründə yaşayıblar. Eramızdan əvvəl dördüncü minilliyin sonu və ikinci minilliyin əvvəllərində isə Naxçıvan ərazisində Oğlanqala, Qarabağlar, Çalxanqala, Govurqala kimi qala–şəhər məntəqələri fəaliyyət göstərib. Gəmiqaya rəsmləri kimi təsviri sənət abidələri, bədii tərtibatlı boyalı qablar, tunc məmulatları və sairə Naxçıvanın qədim tayfalarının həyat tərzini, dini-ideoloji və fəlsəfi-estetik dünyagörüşünü əks etdirir.

IX-XI əsrlərdə Azərbaycan feodal dövlətlərinin tərkibinə daxil olan Naxçıvan təkcə ayrılmaz parçası olduğu Azərbaycanın deyil, həm də Yaxın və Orta Şərqin gözəl və əzəmətli şəhərlərindən birinə çevrilir. O, böyük ticarət və sənaye, mədəniyyət mərkəzlərindən biri kimi şöhrət qazanır. XII əsrdə isə Naxçıvan Azərbaycanın Atabəylər--Eldəgizlər dövlətinin paytaxtına cevrildikdən sonra onun qüdrəti daha da artır. Regionda çoxəsrlik dövlətçilik ənənələrinin təməli də məhz o dövrdə qoyulur. Xalqımızın ümümmilli lideri Heydər Əliyev tariximizin tədqiqi, öyrənilməsi və təbliği sahəsində bu amillə bağlı qarşıda duran vəzifələri aydın və konkret şəkildə göstərirdi: "Bugünki Azərbaycanın böyük bir hissəsi, həm Naxçıvan tərəfdə olan hissəsi, həm də Araz çayının o tərəfindəki hissəsi Azərbaycan dövləti, Atabəylər dövləti olubdur. Ona görə də biz buna tarixi qiymət verməliyik".

* * *

Təbii ki, Azərbaycan Atabəylər dövləti tariximizin və varlığımızın ən parlaq səhifələrindən birini təşkil edib. Xalqımızın ümümmmilli lideri Heydər Əliyev Naxçıvan MR-in 75 illik yubiley tədbirləri çərçivəsində Mömünə xatun türbəsi muzeyinin ekspozisiyası ilə tanış olarkən bununla bağlı deyib: "bu abidə Atabəylər dövlətinin Azərbaycan dövlətçiliyini yüz illərlə dünyaya nümayiş etdirməsini, Atabəylər sülaləsinin, nəslinin Azərbaycan tarixində nə qədər böyük yer tutduğunu göstərir."

Ulu öndərin belə bir kəlamı da yaddaşlarda yaşayır: "Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar". Bu, ümummilli liderimiz tərəfindən Naxçıvan xanlığının 81 illik fəaliyyətinə verilən qiymət olub.

Naxçıvan xanlığının əsası 1747-ci ildə Heydərqulu xan tərəfindən qoyulmuş, 1828-ci il fevral ayının 10-da imzalanmış Türkmənçay sülh müqaviləsi ilə fəaliyyəti dayandırılmışdır. 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqları rəsmi şəkildə ləğv edilərək Rusiyanın tərkibinə qatılmışdır.

Naxçıvan xanlığının fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. O dövrdə Naxçıvana rəhbərlik etmiş xanlar içərisində Kalbalı xanın, onun övladlarının xidmətləri xüsusilə qeyd edilməlidir. Xan sarayı da məhz bu dövrdə inşa olunub.

1820-ci ildən sonra Kalbalı xanın oğlanları Ehsan xan və İsmayıl xan bu binada Naxçıvan xanlığını idarə etmişlər. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulmuşdur. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Bölmələr arasında daxili keçid yaradılıb.

Onu da qeyd edıək ki, 9429 kvadratkilometr ərazini əhatə edən Naxçıvan xanlığı özünün dövlətçilik ənənələri, torpaqlarımızın qorunması ilə Azərbaycan dövlətçiliyinə çox böyük töhfələr vermişdir. Naxçıvan xanlığı ləğv olunduqdan sonra bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilmiş, 1918-20-ci illərdə isə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülmüşdür. Xan Sarayı müxtəlif dövrlərdə baxımsız vəziyyətə düşsə də, qorunub saxlanılmışdır. Son illərə qədər burada Xalça muzeyi fəaliyyət göstərmişdir.

* * *

Naxçıvan xanlığının fəaliyyəti təkcə siyasi müstəvidə Azərbaycan dövlətçiliyinə verdiyi töhfələrlə bitmir. Eyni zamanda, Naxçıvan xanlığı böyük dövlət xadimləri, sərkərdələr yetişdirmişdir. Tək bir nəsildən 6 generalın, bir çox ictimai xadimin yetişməsi bu sülalənin- Kəngərlilərin Azərbaycanın tarixində nə qədər böyük yeri və rolu olduğunun göstəricisidir.

Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq Muxtar Respublika Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılıb. İndiyədək Xan Evinin tanınan sarayda böyük həcmdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Gəmiqaya MMC-nin bərpaçı mütəxəssisləri bu tarixi binanın ruhunu və nəfəsini düzgün qiymətləndirərək onun əvvəlki görkəmini bərpa edə biliblər. Muxtar Respublikanın elmi ictimaiyyəti də bu tədbirdə yaxından iştirak edib. Az vaxt ərzində müəssisənin normal fəaliyyəti üçün lazımi arxiv materialları və digər sənədlər toplanaraq muzeyə təhvil verilib.

Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 300-dən çox eksponat nümayiş olunur. Eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər çoxluq təşkil edir. Naxçıvan xanlarının şəcərə cədvəli, Naxçıvan xanlığının xəritəsi də tamaşaçılar tərəfindən maraqla qarşılanır. Burada nümayiş etdirilən müxtəlif kitablarda Naxçıvan xanlığının tarixi barədə ətraflı məlumatlar verilir.

Xan Sarayının qarşısındakı yardımçı binalarda isə hədiyyələr mağazası və qədim musiqi alətlərinin hazırlanması sexi fəaliyyətə başlayıb. Keçmişdə bu otaqlardan saray xidmətçilərinin yaşayış yeri, ərzaq anbarı və mətbəx kimi istifadə olunurmuş. Sarayın həyətinə giriş portalı da burada yerləşir. O sferik günbəzlə örtülmüş vestübüldən keşir. Hədiyyələr mağazasında müxtəlif əl işləri, regionun tarixindən bəhs edən kitablar, onun təbiətinin, təbiət və memarlıq abidələrinin əks olunduğu bukletlər satılır. Ən çox satılan hədiyylər isə Naxçıvanın tarixi abidələrinin əks olunduğu maketlərdir.

Binada muzey işçiləri üçün normal iş otaqları ayrılmış, binanın daxili və fasadı milli ornamentlərlə bəzədilmiş, həyətdə geniş abadlıq işləri aparılmış, oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi yaradılmışdır.

**"Azərbaycan",**
**12 mart 2011-ci il**

## Açıq səma altında muzey

**"Naxçıvanın tarixini tarixçilər müxtəlif cür deyirlər... Sadəcə tarixçilər, arxeolaqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar".**

**Heydər ƏLİYEV**

Burada nümayiş etdirilən eksponatlar tariximizin dərin qatlarından soraq verir. Elə götürək Gəmiqaya arxeoloji abidəsindən gətirilən daş parçasını. Yazının, əlifbanın meydana gəlmədiyi dövrdə bu daş parçasının üzərində qayaüstü təsvirlər öz əksini tapıb. Tədqiqatçı alimlərin fikrincə, eramızdan əvvəl üçüncü minillikdə Gəmiqaya əcdadlarımızın ilkin yaşayış məskənlərindən biri olub, burada tunc dövrünün insanları yaşayıblar. Əldə olunan çoxsaylı maddi-mədəniyyət nümunələri bu deyilənləri təsdiqləyib.

Eksponatlar arasında memorial xatirə abidələri mühüm yer tutur. Onlardan biri də menhir adlı maddi mədəniyyət nümunəsidir. O, xalqımıza məxsus ən qədim qəbirüstü xatirə abidəsi sayılır. Qəbilə quruluşu dövrünün məhsulu olan bu abidə qəbir üzərində dik basdırılmış heykələ bənzəyir. Adətən bu cür daşlar qəbilə başçılarının qəbirləri üzərində qoyulub. Əcdadlarımızın dini inanclarına görə, ölən adamın ruhu bədəni tərk edəndən sonra həmin daşda əbədi yaşayırdı.

On üç əsr bundan əvvələ aid edilən daş türbə də diqqəti cəlb edir. Səkkizguşəli bu mahir daşyonma əsəri orta əsrlərdə məşhur olan Naxçıvan memarlıq məktəbinin incilərini xatırladır. Maraqlı eksponatlardan biri isə çəkisi 5 ton ağırlığında olan dəyirman daşıdır. Bu daş bir vaxtlar Culfa rayonunun Bənənyar kəndində su dəyirmanının əsas avadanlıqlarından biri olub. El arasında ona "bərəkət daşı" da deyilib.

Təbii ki, 2,5 hektara yaxın ərazini əhatə edən Açıq səma altında muzeydə nümayiş etdirilən eksponatların hamısını bir cəhət birləşdirir. Müxtəlif növdə və rəngli daşlardan hazırlanmış, yonulmuş sənət nümunələridir. Muzey muxtar respublika Ali Məclisi Sədrinin xüsusi sərəncamı əsasında yaradılıb. Ötən yeddi il ərzində də burada

eksponatların sayı 84-dən 300-dək artırılıb. Başlıca məqsəd də doğma tariximizin tədqiqinə, təbliğinə və öyrənilməsinə yönəldilib. İnsafən, son illərdə bu istiqamətdə çoxlu işlər də görülüb. Bölgənin tarixinin öyrənilməsi ilə bağlı onlarla elmi tədqiqat işləri aparılıb.

Eksponatlar arasında müxtəlif ölçüdə və formada daş qoç və qoyun fiqurları, sənduqələr çoxluq təşkil edir. Bu abidələrin yayım arenasına görə Naxçıvan ölkəmizdə ilkin yerlərdən birini tutub. Bu, heç də bölgədə təkcə əhalinin qədim dövrlərdən başlayaraq qoyunçuluqla geniş məşğul olmasının göstəricisi olmayıb. Qədim türk xalqlarında qoç həm də güc, qüvvət, bolluq, bərəkət rəmzi hesab edilib. Üzərlərində müxtəlif kitabə və bədii təsvirlər həkk olunan abidələr isə daha qiymətli mənbələr sayılıb. Çünki bu yazı və təsvirlərdə xalqımızın dünyagörüşü, qədim inancları da öz əksini tapıb. Bununla yanaşı, orta əsrlərdə Naxçıvanda bədii daşyonma sənətinin hansı səviyyədə inkişaf etməsini də bu eksponatlardan aydın öyrənmək olar. Bir çox eksponatlar isə orta əsrlərdə Azərbaycan heykəltəraşlığının inkişaf səviyyəsindən soraq verir.

* * *

Bir qədər də daş qoç və qoyun fiqurlarının yaranma tarixi barədə söz açmaq istəyirəm. Tədqiqatçıların fikrincə, müsəlman-türk aləmində ilk xatirə abidələri animizm (ruhlara inam) ideyaları ilə bağlı olub. Bu abidələr əvvəlcə qəbirüstü insan heykəlləri vasitəsilə ortaya çıxmış, sonra isə bəzi qəbilə və tayfalarda at və qoç fiqurları ilə əvəz edilmişdir. Xakasiya və Qazaxıstanda tapılan daş qoc fiqurlarını tədqiqatçılar eramızdan əvvəl ikinci minilliyə aid ediblər. Eramızdan əvvəl birinci minillikdə Azərbaycanda, Göytəpədə qəbirlərin üzərinə bu cür heykəllər qoyulub. VIII əsrdə yaşamış məşhur türk sərkərdəsi Kültəkinə məxsus məzarın üzərində də üz-üzə dayanmış iki qoç fiquru aşkar olunub.

AMEA-nın müxbir üzvi, tarix elmləri doktoru Qadir Qədirzadənin fikrincə, qədim türk xalqlarının inamları, dəfn adətləri ilə bağlı daş qoç və qoyun abidələri ilk öncə qəbirlərə, dəfn edilənin yanına qoyulmuş kiçik fiqurlardan ibarət olmuş, zaman keçdikcə bu adət tədricən məzarların üstünə qoyulan abidələrlə əvəzlənmişdir. Onun sözlərinə görə, Naxçıvan ərazisində erkən tunc dövrünə aid gildən hazırlanmış heyvan fiqurları birinci Kültəpə, Maxta, Muncuqlutəpə yaşayış yerlərindən tapılıb. Bu da sübut edir ki, hələ üç-dörd min il bundan əvvəl qoç inamı insanların ideoloji dünyagörüşlərində xüsusi yer tutub.

Muzeyin direktoru Zemfira Seyidova isə bildirir ki, bu daş fiqurlar, heykəllər bütpərəstliyi xatırlatdığından islam dini yayıldıqdan sonra

qəbirlərin üstünə onların qoyulması adəti zəifləyib. XV əsrdən etibarən isə Ağqoyunlu və Qaraqoyunlu tayfalarının hökmdarlığı dövründə bu ənənə yenidən dirçəlir. Artıq bu dövrdən başlayaraq qəbirlərin üstünə qoyulan qoç və qoyun heykəllərinin üzərində bədii təsvirlərlə yanaşı dini xarakterli kitabələrə də rast gəlinir. Amma sonralar bədxah və yaramaz qonşularımız ermənilər orta əsr Azərbaycan heykəltəraşlığının bu nadir nümunələrinə də sahib çıxmağa çalışıblar. Rus alimi V.M.Sısoyev ötən əsrin əvvəllərində Naxçıvanda olarkən bu vəziyyəti yaxından duymuş, 1929-cu ildə nəşr etdirdiyi əsərində bununla bağlı yazmışdır ki, yerli müsəlman-türk əhalisinin bu heykəllərə güclü inam bəsləməsi əraziyə sonralar köçürülmüş ermənilərin də onlara hörmətlə yanaşmasına səbəb olmuşdur. Müəllifin sözlərinə görə, ermənilər bu fiqurları müsəlman-türklərə məxsus qədim qəbiristanlıqlardan gətirib özlərinin təzə qəbirlərinin üstünə qoyurdular.

* * *

Ölkəmizdə epiqrafik abidələrin tanınmış tədqiqatçılarından biri olan, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli bildirir ki, mənfur qonşularımız bu bəd əməlləri ilə kifayətlənməyiblər. Sonralar onlar bu sənət nümunələrini oğurluq yolla Ermənistana daşıyaraq oradakı park və xiyabanlarda, meydanlarda yerləşdirərək erməni mədəniyyətinin nümunələri kimi təqdim etməyə çalışıblar. Halbuki bu abidələrin bir çoxlarının üzərində ərəb və fars əlifbası ilə "Ya Allah, Məhəmməd, Əli" sözləri nəqş olunmaqla müqəddəs dini kitabımız olan "Qurani-Kərim"dən müxtəlif ayələr də əksini tapıb.

Əcəmi seyrəngahı - mədəniyyət və istirahət kompleksinin ərazisində yaradılan muzeyin tutduğu ərazi də böyükdür. Ən başlıcası isə, onun açıq səma altında geniş ekspozisiyası var. Bu səbəbdən də eksponatların bir çoxu yaşıllıqlar, gülzarlıqlar arasında nümayiş olunur. Əcəminin XII əsrdə inşa etdiyi Möminəxatun türbəsi, XVII əsr abidəsi olan Miryaqub piri, Xan evi (XVIII əsr) də burada yerləşir. Ucaldılan məqbərələr, inşa olunan abidələr, toplanılan eksponatlar isə tamaşaçılara qədim və şərəfli tariximizin ayrı-ayrı dövrlərindən soraq verir.

"Azərbaycan",<br>22 noyabr 2009-cu il

# BEŞINCI BÖLMƏ

## Naxçıvan:
## mədəniyyəti, təbiəti və sərvətləri ilə

## Şərur yallısı - Naxçıvanın tacı

**"Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".**

**Heydər ƏLİYEV**

### Oğuz babalarımızın ilkin möhürü

"Şərur rayonun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var". Bu sözləri xalqımızın ümummilli lideri rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib. Rayonun indiki sosial-iqtisadi inkişafında müdrik rəhbərin xidmətləri çox olub. Ən başlıcası isə ötən əsrin 70-ci illərində tutumu 150 milyon kubmetr olan Arpaçay dəryaçasının tikilib istifadəyə verilməsi bölgədə 18 min hektardan artıq torpaq sahəsinə həyat bəxş edib.

Xalqımızın mənlik və qəhrəmanlıq dastanı olan "Kitabi-Dədə Qorqud"da adı "Şəruk" kimi xatırlanan bu diyar təkcə iqtisadi qüdrəti, təbii imkanları ilə öyünmür. O, həm də qədim və şərəfli tarixə malikdir. Rayon ərazisi bəşər sivilzasiyasının ilkin yaşayış məskənlərindən biri sayılır. Tənənəm kəndi yaxınlığındakı "Qazma" mağarasında altmış-yetmiş min il bundan əvvəl, daş dövrünün insanları yaşayıblar. Aparılan arxeoloji qazıntılar nəticəsində daş dövrünün mustye mədəniyyəti üçün səciyyəvi sayılan obsidandan hazırlanmış itiucluqlar, qaşovlar və sairə əldə olunub. Xələc, Ərəbyengicə, Maxta, Ovçular təpəsi, Şortəpə yaşayış məskənləri isə eramızdan əvvəl V-II minilliklərə aid olub. Bu yerlərdə isə neolit dövrünə aid maddi mədəniyyət nümunələri aşkar olunub. Oğlanqala ilkin şəhər mədəniyyətindən soraq verir. O, qüdrətli qala şəhərlərdən olub.

Şərurun qədim tarixə və mədəniyyətə malik olması təkcə onun daş abidələri, arxeoloji maddi-mədəniyyət nümunələri ilə ölçülmür. O həm də mədəniyyətimizin incisi və ən qədim növü sayılan folklor rəqsləri-yallıları ilə öyünür. Minillərin, əsrlərin yaddaş süzgəcindən keçərək bu günümüzədək gəlib çatan bu rəqslər onun nə qədər mənəvi zənginliyə

malik olduğunu da ortaya çıxarır. Bu mənada yallını Şərurun qədimlik rəmzi, Oğuz möhürü adlandıranlar da yanılmırlar. Akademik İsa Həbibbəyli də bu qənaətdədir ki, yallılar qədim oğuz yurdunun möhürü olub: "Harada yallı olubsa, yaxud da indi yallı rəqsi geniş yayılıbsa, oralar qədim oğuz türk yurdu olub".

## Birlik ifadəsinin rəmzi- Yallı

Tədqiqatçıların fikrincə, yallı rəqs növü 8-10 min il bundan əvvəl yaranıb. Heç şübhəsiz ki, onun yaranma tarixi əlifbanın, yazılı mədəniyyətin əmələ gəlməsindən əvvəlki dövrlərə təsadüf edib. İlkin yallı oyunları oda, atəşə pərəstiş dövründə formalaşıb. O, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Sonralar isə əhalinin başlıca məşğuliyyət sahəsi olan ovçuluqla bağlı rəqs nümunələri yaranıb. Ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə and vermək istəyənlər özlərinin bu münasibətlərini mərasimlərdə təqlid, təsvir yolu ilə ifadə etməyə çalışıblar. Yadelli, hiyləgər düşmən üzərində qabiliyyətli mübarizə, baharın gəlişi və digər həyati vacib məsələlər də rəqs nümunələrində dolğun əksini tapıb. Bu deyilənləri tariximizin ən böyük daş kitabələri olan Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində də duymaq olur. Hər bir yallı həm də birlik ifadəsinin rəmzinə çevrilib. Əcdadlarımız yaxşı anlayıblar ki, süfrələrin zəngin olması, ovun uğurlu keçməsi, çətinliklərin həll olunması, düşmənin yerində oturdulması xeyli dərəcədə birgə əməkdən, birlikdən asılıdır.

Azərbaycanın tanınmış musiqiçisi, rəqslərimizin mahir ifaçı və tədqiqatçısı, xalq artisti Əminə Dilbazinin fikrincə, yallılar qədər ölkəmizi dünyaya tanıdan ikinci bir vasitə yoxdur: "Söz demədən o, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini bütün millətlərə aşılaya bilir". O, bu mənada Şərur yallılarını birinci sırada görür.

Alimlərim fikrincə, oğuz ellərinin həyat tərzi, məişəti, dünyabaxışı "Dədə Qorqud" dastanlarında sözlə-fikirlə, yallılarda isə rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Hər bir yallı növü də xüsusi məna və məzmun daşıyıb. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, həmişə haqqa-ədalətə və sülhə can atmasını özündə yaşadıb. Elə götürək yallının ən qədim növlərindən biri olan"Qaladan-qalaya" rəqsini. Şərur yallılarının mahir ifaçılarından biri olan, əməkdar incəsənət xadimi Vasif Çörəkçinin dediyinə görə, bu yallıda insanların döyüş əhval-ruhiyyəsini, cəsarətini və mübarizliyini əks etdirən maraqlı

səhnələr var. Musiqi sədalarına uyğun olaraq ifaçılar rəqsə ağır templə başlayırlar, sanki "döyüş meydanında düşmənlə üz-üzə gəliblər". Rəqsin sonrakı hissəsində isə hərəkət müəyyən qədər sürətlənir, "Cəngi"nin sədaları döyüş məqamının çatdığını bildirir. Tərəflər üz-üzə dayanırlar. Dəstə başçıları öz güclərini göstərirlər. Oyunun digər hissəsində isə yenə də qılınca əl atılır. Məğlub tərəf qalib gəlmək əzmini göstərir. Qan töküləcəyini, düşmənçilik yarana biləcəyini görən ağbirçək ana meydana gələrək yaylığı ilə döyüşün qarşısını alır. "Uzundərə" havasında dəstələr sülh və barış arzusunda olduqlarını öz ifa tərzləri ilə də göstərirlər. Bu rəqs həm də qədimdən xalqımızın nə qədər sülhsevər olduğunu bir daha göstərir.

## Yallı rəqslərimizin beşiyi- Şərur

Şərur toylarını bu gün də yallısız təsəvvür etmək çətindir. Bu yallıları gənclərtək yaşlı adamlar da həvəslə oynayırlar. Hətta deyilənə görə, burada elə kəndlər var ki, onun sakinləri arasında yallı oynamağı bacarmayanlar barmaqla sayılası qədərdir. Bayram tədbirlərini, xalq şənliklərini, konsert proqramlarını da rəqslərsiz təsəvvürə gətirmək çətindir. Yallı həm də bu yerlərin musiqi rəmzinə çevrilib. Yallıda əl-ələ tutub coşğunluqla ünsiyyətdə olan insanlar öz ritmik hərəkətləri ilə ətrafdakılara da olduqca xoş təsir bağışlayırlar.

Böyük sənət adamları Şərur torpağını həm də yallıların beşiyi adlandırıblar. Bir vaxtlar burada yallının 100-dən artıq növü olub. Onlar toy mərasimlərində, el şənliklərində yaşadılıb. Ə. Dilbazi də bu barədə deyir: "Mən Şərurda qoca yallı gedənlərlə maraqlandım. Çərçiboğan kəndində mənə qoca ər-arvad göstərdilər. Onda gördüm ki, onlar necə yallı bilirlər".

Xoreoqrafiya məzmununa görə bu yallılar iki növə ayrılır: sujet və rəqs tipli oyunlar. Süjetli oyunlar müəyyən hadisəni təsvir etdiyinə görə teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. "Tənzərə", "El yallısı", "Gopu", "Qazı-qazı", "Köçəri", "Urfanı", "Qaladan-qalaya" belə yallı nümünələrindəndir.

Nə gizlədək, milli-mənəvi sərvətlərimizin qorunması sahəsində itirdiklərimiz də çox olub. Bu da ondan ibarət olub ki, tariximizin müəyyən bir dövrlərində incəsənətin bu sahəsinə maraq xeyli azaldığından onun bir çox nümunələri unudulub. Ötən əsrin 70-ci illərindən isə milli folklor rəqslərinin tədqiqi və təbliği istiqamətində də əsaslı və ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu səbəbdən

də unudulmaqda olan yallı növlərimizin bir çoxu yenidən həyata qaytarılıb. "Hoynərə", "Dönə" kimi yallıları buna misal göstərmək olar.

**Dünyanı məftun edən yallılar**

Onu da qeyd edək ki, Şərur yallılarının yaşadılmasında, qorunmasında və təbliğində"Şərur" xalq yallı ansamblını da böyük rolu olub. Ansamblın əsası 1924-cü ildə qoyulub. XX əsrin 30-cu illərinin ortalarından "Staxanov kolxozçularının rəqs ansamblı" adı ilə fəaliyyət göstərib. Elə o illərdə də onun fəaliyyətində canlanma yaranıb. Məhz bu dövrdən ansambl böyük səhnəyə qədəm qoyub. Kollektivin şöhrətlənməsində və öz repertuarını genişləndirməsində Azərbaycanın böyük musiqiçisi və bəstəkarı Üzeyir Hacıbəyovun da böyük xidmətləri olub. 1937-ci ildə SSRİ Ali Sovetinə Şərur torpağından deputat seçilən dahi sənətkar bölgədə musiqinin inkişafına da qayğı və yardım göstərib. "Şərur Azərbaycan folklor mədəniyyətinin beşiyidir" söyləyən dahi musiqiçi həyat yoldaşı ilə birlikdə bir neçə dəfə ansamblın çıxışlarını dinləyib. Onun xeyir-duası ilə ansambl 1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə maraqlı proqramla iştirak edib, çıxışları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

Ansamblın fəaliyyətində əsil canlanma isə ötən əsrin 70-ci illərdən başlanılıb. Ölkəmizdə mədəniyyətə, onun ayrılmaz qolu olan incəsənətə göstərilən qayğı və diqqətdən bu kollektivə də çoxlu pay düşüb. Məhz bu dövrdən "Şərur yallısı" el-el, oba-oba gəzib dolaşıb. Kollektiv dünyanın bir çox ölkələrində keçirilən bədii özfəaliyyət festivallarında iştirak etmiş, diplom və mükafatlara laiq görülüb.

1970-ci ildə Bakı şəhərində keçirilən "Naxçıvan mədəniyyət günləri"ndə muxtar respublikanı təmsil edən kollektivlər sırasında bu ansambl da olub. Mərkəzi sarayda yekun tədbirində iştirak edən respublikanın başçısı Heydər Əliyev konsertdən sonra səhnə arxasında ifaçılarla söhbətində bu ansamblın çıxışından da razı qaldığını deyərək öz tövsiyyə və tapşırıqlarını da verib. "Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir... Yallını qoruyub saxlayın. Bu Naxçıvanın tacıdır"-deyib. Elə o vaxtdan muxtar respublikada, bölgədə bu folklor sənətimizə qayğı, diqqət çoxalıb. Kənd mədəniyyət evləri, klublar nəzdində də yallı qrupları yaradılır. Yengicə, Çərçiboğan, Şəhriyar, Püsyan, Dizə kənd mədəniyyət evlərində fəaliyyət göstərən yallı ansambllarını bu dediklərimə misal göstərmək olar.

1972-ci ildə ADR-də keçirilən ümümdünya folklor festivalı ansamblın üzvləri üçün daha yaddaqalan olub. Ansamblı beynəlxalq əhəmiyyətli tədbirə məhşur rəqqasə, xalq artisti Əminə Dilbazi hazırlayıb. O öz xatirələrində yazır:

"Məndən soruşdular: SSRİ-ni Almaniyada hansı folklor kollektivi təmsil edə bilər? Qərara gəldik ki, Naxçıvan yallısını aparaq. Mən bilirdim ki, bizim yallı mənbəyimiz Naxçıvanda Şərur torpağındadır... Biz ora-Almaniyaya elə bir folklor nümunəsi aparmalıydıq ki, üstündə xalqımızın möhürü olsun. Bu Şərur yallısı idi..." Uğurlu çıxışlarına görə ansambl festivalın laureatı adını qazanır. Həmin il ansambl Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunur, kollektivə xalq yallı ansablı statusu verilir.

1977-ci ildə Moskva şəhərində keçirilən kənd əməkçilərinin birinci Ümümittifaq xalq yaradıcılığı festivalı da onlar üçün əlamətdar olub. 1980-ci ildə ansambl Macarstanda keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə iştirak edib. 1984-cü ildə Polşanın Zelenaya Qora şəhərində keçirilən beynəlxalq folklor festivalının laureatı da bu kollektiv olub. Kollektivin bu uğurlu çıxışı da mərkəzi televiziya ilə geniş göstərilir. Məhz o dövrdə Ümümittifaq televiziyası ilə "Şərur yallısı" sənədli filmi çəkilir.

Onu da qeyd edək ki, kollektivin bu uğurlarında Azərbaycanın tanınmış musiqiçi və rəqs ustalarından olan Əminə Dilbazi, Əlibala Abdullayev, Xumar Zülfüqarova, Qəmər Almazzadə, Kamil Dadaşov, Roza Cəlilova kimi sənət adamlarının da böyük zəhmət və xidmətləri olub. Təcrübəli baletmeysterlər bölgədə yallı rəqslərinin milliyini, özəlliyini qoruyub saxlamaqla yanaşı rəqqasların ustalığının, ifaçılıq texnikasının artırılmasına və səhnə mədəniyyətinə yiyələnmələrində də öz köməklərini əsirgəməyiblər.

## Ənənələr bu gün də yaşadılır

Müstəqillik dövrümüzdə isə ansamblın fəaliyyətində canlanma 90-cı illərin ikinci yarısından başlanıb. Muxtar respublikada böyük istək və zövqlə həyata keçirilən yeni həyat quruculuğu xətti mədəniyyət sahələrini də öz ağuşuna alır. Tarixi-memarlıq abidələrinin bərpasına başlanılır, incəsənət kollektivlərinin fəaliyyəti gücləndirilir. Bu qayğının sayəsində də "Şərur" yallısı 1997-ci ildə Türkiyənin İskəndərun şəhərində folklor bayramında uğurla çıxış edir. 1998-ci ildə Bayburt şəhərində keçirilən "Dədə Qorqud" festivalında da onlar yüksək mükafata layiq görülüblər. 2001-ci ildə Misirin paytaxt şəhəri olan

Qahirədə keçirilən on ikinci beynəlxalq folklor festivalı onlar üçün daha yaddaqalan olur.

Ansamblın bədii rəhbəri, Şərur yallılarının mahir ifaçısı, Azərbaycanın əməkdar mədəniyyət işçisi Səttar Əhmədovun dediklərindən: "Dünyanın Avropadan Asiyaya və Afrikaya uzanan bir çox ölkələrini gəzmişik. Həmişə bizim yallılara böyük maraq duymuşuq. Elə bir səfər olmayıb ki, hansısa festivaldan, yarışmadan əliboş qayıdaq. Misirdə keçirilən folklor festivalında da Şərur yallısı bütün salonu məftun etdi. 40-dan çox ölkənin folklor rəqs ansamblının dəvət olunduğu həmin tədbirdə "Qızıl Açar"a layiq görüldük".

Kollektivin üzvləri 2002-ci ilin iyun ayında İstanbulun iri bölgələrindən biri olan Pendikdə keçirilən mədəniyyət və incəsənət bayramında da öz ustalıqlarını bir daha təkrarlayıblar. Onlar bu ilin iyul ayının əvvəllərində Ərdahan vilayətində "Atatürkün izində, kölgəsində Damal şənlikləri" festivalında da müvəffəqiyyətlə iştirak ediblər. Bunlarla bərabər muxtar respublika və rayon miqyasında keçirilən xalq şənliklərində, bayram tədbirlərində də kollektiv öz gücünü göstərib.

2005-ci ildə isə "Şərur yallısı" sənədli filmi ekranlarda yayımlanıb. Filmin quruluşçu rejissoru Beynəlxalq kino festifalının mükafatçısı Tahir Əliyevdir. Filmdə rəqs canlı, ritorik, emosional təsir bağışlayırsa, musiqidə şüur əlvanlığı, insan mənəviyyatının gözəlliyi ön plana çəkilir. Bu səbəbdəndir ki, hər dəfə film nümayiş olunduqca tamaşaçılar tərəfindən də rəğbətlə qarşılanır. Məmləkətimizin hər bir sakini də bu mədəniyyətə sahib, yiyə olması ilə qürurlanır.

Ansamblın bədii rəhbəri S. Əhmədovun sözlərinə görə, xalq əmanətini yaşatmaq məqsədi ilə kollektiv yaradıcılıq axtarışlarını bu gün də uğurla davam etdirir: "Kəndbəkənd,oba-oba gəzir, qədim rəqslərimizi, yallılarımızı toplayır, öyrənir, repertuarımızı daha da zənginləşdiririk. Ömürlərinin qocalıq çağını yaşayan insanlarda bunlarla bağlı xeyli bilgilər var. Onların köməkliyi ilə unudulmaqda olan 4-5 yallı bərpa edilib. Hazırda isə repertuarımızda ifa tərzi ilə bir-birindən fərqlənən 40-dan çox yallı və rəqs vardır".

Ansamblın 50-yə yaxın üzvi vardır. Onların bir çoxu öz istedad və qabiliyyətləri ilə ölkə miqyasında yaxşı tanınıblar. Azərbaycan milli musiqi mədəniyyətinin, folklorun inkişafında göstərdiyi xidmətlərə görə ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ansamblın bədii rəhbəri Səttar Əhmədovla yanaşı müğənni Kimya Babayeva və tütəkçalan Kamal Babayevə də Azərbaycanın əməkdar mədəniyyət işçisi fəxri adı verilib. Bu mükafatlar kollektiv üzvlərini daha da fərəhləndirib.

## "Nurani"- yaşlı adamların yallı ansamblı

Yallının beşiyi sayılan Şərurda indi 3 yallı ansamblı fəaliyyət göstərir. Maraqlıdır ki, bu ansamblların üzvləri yaş fərqinə görə seçilib: "Şərur qönçələri" uşaq yallısı, gənclərə və orta nəslə mənsub olan "Şərur" xalq yallı ansamblı və qocalardan ibarət "Nurani" yallısı. Başlıca məqsəd də qədim folklor rəqslərini yaşatmaqdır. Rayonda tanınmış digər bir yallı kollektivi isə «Nurani» xalq yallı ansamblıdır. Kənd mədəniyyət evinin nəzdində fəaliyyət göstərən bu ansambl öz ətrafında 60-70 yaşında ifaçıları toplayıb. Onları bir yerə toplayan qüvvə el sənətimizə olan sonsuz hörmət və ehtiramdır. İfaçılar unudulmaqda olan yallılarımızın həyata qaytarılmasında öz köməkliklərini əsirgəmirlər. Onların arasında təcrübəli ifaçılar da var. Onlardan biri də 81 yaşlı Bahəddin Əsgərovdur. O, əllinci illərdə Şərur yallılarının təbliği ilə məşğul olub. Son illərə qədər mədəniyyət sistemində çalışıb. Abbasqulu Cabbarov, Zalı Zamanov, Ələsgər Məmmədov, Sabir Cabbarov da kollektivin fəal üzvləridir. Hər birinin də yetmişdən artıq yaşı var. "Hoynərə", "Dönə" kimi yallılar da bu cür xeyirxah insanların səyi nəticəsində yenidən sənətə qaytarılıb.

Ansamblın bədii rəhbəri Bəxtiyar Mehdiyev deyir ki, bu kollektivin yaradılmasında Azərbaycanın xalq artisti Əminə Dilbazinin böyük xidmətləri olub. Onun xeyir-duası ilə bu kollektiv ötən əsrin səksəninci illərinin ortalarında, kənd mədəniyyət evinin nəzdində fəaliyyətə başlayıb. Ötən müddətdə onun qazandığı uğurlar da çox olub. 1988-ci ildə Moskva şəhərində Ümümittifaq Bəstəkarlar Evində müttəfiq respublikalarının musiqi folkloru silsiləsindən keçirilən festivalında respublikamızı bu kollektiv təmsil edib. Kollektivin uğurlu çıxışı mərkəzi televiziya tərəfindən lentə alınaraq dəfələrlə mavi ekranlarda göstərilib. 1998-ci ildə isə o da «Şərur» xalq yallı ansamblı ilə birlikdə Türkiyənin Bayburt şəhərində keçirilən folklor festivalının iştirakçısı olub. Son illər onlar Bakı, Naxçıvan şəhərlərində keçirilən mərasimlərdə də öz ustalıqlarını nümayiş etdiriblər.

## "Şərur qönçələri" ümüdləri doğruldur

Bir qədər də "Şərur qönçələri" uşaq yallı ansamblı haqqında danışmaq istəyirəm. Bu ansambl düz on il bundan əvvəl yaradılıb. O, rayon mədəniyyət sarayının nəzdində fəaliyyət göstərir. Ansamblın 34 üzvü var. Onlar iki yaş qrupunda (9-12 və 13-16 yaşlar) cəmləniblər. Ötən müddət ərzində kolektivin fəaliyyəti razılıq doğurur. 2000-ci ildə

ansambl Türkiyənin Ankara şəhərində Uşaq Bayramında uğurla çıxış edərək diplom və mükafatlara layiq görülüb. Mükafatları kollektivin üzvlərinə Türkiyə Cumhuriyyətinin Prezidenti sayın Süleyman Dəmirəl təqdim edib. 2007-ci ildə Qars şəhərində Uşaq Bayramında da onlar birinci mükafata sahib çıxıblar. Ötən il də məktəbli rəqqaslar üçün uğurlu olub. Onlar ümümmilli liderimiz Heydər Əliyevin anadan olmasının 85 illiyi şərəfinə Bakı şəhərində keçirilən uşaq rəqs kollektivlərinin birinci respublika festivalının qalibləri cərgəsində olublar, müvəffəqiyyətli çıxışlarına görə Azərbacan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomuna və pul mükafatına layiq görülüblər.

Naxçıvan Muxtar Respublikasında keçirilən xalq yaradıcılığı günləri baxış-müsabiqəsinin qalibləri sırasında bu kollektiv də olub. Bu ilin avqust ayında Türkdilli xalqların mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq təşkilatı TÜRKSOY-un dəstəyi və Türkiyənin Ağrı şəhər valiliyinin təşkilatçılığı ilə keçirilən türk ölkələri Ağrı dağı mədəniyyət və sənət günləri tədbirindən də mükafatla qayıdıblar.

Gənc istedadlar üçün ən əlamətdar və yaddaqalan hadisə isə Türk dilli dövlət başçılarının Naxçıvan şəhərində keçirilən doqquzuncu zirvə toplantısı şərəfinə Heydər Əliyev Sarayında möhtəşəm konsert proqramında onların iştirakları olub. Balaca rəqqaslar bu dəfə də öz ustalıqlarını ortaya qoymağı bacarıblar. Onların çıxışı dövlət başçıları tərəfindən də hərarətlə qarşılanıb.

## Naxçıvanın mənəvi emblemləri yaşadılır

Bir sözlə, yallı təkcə musiqi və rəqs növü deyil. O qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla yanaşı xalqımızın həm də bu günkü varlığıdır. Məhz bu mənəvi sərvətlərimiz ilə düşmənlərimizə də kimliyimizi, varlığımızı göstərə bilirik. Muxtar respublikada yallılarımızın yaşadılması, tədqiqi və təbliği istiqamətində həyata keçirilən tədbirlər də təqdirəlayiqdir. Muxtar Respublika Ali Məclisi Sədrinin sərəncamı ilə xalq yaradıcılığı nümunələrinin yaşadılmasına, tədqiqinə və təbliğinə da xüsusi qayğı göstərilir. Şərurda yallı ansamblларının qazandıqları uğurlar da ilk növbədə bu sahəyə göstərilən yüksək dövlət qayğısı və dəstəyi ilə bağlıdır.

Bir vaxtlar dahi bəstəkar, böyük musiqiçi və ictimai xadim Üzeyir Hacıbəyov Şəruru Azərbaycan folklor mədəniyyətinin beşiyi, xalqımızın ümümmilli lideri Heydər Əliyev yallını Naxçıvanın tacı adlandırıb. Milli öndərimizin belə bir kəlamı da var ki, “Mahnı, musiqi qədər, incəsənət,

mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz". Muxtar Respublika Ali Məclisi Sədri Vasif Talıbov isə deyir ki, Şərur yallısı həm də Naxçıvanın mənəvi emblemidir.

Başlıcası isə bu folklor rəqsləri qədim torpağın Azərbaycançılıq möhürüdür.

**"Qobustan" jurnalı,**
**№ 1, 2010-cu il**

## Alicənab insan, fədakar alim və ictimai xadim

### Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin 60 yaşı münasibəti ilə

### Yazıya giriş, yaxud ön söz əvəzi

Həmişə İsa müəllim haqqında söhbət düşəndə, nədənsə yadıma XIX əsrin axırları XX əsrin əvvəllərində yaşayan, millət, xalq üçün fədəkarlıq, canıyanarlıq nümunəsi göstərən ziyalılar düşür: Mirzə Cəlil, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Məhəmmədağa Şahtaxtılı, Məhəmməd Tağı Sidqi və digərləri. O ziyalılar ki, öz dövrlərində və sağlıqlarında millətin savadlanması, xalqın qəflət yuxusundan oyanması, məmləkətin inkişaf etməsi naminə təmənnasız olaraq çoxlu işlər görüblər. Onlar həqiqi mənada milli mənafeyə xidmət etməyin bariz nümunəsini ortaya qoyublar.

Hətta bu yolda yeri gəldikcə öz var-dövlətlərini, mülklərini də əsirgəməyiblər. XX əsrin ayrı-ayrı dövrlərində isə Əziz Şərif, Qulam Məmmədli, Mirzə İbrahimov, Əli Vəliyev, Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Abbas Zamanov kimi alim və yazıçılar da bu missiyanı şərəflə yerinə yetiriblər. Akademik İsa Həbibbəyli də məhz belə bir qaynar mühitdən, elmi məktəbdən dərs alıb. Bu baxımdan ötən əsrin 70-ci illərindən onun elmi və ədəbi mühitin diqqətini cəlb etməsi təsadüfi olmayıb.

Yaxşı yadımdadır ki, səksəninci illərin əvvəllərində mən ali məktəbdə təhsil alanda yaşlı və dünyagörmüş müəllimlərimizdən biri onun haqqında uzaqgörənliklə geniş auditoriya qarşısında belə bir ifadə işlətmişdi ki, bir vaxt gələcək Naxçıvan elmi mühitini, daha doğrusu regionda fəaliyyət göstərən bu ali təhsil ocağını daha çox İsa müəllimin adı ilə tanıyacaqlar. Ondan təxminən on iki-on beş il sonra isə bu deyilənlər öz təsdiqini tapdı. Filologiya elmləri doktoru İsa Həbibbəyli aydın səmadakı parlaq ulduzlar tək diqqəti cəlb etməyə başladı. Ölkəmizin görkəmli, nüfuzlu elm və sənət adamları mətbuatda onun haqqında yüksək və dolğun fikirlər söyləməyə başladılar. Son illər, 42 yaşlı Naxçıvan Dövlət Universiteti də onun şöhrəti və nüfuzu ilə dünyanı

dolaşır. Cari ilin əvvəllərində bu ali təhsil ocağının "Minilliyin Universiteti" beynəlxalq mükafatına layiq görülməsi də bu əməyin layiqli bəhrəsi olub.

## Mayası xeyirxahlıqdan və yaxşılıqdan yoğrulan insan

Deyirlər, böyük adamlar həmişə sadə, xeyirxah, humanist və alicənab insanlar olurlar. Başlıcası isə onlar böyük ürək sahibi olurlar. Mən bu qənaətə ilk dəfə ali təhsil aldığım illərdə gəlmişəm. Təxminən otuz il bundan əvvəl bizə dərs deyən müəllimlər arasında tarix elmləri doktoru, professor İsak Məmmədov adlı birisi də var idi. İnsafən, savadlı, dünyagörüşlü və xeyirxah insan idi. Başlıcası isə öz peşəsini və ixtisasını qəlbən sevirdi. Auditoriyada dərs danışdıqca şam kimi yanımlı bir ömür yaşayırdı. Tələbkar olduğu qədər də sadə və səmimi bir insan idi. Bu mənada onu digər müəllimlərimizdən qat-qat əziz və doğma bilirdik. Elmdə savadı, qabiliyyəti, təşkilatçılıqda bacarığı, insanlıqda xeyirxahlığı və humanistliyi, dostluqda sədaqəti və etibarı az olan bir çox müəllimlərimiz kimi o heç də böyük iddialarla, cılız hisslərlə, quru təkəbbürlə, lövğalıqla yaşamırdı. Görkəmli və fədakar alim İsa Həbibbəylidə isə bu cür ali və insani keyfiyyətlər daha çoxdur. O, mənalı və şərəfli ömrünü də bu millətin işıqlı gələcəyi üçün xərcləyir. Sanki xislətinin xamırı, mayası da xeyirxahlıqdan, yaxşılıqdan yoğrulub. Bu mənada onu müasir dünyamızın böyük düha sahibləri ilə müqayisə etmək olar.

Böyük düha sahibləri özlərinə məxsus fikirləri, aforizmləri, kəlamları ilə də tanınıblar. Məsələn, dünyanın məşhur fiziklərindən biri olan A.Eynşteynin belə bir kəlamı var: "Mən heç zaman inana bilmərəm ki, Allah dünyanı zər atmaqla yaradıb". Bu cür adamların ictimai-siyasi həyata baxışları və ayrı-ayrı mövzularda danışıqları da bir növ qaynar bulağı xatırladıb. Elə götürək məşhur alimimiz Azad Mirzəcanzadəni. Danışıqlarında, söhbətlərində o ifadə etdiyi hər bir sözü, kəlməni qram-qram, zərrə-zərrə beyinlərə yeritməyə çalışırdı. İsa müəllimin ibrətamiz kəlamlarından birisi ondan ibarətdir ki, "mənə iynənin ucu boyda işıq yeri verin, insanlara yaxşılıq edim". Bu imkandan da sözün gerçək mənasında maksimum dərəcədə istifadə etməyə çalışır. Yaxşı kəlamlarından birisi də öz xeyir-duası ilə bağlıdır. Birisini uğurları münasibəti ilə təbrik edəndə "Dövlətimiz, cəmiyyətimiz, millətimiz üçün xeyirli və gərəkli olsun" – deyir.

Çox hallarda belə adamların bacarıq və qabiliyyətlərini "ilahi bir varlıq" da hesab etmişik. Çünki bu cür insanlar işləməkdən, yaratmaqdan, nəinki yorulmurlar, ondan "ləzzət" almağı bacarırlar və hər

gün yeni-yeni ideyalarla çıxış edirlər. Yaxşı yadımdadır ki, bir dəfə Türkiyənin Antalya şəhərindən İstanbula təyyarə ilə gedərkən vaxt azlığından İsa müəllim 40 dəqiqəlik uçuş müddətini də yazı-pozu işlərinə həsr etmişdi.

Tədqiqatçı jurnaslist, istedadlı publisist İsa müəllimi həm də yaxşı qəzetçi, jurnalist, naşir kimi də tanımışam. Elə düşünürəm ki, bu gün də mətbuat tariximizdə onun qədər xidmətləri olan alim-ziyalı tapmaq çətin məsələdir. Özü də müsahibələrinin birində belə söyləyib ki, qəzetçilik mənim üçün "ikinci universitet" olub. O təkcə "Molla Nəsrəddin" jurnalının tədqiqi ilə məşğul olmayıb. Bu sırada "Füyuzat", "Şərqi-Rus", "İrşad", "Yeni yol" və digər qəzet-jurnallar da olub. Son illər Naxçıvan mətbuatının da ciddi tədqiqat obyektlərinə çevrilməsində onun böyük xidmətləri vardır.

1969-cu ildə – 20 yaşında ikən qələmə aldığı, o zaman respublikanın ən nüfuzlu mətbu orqanlarından biri olan "Kommunist" qəzetində dərc olunan "Arpaçayı daşa bilməz..." mənsur poeması isə milli publisistikamızda yeni janrın əsasını qoyub. O, bu əsəri ilə doğulub-boya başa çatdığı bölgənin tarixi, təbiəti, mədəni irsi və sosial-iaqtisadi həyatı barədə dolğun və təsirli mənzərə yarada bilib. Təsadüfi deyil ki, o zaman SSRİ Jurnalistlər İttifaqının keçirdiyi yaradıcılıq müsabiqəsində də həmin poema mükafata layiq bilinib. Amma çox təəssüf ki, sonrakı illərdə müəllif bu cür qaynar və çoşğun publisistikanı elmə qurban verib. Halbuki Azərbaycan Yazıçılar Birliyinin istedadlı və qabiliyyətli üzvlərindən biri olub. Publisistika sahəsində yaradıcılığına görə "Məmməd Araz" mükafatına layiq görülüb.

Müasir dövrümüzdə ictimai-siyasi xadim kimi İsa müəllim qələmini daha çox siyasi publisistika janrında və analitik təhlilli yazılarda sınayır və bu sahədə də özündən "mənəm-mənəm" deyən siyasətçilərə, qələm sahiblərinə "dərs" keçir. Bu mənada da tanınmış yazıçı-jurnalist, millət vəkili Bəxtiyar Sadıqov onu "orijinal təfəkkürlü siyasətçi" hesab edir.

Müəllif öz yazılarında müstəqil dövlətçilik ideyaları ilə elmi fikri bir araya gətirir. Tarixi mövzularda yazdığı bir çox yazılar isə tarixçi alimlər üçün əsl nümunə və dərsdir. Bu sırada ölkənin nüfuzlu mətbu orqanlarında dərc olunan "İrəvan şəhəri: olduğu kimi", "Nuhçıxan – Naxçıvan", "Naxçıvan şəhərinin yaşı: beş min il" və digər onlarla yazılarını misal göstərmək olar. Onun tariximizin tədqiqi, təbliği və öyrənilməsi istiqamətində gördüyü işlər sayca çoxdur. Aydın hiss olunur ki, alim ömrü boyu yaşayıb-yaratdığı Naxçıvan torpağını qəlbən sevdiyi kimi onun qədim tarixinin dərin qatlarının açılmasına, öyrənilməsinə də

ciddi səy göstərir. Onun üçün böyük dünyaya pəncərə də, uşaq ikən ayaq açıb yeridiyi torpaqdan başlanır.

## "Böyük ürək sahibi" və elmi mühitimizin böyük oğlu

Təcrübəmdə, müşahidələrimdə həm də bu qənaətdə olmuşam ki, o adamlar idarəçilikdə yaxşı təcrübəyə, idarəçiliyə malik olurlar ki, onlar həm də güclü yumor hissinə malik olurlar. Çətin, kritik məqamlarda da onlar qarşı tərəfi yumor hissləri ilə ələ almağı bacarırlar. Belə adamlar xırdaçılıq və öcəşkənlik hisslərindən də çox-çox uzaq olurlar. Bu halda yumor təfəkkür və düşüncə dərinliyinin, böyüklüyünün ifadəsinə çevrilir. On ilə yaxın bir müddətdə Naxçıvan Dövlət Universitetində sağlam mühitin formalaşmasında bu amil də önəmli rol oynayıb.

Başlıcası isə akademik İsa Həbibbəylinin digər həmkarlarından fərqləndirən üstün cəhətlərdən biri də onun geniş mənada maarifçi düşüncə və təfəkkürə malik olmasıdır. Böyük ustadları Mirzə Cəlil, Məhəmmədağa Şahtaxtılı, Əziz Şərif, Məmməd Cəfər, Abbas Zamanov kimi İsa müəllim də millətin savadlanması, inkişafı naminə əlindən gələni əsirgəmir. Bu yolda öz varını-dövlətini xərcləməyi də alicənablıq nümunəsi sayır. Hətta lazım gələrsə, onu istəməyənlərə, gözü götürməyənlərə də kömək əlini uzadır. O, canıyananlığı, səmimiyyəti ilə hamının müşkül işini qaydaya salmağa, böyüyün, kiçiyin, ağsaqqalın və ağbirçəyin yerini bilməsi ilə ən yüksək səviyyədə onların hörmətini saxlamağa çalışır. Çoxları bu mənada onu "böyük ürək sahibi" adlandırır. Çünki minlərlə insanın hörmət və məhəbbətini damla-damla qazanıb.

Akademik, əməkdar elm xadimi İsa Həbibbəyli bu gün müasir Azərbaycan elmi-ədəbi və ictimai fikir mühitinin ortaya çıxara bildiyi böyük şəxsiyyətlərdən, düha sahiblərindən biridir. Fədakar və yorulmaz alimin çoxşaxəli fəaliyyətində elmi yaradıcılıq həmişə aparıcı xətt təşkil edib. XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının, milli tənqidi realizmin və romantizmin əsas tədqiqatçılarından biridir. Əsərləri ölkəmizdən başqa Türkiyədə, Fransada, Misirdə, Pakistanda, Rusiyada, Belçikada, İranda, Bolqarıstanda, İraqda, Ukraynada, Qazaxstanda çap olunub, ona böyük şöhrət gətirib. O, Nyu-York EA-nın həqiqi üzvi, Türkiyə Cumhuriyyəti Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Başqanlığının müxbir üzvi seçilmiş, ABŞ-ın Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı", Ankara Universitetinin "Fəxri dostu" adına layiq görülmüşdür. Bir çox xarici ölkələrdə keçirilən nüfuzlu elmi məclislərdə isə maraqlı məruzələrlə çıxış edib.

## Öz odundan nur verən şəxs

Onun Milli Məclisdəki, Yeni Azərbaycan Partiyasındakı ardıcıl və səmərəli fəaliyyəti ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmlənməsinə və daha da inkişaf etdirilməsinə xidmətin bir nümunəsidir. O, Heydər Əliyev ideyalarının təbliğ edilməsində, Ulu öndərin siyasi xəttinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsində qəlbən iştirak edir, bu sahədə öz səyini, gücünü əsirgəmir. İstəyir ki, müasir Azərbaycan dövləti də, onun ayrılmaz bir parçası olan Naxçıvan torpağı da daha sürətlə inkişaf etsin. Adamların şüur və düşüncələrində müsbət dəyişikllikərin yaranması üçün müxtəlif üsul və metodlardan istifadə edir. O, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının və onun İdarə heyətinin üzvi kimi də geniş iş aparır.

Təbii ki, onunla – görkəmli akademiklə, tanınmış ictimai-siyasi xadimlə, ölkəmizin nüfuzlu ali təhsil ocaqlarından birinin rektoru ilə, böyük pedaqoqla, novator yaradıcı insanla qürurlanmağa dəyər. Çünki o, məmləkətimizin və elmimizin böyük oğullarından, düha sahiblərindəndir. Mübağiləsiz mənada, o həm də ölkəmizdə, yaşadığı bölgədə ziyalılığın başlıca "barometr"lərindən biridir. Onun fikrincə də, "milli ziyalılıq müxtəlif istiqamətlərdən axıb gələn çayların vahid məcrada qovuşmasıdır". Ziyalı-alim, ictimai xadim kimi həm də bu qənaətdədir ki, əyalətdə yaşamaqla əyalətçi düşüncəyə malik olmaq eyni məna daşımır. Ömrü boyu Naxçıvanda yaşaması onu Bakıda və digər iri şəhərlərdə yaşayan məsləkdaşları səviyyəsində düşünüb-daşınmasına da heç bir maneçilik törətməyib. "Əksinə, coğrafi mənada ayrılığın çətinliklərini, ağrı-acısını gerçək şəkildə duyduğum və yaşadığım üçün bütövlüyün qədr-qiymətini daha dərindən hiss etmişəm", – deyir.

Muxtar respublikada elə bir alim, yaradıcı şəxs tapmaq olmaz ki, onun yetişməsində, formalaşmasında bu alicənab insanın rolu, xidməti və xeyir-duası olmasın. Bu mənada onu "əvəzsiz insan" adlandıranlar da yanılmırlar. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən İxtisaslaşmış Dissertasiya Şurasının sədri kimi də geniş iş aparır, gələcək alimlərin yetişməsində, formalaşmasında öz köməyini əsdirgəmir. Xalq şairi Bəxtiyar Vahabzadənin poetik ifadəsi ilə desək, o "bu dünyaya öz odundan nur verməyə" gələn insanlardan biridir.

## Son söz əvəzi, yaxud böyük alimin ali mükafatları

Görkəmli alim haqqında demək istədiklərimi böyük Çin filosoflarından biri Lao Tszının (e.ə.V əsr) müdrik bir kəlamı ilə

tamamlamaq istəyirəm: "Kim adamları tanıyırsa –arifdir, özünü tanıyırsa – ağıllıdır; adamlara qalib gəlirsə – güclüdür, özünə qalib gəlirsə – qüdrətlidir; biliyi çoxdursa – dövlətlidir, inadkardırsa – iradəsi var, təbiətini dəyişmirsə –uzunömürlüdür".

Bütün mənalı həyatını xalqına, millətinə, peşəsinə xidmət etməkdə görən və bu sahədə şam kimi yanımlı bir ömür yaşayan İsa Həbibbəyli də cəmiyyətin uzunömürlü insanlarından biri olacaqdır. Çünki alicənabdır, xeyirxahdır, qabiliyyətlidir, bacarıqlıdır, mübarizdir, başlıcası isə təbiəti etibarı ilə sadədir. Yıxılanın, büdrəyənin qolundan tutmağı, ona dayaq durmağı da bacarır. Bütün bunların müqabilində isə həyatda və elmdə qazandığı uğurlar, mükafatlar ona ana südü tək halal görünür. Müstəqil dövlətimizin ali mükafatlarından biri olan "Şöhrət" ordenini əməyinə verilən ən yüksək qiymət hesab edir. Ulu öndərimizin sərəncamına əsasən "Əməkdar elm xadimi" fəxri adına layiq görülməsi ilə qürurlanır.

* * *

İsa müəllim həm də xoşbəxt atadır, babadır. Övladları Səhət və Ərəstu da ailə ənənələrini ləyaqətlə davam etdirirlər. Onların hər ikisi də ölkəmizin milli dövlət quruculuğu prosesində yaxından iştirak edir, atalarına baş ucalığı gətirirlər.

60 yaşı münasibəti ilə ilk növbədə onu – sadə və təvazökar insanı, fədakar elm adamını və ictimai xadimi səmimi qəlbdən təbrik edir, gələcək elmi və ictimai-siyasi fəaliyyətində daha böyük uğurlar, möhkəm cansağlığı arzulayırıq.

**"Ulduz" jurnalı,**
**№ 3, 2009-cu il**

# "Təbii bulaqlar muzeyi" – Naxçıvan

**Bir vaxtlar akademik Mirəli Qaşqay dağ-mədən ehtiyatlarına görə Naxçıvanı "Azərbaycanın Uralı" adlandırıb.**

5,3 min kvadrat kilometr ərazisi olan Naxçıvan torpağı ölkə ərazisinin cəmi 6,4 faizini təşkil etsə də, iqlim və relyefi, flora və faunası, Yerin təkindəki təbii sərvətləri ilə zəngindir. İqlimi quru və kontinental, relyefi əsasən dağlıq və dağ ətəyi ərazidən ibarət bu diyarın flora və faunası ilk baxışda yoxsul və çılpaq görünür. Amma ərazi cəhətdən bir o qədər böyük olmayan bu regionda ali bitkilərin 2963 növünə rast gəlinir ki, onların da 73-ü mədəni floraya daxildir. Heyvanların növ tərkibi və miqdarı isə siniflər üzrə Azərbayan faunasının 60-80 faizini təşkil edir. O ki qaldı bölgədə Yerin təkindəki və üzərindəki sərvətlərin bolluğuna, Azərbaycan elminin görkəmli nümayəndələrindən biri olan akademik Mirəli Qaşqayın dağ-mədən ehtiyatlarına görə Naxçıvanı "Azərbaycanın Uralı" adlandırmasını xatırlatmaq kifayətdir. Akademik Naxçıvanı həmçinin sərvətlərinin zənginliyinə görə torpaqlarımızın "şah damarı" adlandırıb.

## Hər damlasında həyat nişanəsi olan bulaqlar

Geologiya-minerologiya elmləri ilə məşğul olan alimlərimiz bu diyarı "təbii bulaqlar muzeyi" adlandırıblar. Hələlik bu "muzeyin" 250-dən artıq eksponatı aşkar olunub. Onların gündəlik debiti də az deyil. Hesablamalara görə, gün ərzində regiondakı mineral su mənbələri yer səthinə təxminən 24 milyon litr su axıdır. Onların da çox az bir hissəsindən istifadə olunur. Onu da deyək ki, hər damlasında həyat nümunəsi olan bu mineral bulaqlar (xüsusi ilə müalicə əhəmiyyətli sular) adamlara qədim zamanlardan məlum olub. Yerli əhali həmişə dirilik, şəfa suyu olan bu bulaqlardan bəhrələnib, onların müalicə qüdrətinə "tanrı ocağı",-deyərək möhkəm inam bəsləyib. Elə o vaxtlardan da həmin mənbələrin ətraflarında yaşayış məskənləri salınıb. Sirab kəndi yaxınlığındakı Daşqala mağarasını buna missal göstərmək olar. Deyilənə

görə, burada ibtidai icma dövrünün adamları yaşayıblar. Badamlı kəndi yaxınlığındakı nekropol isə orta əsrlərə aid arxeoloji abidədir.

Naxçıvan şəhərinin ilkin adları olan Naksuana və Naşəva sözləri də öz mənalarını bu "tanrı ocağı"ndan götürüblər. Sən demə, Naşəva farsca "xoş su" mənasını verdiyi kimi, Naksuana da türk dillərində "xeyirxah su yeri" deməkdir. Tarixən də Naxçıvan şəhərinin ətrafı həmişə mineral su yataqları ilə zəngin olub.

İri cay vadilərində və onların yaxınlığında yerləşən mineral bulaqlar heç də muxtar respublika ərazisində bərabər səviyyədə paylanmayıblar. Bu sarıdan Şahbuz rayonun qismətinə daha çox pay düşüb. Ərazisindəki çay vadiləri boyu 40 kvadrat kilometrlik sahədə 50-dək mineral su mənbəyi aşkar olunub. Culfa rayonunda isə 85 mineral su bulağı qeydə alınıb. Babəkdə isə 50 mineral-müalicə su mənbəyi öyrənilib.

## Mineral bulaqların müalicəvi sirləri

Tədqiqatçıların fikrincə, mineral bulaqların formalaşmasında relyefin, çay şəbəkəsinin, yarandıqları geoloji mühitin, iqlimin böyük əhəmiyyəti olub. Alimlər həm də bu qənaətdədirlər ki, bu suların yüksək kimyəvi-balneoloji xüsusiyyətlərə malik olmalarında onların müxtəlif tərkibli və yaşlı çöküntülərdən çıxması önəmli rol oynayır. Bu halda bulaq suları yeraltı suxurlarıln bütün müsbət keyfiyyətlərini özləri ilə bərabər yerin səthinə çıxarırlar. Nəzərə alsaq ki, ərazidə ən qədim su suxurların yaşı 400 milyon illə 500-700 min arasında dəyişir, onda dediklərimizi xırdalamağa da bir o qədər ehtiyac olmur.

AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşı, kimya elmləri namizədi Fizzə Məmmədova deyir ki, mineral suların müalicəvi xüsusiyyətləri onların tərkibindəki 6 əsas ionla müəyyən edilir: natrium, kalsium, maqnezium, xlor, sulfat və hidrokarbonat. Bu suların tərkibinin müxtəlifliyi isə bu altı elementin müxtəlif nisbətlərdə birləşməsindən asılıdır. Əgər hidrokarbonat və natrium ionu suda üstünlük təşkil edirsə, təbii ki, bu halda onlar hidrokarbonatlı-natriumlu, yəni məhşur "Barjomi" tipli suları təşkil edir. Naxçıvandakı "Sirab"la yanaşı, "Gülüstan" (Culfa), "Nəvi" (Ordubad), "Bicənək" (Şahbuz) mineral suları da bu tipə aiddir. "Narzan" tipli sularda isə maqnezium, kalsium, və sulfat ionlarının birləşməsindən əmələ gəlir. Şahbuz rayonun "Badamlı", "Gicdəsər", "Karvansara", "Sələsüz", Culfanın "Dingə", "Nəsirvaz", Babək rayonundakı "Qızılburun" bulaqları da onun anoloqudur.

"Əshabi-kəhf" mineral suyu da artıq öz sirrini açıb. O, radonla zəngindir. Bu su məhşur Pyatiqorsk (Şimali Qafqaz) suyunun anoloqu

olmaqla yanaşı sinir, ürək-damar və revmatizm xəstəliklərinin müalicəsində səmərəlidir. Ötən ildən onun mənbəyində adamların bu sərvətdən normal istifadəsi üşün köşk və kiçik hovuzlar düzəldilib. İndi hər on beş dəqiqədən bir qaynayaraq qazlı halda yerin səthinə çıxan su hovuzlara yığılaraq adamların istifadəsinə verilir, burada bolneoloji məqsədlə istifadə olunur.

Onu da qeyd edək ki, muxtar respublikada mineral su bulaqlarının və onların formalaşdığı mühütin-geologiyası və tektonikasının öyrənilməsinə, hələ çarizm dövründən, daha doğrusu XIX əsrin ortalarından başlanılıb. Su mənbələrində planlı kəşfiyyat işləri isə 20-cü yüzillikdən aparılır. Ötən müddət ərzində də müəyyən edilib ki, bölgədə mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcud olub. Onların isə 98 faizi karbonqazlı olub, hidrokarbonat tipli sulara aid edilirər. Azərbaycan ərazisində mövcud olan karbon qazlı suların üçdə bir hissəsi də bu regionun payına düşüb.

## Bölgə iqtisadiyyatında gərəkli sahə

Sənaye üsulu ilə bölgədə mineral su istehsalına isə altmış il bundan əvvəl başlanılıb. İlk əvvəl Badamlı mineral sular zavodu fəaliyyətə başlayıb. Uzun illər boyu "Azərbaycan Mineral Suları" İstehsalat Birliyi də Naxçıvanda fəaliyyət göstərib. Yeyinti sənayesi məqsədi ilə burada fəaliyyət göstərən 3 mineral sular zavodu da onun tabeliyində fəaliyyət göstərib. Planlı sovet iqtisadiyyatının hökmranlıq etdiyi illərdə Naxçıvanda istehsal olunan mineral sular dəmiryol nəqliyyatı vasitəsi ilə keçmiş ittifaqın uzaq ünvanlarına yola salınırdı. 1979-cu ildə tikilib istifadəyə verilən, istehsal gücü ildə 60 milyon ədəd 0,5 litrlik şüşə butulka olan Naxçıvan şüşə-qablar zavodu isə bu müəssisələri fasiləsiz olaraq tara-qablarla təmin edirdi. Amma nə gizlədək, köhnə iqtisadi mexanizmin qırılması ucbatından bu müəssisələr də öz fəaliyyətlərini dayandırası olublar. Ağır iqtisadi durum və bölgənin düçar olduğu blokada şəraiti bu zavodların fəaliyyətini iflic halına salsa da, sonrakı illərdə regionların sosial iqtisadi inkişafının Dövlət Proqramı şərçivəsində həyata keçirilən tədbirlər nəticəsində müasirtipli müəssisələr qurulub.

## Adı və tamı olan su – "Badamlı"

Adı dillər əzbəri olan, şəninə mahnılar bəstənilən "Badamlı" mineral su bulaqları füsunkar Şahbuz dağlarında, dəniz səviyyəsindən 1274 metr hündürlükdə çağlayır. Şəffaf və iysiz xüsusiyyətlərə malik

olan bu su kimyəvi tərkibinə görə karbon qazlı, hidrokarbonatlı-xlorlu-natriumlu-kalsiumlu sular qrupuna aid olub. Elə o vaxtdan da bu sular adı və tamı ilə seçiliblər. 5 saylı quyudan çıxan suyun tərkibi isə Rusiyanın məşhur "Arşan" bulağının suyuna yaxın olub, "Narzan" tipli sular qrupuna aid edilib. Mineral suyun müalicə əhəmiyyəti tədqiq olunaraq müəyyən edilib ki, onu mədə-bağırsaq, sidik yolları və qaraciyərin bəzi xəstəlikləri zamanı içmək faydalıdır. Buruq quyularının bəzilərində isə suyun minerallaşma dərəcəsi az olduğundan süfrə suyu sayılır. Bu səbəbdən də "Badamlı" mineral suyundan süfrə və müalicə məqsədilə istifadə edilir.

Onu da qeyd edək ki, "Badamlı" mineral su yatağından Naxçıvan şəhərinə su xətti çəkib gətirmək heç də asan iş olmayıb. Bunun üçün 25 kilometr məsafədən iki su xətti çəkilib. Su süzgəcdən keçirilərək ionlaşdırıldıqdan sonra avtomatik üsulla butulkalara doldurulur. Burada suyun keyfiyyət göstəriciləri laboratoriya analizlərindən keçdikdən sonra yüksək ixtisaslı mütəxəssislərin nəzarəti altında tam avtomatlaşdırılmış avadanlıqlarla, əl dəymədən, gigeynik qaydalara əməl olunmaqla butulkalara doldurulur. Zavodun Almaniya avadanlığı ilə təchiz edilmiş laboratoriyaları məhsulun keyfiyyətli olmasına tam zəmanət verir.

Müəssisədə mineral suların qablaşdırılması xətlərinin dünyada bir nömrəli istehsalçısı olan Fransanın məşhur "SİDEL" şirkətinin avadanlıqları quraşdırılıb. İstehsal sahəsinin həcmi 3 min 600 kvadratmetrdir. İki axın xəttindən ibarət olan müəssisənin gündəlik istehsal gücü 300 min ədəd qabdır. Hələlik isə daxili bazarın tələbatına uyğun olaraq gün ərzində 15 min ədəd su buraxılır. İstehsal olunan məhsullar da polietilen və şüşə qablarda alıcılara göndərilir. İstehsal olunan məhsulların xeyli hissəsi "Mersedes" markalı avtorefrijeratorlar vasitəsilə İran ərazisi ilə Bakı şəhərindəki satış şöbəsinə göndərilir. Həmin satış şöbəsi məhsulun xidmət obyektlərinə çatdırılması, paylanması üçün lazımi sayda örtülü yük maşını ilə də təmin olunub. Muxtar respublika daxilində də 5 ədəd bu cür maşının xidmətindən istifadə olunur.

Hələlik müəssisədə 60 nəfər işlə təmin olunub. Orta aylıq əməkhaqqı 250-300 manat arasındadır. Tələbat artdıqca burada iş üç növbədə aparılacaq, işçilərin sayı 200-ə çatacaqdır.

## Sirli və sehrli su – "Sirab"

"Sirab" – sirli, sehrli su mənasındadır. O qədim zamanlardan yerli əhali tərəfindən müalicə və süfrə suyu kimi istifadə olunub. Sonrakı

illərdə isə respublikamızda çıxan karbon qazlı müalicə sularının ən yaxşı nümunəsi hesab olunub. Təbiblərin fikrincə, o güclü şirəqovma təsirinə malik olduğundan hiperassit qastritlərin müalicəsində yüksək səmərə verir. Onun mədəaltı vəzinin funksional vəziyyətinə təsiri də təcrübə və kliniki üsullarla öyrənilib. Aydın olub ki, karbon qazlı suyun təsiri ilə pankreoduodenal sekresiyanın müddəti uzanır, mədəaltı vəzinin fəallığı artır. Bu suyun köməyi ilə öd kisəsinin ödqovma qabiliyyətini artırmaq, öd əmələ gətirmə funksiyasını da yaxşılaşdırmaq olur. O, həm də mədə və bağırsaqların fəaliyyətinin aktivləşməsində əhəmiyyətli rol oynayır.

Sirabdakı mineral su yatağında əsasən üç mənbə var. Həmin mənbələr Kəlbəağıl, Şorsudərə və Qutandağ adlanan mineral su hövzələridir. Bu mənbələrdəki sular kimyəvi tərkiblərinə görə də bir-birlərindən fərqlənirlər. Kəlbəağıl hövzəsindəki su yerin 250 metr dərinliyindən çıxarılır. O kimyəvi tərkibinə görə az minerallaşmış, karbon qazlı, hidrokarbonatlı-kalsiumlu-natriumludur, məhşur "Borjomi" tipli sular qrupuna aid edilir.

1999-cu uldən müstəqil zavod kimi fəaliyyətə başlayan müəssisə 2003-cü ildə acıq səhmdar cəmiyyətinə çevrilib. Ölkəmizdə sahibkarlığın inkişafına yaradılan şərait burada müasir istehsal texnologiyalarına əsaslanan yeni tipli müəssisənin yaradılmasına imkan verib. Əsas sexdə Rusiya və Türkiyə mənşəli olan avadanlıqlar hesabına iki axın xətti quraşdırılıb. Konveyr üsulu ilə işləyən avadanlıqların istehsal gücü də az deyil. Hər iki axın xəttində saatda 7500 ədəd butulka doldurulur. Şüşə butulkalarla işləyən sexdə isə üc axın xətti quraşdırılıb. 0.33 və 0.5 litrlik qablar üçün nəzərdə tutulan bu axın xəttlərinin hər birində saatda 4 min ədəd butulka doldurularaq satışa göndərilir.

Onu da qeyd edək ki, müəssisənin yarıməsrlik fəaliyyəti dövründə qazandığı ən böyük mükafat 2005-ci ildə onun İsveçrənin Cenevrə şəhərində yerləşən "İş təcrübəsində yüksək keyfiyyət uğrunda" Beynəlxalq Fondun Qızıl prizinə layiq görülməsi olub.

### Dünyanın nadir mineral sularından biri – " Darıdağ"

Təbiətin Naxçıvana bəxş etdiyi nemətlər içərisində Darıdağ arsenli mineral suyu xüsusi çəkiyə malikdir. O, çox komponentli mürəkkəb duzlu məhluldur, dünyada çox nadir təsadüf olunan mərgümüşlü sular qrupuna daxildir. Qədim zamanlardan da müalicə vasitəsi kimi istifadə edilib. Akademik A.Qarayev də suyun tərkibi haqqında danışarkən belə fikir söyləyib ki, təbiət bu suyun komponent tərkibini elə dəqiq hesablama ilə tərtib edib ki, onun adi şəraitdə hazırlanması bəlkə də

mümkün olmazdı. 1978-ci ildə mineral su yatağının əsasında balneoloji müalicəxana yaradılıb.

Darıdağ mineral suyu karbon qazlı, mərgümüşlü, yüksək minerallaşmış xlorlu-hidrokorbonatlı-natriumlu sular tipinə aid edilir. O, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən 5 bulaq və 32 kəşfiyyat quyusundan ibarətdir. Yerin təkindən suyun 53-57 dərəcə C temperatura malik qaynar halda çıxması onu termal sular qrupuna daxil edir. O, maddələr mübadiləsini yaxşılaşdırdığından ilk növbədə müxtəlif mənşəli nevrologiya ağrılarında yaxşı təsir göstərir. Bu cür balneoloji vannalar bel-omba radikuliti, revmatizm, poliatrit, ostexandroz, dəri xəstəliklərində, eləcə də bir çox qadın xəstəliklərinin müalicəsində yüksək səmərə verir.

Bir qədər də Darıdağ mineral suyunun dünyada şöhrəti yayılan digər arsenli sularla müqayisəsi barədə. Mütəxəssislərin fikrincə, "Darıdağ" mərgümüşlü suyu isə bu qəbildən dünyada məhşur olan İtaliyadakı "Cənubi Tirol", "Ronçenyo", Fransadakı "Lya-Bulbul" arsenli sularından həm keyfiyyətinə, həm də gündəlik debitinə görə xeyli üstündür. Bütün bunlar isə Naxçıvandakı mineral suyu Avropada olan mərgümüşlü sular içərisində ilk yerə çıxarır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən Darıdağ arsenli su müalicəxanasına da pay düşüb, burada yeni müalicəxana obyekti tikilib istifadəyə verilib. Hər gün onlarla xəstə bu balneoloji müalicəxanadan istifadə edir.

Naxçıvan-Ordubad magistral şose xəttindən sağlamlıq ocağınadək 5 kilometrlik yola asfalt döşənib. Hər gün onlarla xəstə bu balneoloji müalicəxanadan istifadə edir.

## "Əshabi-kəhf" mineral suyu öz sirrini açıb

"Əshabi-kəhf" mineral suyu da artıq öz sirrini açıb. Babək rayonu ərazisində, Əshabi-Kəhf dağının ətəyində çağlayan bu suyun tərkibi az minerallaşmış, hidrokarbonatlı-xlorlu-sulfatlı, natriumlu-kalsiumlu olmaqla, radonla zəngindir. O, məhşur "Pyatiqorsk" (Şimali Qafqaz) suyunun analoqu olmaqla yanaşı, sinir, ürək-damar və revmatizm xəstəliklərinin müalicəsində effektli hesab olunur.

Debiti xeyli az olan bu bulaq öz "sirli" aləmi ilə də seçilir. Bu mənada onu möcuzəli su adlandıranlar da yanılmırlar. Hər on beş dəqiqədən bir qaynayaraq qazlı halda yerin səthinə çıxan su sonra yoxa çıxır. Son illər bu bulaq üzərində köşk və kiçik hovuzlar düzəldilib,

insanların istirahəti üçün şərait yaradılıb. Qazlı və köpüklü halda çıxan mineral su hovuzlara yığılaraq balneoloji məqsədlər üçün istifadə olunur.

* * *

Bir sözlə, Uca Yaradanın Naxçıvan torpağına bəxş etdiyi nemətlər, sərvətlər çoxdur. Onların sırasında müalicəvi əhəmiyyətli mineral sular xüsusi yer tutur. Bu sular ölkəyə valyuta gətirmək qabiliyyətinə malikdir. Son illər Azərbaycanda, o cümlədən muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər bunun üçün münbit şərait yaradıb. Qalır bu şəraitdən doğru-düzgün istifadə etmək. Düzdür, bölgənin blokada şəraitində yaşaması bu arzunu həyata keçirməyə mane olur. Hələ də bir çox yüklər İran ərazisi vasitəsi ilə avtomaşınlarla daşınır ki, onun da özünəməxsus çətinlikləri var. Amma bununla belə Naxşıvanda istehsal olunan mineral sular bir çox xarici ölkələrə ixrac olunur. Bu istiqamətdə aparılan tədbirlər davam etdirilir. Keyfiyyətli məhsulun isə hər yerdə alıcısı var.

**"Kəlam" jurnalı,**
**№ 47, 2010-cu il**

# Naxçıvanda milli-mənəvi dəyərlərimiz: öz gözəllik və özəllikləri ilə

**"İnsan mənəviyyat üçün yaşamamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır".**

**Heydər ƏLİYEV**

"Naxçıvanda öyrənilәsi vә tәtbiq olunası bir çox tәcrübә var" adlı yazım "Azәrbaycan" qәzetindә dәrc olunan günün sәhәri yaxın dostlarımdan birisi mәndәn soruşdu:

-Nә әcәb, regionda- qәdim vә doğma torpaqda milli- mәnәvi dәyәrlәrimizin yad tәsirlәrdәn qorunub saxlanılması, adәt-әnәnәlәrimizim yaşadılması istiqamәtindә görülәn işlәrdәn, hәyata keçirilәn müsbәt tәdbirlәrdәn bir yazı hazırlamırsan, bu barәdә öz düşüncәlәrini oxucularla bölüşdürmüsәn? Axı bu sahәdә dә Naxçıvanda gözәl vә müsbәt bir tәcrübә toplanılıb, onlar ölkәmizin başqa bölgәlәri vә onun sakinlәri üçün dә yaxşı nümunә ola bilәr.

Düzü, ilk әvvәl bu sözlәr mәnә bir qәdәr adi göründü. Düşündüm ki, nә fәrqi var, xalqımıza mәxsus adәt-әnәnәlәr ayrı-ayrı bölgә vә rayonlarımızda da bu vә ya digәr dәrәcәdә yaşadılırsa, onda onun nәyi pisdir ki?! Amma iş elә gәtirdi ki, bu söhbәtdәn az sonra mәmlәkәtimizin Baş kәndi olan Bakı şәhәrindә bir-iki yas mәrasimindә iştirak edәsi oldum, bu dәfә öz gözlәrim ilә gördüklәrimә dә inanmağım gәlmәdi. Xüsusәn dә bu mәrasimlәrdә açılan süfrәlәrin zәnginliyi ilә tanış olanda. İlk әvvәl mәnә elә gәldi ki, qonşu xarici dövlәtlәrin hansısa birindә tәşkil olunan bu cür mәrasimdә iştirak edirәm. Çünki tarix elmlәri namizәdi alimlik dәrәcәsi olan bir ziyalı-alim tәk xalqımızın adәt әnәnәlәrindәn da az-çox xәbәrdar idim. Yaxşı bilirdim k, yas mәrasimlәrinin tәmtәraqlı keçirilmәsi heç vaxt xalqımıza mәxsus adәt-әnәnәlәrdәn olmayıb. İlahi, qışın oğlan vәdәsindә bu süfrәlәrdә hansı nemәtlәr yox idi: üzüm, banan, apensin, portağal, çәrәz, daha nәlәr... Ehsan adı ilә verilәn yemәklәr dә çeşidlәri ilә seçilirdi. İnsafәn xidmәt işi dә yaxşı tәşkil olunmuşdu. Toy şәnliklәrindәn fәrqli olaraq bu mәrasimlәrdә tәkcә ortada spirtli içkilәr yox idi. O an da nәdәnsә kasıb

və imkansız adamların halını düşündüm ki, görəsən onlar bu cür ağır yükün, məsuliyyətin altından çıxa bilirlərmi? Elə oradaca Naxçıvanda keçirilən sadə və təmtəraqsız yas mərasimləri yadıma düşdü. Öz-özümə də müqayisə aparası oldum: Görəsən bu gün hansı adət-ənənə xalqımız üçün xasdır: yüksək təmtəraqa, quru şöhrət naminə keçirilən, yoxsa sadə mərasimlər. Adət-ənənəmizə uyğun olaraq bu günədək yaşayan, yaxud da yad təsirlərə məruz qalaraq öz əndazəsindən çıxıb sünniləşən adət-ənənələr.

* * *

Milli-mənəvi dəyərlərinin qorunmasında və inkişaf etdirilməsində tarixi şəxsiyyətlərin də rolu böyük olur. Bu baxımdan, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hələ sovet hakimiyyəti illərindəki fəaliyyəti diqqəti xüsusilə cəlb edir. Çünki məhz Heydər Əliyevin hakimiyyətdə olduğu, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dövrlərdə xalqımız mənəvi irsimizin zənginliklərinə sahib çıxmış, milli dəyərlərimizə daha hörmət və ehtiramla yanaşmışdır.

Ulu öndər respublikaya rəhbərlik etdiyi illərdə milli ruhun dirçəlməsinə, Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdi. Məhz bu baxımdan, Heydər Əliyevin ölkəyə rəhbərliyinin birinci dövrünü tarixçilər haqlı olaraq milli özünüdərkin oyanmasının, kökümüzə qayıdışın yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul edirlər. Bir rəhbər kimi Heydər Əliyevin fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Hər şey milli şüurun yüksəlişinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi. Heydər Əliyev həmişə milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi sayğı ilə yanaşırdı. Prezident İlham Əliyev də bu xətti uğurla davam etdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov da xalqımızın milli-mənəvi dəyərlərinə son dərəcə bağlıdır, onlara hörmət və sayğı ilə yanaşır. "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Ali Məclis Sədrinin imzaladığı 7 fevral 2009-cu il tarixli sərəncam da bu dediklərimin əyani təzahürüdür.

Düzdür, milli mənəvi dəyərlərimizə qayıtmaq zərurəti ilk növbədə milli özünü dərk prosesindən irəli gəlib. O bu gün də dünya sivilzasiyasının tərkib hissəsinə çevrilib. Təcrübə belə bir halı da sübut edib ki, adətən inkişaf etmiş ölkələrdə, regionlarda, bölgələrdə hər bir

xalq, millət öz adət-ənənəsinin yad təsirlərdən qorumağa, onu yaşatmağa çalışıb. Çünki millət özünü dərk edib öz milli mənəvi dəyərlərini yaşatdıqca daha güclü olur.

* * *

Milli mənəvi dəyərlər həm də hər bir xalqın özünəməxsusluğunun a göstəricisidir. Tarixən öz zəngin folkloru, etnoqrafiyası ilə çecilən xalq həm də dünyanın inkişaf etmiş mədəniyyətə malik və sayılan ölkələrindən biri sayılıb. Milli-mənəvi dəyərlər həm də xalqın, millətin hər bir üzvini, sakinini birləşdirən dəyərlər, keyfiyyətlər olmaqla yanaşı, adamları birliyə, xeyirxahlığa və mehribançılığa səsləyən bir amil olub. Onları humanist dəyərlər ətrafında toplayıb.

AMEA-nın müxbir üzvi, tarix elmləri doktoru, tanınmış etnoqraf Hacı Qədir Qadirzadənin sözlərinə görə, dini-mənəvi dəyərlər deyiləndə ilk növbədə dindən və xalqdan gələn köklü dəyərlər nəzərdə tutulur. Onun fikrincə, din yaranmışın Yaradanı, xəlq olunanın isə Xaliqidir.

Təbii ki, yas saxlamaq da hər bir xalqın öz adətinə çevrilib. Bu da tariximizin dərin qatlarından süzülərək bizlərə gəlib çatan adət-ənənələrdən biri olub. Tarixçi alimlər onu da deyirlər ki, islam dini ilə bağlı adət-ənənədə yalnız dəfn məhfumu olub. Həzrəti Peyğəmbərimiz də öz tərəfdaşlarına belə buyurub ki, dəfndə iştirak etsinlər. Deyilənə görə, bir dəfə ondan soruşublar ki, müsəlman olmayanın da dəfnində iştirak vacibdirmi, o da cavab verib ki, hətta kafirin də...

Əsrlər boyu yas mərasimləri dərdi bölüşdürmək üçün ən yaxşı yol, vasitə hesab olunub. Müdriklərimiz də deyiblər ki, dərd bölünə-bölünə azalar. Yaşlı və qoca adamlar isə belə danışırlar ki, təxminən 40-50 il bundan əvvələ qədər yas mərasimlərində nəinki ehsan, hətta ölü sahibləri üçün yemək də bişirilməyib. Bu halda başı kədərə və yasa qarışan ailəyə qohum-qonşular tərəfindən lazımi köməkliklər göstərilib. Ayrı-ayrı evlərdə bu ailə üçün də xörəklər bişirilib. Sonrakı illərdə isə sosial, iqtisadi və mədəni həyatımızdakı inkişaf adət-ənənələrimizi də xeyli qabağa aparıb, onları müasirləşdirib. İqtisadi inkişaf və maliyyə durumu yas mərasimlərini də hər bir ailənin öz gücü ilə yola verilməsinə imkan yaradıb. Zaman ötdükcə isə yad təsirlər bu dəyərlərimizə də hücum etməyə çalışıb...

* * *

Naxçıvan MR qazisi Hacl Sultan Novruzov deyir ki, təxminən iki-üç il bundan əvvələ qədər muxtar respublikanın bir çox yaşayış məskənlərində yas mərasimlərinin ilk günü də ehsan verilirdi, halva bişirilirdi. Təbii ki, bu halda mərhumu düşünən, onu ağlayan az olurdu. Ölü sahibi də bilmirdi ki, nə etsin: öz əzizinin itkisi, yoxluğu barədə düşünsün, yoxsa ehsan haqqında. Kasıb və imkansız ailənin rastlaşdığı çətinliklər isə daha çox olurdu. Bu halda da o çoxlu borc-xərcə düşürdü. Az sonralar yas mərasimində kök salan bu xoşagəlməz hallar aradan götürüldü, bu dəyişikliklər də hamının ürəyincə oldu. Belə qərara alındı ki, yas mərasiminin ilk günü, dərdin, kədərin qəfildən "qonaq" gəldiyi bir vaxtda ehsan verməyə də lüzum yoxdur.

Bu gün Naxçıvandakı yas mərasimləri həm də öz sadəlikləri ilə də çeçilir. O heç vədə dgər bölgələrimizdəki tək toy mərasimlərinə bənzəmir. Bu cür mərasimlər şəhər yerlərində adətən hər cür məişət avadanlıqları ilə təmin olunan xeyir-şər obyektləri və məscidlərdə, kənd və qəsəbə yaşayış məskənlərində isə çadır-mağaralarda, bəzi hallarda isə mərhumun ev şəraitində keçirilir. Bu mərasimlərdə zəngin çay, yaxud çox çeşidli yemək süfrələrindən danışmaq da əbəsdiur. Ümümiyyətlə, buradakı mərasimlərdə limon və xurma istisna olmaqla digər meyvələrdən istifadə olunmur, bu barədə də ağsaqqal vəağbirçəklərin belə bir öyüdü əsas tutulur ki, bu cür mərasimlərdə acı ilə şirin nemət heç vədə bir yerdə olmayıb. Bu adət indi də yaşadılır. O, kimliyindən, nəçiliyindən və iqtisadi imkanlarından asılı olmayaraq hər bir sakin üçün adi hala çevrilib. Onu pozmağa çalışanlar isə ilk növbədə ictimai qınağa tuş gəlirlər.

Bəzi yaşayış məskənlərində, bir çox iri kəndlərdə isə yas mərasimlərində heç limon və xurmadan da da istifadə olunmur. Məsələn, götürək Kəngərli rayonun ən iri yaşayış məskənlərindən biri olan Qarabağlar kəndini. Burada 8 min nəfərdən artıq adam yaşayır, sakinlər də bir-birlərinin xeyir-şər işlərində yaxından iştirak edirlər. Belə deyirlər ki, ötən payız burada imkanlı ailələrdən birinin yas mərasimində çay süfrəsində limon və xurmadan istifadə edilməyə çalışılıb, lakin kənd ağsaqqallarının məsləhəti ilə bu hal tez aradan qaldırılıb. Böyük vəzifə sahibi olan şəxs də sonra anlayıb ki, elin adət-ənənəsi ilə oynamaq olmaz. Babək rayonun Nehrəm, Nəzərabad, Didivar kəndlərindəki yas mərasimləri də əsasən bu cür təşkil olunur.

Etnoqraf alim Hacı Qədir Qadirzadə də bu fikirdədir ki, xeyirlə şər mərasimləri bir-birlərinə qardaş olsalar da, onların hər birinin öz "əlamətləri" var. Qara ilə qırmızı rəng bəzi mərasimlərdə bir yerdə ola bilmədiyi kimi, acı ilə şirin nemət də mahiyyətcə eyni məna daşımırlar.

Bu baxımdan da yas mərasimlərində müxtəlif çeşidli meyvələrdən və şirniyyat məhsullardan istifadə olunması adət-ənənələrimizdən irəli gələn hal olmayıb. Bu halda söhbət heç də nəyəsə qənaət etməkdən getmir. Sadəcə xalqa məxsus olan adət-ənənə yad təsirlərdən qorunub saxlanır.

Təbii ki, bu fani dünyada hər kəs özü üçün rəhməti yalnız yaşadığı dövrdə sahibi olduğu xeyirxah, savab işləri və halal, namuslu əməyi və davranışı ilə qazanır. Mərhumun yas mərasimində iştirak edən adamlar isə öz son borclarını yerinə yetirməyə çalışırılar. Axı, Həzrəti Peyğəmbərimiz də öz tərəfdaşlarına belə buyurub ki, hər bir dəfn mərasimində iştirak etmək vacib şərtdir.

Naxçıvanın qazisi Hacı Sultan Novruzov onu da deyir ki, iki-üç il bundan əvvələ qədər yas mərasimləri ilə bağlı dinin dəyərlərimiz də ayrı-ayrı hallarda yad təsirlərə məruz qalmaq təhlükəsində qalıb. Xüsusən də Bakı şəhərində və digər bölgələrdə yaşayan, əslən naxçıvanlı olan bəzi imkanlı adamlar, yüksək vəzifə sahibləri şöhrət naminə öz yaxın adamlarının yas mərasimlərini təmtəraqla, zəngin süfrə ilə yola vermək istəyiblər. Hətta bir neçə yerdə,- yas mənimdir, özüm bilərəm, onu necə keçirərəm,-deyənlər də olub. Amma beləlləri sonralar ictimai qınaqla qarşılaşdıqlarını gördükdə , etdikləri hərəkətlərə görə də peşimançılıq keçiriblər. Aydın duyublar ki, bu halda yerli əhalinin yas mərasimlərində iştirakı da zəif olur. "Palaza bürün, el ilə sürün" kəlamı yenə də üstün gəlib.

* * *

El adət-ənənəsinə görə, Naxçıvanda yas mərasimləri əsasən üç gün ərzində keçirilir. Naxçıvan şəhəri ilə yanaşı digər rayonlarda da bu mərasimlər bu cür formalaşıb. Yas mərasiminin ilk günü isə ehsan verilmir. İkinci gün əsasən mərasimdə iştirak edən, onun əziyyətini çəkən adamlar üçün ehsan təşkil olunur. Bu halda iştirakçıların sayı çox olmur. Üçüncü gün isə nahar vaxti böyük ehsan süfrəsi açılır, adamlar könüllü şəkildə burada iştirak edirlər. Bəzi yaşayış məskənlərində isə bu ehsan mərasimin dördüncü günü və ya qarşıdan gələn ilk çümə axşamı verilir. Muxtar respublikanın ən böyük kənd yaşayış məskənlərindən biri olan, on min nəfərdən artıq adamın yaşadığı Babək rayonun Nehrəm kəndində də mərasimin yalnız dördüncü günü ehsan verilir. Amma digər yerlərdən fərqli olaraq əvvəlki günlərdə buradakı yas yerlərində ehsan söz-söhbəti eşidilmir. Çünki kənd çox böyük olduğundan bu cür tədbirlərin öhdəsindən gəlmək də asan deyil. Böyük ehsanla yas mərasimi demək olar ki, yekunlaşdırılır.

Bölgədə dünyasını dəyişən şəxsin yeddi və qırx deyilən mərasimləri isə əsasən onun doğma və yaxın adamlarının iştirakı ilə yad olunur. Bütün hallarda isə muxtar respublika ərazisində ehsan yalnız bir növ yemək - plov və ya sovuz bişirilməklə həyata keçirilir. Bu halda yemək süfrəsi üzərində mineral su və göyərti-tərəvəzdən başqa özgə bir nemət olmur. Hər bir yas sahibi də bu ənənəyə əməl etməyə çalışır.

O ki, qaldı yas mərasimlərini idarə edən din adamlarına, yerli mollaların fəaliyyətlərinə, son illər bu sahədə də bir qədər qayda yaradılıb. İlk növbədə ali dini təhsilli adamlar bu işlərə daha çox cəlb olunublar. Muxtar Respublika ərazisində Bakı İslam Universitetinin məzunu olan beş nəfər artıq bu sahə ilə məşğul olur. 7 gənc isə həmin ali təhsil ocağında təhsilini davam etdirir.

Təbii ki, 200-dən artıq yaşayış məskəni olan regionda yas mərasimlərini bu sayda ixtisaslı kadr, qüvvə ilə yola vermək çətin məsələdir. Bu səbəbdən də yerl dindarların güçündən də istifadə olunur. Bunun üçün Muxtar Respublika Dini işlər üzrə Dövlət İdarəsinin əməkdaşları yerli qazi və axundlar şurası ilə birlikdə vaxtaşırı yerlərdə bu işlə məşğul olan adamlar arasında imtahan xarakterli söhbətlər aparıblar. Onların arasında kifayət qədər dini savadı, dünyagörüşü və dil qabiliyyəti olanlara bu işlə məşğul olmağa icazə verilir. Onların işinə nəzarət və köməklik isə rayon məscidlərində fəaliyyət göstərən axundlara tapşırılıb. Yas mərasimini idarə edən hər mollanın gündəlik qazanşı isə on manat məbləğində müəyyənləşib.

* * *

Bölgədə dini-mənəvi dəyərlərimizin qorunması və möhkəmləndirilməsi istiqamətində həyata keçirilən mühüm əhəmiyyətli tədbirlərdən biri də müsəlman dünyasında müqəddəs ünvanlardan sayılan qəbirstanlıqlara münasibətin bir qədər dəyişilməsi ilə bağlıdır. Regionda aparılan geniş miqyaslı quruculuq tədbirləri artıq bu sahəni də öz ağuşuna alıb. Məzarstanlıqların hasar-çəpərə salınması, onların ətraflarında yaşıllıq zolaqlarının salınması, su xəttlərinin çəkilməsi bu sahədə görülən xeyirxah işlərin bir qismidir. Babək rayonun Cəhri, Kəngərli rayonun Xök, Şərur rayonun Aralıq və onlarla digər kənd qəbirstanlıqlarında həyata keçirilən tədbirləri buna əyani misal göstərmək olar. Naxçıvan və Şərur şəhər qəbirstanlıqlarında aparılan böyük həcmli quruculuq işləri də adamlara sanki yeni mədəniyyət aşılayır. Bu qəbirstanlıqlar üçün giriş tağların inşa olunması, məzarlar arasında sal daşları ilə gediş-gəliş yollarının salınması da göstərilən qayğının bir ifadəsidir.

Qəbirstanlıqlarda vaxtaşırı iməcliklərin keçirilməsi, təmizlik və abadlıq işlərinin aparılması da müsbət işlərdəndir.

Hazırda isə yerli əhali arasında ictimai müzakirəyə ötürülən vacib məsələlərdən biri məhrum üçün hazırlanan baş daşlarının vahid bir formada olub-olmaması ilə bağlı gedən söz-söhbətlərdir.

* * *

Bir qədər də bölgədə milli-mənəvi dəyərlərimizin digər tərkib hissəsi və aparıcı qolu olan əxlaqi dəyərlərimizin qorunması və möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışmaq istəyirəm.

Elə buradaca söhbətimə kiçik bir haşiyyə çıxarmaq istəyirəm: Düz beş il bundan əvvəl, 2003-cü ilin may ayında yolum Türkiyənin böyük şəhərlərindən birinə düşmüşdü. Orada mətbuatla bağlı keçirilən böyük toplantıların birində iştirak edirdim. O zaman mən - bu sətirlərin müəllifi Naxçıvanda gündəlik nəşr olunan "Şərq qapısı" qəzetinin baş redaktoru idim. Həmin toplantıda da "Azərbaycan mətbuatı: dünən və bu gün" mövzusunda olan məruzəm iştirakçılar tərəfindən maraqla qarşılandı. Toplantı qurtarandan sonra iş elə gətirdi ki, bir gecə də Türkiyənin Naxçıvana qonşu vilayəti sayılan İqdırın mərkəzində qalası oldum. İnsafən son illər bu şəhər də böyük sürətlə inkişaf etmişdi.

Həmin gün bir türk həmkarımın qonağı oldum. Onunla Naxçıvanda dostlaşmışdıq. Həmin axşam həmkarım məni tanımadığım bir ünvana şam yeməyinə apardı. O obyekt iki və ya üç mərtəbəli böyük bir bina idi. Sanki iri bir şadlıq sarayına bənzəyirdi. İlk əvvəl də elə hiss etdim ki, yəqin bir toy məclisində iştirak edirəm, çünki burada böyük çal-çağır var idi. Amma nə gizlədim, məclisdə qadınların bir qədər yarıçılpaq vəziyyətdə olması və tez-tez öz əndazələrini aşması da diqqətimdən yayınmırdı. Söhbətimizin şirin yerində isə müsahibim onlardan bir neçəsini mənə işarə edərək, - Siz tərəflərdən Bakıdan, Gəncədən, Lənkərandan, Naxçıvandan gələn qadınlardandır, - dedi. Bu sözü həzm etmək mənim üçün ağır oldu. Yemək süfrəsi arxasından qalxıb bayırda bir qədər rahat nəfəs almaq istəsəm də burada rastlaşdığım mənzərə daha təsirli oldu. Bardur daşlar üzərində oturub, "O olmasın, bu olsun" filmindəki tək qul bazarında iş axtaran kişilər də bu məmləkətin sakinləri idilər... Onda əxlaqi-mənəvi dəyərlərimizin bu dərəcədə tapdanmasından böyük narahatçılıq hissi keçirtdim, belə də zülmət olarmış deyə düşündüm.

Əlbəttə, bir vaxtlar əxlaqi dəyərlərimiz nəinki hər gün, hər saat belə tapdanırdı, əxlaqsızlıq da adi bir hala çevrilmişdi, bəzi dairələr isə bu iyrənc və çirkin oyundan qazanc mənbəyi kimi istifadə edirdilər. Heç şübhəsiz ki, həmin iyrənc oyunların təməli də müstəqilliyimizin ilk illərində qoyulmuşdu. O vaxtlar ki, ölkədə hökm sürən xaos, anarxiya və hakimiyyətsizlik ab-havası məmləkətimizdə cinayətkar ünsürlərin də fəallaşmasına səbəb olmuşdu. Bir tikə çörək də əhalinin aztəminatlı təbəqəsi üçün ərşəyə dönmüşdü. Bu mühitdə öz bədənləri ilə alver etmək istəyən qadınlarımız yaz yağışından sonra artan göbələklər tək çoxalmışdı. Naxçıvan isə bu sahədə neşə deyərlər, bir növ "tranzit yola" çevrilmişdi. Məhz həmin illərdə Naxçıvanın ayrı-ayrı bölgələrində, aeroport ətrafında, xüsusən də Naxçıvan-Sədərək magistral yolu üzərində adını otel qoyaraq, əslində isə əxlaqsızlıq yuvasına çevrilən neçə-neçə "imarətlər" tikilmişdi. Onların da "qonaq-qaraları" adətən uzaq ünvanlardan bura "pənah gətirən" xanım və kişilər idi... Təbii ki, bu hal bölgədə yeniyetmə və gənclərin düzgün tərbiyəsinə də öz təsirini göstərirdi.

Amma nə yaxşı ki, inkişafımızın sonrakı illərində yerli hakimiyyət orqanları tərəfindən bu sahədə də təcili və təsirli mübarizə tədbirləri aparıldı. İlk əvvəl həmin otel-binalar sökülərək alt-üst edildi, onların "gecə qondu" üzvləri bölgədən uzaqlaşdırıldılar. Sonralar isə evlərdə, mənzillərdə əxlaqsızlıqla məşğul olmaq istəyənlərə qarşı sərt cəza tədbirləri tətbiq olundu. Şətəsi burada işləməyən bir çox adamlar da bölgədən baş götürüb gedəsi oldular. Son nəticə isə qədim diyarın hər bir vətəndaşının ürəyincə oldu. Çünki ilk növbədə hər birimizin qürur mənbəyi olan milli mənəvi dəyərlərimiz qorundu. Bir də ki, kim istəməz ki, sakit və rahat həyatda yaşasın, iyrənc və ət tökən hərəkət və əməllərdən uzaq olsun...

* * *

Onu da qeyd edək ki, bu cür tədbirləri iqtisadi blokada şəraitində yaşayan bölgədə həyata keçirmək də asan olmayıb. İlk növbədə ona görə ki, region üç xarici dövlətlə həmsərhəddir, onun ikisi –Türkiyə və İranla bu diyar arasında sadələşdirilmiş gömrük-keçid qaydaları fəaliyyət göstərir. Hər gün də məmləkətimizin ayrı-ayrı bölgələrindən Bakl-Naxçıvan, Gəncə-Naxçıvan təyyarə reysləri ilə buraya gəlib maşın və avtobuslarla xarici ölkələrə yola düşən digər bölgələrin sakinləri, eləcə də onlar arasında əxlaqsız qadınlar da az olmur. Üstəlik də xarici ölkələrdən turist xətti ilə Naxçıvana gələnlər də getdikcə artır.

Muxtar Respublikanın səlahiyyət sahiblərindən biri ötən ilin ortalarında mənə-bu sətirlərin müəllifinə belə bir əhvalat danışmışdı ki, Türkiyədə bəzi dairələr İstanbuldan Naxçıvana hava reysi açmaq istəyiblər. Bunun üçün təklif olunan qiymətlər də xeyli ucuz olub: təxminən hər bilet üçün 80-85 dollar.

Amma muxtar respublika rəhbərliyi isə bu ucuz təkliflə razılaşmaq istəməyib. Düşünülüb ki, bu halda Naxçıvan torpağı daha çox "ayaq altda" qalacaq. Bu təklifə münasibət belə olub ki, İstanbuldan Bakıya, yaxud da Tbilisiyə təyyarə biletlərinin dəyəri necədirsə, Naxçıvanın hava məkanı üçün də ona uyğun qiymətlər tətbiq olunsun. Bu halda da məsələ yarımçıq, müzakirəsiz qalıb...

Təbii ki, bütün hallarda Naxçıvanda milli-mənəvi dəyərlərin ön planda saxlanılmasına böyük ehtiyac olub. Yerli hakimiyyət orqanları da öz fəaliyyətlərində bu amilə üstünlük verirlər. Bu isə bəzən istər ölkəmizdə, istərsə da xaricdə fəaliyyət göstərən bəzibqüvvələri razı salmır.

... Bəzən də deyirlər ki, Naxçıvan ərazicə kiçik torpaq olsa da, bura müəyyən mənada qəliz və mürəkkəb bir bölgədir. Hər adamın da bu psixologiyadan baş çıxarması mümkün deyil. Əslində bu sovet dönəmindən qalma bir misaldır. O vaxtlarbelə deyilib ki, burada hərki-hərkiliklər, özbaşınalıqlar da çox olub. Hətta belə bir misal da çəkirlər ki, sovet dönəmində muxtar respublikaya rəhbərlik edən birinci şəxslərdən biri burada hansısa bir naziri, imkanlı adamı öz işindən tərpətmək istəyəndə həmin məmurun müdafiəçisi hətta Moskvadan, Kremldən tapılıb. Sov. İKP MK-nın katiblərindən biri də bu işə qarışıb.

Nə yaxşı ki, dövran və zaman dəyişib. Son on ildən artıq bir müddətdə muxtar respublikanın dövlət idarəçiliyi sahəsində də vahid bir mexanizm yaradılıb. Diyar da məmləkətimiz üçün strateji əhəmiyyətli bir bölgəyə çevrilib. Dövlət idarəçiliyinin bir əldə möhkəm cəmlənməsi, bu sahədə əl üstündə əl yeri qalmaması öz bəhrəsini verib. İdarəçikik sahəsində uzaq ünvanlara atılan "qarmaqlar" da artıq boşa çıxıb, həyat öz axarı ilə davam edib. İstər məmur, istərsə də digər imkanlı təbəqə də ictimai qayda-qanunlar qarşısında özünü bərabər tutur. İpə-sapa yatmayan adamlara da artıq bu meydanda yer qalmayıb. Bu səbəbdən də regionda ən böyük sərvətimiz olan milli-mənəvi dəyərlərimiz yad təsirlərdən lazımınca qorunur və yaşadılır. Muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında qazanılan indiki uğurların təməlində də məhz bu amil önəmli rol oynayır. Bölgənin kriminogen həyatında tam sakitliyin yaranması da bunu göstərir.

* * *

Türk yazılı abidələrində millətin, dövlətin mövcudluğunu təmin edən üç əsas şərt göstərilir. Bunlar xalqın varlığının, ana dilinin, milli ənənələrin qorunub saxlanmasıdır. Xalqımızın ümümmilli lideri Heydər Əliyevin müdrikliyi sayəsində ötən əsrin 70-80-ci illərindən qorunub saxlanılan hər üç şərtincanlı və əyani mümunəsini Naxçıvan Muxtar Respublikasənən timsalında aydın görmək olar.

**"Mədəni maarif" jurnalı,**
**№ 4, 2010-cu il**

## Naxçıvanda Novruz adət-ənənələri
### Xalq yaradıcılığı günləri bayram tədbirlərinə yeni rəng gətirib

**"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır "**

**Heydər ƏLİYEV**

Tədqiqatçı alimlərin fikrincə, xalqmızın milli və müqəddəs bayramlarından biri olan Novruz bir neçə min il bundan əvvəl yaranıb. Bəzi mənbələrdə bu bayramın izləri atəşpərəstlikdən də əvvəla gedib çıxır. Qobustan və Gəmiqayada adlı böyük yaşayış məskənində aşkar olunan qayaüstü rəsmlər əcdadlarımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyası olmaqla tariximizin beş-altı min il bundan əvvəlki varlığından soraq verir.

Milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişaf etdirilməsində böyük və əvəzsiz xidmətləri olan ümümmilli lideri Heydər Əliyev də çıxışlarının birində bu amilə toxunaraq deyib: “Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır”. Heç bir tarixi hadisə, yaxud şəxsiyyətin adı, onun fəaliyyəti ilə bağlı olmayan Novruz təbiətin, kainatın qanunları ilə idarə olunan bir bayram olub.

Ulu öndər onu da bildirirdi ki, "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır ". O, xalqımıza məxsus yaradıcı düşüncənin məhsulu olub.

Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyunca Novruz bayramını əziz tutub. Ölkəmizdə hər ilin martında qeyd edilən Novruz baharın gəlişi, gündüz ilə gecənin bərabərləşməsi təbiətin canlanması, torpağın oyanması ilə bağlı olan bir bayram olub. Təbiətin yenidən canlanmasını müjdələyən Novruz sadəcə şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanlarımızın

ürəyində özünə yer eləmiş, həyatına daxil olmuş, işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusunu yaşatmışdır. Xalqımızın formalaşmasında, inkişafında və milli özünüdərkində böyük rol oynayan Novruz bayramı həm də milli varlığımıza hopan bir el şənliyidir.

Bəşər sivilzasiyasının ilkin yaşayış məskənlərindən biri sayılan Naxçıvanda da bu bayram qədim zamanlardan qeyd olunur. Novruz şənliklərində qədim adət-ənənələrə, etiqadlara ciddi əməl olunur. Baharın gəlişi ilə icra olunan çoxlu xalq oyunları, meydan tamaşaları, adətlər indi də yaşadılır. "Kosa-kosa", "Qodu-qodu", "Qəzmədaş", "Siçan-pişik", "Dizədöymə", "Gizlənpaç", "Gözbağlayıcı", "Bənövşə-bəndə düşə", "Topaldıqaç", "Qayışagirmə" və sair oyunları buna missal göstərmək olar. .

Bu bayramın rəmzlərindən biri səmənidir. Bayram ərəfəsində elə bir ev, təsərrüfat tapmaq olmaz ki, orada səməni göyərdilməsin.

**Səməni saxla məni,**
**Hər il cücərdərəm səni**

Səməni ilə bağlı maraqlı bir adət isə səməni bişirməkdir. Ancaq asan olmadığı üçün onu hər adam onu bişirə bilmir. Ordubad şəhər sakini 68 yaşlı Şərqiyyə xala deyir ki, səməni bişirmək üçün zoğ atmış buğdanın suyu bir neçə dəfə sıxılır və unla qarışdırılır.

Şərqiyyə xala onu da bildirir ki, səmənin bişirilməsi çox zəhmət tələb edir. Səkkiz saat ərzində ocaq üzərində olan səməni dayanmadan qarışdırılmalıdır. Buna görə də səməni bişirilərkən bir neçə adamın köməyinə ehtiyac duyulur. Bişirilən səməni isə qohum-qonşulara paylanılır. O xeyir-bərəkət rəmzi hesab olunur.

Səməni halvası bişirmək də geniş yayılmışdı. Bu adət indi də muxtar respublikanın bir sıra kəndlərdə, xüsusən Ordubad rayonunda yaşamaqdadır. Sarımtıl rəngdə olan səməni cücərtiləri maşından keçirilir, şirəsinə un əlavə edilib xəmir yoğrulur. Xəmir yağlanmış mis tavaya qoyulur, yanmasın deyə zəif alov üzərində arabir çevirməklə dörd saat ərzində bişirilir. Hər dəfə xəmiri çevirəndə altına azacıq yağ tökülür. Axırda külçəyə xırdalanmış qoz ləpəsi, ədviyyat (cirə, darçın, istiot, razyana və bəhməz) vurulub möhkəm qarışdırılır. Hazır halvadan iri şirniyyatlar formasında paylar düzəldilir.

Novruzda bişirilən şirniyyatlar içərisində Ordubad paxlavasının, şəkərburasının, öz yeri və dadı-tamı var. El arasında sucuq kimi tanınan şirniyyat növü bağlar diyarlnda daha gözəl bişirilir. Içərisinə qoz, yaxud badam ləpəsi qoyulan bu şirniyyatlara indi Azərbaycanın müxtəlif yerlərində rast gəlmək olar.

Ordubadda yaşanan Novruz adətlərindən biri də "Xan bəzəmə"dir. "Xan bəzəmə" mərasimi hər il Novruz bayramı günü keçirilir. Üç gün dalbadal "Xan" bəzəyirlər. Bir nəfəri "Xan" seçirlər. Onu əməlli-başlı "Əsl" xan kimi geyindirirlər. Başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib "Xan"ı oturdurlar. Iki nəfər balaca uşaq "Xan"ı yelpiklə yelləyir. Kim istəyir könüllü ona nökər, qulluqçu olur. Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər. Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. "Xan" əmr verir. Hamı çalıb-oynayır. Hərə öz qabiliyyətini nümayiş etdirir. Burada "Təlxək"lər də olur. Onlar "Xan"ı güldürməyə çalışırlar. "Xan" isə gərək gülməsin. Əgər gülsə, onu suya basırlar, təzə "Xan" seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər "Xan" üç gün vəzifəsinin öhmuxtar respublikanmın bir çox bölgələrində "Ilaxır" və ya "Yeddi ləvin" adı altında bayram edilir. "Ilaxır" ilin axırı, "Yeddi ləvin" isə "Yeddi növ", "Yeddi cür" deməkdir. Buna "Löyün" də deyirlər. Bu bayramda bazardan hər nə alınsa yeddi növ alınmalıdır. Son çərşənbə günü nişanlı qızlara pay aparmaq adəti də diqqəti cəlb edir. Həmin gün xonçalar bəzənər, qoz, fındıq, püstə, kişmiş, mövüc, şabalıd, cürbəcür meyvələr, hədiyyələr, boyanmış yumurtalar tabaqlara yığılıb nişanlı qızlara aparılar. Çox zaman qırmızı lent bağlanmış səmənilər də apararlar. Bu da həmin evə xeyir-bərəkət, ruzi gətirsin deyə mənalandırılır.

Novruz axşamının səhəri günü ağsaqqalları, ağbirçəkləri görmək adəti uzun illərdir yaşamaqdadır. Muxtar respublikanın bir çox kəndlərində bu adət-ənənə son çərşənbəsi günü olur. Səhər tezdən qız-gəlinlər axar su üstünə, bulaq başına gedər, evə su gətirərlər, həmin suyu həyət-bacaya səpərlər. Sonra yaşca balaca olanlar bir alma ilə də olsa qonşuları, ağbirçəkləri yad edər, onların bayramını təbrik edərlər.

Çərşənbə günü hər evdə çoxlu yumurta boyayarlar. Həmin yumurtaları bayramçalıq kimi qonşu uşaqlarına verərlər. Həmin gün plov bişirmək də bir çox yerlərdə dəbdədir. Plovun "üz-gözünü" isə hər yerdə bir cür hazırlayarlar. Kimisi əti göy-göyərti ilə bişirib plovun yanına qoyar, kimisi də ətin yanına qovrulmuş, bişirilmiş ərik, almaxara, xurma, şabalıd və sair qoyar.

Çərşənbə günü Naxçıvan şəhərində, digər yaşayış məskənlərində gün batanda tonqal qalamaq, od yandırmaq adəti var. Həyətlərdə kol-kosları yığıb yandırarlar. Sonra o tonqalın üstündən tullanıb deyərlər:

**Ağırlığım, uğurluğum**
**Bu tonqala tökülsün**

Ordubadın dağ kəndlərində isə bu ənənə xüsusi təmtəraqla keçirilir. Kəndin cavanları əvvəlcədən hazırlıq işləri görər, lazım olan yanacaqları dağın zirvəsinə qaldırarlar. Gün batana yaxın tonqallar alovlanar, qonşu kəndlərin uşaqları da öz tonqallarını çatarlar. Bütün dağların zirvələrində ulu Dədə Qorqudun söylədiyi kimi, bayram, şənlik tonqalları el bayramından soraq verər.

Bir sıra kəndlərdə isə çərşənbə axşamı Xıdır bayramında olduğu kimi, qapılardan şal və papaq atmaq adəti indi də yaşayır. Uşaqlar, yeniyetmələr axşam qonşuların və yaxın adamların evlərinə şal, papaq atarlar. Ev sahibləri həmin yaylıqlara, papaqlara pay qoyarlar. Bayram şirniyyatı qoz, fındıq, şabalıd, alma və sair olar.

Çərşənbə günü qapı pusmalar da olur. Ona görə də gərək çərşənbə axşamlarında, Novruz günündə ağızdan pis söz çıxmaya. Qonşular ürəklərində niyyət tutub, qapılardan qulaq asarlar. Eşitdikləri ilk söz xeyirli söz olarsa demək arzusu həyata keçəcək.

Bayram günləri həyət-bacaları təmizləmək, bayrama bir neçə gün qalmış evin yorğan-döşəyini, pal-paltarını bayıra töküb təmizləmək adəti xalqımızın təmizliklə bağlı inanclarındandır. Xalqda belə bir inam var ki, Novruzda il təzələndiyi kimi, hər şey təzələnməli, təmiz olmalıdır. Elə buna görə də bayram ərəfəsində hər bir uşağa təzə paltar alınır, uşaqlar bir dəsmalla, köynəklə, corabla olsa belə sevindirilir. Gənc qızlar çərşənbə axşamı qonşu evlərə gələr, əllərində bəzən iki stəkan, fincan gətirərlər. Ancaq danışmazlar, ev sahibi onun niyyət tutduğunu bilib, o qabların birinə su tökər. Ondan sonra həmin qız danışar, niyyətinin baş tutub-tutmayacağını söylər.

"Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Ali Məclis Sədrinin imzaladığı 7 fevral 2009-cu il tarixli sərəncam isə Novruza yeni rəng gətirib. Həmin sərəncama əsasən də üç ildir ki, Novruz bayramı günlərində muxtar respublika ərazisində xalq yaradıçılığı günləri keçirilir. Baharın gəlişi ilə ən böyük bayram təntənəsi Naxçıvan şəhərinin "Əcəmi seyrəngahı" Mədəniyyət və Istirahət Kompleksinin ərazisində muxtar respublikanın bütün bölgələrinin iştirakı ilə keşirilən el şənliyi olur. On minlərlə adamın izlədiyi həmin mərasimdə xalq sənətkarlarının əl işləri, Azərbaycan xalqının tarixi dövrlərini özündə əks etdirən müxtəlif əşyalar, muzey eksponatları, milli mətbəx nümunələri nümayiş etdirilir, xalq oyunlarını və musiqisini, yallıları, xalq rəqslərini, süjetli rəqsləri, toy adətlərini, aşıq musiqisini repertuarına daxil edən folklor kollektivləri tərəfindən çıxışlar olur. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları hamıda xoş ovqat yaradır.

Tarixi-mədəni və bədii irsimizin daşıyıcısı olan xalq yaradıcılığı nümunələri doğma tariximizin doğru-dürüst öyrənilməsində əhəmiyyətli rol oynayır. Çünki bu sənət nümunələri əsrlər boyu formalaşaraq və inkişaf edərək bu günümüzədək gəlib çatıb. Bu sahə ilə məşğul olan tədqiqatçı alimlərin, mütəxəssislərin yekun rəyləri ondan ibarət olub ki, Naxçıvan torpağında yayılan el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, inkişaf dövrünü əhatə edir. Qədim sivilzasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza məxsus milli xüsusiyyətləri və xarekteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirir. Ötən bayram tədbirlərində xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, boyaqçılıq, papaqçılıq, dülgərlik, toxuculuq, xalçaçılıq sahələrini özündə əks etdirən sənət əsərləri şənlik iştirakçılarının böyük marağına səbəb olmuşdur.

Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar burada xalq yaradıcılının mühüm qolu olan el sənətinin bir neçə min illik tarixə malik olduğunu sübuta yetirir. Yəni insanlar bu torpaqda yaşadıqca, məskunlaşdıqca gündəlik həyat tərzlərində bu sənət nümünələri ilə də məşğul olublar. Arxeoloqların fkrincə, qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə insanlara neolit, metalişləmə isə enolit dövründən məlum olub. Sonrakı mərhələdə dulus çarxlarında gil qabların hazırlanması və xüsusi kürələrdə bişirilməsi də geniş yayılıb.

Xalqımızın qədim tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümünələri də bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Ötən il bayram tədbirlərində müxtəlif növ plov, küftə, dolma, çölmək yeməkləri, kükü, tərəh, qəysəva, ləvəngi və digər milli yemək və şərbət növləri "Milli Mətbəximiz" adlı guşədə nümayiş etdirilmişdir. "Baqqal dükanı", "Milli papaq" guşələrində isə tamaşaçılar milli geyim və milli mətbəx nümunələri ilə ətraflı tanış ola biliblər.

Ölkəmizdə şifahi xalq yaradıcılığının yaranma tarixi də ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə əlaqələndirilir. Xalqımızın həyatında da elə bir əhəmiyyətli hadisə yoxdur ki, o şifahi xalq yaradıcılığında, aşıq poeziyasında, xalq musiqisində bu və ya digər şəkildə əksini tapmasın. Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar xalq mahnı və rəqslərinin sistemli şəkildə təbliği, unudulmuş mahnı rəqslərin bərpa olunması, onların aşkar edilib nota köçürülməsi,həmin nümunələrin folklor rəqs qruplarının repertuarlarına daxil edilməsi və qədim xalq çalğı alətlərində ifalarının nümayiş etdirilməsi diqqət mərkəzində saxlanılmış, 50-yə yaxın yallı, aşıq

havaları, Naxçıvanla bağlı xalq mahnı və rəqsləri toplanaraq nota köçürülmüşdür.

Son illər Novruz qabağı iməcliklərin keçirilməsi də artıq bir ənənəyə çevrilib. Həmin gün muxtar respublika sakinləri təmizlik işləri ilə yanaşı ağcəkmə kampaniyasına da qoşulurlar. Həmin gün start götürən bu kampaniya hər həftənin şənbə və bazar günlərini əhatə etməklə payızın ortalarınadək davam etdirilir. Təkcə ötən il muxtar respublika ərazisində 522,5 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 585 mindən çox ağac və bəzək kolu əkilmişdir.

**P. S:** Hər dəfə Novruz bayramı, ilin axır çərşənbəsi gələndə nədənsə yadıma doğma kəndimiz, ata-baba ocağımız düşür. Çatılan tonqallar üzərindən atılmaq, qəbirstanlıqda yaxın adamların məzarları üstündə şam yandırmaq, həyət-bacalarda təmizlik işləri aparmaq, axşamın qaranlığında evlərə şal salmaq, niyyət tutub qapılarda dayanmaq, yaxın və doğma adamlastra pay-sövqat göndərməklə onları sevindirmək və sair ənənələr bu gün də yaşadılır. Evlərdə səməni süfrələri açılır, plov yeməkləri yanında, qırmızıya boyanan yumurtalar, şirniyyat məhsulları da diqqəti cəlb edir.. Başlıcası isə həmin gün adamların əhval-ruhiyyəsi də yüksək olur.

**"Azərbaycan"**
**19 mart 2011-ci il**

## Naxçıvan öz yaşıllıqları ilə öyünəcək...

**"İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ayağa durur, zənginləşir, təzələnir, təmizlənir..."**

**Heydər ƏLİYEV**

Gəlin etiraf edək: evlərimizin, iş otaqlarımızın, bağlarımızın, eləcə də həyət-bacalarımızın gözəlliyi, yaraşığı çox vaxt onun yaşıllıq aləmi-gül-çiçəyi, yaşıl libaslı örtükləri- tingləri, ağacları ilə ölçülüb. Hansı şəhərdə, kənddə, yaxud da bağda, həyətdə növbənöv güllər, tinglər, ağaclar görmüşüksə, yaxşı mənada həsəd də aparmışıq. Xüsusən də onlar səliqə ilə əkiləndə və düzgün aqrotexniki qaydada becəriləndə...

Yaşıllıq göz işığı, gümrahlıq mənbəyi olduğundan gündəlik həyatımızda əhval-ruhiyyəmizin yüksək olması da əsasən bu amildən asılı olub. Təbiətin bu canlı varlıqlarından zövq almağı bacarmaqla yanaşı, bir qədər yorğun və əsəbi olduqda isə yaşıllıqlar, gülzarlıqlar arasında gəzməyi ən yaxşı istirahət hesab etmişik. Yaşıllıq sağlamlıq, gümrahlıq rəmzi olmaqla bərabər insan yaşayışının başlıca rəhnidir. İnsan övladı da onun üçün lazım olan təmiz havanı, oksigeni də məhz bu mənbədən alır. Ağciyərlərimizin normal və sağlam fəaliyyəti də bu amildən asılıdır. Axı, bir ağacın ətrafa ötürdüyü oksigenlə eyni vaxtda neçə-neçə adam qidalanır. Deyilənə görə, bir çinar ağacının "istehsal etdiyi" oksigen 58 adama bəhs edir. Bir hektar meşə, yaşıllıq zolağı isə il ərzində 50-70 ton tozu, zəhəri öz "süzgəçindən" keçirir. Təbii bitki ehtiyatı içərisində meşələr ərazidə su balansının nizamlanmasında, külək qırıcı, atmosferin oksigen və fitonsidlərlə zənginləşdirərək üzvi maddələrin hazırlanmasında, böyük əksəriyyət heyvanların qida və sığınacağı rolunun tənzimlənməsində də əhəmiyyətli rol oynayır. Təbii ki, iri şəhərlərin, bölgələrin yaşıl örtüyə, zolaqlara ehtiyacları daha çoxdur. Ona görə yox ki, o yerlərin avtomobil yollarında hərəkət sıxdır, iri sənaye mərkəzləri, ocaqxana və qazanxanalar da atmosferə müəyyən miqdarda zəhərlər ötürürlər. Başlıcası, bu şəhərlərdə adambaşına düşən bitki aləmi də müqayisədə azlıq təşkil edir.

* * *

Naxçıvan Muxtar Respublikasının ərazisi zəngin floraya və rəngarəng bitki örtüyünə malikdir. Mütəxəssislərin fikrincə, onun əsas təbii sərvətlərindən biriu də flora müxtəlifliyidir. Floristik tərkibinə görə, ərazinin bitki örtüyü ölkəmizin 23 botaniki-coğrafi rayonları arasında birinci yeri tutur. AMEA-nın müxbir üzvi, biologiya elmləri doktoru, professor Tariyel Talıbovun sözlərinə görə, bölgə ərazisi flora müxtəlifliyinin zənginliyinə görə Azərbaycan florasının 62,4 faizini təşkil edir. Amma bununla yanaşı burada meşə ehtiyatları olduqca azlıq təşkil edir. Şahbuz rayonu ərazisində Biçənək kəndi ətrafında yerləşən və 2550 hektardan artıq sahəni əhatə meşə sahəsi istisna olmaqla burada böyük ormanlar demək olar ki, yoxdur. Culfa rayonun sərhəd yaşayış məskəni olan Ərəfsə kəndi yaxınlığındakı Xəzinədərə, Ordubad rayonun Xurs və Nəsirvaz kəndləri ətraflarındakı Tillək, Xəlil, Cəmil, Əznəməri meşələri isə birlikdə heç 500 hektar sahəni də əhatə etmirlər. İynəyarpaqlı meşə zolaqları isə daha azlıq təşkil edir. Araz palıdı, Qafqaz dağdağanı, Şərq çinarı, Kox şamı kimi nadir ağac növlərinin qorunması zəruri ehtiyaca çevrilib.

Təbii meşə örtüyünün azlığı, kasadlığı ilk növbədə regionda təbii şəraitin, geoloji və geomorfoloji quruluşun son dərəcə mürəkkəb olması ilə əlaqədardır. Bitki örtüyünün formalaşmasında fiziki amillərdən başqa, antropoloji təsirlər də müəyyən rol oynayıb. Muxtar respublikada iqlimin quraqlığı və kontinentallığı ilə əlaqədar bitki örtüyü və onun şaquli və üfüqi zonalığı məmləkətimizin digər bölgələrindən kəskin fərqlənir. Kontinental iqlim şəraitində hər növdə bitki, ağac becərmək də müşkül məsələdir. Xüsusən də yayın qızmar, qışın sərt şaxtalı günlərində. Bu səbəbdən də sovet hakimiyyətinin "mənəm-mənəm" dediyi illərdə də regionda yaşılllıq onun ərazisinin təxminən 1 faiz həcmində olub. Son 15 il ərzində keçirilən yaşıllıq aylıqları çərçivəsində salınan yeni meşə massivləri, meyvə bağları və yaşıllıq zolaqlarıhesabına muxtar respublikanın ümumi ərazisinin 8 faizə qədərini yaşıllıqlar təşkil edir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində isə ölkədə, dünyada hökm sürən ictimai-siyasi proseslər düçar olduğumuz ekoloji durumu daha da ağırlaşdırıb. Muxtar Respublikanın Ermənistan tərəfindən iqtisadi blokadaya alınması nəticəsində regiona nəql olunan təbii qazın kəsilməsi, elektrik enerjisi verilişinin dayandırılması, digər enerji daşıyıcılarının çatışmaması ucbatından soyuq qış aylarında ağacların kütləvi şəkildə kəsilməsi baş verib. Xalqımızın ümummilli lideri Heydər Əliyev

o illərdə yaşanılan bu çətinliklər barədə sonralar belə deyirdi:"Gecə saat ikiyə, üçə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi. İnsanlar həqiqətən donurdular".

Bölgədə iqtisadi vəziyyətin ağır və gərgin olmasına baxmayaraq ümümmilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən təbiətə dəyən ziyanın arasdan qaldırılması üçün ardıcıl tədbirlər planı da müəyyənləşdirmiş, 1993-cü il aprel ayının 2-də qəbul etdiyi qərarla hər ilin yaz mövsümündə yaşıllaşdırma aylığının keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdür. Dahi rəhbər məmləkətimizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ətraf mühit problemləri yenidən gündəmə gətirilmiş, bu istiqamətdə mühüm işlər həyata keçirilmişdir. "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" da aparılan siyasətin məntiqi davamı olub.

1996-cı ildən etibarən isə muxtar respublikada ümümmilli liderimizin müəyyənləşdirdiyi quruculuq xəttinə, eləcə də hər ilin baharında yaşıllaşdırma aylığının keçirilməsi barədə qəbul etdiyi qərara ardıcıl əməl olunur. Bu sırada Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun hər ilin yaz və payız aylarında abadlıq, təmizlik və yaşıllaşdırma aylığının keçirilməsi barədə imzaladığı sərəncamı da qeyd etməyə dəyər. Nəticədə yaşıllaşdırma tədbirlərinin əhatə dairəsi getdikcə çoxalıb. Muxtar respublikada inkişaf və tərəqqi ili elan olunan ötən il ərzində isə 486 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib. Halbuki 2007-ci ildə cəmi 293 hektar sahədə əkin işləri aparılmışdır. Ötən ilin yaz və payız əkin mövsümlərində 400 mindən artıq ağac tingləri və gül kolları əkilib. Bunlar heç də adi rəqəmlər olmayıb. Nəzərə alsdaq ki, muxtar respublika əhalisinin də sayı təxminən bu qədərdir, onda bu o demək olub ki, yaşıllaşdırma aylığında hər vətəndaş bir ağac əkib.

Bununla bərabər muxtar respublika ərazisində, o cümlədən şəhər, qəsəbə və kəndlərdə, magistral yol kənarlarında, sututarların, su kanalların ətrafında əkiləcək ərazilərin sxemləri hazırlanmış, torpaq və iqlim xüsusiyyətlərinə uyğun olaraq ağac və ting növləri seçilərək əkin sahələrinin dislokasiya planı işlənilib. Ərazinin suvarılmasında istifadə olunacaq su mənbələri, suvarma şəbəkəsi də planda öz əksini tapıb.

* * *

Təbii ki, Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirlərində, şəhər və kəndlərin sosial simalarının dəyişdirilməsdində, onların gözəlliklərinin artırılmasında yeni yaradılan yaşıllıq sahələri önəmli rol oynayır. Xüsusən də ilin bütün fəsillərində baharı xatırladan həmişəyaşıl ağaclar baxımından. Diqqəti cəlb edən məqamlardan birisi də budur ki, yeni yaşıllıq zolaqları təkcə Naxçıvan şəhərində salınmayıb. Ali Məclis Sədrinin çağırışı ilə hər həftənin şənbə və bazar günləri keçirilən iməciliklər, yaşıllaşdırma tədbirləri rayon və kəndlərimizi də öz ağuşuna alıb. Adamlar bu tədbirlərdə iştirak etməyi də bir növ özlərinin vətəndaşlıq borcları kimi yanaşırlar.

Ötən il Naxşıvan şəhəri və şəhərətrafı ərazilərdə 51 hektar sahədə meşəsalma və meşəbərpa işləri görülübsə, Şərur, Babək və Şahbuz rayonlarında həyata keçirilən tədbirlər bundan çox olub. Aparılan tədbirlər sayəsində müxtəlif dərəcədə şoranlaşmış, erroziyaya uğramış yüz hektarlarla torpaq sahəsi isə əkin dövriyyəsinə qaytarılıb. Arpaçay, Naxçıvançay, Əlincəçay vadiləri boyu sahələrdə, səhralaşmaya meylli Pircuvar düzü və Culfa rayonu ərazilərində yol kənarlarında, su kanalları və sututarlar ətrafı sahələrində qoruyucu meşə zolaqları salınıb.

Muxtar respublikada yaşıllıq zolaqları təkcə sututar ərazilərdə əkilmir. Elə olsaydı, nə dərd idi, onları becərmək də çətin olmazdı. Təpə döşlərinə, yamaclara terraslar şəklində əkilərək hasilə gətirilən bağlar da az deyil. Naxçıvan şəhərində Xalça muzeyinin aşağı hissəsində, "Xatirə" muzeyi ətrafında, mikrorayon yolunun hər iki istiqamətində salınan yaşıllıq zolaqlarını buna misal göstərmək olar. Naxçıvan-Şərur magistral yolunun Duzdağ massivi istiqamətində salınan böyük bağ da yoldan ötənləri heyrətə gətirir.

Yeni yaşıllıq zolaqlarının salınmasında bir çox xarici ölkələrdə qazanılan təcrübədən də uğurla istifadə olunur. Onlardan biri də damcı üsulu ilə suvarma sisteminin tətbiq olunmasıdır. Deyilənə görə, bu üsuldan ilk dəfə İsraildə istifadə olunub. Mexaniki üsulla istifadə olunan bu üsulda başlıca məqsəd su itkisinin qarşısını almaqdan və ondan qənaətlə istifadə etməkdən ibarətdir. Ona görə də ondan əsasən suvarma suyu çatışmayan ərazilərdə istifadə olunur. Yeni suvarma metodunun ekoloji və iqtisadi səmərəliliyi nəzərə alınaraq ötən il ərzində 100 hektar sahədə bu cür suvarma sistemləri quraşdırılıb.

Duzdağ Fizioterapiya Mərkəzi ətrafında salınan 50 hektarlıq yaşıllıq zolağı da qadir insan əməyinin bu gün hansı gücə malik olduğunun bir daha əyani göstəricisinə çevrilib. Çünki min illər boyu susuzluqdan ilan mələyən və daşlı-kəsəkli sahələr hesab olunan bu ərazilərdə bağ salmaq, ağac becərmək həqiqətən də müşkül iş sayılırdı.

Adı müqəddəs dini kitabımız olan "Qurani-Kərim"də çəkilən Əshabi-kəhf ziyarətgahı ətrafında salınan 30 hektar bağ da bu sahədə həyata keçirilən mühüm tədbirlərdən biri olub. Ötən il həmin ərazidə, təpələr üzərində relyefə uyğun olaraq yaşıllıq zolaqları salınıb. Əkilən ağaclar da damcı üsulu ilə becərilir. Əkilən ağaclar arasında isə soyuğa və susuzluğa davamlı olan ağac növlərinə üstünlük verilir.

Yaxın həmkarlarımdan biri söhbət əsnasında mənə belə bir əhvalat da danışdı ki, beş-altı il bundan əvvəl Naxçıvan şəhərində, rayon mərkəzlərində yeni salınan bağlara, parklara xeyli sayda Eldar şamı adlı həmişəyaşıl ağac növləri əkilmişdi. İlk illər bu ağaclar bir qədər mülayim keçən iqlim şəraitinə uyğun olaraq sürətlə inkişaf edib. Amma növbəti qış mövsümü sərt və şaxtalı keçdiyindən həmin ağaclar da məhv olur. Sonralar isə həmişəyaşıl ağacları ardıc və tyualar əvəzlədi. Bu da lazımi səmərəni verir.

Yeni yaşıllıq zolaqlarının salınmasında meyvə ağaclarına üstünlük verilməsi də səbəbsiz olmayıb. Sanki bu yerdə ata-babalarımızın belə müdrik öyüdünə əməl edilib: "əkiblər yemişik, əkərlər yeyərik". Çünki bu cür ağaclar regiona, onun ayrı-ayrı guşələrinə gözəllik bəxş etməklə yanaşı, iqtisadi baxımdan da xeyli faydalıdır. Muxtar respublikanın ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov bunu bölgədə həm də aqrar-sənaye kompleksinin inkişafı məqsədi ilə həyata keçirildiyini bildirir. Deyir ki, sahibkarlığın inkişaf xətti ilə yerlərdə yeni və müasir tipli emal müəssisələri yaradılırsa, onda xammala olan tələbatın ödənilməsi üçün meyvəçiliyin inkişafına da diqqət yetirilməlidir.

Bu tədbirlər ölkəmizdə "ekologiya ili" elan olunan 2010-cu ildə daha intensiv xarakter almış, yaz və payız əkini mövsümlərində muxtar respublikada 522 hektardan çox ərazidə meşəbərpa və meşəsalma işləri həyata keçirilmiş, 585 mindən çox ağac və bəzək kolları əkilmişdir.

Artıq bu mövsüm Kəngərli rayonun Qabıllı kəndi yaxınlığında becərilən meyvə bağlarından on tonlarla məhsul götürüləcək. Üst-üstə götürdükdə isə son dörd il ərzində burada 100 hektardan artıq meyvə bağı salınıb. Şərurun Püsyan kəndi yaxınlığındakı 50 hektar meyvə bağından da nübar məhsullar dəriləcək. Babək rayonu ərazisində Quşçuluq massivində salınan meyvə bağları da göz oxşayır. Ordubadda Dəstə gölü ətrafında salınan ərik bağı da öz görünüşü ilə diqqəti çəkir. Təbii ki, Naxçıvanın susuz, daşlı torpaqlarında bağ salmaq , onu hasilə gətirmək asan olduğu qədər də çətindir. Asanlığı onunla bağlıdır ki, bölgədə bağsalma xalqımıza məxsus gözəl ənənələrdən biri hesab olunur. Yerli hakimiyyət orqanları da bu işi öz fəaliyyətlərində üstün istiqamətlərdən birinə çeviriblər. Çətinliyi isə odur ki, əkdiyin, becərdiyin

hər bir tingin, kolun nazını çəkməlisən, ona xüsusi qayğı və diqqət göstərməlisən. Torpağın "dili"ni bilib onu becərməyi bacarmalısan. Əks halda itirdiklərin də çox olur. Bu günlərdə muxtar respublika parlamentində keçirilən müşavirədə də Ali Məclisin Sədri Vasif Talıbov məsələyə bu prizmadan yanaşaraq "ağac əkmə kampaniyası yox, ağac yetişdirmə kampaniyası aparılmalıdır"-deyib. Deyilən iradlardan, verilən tapşırıqlardan birisi də ondan ibarət olub ki, ağac əkinində rayonların təbii şəraiti nəzərə alınmalı, yerli mühitə uyğun tinglər əkilməlidir. Bu sahədə isə muxtar respublikanın ekologiya və təbii sərvətlər nazirliyinə ciddi tapşırıqlar verilib.

Ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov deyir ki, cari ildə bu sahədə həyata keçiriləcək tədbirlərdə başlıca məqsəd torpaqların münbitliyinin artırılmasına, onların keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilib. Bunun üçün yaz və payız mövsümlərində 289 hektar sahədə meşəsalma və 148,8 hektar sahədə isə meşəbərpa işləri həyata keçiriləcəkdir. Bu məqsədlə də 350 min ədəd müxtəlif cinsli meşə və meyvə tingləri yetişdirilib. Onlar da əkin dövriyyəsinə daxil ediləcəklər. Daha çox meyvə bağları Şərur və Şahbuz rayonlarında salınacaqdır. Hər bir rayonda daha 50 hektar sahədə meyvə tingləri əkiləcək. Naxçıvan şəhərində meşəsalma tədbirlərinin həcmi isə 25 hektara yaxın olacaqdır. Nuh peyğəmbərin məzarüstü türbəsinin ətrafında, Köhnə Qala deyilən ərazidə salınacaq 2 hektar bağ da şəhərin gözəllik ünvanlarından birinə çevriləcəkdir.

Muxtar respublikanın ekologiya və təbii sərvətlər nazirliyindən aldığımız məlumata görə, cari ilin yaz mövsümündə 223 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilib. 120 hektardan artıq sahədə yeni meyvə bağları salınıb. Sahələrə 192 min ədəd meyvə, meşə və bəzək tingləri əkilib. Torpağa əkilən ağaclara qulluq işi də yaxşı təşkil olunub.

Belə bir amili də xüsusi vurğulayaq ki, ərazisi əsasən dağlıq və dağətəyi zonadan ibarət olan muxtar respublikada iməciliklər təkcə hər ilin yaz və payız aylarında keçirilmir. Yayın qorabişirən günlərində də bu tədbirləri davam etdirməyə xüsusi ehtiyac duyulur. Ən əvvəl ona görə ki, isti havalarda torpağa əkilən tingləri də susuzluqdan qorumaq çətin olar. Nəinki həm bu tingləri qorumaq, həm də onları inkişaf etdirmək baxımından bu iməciliklərə-kollektiv və birgə işə böyük ehtiyac olur. Bu zaman onlar alaq otlarından təmizlənərək dibləri yumşaldılır, sonra isə suvarma işləri aparılır. Aqrotexniki qulluq nəticəsində ağaclar da normal inkişaf edir.

Mənim-bu sətirlərin müəllifinin fikrincə, hər həftənin şənbə və bazar günləri keçirilən iməciliklərin bir faydası da ondan ibarət olur ki,

bu cür tədbirlər əhali arasında həm də yaxşı səmimiyyət vasitəsinə çevrilirlər. Gərgin iş həftəsindən sonra kollektivcəsinə keçirilən bu tədbirlərdə rastlaşdığım əhval-ruhiyyə də bu cür düşünməyimə əsas verir. Ən başlıcası isə, bu cür tədbirlər adamların düşüncə və təfəkkürlərində də müsbət dəyişikliklər yaradır. Başlıcası isə adamlar təbiətin qayğısına qalmağı özlərinin vətəndaşlıq borcları hesab edirlər.

* * *

Təbiətin mühafizəsi, onun zənginləşdirilməsi həmişə qlobal xarekter daşımaqla beynəlxalq əhəmiyyət kəsb edir. "Təbiəti insandan insan üçün mühafizə edin" şüarı bəşəriyyəti hər zaman ciddi düşündürüb. Bu istiqamətdə ana vətənimizin ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirləri də yüksək dəyərləndirmək olar. Konkret nəticə də göz qabağındadır: əgər 2000-ci ildə yaşıllıq sahələri muxtar respublika ərazisinin cəmi 0,6 faizini təşkil edirdisə, ötən il bu rəqəm 8 faizə çatıb. Bu müddətdə adambaşına düşən yaşıllığın həcmi isə 0,012 hektardan 0,025 hektara yüksəlib. Halbuki, ölkə ərazisində adam başına 0,14 hektar meşə örtüyü düşür. Mütəxəssislərin fikrincə, kəskin kontinental iqlim şəraitinə malik bölgə üçün indiki rəqəmlər də nəticə deyil. Yerli hakimiyyət orqanları isə bitki örtüyünün daha da artırılması üçün öz səylərini əsirgəmirlər. Hər il orta hesabla 400-450 hektar sahədə yeni yaşıllıq zolaqları salınırsa, mövcud bitki aləmi qorunub saxlanılırsa, bu da öyünüləsi işlərdən biridir.

Unutmayaq ki, bitkilər aləmi ekosistemdə bir çox xüsusiyyətlərinə, ilk növbədə qida zəncirinin başlanğıcı olduqlarına görə mühüm əhəmiyyət kəsb edirlər. Bundan əlavə təbiətin bu canlı varlığından istirahət guşələri ilə yanaşı ondan elmi və xalq təbabətində bir çox məqsədlər, tikinti materialları və enerji daşıyıcıları kimi də istifadə edirlər. Bu səbəbdən hər bir ölkənin, regionun sosial-iqtisadi inkişafında bu sərvətdən düzgün və səmərəli istifadə, onların mühafizəsi üzərində nəzarət, nadir növlərin müəyyən edilərək qorunub saxlanılması da dövlət siyasətinin mühüm tərkib hissələrindən birinə çevrilib.

**"Azərbaycan",**
**17 aprel 2010-cu il**

# ALTINCI BÖLMƏ

## İqtisadi blokadanın çətinlikləri

**Jurnalistin qeydləri**

# Naxçıvan: iqtisadi blokadanın ağrılı söhbəti

*Axşam şam yeməyindən sonra hərbi xidmətdən yenicə qayıdan oğlum mənə dedi: – Ata, mən də sizinlə birgə toya getmək istəyirəm. Axı, gör nə vaxtdır ki, oradakı yaxın qohumlarımızı görmürəm. Tələbə dostlarım üçün də darıxmışam.*

– Yaxşı, desəm də daxilən keçirdiyim narahatçılıqlar az olmadı. Bu da son vaxtlar Bakı-Naxçıvan və əks istiqamətlərdə həyata keçirilən uçuşlarda aviabilet qiymətlərinin böyük həcmdə artması ilə bağlı idi. Adi bir hesablamadan sonra duydum ki, üç nəfərin paytaxt şəhərinə gedib-gəlişi üçün 500 manata yaxın pul xərcləməliyəm.

* * *

Ertəsi gün isə avtomobil nəqliyyatındakı sərnişindaşınma xidmətindən istifadə etmək istədim. Düşündüm ki, bu sahədə qiymətlər həm sərfəlidir, həm də sərnişinlərin rahatlığı üçün yeni nəqliyyat vasitələri-avtobuslar alınıb. Yerli avtovağzallar da müasir standartlar əsasında inşa olunub. Bilet sifarişi üçün avtovağzaldakı kassaya müraciətim də məyusedici oldu. Sən demə, Naxçıvan-Bakı istiqamətində işləyən 3 avtobusa biletlər dörd-beş gün ondan əvvəl satılıb qurtarıb. Son vaxtlar sərnişinlərin xeyli hissəsi də bu nəqliyyat növündən istifadə etməyə maraqlıdır.

Nə etməli sualı qarşısında qaldıqda, yaxın dostlarımın birinin məsləhəti karıma çatdı. Bu dəfə taksi sürücülərinin birisi ilə əlaqə saxladım. O isə Bakı-Naxçıvan istiqamətində yol xərci üçün məndən yüz manat pul istədi. Çox deyildi. Yaxşı bilirdim ki, həmin pulun 35-40 manatı İran tərəfindəki ilk gömrükxanada avtomaşının sığorta haqqına və yol fonduna rüsum şəklində ödəniləcək.

Məsələ heç də avtomobil nəqliyyatında mövcud tarif qiymətlərinin qənaətbəxş olmasında deyil. Təki xidmətin səviyyəsi yüksək olsun, sərnişinlər mənzil başına rahat və təhlükəsiz çata bilsinlər. Amma bu yollarda çəkilən əzab-əziyyət də olduqca çoxdur. Başlayaq "xarici

pasport" dediyimiz şəxsiyyəti təsdiq edən sənəddən. Sərhəd-keçid məntəqəsinin xidmətindən istifadə etməli olan hər bir vətəndaşın bu sənədi olmalıdır. Tutalım pasport var. Bəs viza? Viza xidməti muxtar respublika sakinləri üçün pulsuz başa gəlsə də, saatlarla vaxt itirilir. Hər gün səhər açılandan axşam düşənə qədər İran İslam respublikasının Naxçıvandakı Baş Konsulluğunun qarşısında uzun növbələr yaranır. Gün ərzində 300-350 nəfəri yola salmaq da asan iş olmur... Yaxşı, vizanı da alıb oturursan Bakı istiqamətində reysə çıxan kamfortlu avtobusa, yaxud minik maşınına. Amma elə bilməyin ki, bununla narahatlıqlar qurtarır. Xeyr, əksinə, bir çox çətinliklər məhz bundan sonra başlanır. Əvvəla gün ərzində, oturaq halda təxminən 600-650 km məsafədə yol qət etmək hər adamın işi deyil. Xüsusən də qonşu ölkədə Nənəmvay deyilən ərazidə. Bu istiqamətdə yolun xeyli hissəsi uca dağ ətəklərindən, keçidlərindən ötür. Araz çayı boyunca, Xudafərin istiqamətində uzanan ensiz, darısqal asfalt yol da sürücülərdən böyük məharət tələb edir. Üstəlik, Arazın o tayındakı işğal olunmuş sərhəd kəndlərimizin indiki mənzərəsi. Dam örtükləri, qapı və pəncərələri dağıdılmış, həyət-bacalarındakı ağacları qurumuş, həyat nişanəsi olmayan bu kəndlər daha çox xarabalıqları xatırladır. İndi gəl, buna mənən döz görüm, necə dözürsən...

Bu kədərli hisslərdən bir də sərhəd-keçid məntəqəsinə çatanda ayılırsan və başlayırsan gözləməyə. Çünki gömrük yoxlamaları az vaxt aparmır. Biləsuvar gömrükxanasındakı qısa iş rejimi isə əlavə problem yaradır.

İranın Culfa gömrüyündən nahar vədəsi yola düşən avtomaşının həmin gün növbəti gömrükxananın xidmətindən istifadə edə biləcəyi bir qədər sual altında qalır. Bu halda sürücülər avtomaşınları yüksək sürətlə idarə edirlər ki, bu da hər an qəza təhlükəsi yaradır. 300 kilometrlik yolu dörd-beş saata ötmək də asan iş deyil. Yolda törənən qəza hadisələri də çox olur. İş vaxtının sonunadək Biləsuvar sərhəd-keçid məntəqəsinə çata bilməyənlər isə həmin gecəni İran ərazisindəki otellərdə, yaxud da maşınlarda keçirirlər.

Təsəvvür edək ki, biz sağ-salamat həmin gün sərhədi keçib yetişirik Biləsuvara. Biləsuvardan isə Bakıya 200 kilometrlik yoldur. Bu yolu axşamın alatoranlığında dəf etməliyik. Bunu da edirik və Bakıya çatanda saata baxırıq. Naxçıvandan çıxdığımız 11-12 saatdır. 1-2 saat artıq da ola bilər. İndi gəl, yorulma, üzülmə... Digər tərəfdən də qadağa qoyulduğundan vətəndaşlar bir çox məhsulları, əşyaları özləri ilə bərabər İran ərazisi vasitəsi ilə apara bilmirlər. Bu da müəyyən mənada narazılıq yaradır. Naxçıvan MR Dövlət Gömrük Komitəsindən aldığımız

məlumata görə, gün ərzində 400-450 nəfər bu cür xidmətdən istifadə edir.

Onu da qeyd edək ki, sovet dönəmində Naxçıvanı ölkəmizin digər bölgələri ilə birləşdirən əsas kommunikasiya xətti dəmiryol nəqliyyatı olub. Polad relslər burada da iqtisadiyyatın qan damarı adlanıb.Bakı-Şərur, Bakı-İrəvan istiqamətində sərnişin qatartlarının xidmətindən hər gün yüzlərlə sərnişin istifadə edib. O həm də ucuz və etibarlı nəqliyyat növü hesab olunub. Həmin illərdə muxtar respublikanın rayon və kəndlərində yetişdirilən onlarla adda və növdə meyvə, tərəvəz məhsulları da nəinki paytaxt şəhərimizin, eləcə də keçmiş ittifaqın mərkəzi və böyük şəhərlərindəki bazarları bəzəyib. Muxtar respublika bədxah və yaramaz qonşularımız olan erməni millətçiləri tərəfindən iqtisadi blokadanın ağrıları şəraitində yaşamağa məcbur olandan isə dəmiryol nəqliyyatında ağır vəziyyət yaranıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan aeroportunun yenidən qurulmasından sonra Bakı-Naxçıvan-Bakı istiqamətində aviareyslər sakinlər üçün həyat yoluna çevrilib.

2008-ci ilin yanvar ayınadək hər gün min nəfərə yaxın sərnişin Naxçıvan Beynəlxalq aeroportunun xidmətindən istifadə edib. Buradan Bakı, Gəncə, İstanbul və Moskva istiqamətində təyyarələr uçub. 2007-ci ilin sonundan Gəncə-Naxçıvan-Gəncə istiqməti üzrə hərəkət tamam dayanıb. Buna başlıca səbəb də aviabiletlərin qiymətinin birdən-birə 7 dəfəyədək artırılması olub. Bu halda bu aviareysdən istifadə edən sərnişinlər getdikcə azalıb, reysin mövcudluğu iqtisadi cəhətdən səmərəli sayılmayıb. Onun əzabını da bu reysdən istifadə etməli olan sərnişinlər dadıb. Bu səbəbdən də son illər Gəncəyə, ölkəmizin qərb bölgəsinə yolu düşənlər olmazın çətinliklərilə üzləşirlər. Kimisi şəxsi avtomaşını ilə Sədərək-Dilucu sərhəd keçid məntəqəsindən Türkiyəyə keçməklə Gürcüstan ərazisi vasitəsi ilə bu rayonlara gedib, kimisi də İran ərazisi vasitəsi ilə ölkəmizin digər bölgələrinə, oradan axtardığı ünvana üz tutub. Hər iki halda da əsəbilik, yorğunluqla yanaşı günlərlə vaxt itirilib. Halbuki Gəncə-Naxçıvan aviaxəttilə həmin məsafəni cəmi bir saata getmək mümkündür. Nə yaxşı ki, ötən ilin dekabr ayının axırlarında bu istiqamətdə təyyarə reysləri bərpa olundu.

2008-ci ilin may ayının 1-dən açılan Naxçıvan-İstanbul aviareysin ömrü də uzun olmayıb. Bir reysə 185 manat məbləğində qiymətin tətbiq edilməsi sərnişinləri qane etməyib. Bu halda avtomobil nəqliyyatındakı sərnişindaşıma üstün bilinib. İndi hər gün Naxçıvandan İstanbula 2-3 avtobus hərəkət edir.

Düzdür, Tarif Şurasının 2007-ci il 25 dekabr tarixli qərarı ilə ölkəmizin yerli hava xəttlərində tətbiq olunan tariflər 6-7 dəfə artırılıb. Buna səbəb də reyslərin zərərlə işləməsi göstərilib. Problemin aradan qaldırılması üçün Bakı-Naxçıvan-Bakı reysində bir istiqamət üzrə 95 manat təsdiq olunub. Bununla belə, həmin iclasda Naxçıvanın erməni qəsbkarlarının təcavüzü nəticəsində hələ də blokada şəraitində yaşadığı, hava nəqliyyatının bölgə ilə ölkəmizin digər əraziləri arasında əsas nəqqliyyat növü olduğu, ölkənin bu regionu ilə humanitar əlaqələrin təmin edilməsinin zəruriliyi nəzərə alınıb. Tarif Şurası muxtar respublikaya hava nəqliyyatı ilə sərnişindaşıma tariflərinə güzəştlərin tətbiqi ilə əlaqədar Nazirlər Kabinetinə müraciət edilib. Nazirlər Kabineti də dövlət büdcəsindən ayrılan dotasiya və "Azal"ın öz gəlirindən güzəşt hesabına bir istiqmət üzrə aviabiletlərin dəyərini 40 manat məbləğində aşağı salıb. Blokada şəraiti nəzərə alınaraq hər bir sərnişinə bir istiqamət üzrə 55 manat məbləğində güzəşt edilib. Əhalinin imtiyazlı təbəqəsi üçün 10 manat əlavə güzəşt tətbiq edilib. Dövlətin bu qayğısı da sakinlərin ürəyincə olub. Bu halda da gün ərzində 650-700 sərnişin aviareyslərdən istifadə edib.

Ötən ilin noyabr ayının 1-dən isə Bakı-Naxçıvan və Naxçıvan-Bakı aviareysində tətbiq olunan qiymət və güzəştlərə yenidən baxıldı və biletin qiyməti 40 manatdan 75 manata qaldırıldı. Birinci və ikinci qrup əlillər, 5-12 yaşlı uşaqlar, dövlət təhsil müəssisələrində əyani təhsil alan tələbələr üçün cəmi 10 manat güzəşt edilib. Ötən müddət ərzində də təyyarədən istifadə edən sərnişinlərin sayı üçqat azalıb. Aldığımız məlumata görə, gün ərzində bir tərəfə təxminən 200-250 nəfər uçur. Çox hallarda təyyarələrdə sərnişin oturacaqlarının yarısı boş qalır. Belə halda isə reyslərin rentabelli işləməsindən də danışmaq çətin olacaq. Halbuki AZAL bunu əsas götürərək Tarif Şurasına müraciət edib. Ancaq qorxuruq AZAL qaş düzəltdiyi yerdə vurub göz çıxara.

Son illər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni həyatında böyük dəyişikliklər baş verib. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər sayəsində bölgədə böyük infrastruktur layihələri həyata keçirilib. Naxçıvan şəhəri isə ölkəmizin mühüm ictimai, siyasi və mədəni mərkəzlərindən birinə çevrilib. Dövlət başçısı İlham Əliyev bölgəyə səfərləri çərçivəsində keçirdiyi görüşlərdə bunu dönə-dönə qeyd edib. Bununla bərabər, 20 ilə yaxındır ki, muxtar respublikanın blokadası davam edir! Əhali onun ağrı-acısını hələ də yaşayır! Bu ağrı-acının ən böyüyü isə nəqliyyat blokadasıdır. Belə şəraitdə regionun əsas həyat yolu sayılan hava nəqliyyatında qiymətlərin qaldırılması başa düşülmür!

İqtisadi blokada şəraitində yaşayan, ölkəmiz üçün strateji əhəmiyyəti olan Naxçıvan MR-i ölkənin digər bölgələrindən təcrid etməklə itirilənlər qazancdan qat-qat çox ola bilər!

Gərək "Azal" aviaşirkəti də sərnişinlərin daşınması üçün tətbiq olunan qiymət və güzəştlərlə bağlı məsələdə bu amili əsas tutardı. Yoxsa əks halda iqtisadi blokada şəraitində yaşayan, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən Naxçıvanı ölkəmizin digər bölgələrindən tədric etməklə itirdiklərimiz qazandıqlarımızı da üstələyər. Unutmayaq ki, məmləkətimizin heç bir yerində sakinlər xarici ölkə ərazilərindən gömrük qaydalarına əməl edə-edə digər bölgələrlə əlaqə yaratmırlar. Təbii ki, hava nəqliyyatında xidmət haqlarının dəyəri bir qədər sərfəli olsa əhalinin aztəminatlı təbəqəsinin üzləşdikləri çətinliklər də az olar. Bu halda ağır bir xəstəni paytaxt şəhərindəki tibb müəssisələrinə çatdırmaq, yaxud da bir meyiti Bakıdan bölgəyə gətirmək də hər ailənin imkan daxilində olan məsələ olmayacaq.

* * *

... Bakıda yaşayan ziyalı dostlarımdan birisi yarızarafat, yarıgerçək dedi:

– Bu günlər oğlumun toyu olacaq. Amma səni dəvət etməyə utanıram.

– Niyə, o nə sözdür?

– Gediş-gəlişin çətinliklərini, xərcini bilirəm. İstəmirəm ki, əziyyət verim!

– Yəqin ki, toyacan məsələni yoluna qoyarlar, – deyə mən də yarızarafat, yarıgerçək cavab verdim.

Amma mənim bu cavabım həm də bütün naxçıvanlıların arzusudur, zarafatsız, filansız!

**"525-ci qəzet",**
**12 yanvar 2010-cu il**

<u>Ziyalı sözü</u>

## Yalan və həqiqət

*Düzdür, tarixdə gor qonşularımız olan və dünyanın mənfur millləti hesab edilən ermənilərin türklər tərəfindən "soyqırıma" məruz qalması faktı gerçəkliklər və həqiqətlər müstəvisində həllini tapmayıb. Heç tapmayacaq da. Çünki olmayan bir şeyi, hadisəni necə doğru və düzgün kimi qəbul etmək olar.*

Amma bədxah və yaramaz qonşularımızın saxta "soyqırımı" siyasətinə məruz qalmalarını az qala dünyanın o biri başına çatdıra bilmələrini eşidəndə düzü ayaqlarım da yerində quruyur. Elə o an da nədənsə böyük türk sərkərdəsi Əmir Teymurun bu sözlərini xatırlayırsan: "Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcəklər".

Hər dəfə erməni vəhşiliklərindən, onların insanlığa sığmayan hərəkətlərindən söz düşəndə doğma yurdum olan Şərur torpağında baş verən hadisələri xatırlayıram.

Təkcə 1918-20-ci illərdə burada mövcud olan 56 kənddə törədilən qətliamlarda 428 nəfərin öldürüldüyü, minlərlə evin dağıdıldığı, 7 minə yaxın insanın aclıq və soyuqdan öldüyü tarixi mənbələrdə öz əksini tapıb. Yüz ildən artıq ömür sürmüş doğma nənəm deyərdi ki, ölənlər arasında onun doğma və yaxın adamları da az olmayıb. "Qaçaqaç" dövründə uşaqların bir qismi Araz çayını keçərkən boğulub. Yandırılan evlər, binalar sırasında kəndimizdəki məscid də olub. Naxçıvanın Nehrəm, Yaycı, Sirab və digər kəndlərində daşnaq erməni cəlladı Andronik tərəfindən törədilən vəhşilikləri isə təsəvvürə gətirmək olduqca çətindir. On mindən artıq adam məkrli erməni siyasətinin qurbanı olub.

Nədən bu misalı, əhvalatı xatırlatdım. Bir qədər dərinə, uzağa getsək onda aydın görərik ki, məmləkətimizin digər bölgələrində – Lənkəranda, Qazaxda, Zəngəzurda, Qubada, Şamaxıda, Bakıda soyqırımı hadisələri də yüz minlərlə ailəni əhatə edib. Hələ mən dövlət və şəxsi mülkə, əmlaka dəyən ziyanlar barədə söz açmıram. Tarixi qaynaqlar da sübut edib ki, qəddar və zülmkar qonşularımız tərəfindən 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə 2 milyon nəfərə yaxın azərbaycanlı

kütləvi surətdə qətlə yetirilmiş, yaxud öz vətəninə deportasiya olunmuşdur.

* * *

"Erməni türk qırğını" haqqında iki böyük tarixi əsərin müəllifi olan Tom Krikosyanın belə bir sözü var: "Erməni məsələsi Qərb dövlətləri (diplomatları) üçün bir qapıdır. Lazım gələndə açırlar, lazım olmayanda bağlayırlar". Artıq dünyanın nüfuzlu və təcrübəli siyasətçilərinə də məlumdur ki, "erməni siyasəti" ilə razılaşan, onu dəstəkləyən bəzi Qərb dövlətləri bəşəriyyəti dəhşətli siyasi oyuna – müsəlman-xristian ziddiyyətlərinə aparırlar. Bu məsələni təkcə xristian-müsəlman oyunu kimi səciyyələndirmək də düzgün olmaz, çünki birbaşa erməni-türk münaqişələrini dərinləşdirməklə türk dünyasını parçalamaq, dağıtmaq və onu dünyada gözdən salmaqla "məzlum erməni" obrazını formalaşdırmağa yönəldilib. "Erməni soyqırımı" məsələsi də bu sahədə onların tutarlı silahdır.

90 ildən artıqdır ki, ermənilər özlərinin saxta soyqırımı siyasətlərini təlqin edirlər. "Məqsədə gedən yolda hər vasitə gözəldir" prinsipi ilə çalışan qonşularımız niyyətlərinə çatmaq üçün dəridən-qabıqdan çıxırlar. Yeri düşdükcə dünyanın bir çox dövlətlərinin parlamentlərində "erməni soyqırımı"nın tanınması ilə bağlı təşəbbüslər göstərirlər. Müəyyən mənada da istəklərinə nail olurlar. Çünki böyük maliyyə imkanlarına malik olan erməni lobbisinin gücü dünyanın iri və aparıcı dövlətləri tərəfindən də dəstəklənir. Əgər Avropa Parlamenti kimi mötəbər bir qurumda Naxçıvanın Culfa rayonu ərazisində qədim erməni tarixi abidələrinin, qəbirlərinin dağıdılması ilə bağlı bədnam qətnamə qəbul olunursa, onda necə də ermənipərəst dövlətlərin parlamentlərində "erməni soyqırımı"nın tanınmasına şübhə ilə yanaşasan. Bunlar, əlbəttə, siyasətdə ikiüzlülüyün, problemə ikili standartlarla yanaşmanın və erməni təəssübkeşliyinin bariz nümunəsidir. 2007-ci ilin payızında ABŞ-ın ən məşhur ali təhsil ocağı olan Horvard Universitetində təşkil olunn sərgidə isə onlar Naxçıvanın tarixi abidələrinə "sahib çıxmağa" çalışdılar.

Sual oluna bilər: Ermənilər saxta "soyqırımı" siyasətinin qəbul olunmasının nəyinə aşiqdirlər, nə istəyirlər? Bax, bu "niyə"ni hamılıqla və lazımınca dərk etmirik. Buna biganə, laqeyd münasibət bəsləyən soydaşlarımız da çoxdur. Bəzən "Guya nə edəcəklər, bekara söhbətlərdir", – deyənlər də var. Təbii ki, onların əsl niyyəti "dənizdən-dənizə Ermənistan" yaratmaqdır. Bunun üçün qədim tarixə malik olan torpaqlarımıza hər vəchlə göz dikirlər. Guya onlar dünyanın qədim

xalqlarından biri olub, bu yerlərdə də ata-babaları yaşayıblar. Utanıb-qızarmadan arxeoloji qazintılar nəticəsində üzə çıxarılan, Kür-Araz mədəniyyətinə aid olan maddi-mədəniyyət nümunələrini də özününküləşdirməyə çalışırlar. Bu mənada onların qədim Naxçıvan torpağı haqqında iddiaları yüksəkdir. Yaxşı bilirlər ki, bu diyar bəşər sivilizasiyasının ilkin mədəniyyət beşiklərindən biri olub. Şərur rayonunun Tənənəm kəndi yaxınlığındakı "Qazma" mağarasında altmış-yetmiş min il bundan əvvəl, daş dövrünün insanları yaşayıblar. Əshabi-kəhf, Daşqala, Kilid mağaralarında, Batabat yaylağında, Əlincəçay vadisində, Haçadağın cənub ətəyində aşkar olunan tarixi abidələr də daş dövrü mədəniyyətini yaşatmaqdadır. Demək istəyirlər ki, o qədim insanlar da guya bunların əcdadları olub.

Naxçıvanın qədim tarixə və mədəniyyətə malik olmasını təkcə onun daş abidələri, arxeoloji qazıntıları ilə ölçülmür. O həm də folklor və rəqs nümunələri ilə zəngindir. Min illərin, əsrlərin daş süzgəçindən keçərək bu günümüzədək gəlib çatan folklor, rəqs nümunələri də uzaq keçmişdən soraq verir. Naxçıvanın memarlıq inciləri də tariximizin canlı varlığıdır. Amma nə olsun ki, onlar bu faktlardan da çəkinmək istəmirlər.

Ermənilər həm də bu qənaətdədirlər ki, dünya ölkələrinin əksər parlamentləri "erməni genosidini" tanısa, onda "əzabkeş, məzlum erməni milləti" obrazı yaradılacaq. Bu halda onlara əlavə təzminatlar, pul yardımları veriləcək, işğal etdikləri torpaqlar üçün də bir növ bağışlanılacaqlar. Elə buradaca Ovenesyan adlı erməni müəllifinin bir sayıqlamasını xatırlamaq yerinə düşər: "Biz soyqırım deməklə susmamalıyıq, durmamalıyıq, bunun nəticəsini istəməliyik".

Məkrli, xəyanətkar və iblis qonşularımızın əsrlər boyu xalqımıza qarşı qətliamlar törətməsinə baxmayaraq, ürəyi açıqlığımızdan, kin-küdrətdən uzaq olduğumuzdan həmişə onlara "gor qonşusuyuq" - deyə, gözümüz üstə yer etmişik. Müstəqillik dövrümüzdə düşüncə və təfəkkürümüzdə yaranan dəyişikliklərlə cəmiyyətə və dünyaya baxışlarımız da xeyli dəyişib. Milli özünüdərk prosesinin güclənməsi dünənimizə, keçmişimizə bağlılığımızı artırıb. Bu sahədə xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətlərini hər zaman qeyd etməliyik. Böyük öndər millətin oyanışı, dirçəlişi üçün bütün imkanlardan istifadə etməyə çalışıb. O, uzaqgörənliklə deyirdi: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da ..."

Bəs bizlər görülən işlərin, həyata keçirilən tədbirlərin müqabilində nə edirik? Yaxın tarixi keçmişimizdə çox ağrılar görmüşük. Təkcə ötən

yüzilliyin birinci yarısı ərzində – 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə başımıza açılan müsibətləri yaşada bilmişikmi? 1918-ci il martın 31-də soyqırıma məruz qalmağımızı, necə?! Əsrin sonlarında isə 20 Yanvar və Xocalı faciələri ilə üzləşdik. Onlar da qan yaddaşımıza dərin izlər saldı.

* * *

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə, soyqırımı siyasətinin daha qanlı bir səhifəsi oldu. 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə erməni silahlı birləşmələri Sovet ordusuna məxsus "366-cı alay"la birgə həyata keçirdikləri qətliam faşist cəlladlarının Buhenvald və Osvensim qurbanlarına verdikləri işgəncələrdən də ağır oldu. Amma çox təəsüf ki, bu faciə də zamanında soyqırımı aktı kimi açıqlanmadı, o dünya ictimaiyyətindən gizlədildi. O vaxtki hakimiyyət televiziya ekranlarında məsuliyyətsizcəsinə "Panika yaymayın, camaatı caşdılrmayın, Xocalıda cəmi 2 nəfər həlak olub" – dedi. Halbuki, həmin gecə cəmi 7 min nəfər sakini olan Xocalı şəhəri yerlə yeksan edildi. 613 nəfər dinc soydaşımız öldürüldü, onların 106 nəfəri qadın idi. 56 nəfər diri-diri yandırıldı, 112 nəfər itkin düşdü, 487 nəfər şikəst edildi, 1275 nəfər əsir düşərək zülmə, işgəncəyə məruz qaldı. Hər iki valideynini itirən uşaqlar da az olmadı.

Məhz həmin günlərdə Fransanın "Frans katolik ekklezla" jurnalında milliyyətcə erməni müxbir Saracyan narahatçılıqla yazırdı: "Xocalını gözlərimlə gördüm. Hər yerdən qan iyi gəlirdi. Qar üstündə qalaqlanmış cəsədlərdən qorxdum. Qorxdum ki, bu qan üçün Azərbaycan heç vaxt susmasın..."

Həmin hadisədən üç gün sonra, Naxçıvan hava limanının yenidənqurma tədbirlərindən sonra açılış mərasimində ümümmilli liderimiz Heydər Əliyev ilk dəfə olaraq Xocalı faciəsini böyük qətliam kimi qiymətləndirmiş, həmin tədbirdə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla qeyd edilmişdir. Dahi öndərin hakimiyyətə yenidən qayıdışından sonra bu faciə ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırımı aktı kimi öz siyasi qiymətini aldı, bu barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başladı. "Xocalıda həlak olanlar respublikamızın ərazi bütövlüyü yolunda qurban gediblər. Onlar xalqımızın apardığı mübarizənin qurbanları, şəhidləridir. Onların faciəli şəkildə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin,

rəşadətinin nümayişidir" – sözlərini, müdrik siyasətçimiz o günlərdə ürək ağrısı ilə deyirdi.

1994-cü ilin fevral ayının 24-də Azərbaycan Milli Məclisi Xocalı soyqırımını geniş müzakirə etdi. Milli Məclisin qərarı ilə hər il fevralın 26-sı "Xocalı soyqırımı günü" élan olundu.

Elə buradaca bir təsadüf nəticəsində tanış olduğum bir Xocalı sakini ilə olan söhbətimi xatırlayıram. O, Xocalı faciəsi törədilən gündən bir gün əvvəl Ağdam şəhərindəki qohumlarından birinə qonaq getmişdi. O gecənin dəhşətlərini də orada eşidib. İki oğlu, bir qızı var idi. Onlardan yalnız biri anası ilə qaçıb yaxasını qurtara bilmişdi. 12 yaşlı qızının meyidini öz çiyinləri üzərində arxaya çıxara bilib. 9 yaşlı oğlunu isə... Deyir ki, "meşənin lap ortasında tonqallar üzərində yanmış üç meyit gördüm. Əzalarının çox hissələri yanmışdı, qara külə dönmüşdülər. Biri 9-10 yaşda oğlan uşağının meyidinə oxşayırdı. Ürəyimə nə isə damdı. Barmaqılarım ilə onu qarış-qarış ölçməyə başladım. Dəhşətə gəldim. Oğlum Anar boyda idi..."

Qəhər onu danışmağa qoymadı. Bircə onu dedi ki, həmişə intiqam hissi ilə yaşayacaq. Əzizlərinin, övladlarının, soydaşlarının qanını yerdə qoymamaq üçün...

* * *

Qafqazda milli zəmində münaqişələrin başlanmasında, qızışdırılmasında erməni ziyalılarının, xüsusən də, yazıçı və alimlərinin böyük rolları olub. Biz bu iştirakı, rolu çox vədə "günah" sözü ilə də əvəzləmişik. Amma təbii ki, ermənilər, xüsusən də onların içərisində qatı millətçilik hissləri ilə yaşayanlar Zori Balayan, Nalbandyan, Ovenesyan, Aqanbekyan kimi alim və yazıçıları heç vaxt günahkar saymayıblar. Əksinə onları özlərinin bayraqdarları hesab ediblər.

Sovet dövlətinin başçısı olan M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, akademik Aqanbekyanın 1987-ci ilin oktyabrında Fransada "Humanite" qəzetində erməni xalqına olan müraciətində səslənən sözlər də daşnaq əhval-ruhiyyəsinin bariz ifadəsi olub: "Bizim düşmənimiz türklərdir, çalış həmişə onlarla bir yerdə ol və fürsət düşən kimi onlara əzab ver, torpaqlarına sahib çıx və orada məskunlaş".

"Mən Qarabağın ermənilərinki olduğunu eşitmək istərdim. Bir iqtisadçı kimi hesab edirəm ki, o Azərbaycana nisbətən Ermənistana daha yaxındır. Bu baxımdan mən bu barədə təklif də irəli sürmüşəm. Ümid edirəm ki, yenidənqurma və demokratiya şəraitində bu problem öz həllini tapacaq" – sözlərini də akademik Aqanbekyan mötəbər məclislərdə

söyləyib. Sonralar məlum olub ki, daşnaq aliminin bu təklifi əvvəlcədən SSRİ rəhbərliyi tərəfindən xeyir-duasını almışdı.

Ermənilərin üzdəniraq "azadlıq fədaisi" hesab olunan Nalbandyanın 1988-ci ildə erməni gəncliyinə ünvanlanan vəsiyyəti isə daha ağrılıdır: "Ey erməni, əgər sən küçədə zəhərli ilan görüb öldürməyibsən, eybi yoxdur, ilandır... Lakin türk görüb öldürməyibsənsə, satqınsan, vicdansızsan, xalqın düşmənisən, sən erməni deyilsən..."

Açığı, ermənilərin saxta soyqırımı siyasəti ilə bağlı dünyanın bütün guşələrində azğın və çirkin təbliğatı görəndə adamın nitqi də quruyur, bu qədər də həyasızlıq, abırsızlıq olarmı, – deyə düşünürük. Amma hərdən özümüzü də ciddi imtahan qarşısında hiss etməliyik.

* * *

Mətləbdən uzaqlaşmaq istəmirəm. Sözümün canı, qayəsi də odur ki, necə olur ki, ermənilər uydurduqları saxta soyqırımı siyasətini hər vasitə ilə gözə soxmağa çalışırlar, bizlər isə başımıza gətirilən müsibətləri unudur, qan yaddaşımıza çevirmir, intiqam hissi ilə yaşamırıq. Görəsən, ermənilərin 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi müsibətləri olsaydı, onlar bu faciələri bizlər tək yaşadardılarmı?

Ölkəmizdə milli dirçəliş, oyanma və milli özünüdərketmə hərəkatı başlananda ilk əvvəl gileylənmişik ki, soyqırıma məruz qalmağımız dövlət səviyyəsində lazımi qədər təsdiq olunmayıb. 1998-ci ilin martın 26-da ulu öndərimiz Heydər Əliyev tərəfindən "Azərbaycanlıların soyqırımı haqqında" imzalanan fərman bu istiqamətdə qarşımızda "yaşıl işıq" yandırıb. "Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər",– bu sözləri ümummilli liderimiz millətin oyanışı, özünü dərk etməsi üçün söyləyib. Onu da əlavə edib ki, "böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir". Çünki torpağı qorumağın yeganə yolu Vətən uğrunda şəhid olmağı bacaran mübariz, vətənpərvər övladlar yetişdirməkdir.

Prezident İlham Əliyev də bu məsələdə mövqe və baxışlarını hər dəfə cəsarətlə bəyan edir: "Azərbaycanın ərazi bütüvlüyü müzakirə məsələsi deyil, olmayıb və olmayacaqdır." Prezident onu da xüsusi

vurğulayıb ki, bizim mövqeyimiz tarixi həqiqətə əsaslanır. Qarabağ, o cümlədən Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, əsrlər boyu azərbaycanlılar orada yaşamış, yaratmışlar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişlər və ondan sonra orada əksəriyyəti təşkil eməklə o torpaqlara iddia etməyə başlamışlar.

* * *

Ötən əsrin böyük düha sahiblərindən olan Üzeyir Hacıbəyovun "Nərdivan" adlı felyetonu var. Böyük ustad başlıca bəlamız olan unutqanlığımız, biganəliyimiz və laqeydliyimizlə bağlı həmin əsərində ürək ağrısı ilə yazırdı: "Qonşularımız siçan boyda iş görməyə başlayanda biz yatmışdıq. O vaxt oyandıq ki, onlar fil boyda iş görməyə başladılar. Gözlərimizi ovxalayıb dedik ki, biz də o boyda iş görə bilərik. Başladıq filin bir ayağını qayırmağa yorulduq, durub qaçdıq. Utandıq və yenidən işə başladıq. Amma bu dəfə fildən balaca olan dəvə boyda iş görməyi qərara aldıq. Ona da gücümüz çatmadı. Başladıq dəvədən balaca olan camış, eşşək, keçi, pişik boyda iş görməyə...Məsləhəti qoyduq siçanın üstünə, bu vaxt aramızdan bir pişik çıxdı və siçanı yedi..."

Amma nə yaxşı ki, zaman və dövr dəyişib, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulan siyasət düşüncə və təfəkkürümüzdə böyük yeniliklər yaradıb. Prezident İlham Əliyev də ideoloji cəbhədə bütün istiqamətlər üzrə hücuma keçməyin vaxtının çatdığını bəyan edib. Dünyanın böyük güc sahibləri tərəfindən ikili standartların oynanılmasına baxmayaraq haqqın, ədalətin qalib gələcəyinə də inamımız artıb. Ölkəmizin regionda oynadığı bu günki rol da nikbin düşünməyə əsas verir. Artıq dünyanın iri dövlətləri də bizim haqq tələblərimiz ilə razılaşırlar.

**"Azərbaycan",**
**3 fevral 2010-cu il**

**Deməsək olmur...**

## Ürəyimdə yaşayan ağrı və şölələnən ümid

*Xudafərin körpüsünə çatanda iranlı sürücüyə - qardaş, mümkünsə maşını burada bir dəqiqəliyə saxla - deyə müraciət etdim. O maşını saxlayıb soruşdu:*

*- Ağa, burada neyləmək istəyirsən?*

Yarızarafat dedim ki, bu körpü vasitəsi ilə Arazın o tayına, öz doğma vətənimizə gedib-qayıtmaq istəyirəm. Sürücünün təəccübü və narahatçılığı bir qədər də artdı. Təəccüblə dedi:

- Elə şeymi olar? Bu mümkün deyil. Sərbazlar bizi möhkəm cəzalandırarlar.

* * *

...Xudafərin körpüləri ilə tanış olmaq mənim çoxdankı arzum idi. Əvvəla Naxçıvandakı bir çox abidələrlə eyni dövrdə tikilmişdi, digər tərəfdən də memarlıq biçimlərinə görə monumental görünən və incəliyi ilə diqqəti cəlb edən bu abidələr bir vaxtlar Yaxın və Orta Şərqin əzəmətli körpüləri sırasına daxil olub. Araz çayı sahilində Xudafərin dərəsi ən əlverişli keçid olduğundan bu obyektlər burada inşa olunub. Bir-birindən cəmi səkkiz yüz metr aralıda tikilən körpülərin inşa tarixi barədə də müxtəlif fikirlər səslənib. Deyilənə görə, onlar Böyük İpək yolunun fəaliyyətə başladığı dövrdə Azərbaycanı şimal və cənubdan gələn ölkələrarası yollarla əlaqələndirib. 15 aşırımlı, kərpicdən tikilən körpü VII əsrdə məmləkətimizi istila edən ərəblər tərəfindən yenidən qurulub, dəfələrlə bərpa və təmir işləri aparılıb. Bugünümüzə gəlib çatan körpü isə XII əsrə aid edilir.

Səthi yonulmuş daş lövhələri ilə üzlənən 11 aşırımlı körpü XIII əsrdə - Elxanilərin hakimiyyəti dövründə yenidən bərpa edilib. Ötən əsrin 30-cu illərinədək əsas keçid məntəqələrindən biri kimi fəaliyyət göstərib, az sonra sovet ordusu tərəfindən dağıdılıb, üç orta tağı indiyədək salamat qalıb. İndi yaddaşlarda "Sınıq körpü" tək yaşayır.

Onu da qeyd edək ki, bu körpülər təbii qayalar üzərində inşa olunduğundan, aşırımlar arasında məsafə də müxtəlifdir.

* * *

Naxçıvanın memarlıq inciləri sırasında özünə məxsus yer tutan Qarabağlar kəndindəki qoşa minarə də Elxanilərin hakimiyyəti dövründə inşa olunub. 16 metr hündürlükdə olan, sərdabə və yerüstü hissədən ibarət olan Qarabağlar türbəsinin tikintisində də qırmızı və firuzəyi kaşılı kərpiclərdən geniş istifadə olunub. Minarələri bir-birlərinə bağayan baştağın üzərində Elxani hökmdarı Hülaki xanın arvadı Quti xatunun adı yazıldığından, onun şərəfinə tikildiyi güman edilir. Deyilənə görə, Hülaki xan özü də bu şəhərdə yaşayıb. Orta əsrlər türk səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində Qarabağları meyvə bağları arasında yerləşən böyük şəhər kimi təsvir edib. Onun fikrincə, burada 50 min adam yaşayırdı, çoxlu məscid, minarə, karvansara mövcud olub.

Bərdə türbəsi kimi onun da XIII-XIV əsrlərdə tikildiyi ehtimal olunur. Bu türbələr arasında oxşarlıqlar çoxdur. Tikilən abidələr isə təbii ki, Elxanilər dövlətinin yadigarı, nişanəsi olmaqla onun gücünü, qüdrətini göstərir. Ulu öndər Heydər Əliyevin bir kəlamı ilə fikrimi tamamlamaq istəyirəm: "Bu abidələrin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması barədə qərar qəbul edə bilərdilərmi?"

* * *

...15 aşırımlı Xudafərin körpüsünü, Cəbrayıl rayonu ərazisindəki dağların, təpələrin döşünə sığınan və təxminən alliyə yaxın evi əhatə edən kəndin miskin və yoxsul görkəmini fotokameranın yaddaşına köçürmək istəyəndə yanımızda ağ rəngli bir maşın dayandı. Maşından düşən xüsusi geyim formasında olan şəxs bizdən soruşdu:

- Burada neyləyirsiniz?

Baxışları əlimdəki kiçik fotoaparata sataşanda amiranə şəkildə:

Maşınınıza oturub yolunuza davam edin, özünüzə problem yaratmayın, sərhəd boyunca şəkil çəkmək qadağandır.

Yol boyunca gördüyüm uçuq-sökük binalar yenidən gözlərim önündə canlandı. O evlər ki, heç birində qapı-pəncərələr, dam örtüyü

qalmayıb. Pula nə gedibsə hamısı sökülüb aparılıb. İşğalçı ordunun əsgərləri bu yolla da qazanc əldə edib qarınlarını otarmağa çalışıblar.

Araz çayı boyunca ürəkağrıdan daha bir neçə acı mənzərənin şahidi olduq. İri bir kənddə də evlərin görkəmi təxminən eyni halda idi. Həyət-bacalarda yaşıllıq əlaməti olan ağac, ting gözə dəymirdi, olanlar da qurumuşdu. Zəngilan rayonunun bir çox sərhəd yaşayış məntəqələrində isə od-alova bürünən sahələr az deyildi. Hiss olunurdu ki, məkrli düşmənlərimiz ilin soyuq günlərində otlaqları, yaşıllıqları məhv etməklə ekologiyamıza ciddi ziyan vurublar.

Sovet dönəmində ermənilərlə sərhəd xəttində yerləşən əsgər zastavası da neçə illərdir ki, xarabalığı xatırladır.

Neyləyək ki, hələ də müharibə şəraitindəyik, işğal altında olan torpaqlarımızda məkrli düşmən talançılıqla məşğul olur.

Mincivanda, xüsusən də Nüvədi yaşayış məntəqəsində gördüklərimiz də ürəkaçan deyildi. İqtisadi inkişafın zəifliyini, geriliyi buradakı rayon mərkəzlərinin timsalında da aydın sezmək olurdu. Ən acınacaqlısı isə dəmiryol xətlərində aparılan dağıdıcılıq tədbirləri idi. Polad relslər sökülərək maşınlara yüklənib daşınırdı. Deyilənə görə, onlar "metallom" adı ilə uzaq ölkələrə satılır.

* * *

...Bakıdan Naxçıvana avtomaşınla getməyin öz çətinlikləri olur. Əvvəla, gün ərzində, gərək oturaq halda təxminən 600-650 kilometr yol qət edəsən. Əsas çətinlik də qonşu ölkədə Nənəmvay deyilən ərazidədir. Bu istiqamətdə yolun xeyli hissəsi uca dağ ətəklərindən, keçidlərindən ibarətdir. Araz çayı boyunca, Xudafərin istiqamətində uzanan ensiz, darısqal asfalt yol sürücülərdən böyük məharət tələb edir. Üstəlik, işğal olunmuş sərhəd kəndlərimizin indiki mənzərəsi - dam örtükləri, qapı və pəncərələri dağıdılmış, həyət-bacalarındakı ağacları qurumuşdur. Həyat nişanəsi olmayan bu kəndlər daha çox xarabalıqları xatırladır.

Hər dəfə Xudafərin körpüsü, işğal olunan torpaqlarımız yadıma düşəndə tariximizin qüdrətli və öyünüləsi dövrlərindən birini təşkil edən Elxanilərin hakimiyyəti dövrünü xatırlayıram. İnşallah yenə də o gücün və qüdrətin sahibi olacağıq. Bunu məkrli düşmənlərimiz də yaxşı bilir. Bu səbəbdən də işğal olunan torpaqlarımızda qorxa-qorxa yaşayırlar. Bilirlər ki, bu torpaqların sahibi nə vaxtsa qayıdacaq.

**"Azərbaycan",**
**13 fevral 2011-ci il**

## Ömür kitabından sətirlər,

### yaxud müəllif haqqında bir neçə söz



***Məmməd Yarəli oğlu Məmmədov.*** *1962-ci ildə anadan olub. İxtisasca tarix müəllimi və hüquqşünasdır. Tarix üzrə fəlsəfə doktorudur.*

*Jurnalistika onun üçün həyatda ən ülvi arzu və istəklərdən biri olub. Səkkizinci sinifdə oxuyarkən ədəbiyyat dərsində "Mənin arzum" inşa müsabiqəsindəki bir bənd şeiri bu gün də xoş xatirələrlə xatırlayır:*

***Jurnalist olmaqçün inanın ki, mən***
***Keçərəm hər oddan, hər çətinlikdən***
***Əgər bu arzuma çata bilməsəm,***
***Küsərəm mən yalnız öz taleyimdən.***

*Mətbuata gəlişi ötən əsrin 90-cı ilinə düşüb. Şərur rayonun Çərçiboğan kənd orta məktəbində müəllimlikdən Azərbaycan KP MK-nın ictimai-siyasi mətbu orqanı olan "Sovet kəndi" qəzetinə xüsusi müxbir vəzifəsinə qəbul olunub. Sonralar "Həyat", "Bərəkət" qəzetlərində çalışıb.*

*1996-cı ilin yanvar ayından Azərbaycan Respublikası Milli Məclisinin orqanı olan "Azərbaycan" qəzetində əmək fəaliyyətini davam etdirir.*

*2000-ci ilin aprel ayından 2007-ci ilin fevral ayına qədər Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetinin baş redaktoru olub. 2007-ci ilin mart ayından "Azərbaycan" qəzetinin Naxçıvan Muxtar Respublikası üzrə xüsusi müxbiridir. AMEA-nın Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiridir.*

*Muxtar Respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir. İkinci və üçüncü çağırışlarda Naxçıvan MR Ali Məclisinin deputatı olub. 2010-cu ilin noyabr ayında üçüncü dəfə Ali Məclisin deputatı seçilib.*

*Ölkəmizdə "Naxçıvan MR-in əməkdar jurnalisti" (2005-ci il) və "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" (2010-cu il ) fəxri adlarına layiq görülən ilk qələm sahibidir. Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fərdi jurnalist yazıları müsabiqəsinin qalibi olub. Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi mükafatı laureatıdır.*

*Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, "Dialoq Avrasiya" beynəlxalq yaradıcılıq təşkilatının üzvidir. Türkiyənin Antalya, Tunceli, Van və Ərzurum, İranın Tehran və Təbriz şəhərlərndə keçirilən beynəlxalq toplantılarda iştirak edib. Tuncelidə türk jurnalistlərinin IX simpoziumunda "Azərbaycan mətbuatı: dünən və bu gün" mövzusunda məruzəsi ilə ölkəmizi təmsil edib. Azərbaycan yazıçılarının doqquzuncu qurultayının nümayəndəsi olub.*

*Müstəqillik dövrümüzdə Naxçıvanda ictimai-siyasi proseslər və region mətbuatının inkişaf tarixi ilə bağlı elmi tədqiqatlar aparır.*

*"Heydər ƏLİYEV çörəyi", "Siyasətdə Naxçıvan dərsləri", "Mənim qəzetli dünyam", "Şərqin qapısı Naxçıvan", "Naxçıvan-kiçik Azərbaycandır", "Ömrümün qırxıncı baharı" adlı, ictimai-siyasi, elmi-publisistik mövzularda kitabları nəşr olunub.*

*"Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər) monoqrafiyasının müəllifidir.*

*Siyasi mənsubiyyətinə görə bitəfdir, indiyədək heş bir siyasi partiyanın üzvi olmayıb. Özünü Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun yaradıcısı və rəhbəri olduğu müasir Naxçıvan dövlətçilik məktəbinin yetirməsi hesab edir.*

*Ailəlidir, iki övladı var.*

# Tarixi abidələri ilə öyünən diyar



Mömünəxatun mə'qbərəsi **(1186-cı il)**


Ashabi-kəhf ziyarətgahı


Memar Əcəmi meydanı



Zaviyyə məscidi (**XVIII əsr**)



Ordubadda Qeysəriyyə abidəsi (**XVII əsr**)



Nuh peyğəmbərin türbəsi **(2008-ci il)**



Naxçıvan Buzxanası **(XII-XIV əsrlər)**



Naxçıvan şəhərində Şərq hamamı **(XVIII əsr)**



Naxçıvan şəhərində Came məscidi **(XVIII əsr)**



Qarabağlar kəndində türbə və qoşa minarə **(XII-XIII əsrlər)**



Naxçıvan şəhərində Dədə Qorqud meydanı **(1999-cu il)**



Naxçıvan şəhərində Hüseyn Cavid məqbərəsi **(1996-cı il)**



Xan sarayı **(XVIII əsr)**




Heydər Əliyev muzeyi



Qədimliklə müasirliyin vəhdəti

## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz əvəzi, yaxud ömrümün yaddaqalan günləri....5

Redaktor sözü, yaxud dünyaya açılan "tənha ada"....12

**BİRİNCİ BÖLMƏ**

**Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü**

Tarixi-siyasi xronika....21

**İKİNCİ BÖLMƏ**

**Dövlət müstəqilliyinin bərpası istiqamətində Naxçıvanda qəbul olunan tarixi qərarlar**

1. Azadlıq və istiqlaliyyət uğrunda mübarizənin başlanğıcı....44
2. Milli istiqlal mücadiləsinin Naxçıvan mərhələsi....52
3. Böyük siyasətə qayıdışın başlanğıcı....62
4. Naxçıvandan başlanan milli dirçəliş prosesi....63
5. Müstəqillik amalına Heydər Əliyev sədaqəti....77
6. 20 Yanvar faciəsinə ilk dəfə Naxçıvan Ali Məclisində siyasi və hüquqi qiymət verilib....83
7. Milli birlik və həmrəylik günü....92
8. Bir milləti, iki dövləti birləşdirən körpü....98

9. Heydər Əliyev və Naxçıvanda Milli Ordu quruculuğu məsələləri....104
10. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə beynəlxalq əlaqələr ....................................................................................114

## ÜÇÜNCÜ BÖLMƏ

### Yeni və müasir Naxçıvan

1. Müstəqillik dövrümüzdə Naxçıvan ..................................................126
2. Müasir Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvanın yeri..............135
3. Naxçıvan daha da gözəlləşəcək və inkişaf edəcək.........................146
4. Heydər Əliyev və Naxçıvanda mətbuatın inkişaf tarixi....................155
5. Naxçıvanda mətbuatın qayğıkeşi və himayədarı.............................166
6. Yeni və müasir Naxçıvan: inkişafdan intibaha doğru.......................171
7. "Naxçıvan möcüzəsi": Bir ildə 669 müxtəlif təyinatlı obyekt..........184
8. Şərurun abad, gözəl və yaraşıqlı kəndləri.......................................191

## DÖRDÜNCÜ BÖLMƏ

### Qədim abidələr diyarı: Naxçıvan

1. Naxçıvanın memarlıq inciləri..........................................................198
2. Naxçıvanda Nuh peyğəmbərin məzarüstü türbəsi .........................207
3. "Azərbaycanın incisi" və qoruq şəhəri olan Ordubad .....................213
4. Naxçıvan buzxanası ........................................................................221
5. Qarabağların daş yaddaşı ...............................................................224
6. Xan Sarayı – yenidən qurulan və gözəlləşən abidə.........................227
7. Açıq səma altında muzey ................................................................231

## BEŞINCI BÖLMƏ

### Naxçıvan: mədəniyyəti, təbiəti və sərvətləri ilə


1. Şərur yallısı-Naxçıvanın tacı.........................................235
2. Alicənab insan, fədakar alim və ictimai xadim..............................244
3. "Təbii bulaqlar muzeyi" -Naxçıvan.......................................250
4. Naxçıvanda milli-mənəvi dəyərlərimiz: öz gözəllik və özəllikləri ilə.............................................................257
5. Naxçıvanda Novruz adət-ənənələri.........................................267
6. Naxçıvan öz yaşıllıqları ilə öyünəcək.......................................273


## ALTINCI BÖLMƏ

### İqtisadi blokadanın çətinlikləri


1. Naxçıvan: iqtisadi blokadanın ağrılı söhbəti...............................281
2. Yalan və həqiqət...........................................................286
3. Ürəyimdə yaşayan ağrı və şölələnən ümid.....................................293

***

Ömür kitabından sətirlər, yaxud müəllif haqqında bir neçə söz......296

**Məmməd Yarəli oğlu Məmmədov**

# Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı

Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)
Şirvannəşr, **24 (1519) 2011**
Naşir **Qəşəm İsabəyli**

Ünvan: Bakı-Az 1021, Badamdar şos. 77
Tel.: 492-92-27, 492-93-72, (050) 316-23-40

*Korrektor:* *Elmar Huseynov*
*Operatorlar:* *Yaqut Qarabəyova,* *Günel Mehdiyeva*
*Kompyuter operatoru:* *Ruhiyyə Quliyeva*
*Çapçı:* *Natiq Paşayev*

Bakı – 2011, 302 səh.
Tiraj: 450 ədəd
Format: 70/100. 32/1
F.ç.v. 20,35
Ş.ç.v. 18,75

Yığılmağa verilmiş: 16.03.2011
Çapa imzalanmış: 07.04.2011